www.kitabxana.net

Milli Virtual Elektron Kitabxana

“Çağdaş Azərbaycan poeziyası”: N 08 (53 - 2016)

Binnət Eloğlu

Elin dərdi, həsrəti

(Şeirlər və poemalar)

YYSQ - Milli Virtual-Elektron Kitabxananın e-nəşri

YYSQ – 2016

09.01.2016
Yeni Yazarlar və Sənətçilər Qurumu
www.yysq.org

www.kitabxana.net
www.kitabxana.net

Milli Virtual-Elektron Kitabxananın təqdimatında

Bu e-kitab Yeni Yazarlar və Sənətçilər Qurumunun **"Çağdaş Azərbaycan poeziyası"** ədəbi-kulturoloji layihəsi çərçivəsində təqdim edilir. Elektron kitab N 08 (52 - 2015)

Kulturoloji layihəni maliyyələşdirən qurum:

YYSQ - http://www.yysq.org

Binnət Eloğlu

Elin dərdi, həsrəti

(Şeirlər və poemalar)

Redaktə və bütün hüquqlar müəllifə məxsusdur.

Kitab YYSQ tərəfindən e-nəşrə hazırlanıb.

Virtual redaktoru və e-nəşrə hazırlayanı: Aydın Xan (Əbilov), yazar-kulturoloq

YYSQ - Milli Virtual-Elektron Kitabxananın e-nəşri

Bakı, YYSQ – 2016

www.kitabxana.net

DİQQƏT

Müəlliflik hüququ Azərbaycan Respublikasının qanunvericiliyinə və əlaqədar beynəlxalq sənədlərə uyğun qorunur. Müəllifin razılığı olmadan kitabın bütöv halda, yaxud hər hansı bir hissəsinin nəşri, eləcə də elektron informasiya daşıyıcılarında, İnternetdə yayımı yasaqdır. Bu qadağa kitabın elmi mənbə kimi istifadəsinə, araşdırma və tədqiqatlar üçün ədəbiyyat kimi göstərilməsin şamil olunmur.

www.kitabxana.net

BİNNƏT ELOĞLU

ELİN DƏRDİ, HƏSRƏTİ

(şeirlər və poemalar)

“Elm və təhsil”
Bakı – 2014

www.kitabxana.net

Redaktor və ön sözün müəllifi: **Vaqif Yusifli**
filologiya elmləri doktoru

Rəyçilər: **Seyfəddin Qəniyev**
filologiya elmləri doktoru

Elxan Məmmədli
AMEA Folklor İnstitutunun şöbə müdiri,
Əməkdar mədəniyyət işçisi

Binnət Eloğlu. Elin dərdi, həsrəti.
Bakı, "Elm və təhsil", 2014, 396 səh.

Binnət Eloğlu (Binnət Dilən oğlu) 1940 - cı il iyunun 1 də Tovuzun Düz - Cırdaxan kəndində müəllim ailəsində anadan olub. 1956-cı ildə 7 illik məktəbi əla qiymətlərlə bitirib 1956-1959-cu illər koxozda çoban, biçinçi dəmir yolunda fəhlə işləyib. 1959-1962-ci illər hərbi xidmətdə olub. 1962-ci ildə Bakıda xarrat rəssam işləyə-işləyə gecə məktəbini bitirib. 1974-cü ildə M.F.Axundov adına Pedaqoji İnstitutu bitirib. İnstitutda gündüz oxuyarkən axşamlar 6 saylı əmək – islah koloniyasında xarratlıqdan dərs keçib. 1974-cü ildən 1911-ci ilədək radiozavodda mülkü – müdafiə rəisi, orta məktəbdə müəllim işləyib. 15 yaşından şeirin bütün formalarında lirik və satirik şeirlər və poemalar yazır.

4702000000
*N*098 – 2014 **qrifli nəşr**

© «Elm və təhsil», 2014

www.kitabxana.net

Binnət Eloğlunun şeir dünyası

Tovuz Azərbaycanın sazlı – sözlü sənət ocaqlarından biridir. O, təkcə gözəl təbiəti, bərəkətli torpaqları ilə deyil, həm də yetirdiyi görkəmli sənətkarları ilə fəxr edə bilər. Bu torpaqda təkcə gözəl nemətlər yetişmir, bu torpağın bağrından aşıq Hüseyn Bozalqanlının, Mikayıl Azaflının saz möcüzələri fəvvarə vurur. Ozan – Aşıq mədəniyyətinin ən qədim ocaqlarından biridir – Tovuz. Ünlü şairlərimiz – Məstan Günər, Məmməd İsmayıl, Zirəddin Qafarlı Tovuzun Azərbaycana bəxş etdiyi qüdrətli qələm sahibləridir. Ədəbi – elmi fəaliyyətləri ilə daim diqqət mərkəzində olan Qəzənfər Paşayev, Məhərrəm Qasımlı Tovuzun yetirmələridir. Tovuz torpağı – Tovuz eli hələ bundan sonra da neçə belə istedadlı sənətçilər yetirəcəkdir.

Bu yaxınlarda Binnət Eloğlu adlı yaşlı bir şairlə tanış oldum. Şeir və poemaları olan 400 səhifədən artıq bir əlyazmasını mənə verdi. "Kitabımı hazırlayıram, xahiş edirəm, rəyinizi bildirin, əgər şeirlərim xoşunuza gəlsə, o kitaba ön söz də yaza bilərsiniz" – doğrusu yaşı yetmişi keçmiş, üz gözündən işıqlı bir adama oxşayan bu ağsaqqalın xahişini yerə salmaq istəmədim. Vaxtımın məhdudluğuna baxmayaraq, o əlyazmanı bir neçə gün ərzində birər – birər vərəqlədim. Doğrusu, heyrətə gəldim. Ədəbi aləmdə o qədər də tanınmayan, olsun ki, heç şeir kitabı da nəşr edilməyən, yalnız bəzi qəzetlərdə şeirləri işıq üzü görən Binnət Eloğlunun istedadlı bir qələm sahibi olduğuna heç şübhəm qalmadı. Hiss elədim ki, Binnət müəllim ağlı kəsəndən – lap uşaqlıqdan şeir yazırmış. Buna inanmamağa haqqım yoxdu, çünki sazlı - sözlü bir diyarda – Tovuzda istedadlı bir adamın şair olmamağı qeyri mümkündür.

www.kitabxana.net

Binnət Eloğlunun şeir və poemalarını oxuyanda onu da hiss elədim ki, o, geniş mütaliə qabiliyyətinə malikdir – Azərbaycan poeziyasının vurğunudur (ona ən yaxşı oxucu da demək olar), oxumadığı, təsirlənmədiyi şair yoxdur.

Təkcə bumu? Yox! Başqa bir cəhəti də var – o da bundan ibarətdir ki, Binnət Eloğlu Azərbaycan şeirinin bütün formalarına yaxşı bələddir. Əruz vəznində də qələmini sınayır. Amma ən çox heca şeiri ilə bağlıdır, bu da səbəbsiz deyil. O, şeirə xalq şeirinin, aşıq poeziyasının qanadlarında gəlib. Şeirlərinin mövzusuna gəldikdə isə rəngarəngliyi ilə seçilir. Vətənpərvərlik, Azərbaycanın tərənnümü, Qarabağda baş verən və bir şair kimi daim onu həyəcanlandıran hadisələr, müharibənin doğurduğu acılıqlar, cəmiyyətdə baş verən mənfi hallar, gözəl təbiətimiz – çaylarımız, dağlarımız, meşələrimiz, gözəl məskənlərimiz şairin sevgi dünyası...bütün bunlar onun şeirlərində əks olunur. Binnət Eloğlunun Azərbaycan Demokratik Respublikasının 80 illiyinə ithaf etdiyi "Qoymadılar bilək tariximizi", şəhidlərdən söz açdığı "Şəhidlərimiz - igidlərimiz", "Qarabağın qanlı, qəmli, şanlı günləri", "Şəhriyarın Heydər babaya salam" poemasından təsirlənərək yazdığı "Həsrət", Füzuliyə həsr etdiyi "Müqəddəsim", Q.B.Zakirə xitab və nəzirə kimi qələmə aldığı "Belədir halımız, ay baba indi" adlı poemaları da var və buda sübut eləyir ki, Binnət Eloğlu təkcə lirik, satirik şeirlərlə kifayətlənmir, həm də epik poeziyaya da meyl edir.

Binnət Eloğlunun şeirləri öz təbiiliyi və xəlqiliyi ilə diqqəti cəlb edir. Təbiilik onun bütün şeirlərini ruhuna hopub. Bəli, o, sadə yazır, amma çalışır ki, təzə söz deməyə nail olsun. Qarabağ mövzusu onun şeirlərində daha önəmli yer tutur.

Məni gəzmə Bakıda, nə də Tovuzda, qardaş,
Ürəyimdə qəm-kədər gözlərimdə qanlı yaş,
Huşum özümdən uzaq, halı pərişan, çaş-baş,

www.kitabxana.net

Sərsəritək gəzirəm, fikrim düzdə, dağdadır
Səhərə çox var, sübhüm, danım Qarabağdadır...

Cıdır düzü yas tutur, Şuşa yağılardadır.
Vaqifin şair ruhu nigarandı, dardadır.
Qədir yanır qovrulur, haqq-ədalət hardadır?

Binnətəm, çoxdan gözüm göydə, üzüm haqdadır,
Bakıda can verirəm canım Qarabağdadı.

Elin dərdi, məmləkətimizin başı üstündə oynayan qara buludlar, həyatın ağrıları Binnət Eloğlunu düşündürən, həyəcana gətirən əsas məsələlərdir. Xüsusən, onun doxsanıncı illərdə yazdığı şeirlərdə Vətən dərdi çəkən bir ziyalının ürək harayını eşdirik. Deyir ki:

Qanlı göz yaşımı mürəkkəb edib,
Beş ildir yazıram elin dərdini.
Min-min şəhid olmuş igidlərimin,
Min-min ər gözləyən gəlin dərdini.

Əsir düşüb min-min gəlinim, qızım,
Beş ildir gözümdə qalıb murazım.
Beş ildir xəzandan seçilmir yazım,
Bir gündə çəkirik ilin dərdini.

Onun "Çadır şəhərində", "Qarabağ getdi bada", "On iki ildir", "Bölünmüş xalq", "Şəhidlər xiyabanında" və s. şeirləri bir şair qəlbindən qopan haraylardır. Binnət Eloğlunun bir çox şeirlərində isə qələbəyə böyük inam hiss edirsən: "Yazaq zəfər marşını" şeirində Binnət Eloğlu qələbəmizin haçansa Cıdır düzündə bayram ediləcəyinə inanır. Bizdə inanırıq...

Binnət Eloğlunun qoşmaları mənə daha çox sevindirdi. Sevincimə səbəb odur ki, Binnət müəllim qoşmanı məhz qoşma

www.kitabxana.net
kimi yazır. Onun kalassik ölçülərinə tam riayət edir və çalışır ki, bu qoşmalarda özünəməxsus izi olsun. Xüsusən, onun sevgi mövzusunda qələmə aldığı qoşmaları bu janrın bədii – estetik imkanlarını bir daha aşkara çıxarır.

Əzizim, hər dəfə səni ananda,
Dil dodağa, dodaq dilə yalvarır.
Könlümdən keçəni sənə yazanda
Əl varağa, varaq ələ yalvarır.
Üzüm gülür gülər üznə baxanda,
Gözüm gülür xumar göznə baxanda.
Əllərim teliyin söznə baxanda,
Tel barmağa, barmaq telə yalvarır

Nə vaxt ki, ayağın çəmənə dəyir
Sənə gül-çiçəklər təzim eləyir.
"Qoy ona payəndaz mən olum" – Deyir,
Gül zambağa, zambaq gülə yalvarır.

Bağa yayılanda ətrin, nəfəsin,
Binnətə ruh verir gülüşün,səsin,
İsstəyirlər səni xoşhal eləsin,
Bülbül bağa, bağ bülbülə yalvarır...

Binnət Eloğlunun qəzəlləri də, dördlükləri də, bayatıları da, gəraylıları da, təmsilləri də, rübailəri də onun bir şair kimi bu formalara yaxşı bələd olduğundan xəbər verir. Xüsusilə gəraylıda o, təzə söz deyə bilir.

Quzey yeli çox bəd əsdi
Bağ-bağçam saraldı, getdi.
Bülbül öldü, çiçək soldu,
Gülümü xar aldı, getdi.

www.kitabxana.net

Yağı üstümə od tökdü,
Sinəmə çarpaz dağ çəkdi.
Torpağımı tankla əkdi,
Eli dərdə saldı, getdi.

Zəmimi bombalar biçdi,
Tarlam su yernə qan içdi,
Evim uçdu, çıram keçdi,
Ocağım qaraldı, getdi.

Tay-tuşlarım güllələndi,
Şəhid qanına bələndi.
Başımıza qor ələndi,
Gözümüz kor oldu, getdi.

Binnətəm, ədalət hanı?
Qurulmur haqqın divanı.
Cəllad tökdü nahaq qanı,
Canımdan can aldı, getdi.

Binnət Eloğlunun bütün şeir və poemalarında onun obrazı – bir azərbaycanlı kimi keçirdiyi hislər, duyğular əks olunur və deyərdim ki, o, bu şeirlərin qəhrəmanıdır. Düşünən, əzab çəkən, sevinən, kövrələn bir xalq adamı – bir ağsaqqal və ziyalı özünü ifadə edir, öz ürəyini açır o – insanlara.

Onun poemaları da ilhamla yazılıb. Ən çox diqqəti cəlb edən "Həsrət" poemasıdır ki, Binnət müəllim bu əsəri Şəhriyarın "Heydər babaya salam" poemasına nəzirə yazıb. Şair Şəhriyarın poemasındakı şeir ölçülərini, strukturunu yaxşı mənimsəyib. Əgər bir oxucu maraqlansa ki, Tovuzun Düz Cırdaxan kəndi hansı adət - ənənələri, etnoqrafiyası, insan çeşidləri ilə seçilir, o zaman "Həsrət" poemasına müraciət edə bilərlər. Deyə bilərəm ki, bu poema Düz Cırdaxan kəndinin tarixidir, coğrafiyasıdır, etnoqrafiyasıdır, keçmişi və bu

www.kitabxana.net
günüdür. Yada Salınan, xatirəyə dönən və yaddaşlardan silinməyən xoş anlar, gözəl insanlar da var, acılıqlar da, qəm-qüssəli dəmlər də.

Cırdaxan, sönməsin odun, ocağın,
Günəştək əbədi yansın çırağın,
Yayılsın aləmə səsin, sorağın!
Mənim şöhrətimdir şöhrətin adın
Mən nədən yazardım sən olmasaydın?!

Təfərrüata varmadan deyə bilərəm ki, Binnət Eloğlunun digər poemaları da ürəklə, ilhamla yazılıb.

Mən Binnət Eloğlunun şeir və poemaları haqqında öz ürək sözlərimi ifadə etdim və fikrimcə, onun bu yaşda da şeriyyət aləmində uğurlar qazanacağına inanıram. Təki yazsın yaratsın və yorulmasın! O bir şair ömrü yaşayır.

Vaqif YUSİFLİ
filologiya elmləri doktoru

www.kitabxana.net

Müəllifdən

55 ildən artıqdır ki, bədii yaradıcılıqla məşğulam 100-ə yaxın şeirim müxtəlif qəzetlərdə çap olub Azərbaycan radiosunda səslənib, 2 dəfə Tovuz TV kanalında şeirlərimi oxumuşam.

Əksər şeir formalarında 50 min misradan artıq lirik və satirik şeirlər, 10 - dan artıq poema yazmışam. Yaradıcılığımı zəif, özümü şair hesab etmədiyim üçün kitab çap etdirmək istəməmişəm, heç maddi imkanımda olmayıb. Bu kitabın nəşrində göstərdiyi dəstəyə görə elimizin xeyirxah oğlu – polis general mayoru Ramiz Zeynalova və oğlum – Arifə minnətdarlığımı bildirirəm.

Binnət Eloğlu.

www.kitabxana.net

Qurban olum

Odlar yurdu, mən oduna,
Ocağına qurban olum.
Min illərdir şölələnən,
Çırağına qurban olum.
Yadlar böldü özbaşına,
Tökdülər od, köz başına.
Araz boyda göz yaşına,
Göz dağına qurban olum.
Varın-yoxun oldu talan,
Sürgün oldu min-min balan.
İldırımlar həsrət qalan
Qucağına qurban olum.
Ətir saçan hər gülünə,
Şəkərdən şirin dilinə,
Hər obana, hər elinə,
Oymağına qurban olum.
Zirvələrin qarlı, buzlu,
Söz-söhbətin dadlı-duzlu.
Üç rəngli aylı-ulduzlu
Bayrağına qurban olum.
Sənə fəda olsun Binnət,
Üzdü məni fəraq-firqət.
Quzeyi gün eynə həsrət
Torpağına qurban olum.

30.08.1967

www.kitabxana.net

Xalqıma dağ çəkilibdir
(daxili qafiyə)

Aləm yatıb, gecə yarı yuxum ərşə çəkilibdir.
Elə bil ki, ruhum dara, ətim şişə çəkilibdir.

Batıb ayım, çıxmır günüm, ərşə çıxır ahım, ünüm.
Dərd əlində ömrüm, günüm, ilmə-ilmə sökülübdür.

Gözümdən car olur selim, parça-parça, dilim-dilim.
Tikə-tikə olub elim, yurduma turp əkilibdir.

Ah çəkdikcə yanır dilim, dərdlərimi yazmır əlim.
Qarabağda sınıb belim, yumaq kimi bükülübdür.

Xəzan vurub, gülüm solub, igidlərim şəhid olub.
Anam-bacım saçın yolub, xalqıma dağ çəkilibdir.

Gecə keçib, dan sökülmür ,dörd ildir ki, üzüm gülmür.
Niyə göydən daş tökülmür, mənə "dığalar" gülübdür?

Edirlər xalqıma zülm, artıb aclıq, azar, ölüm.
Yatmıram, yanmışam, külüm gözlərimə tökülübdür.

Toxlar bezmir kef-damaqdan,aclar çadırda qalmaqdan
Toyum vaya dönüb çoxdan, bayramım qara gəlibdi,

Artıb azarı Binnətin, talanır varı millətin,
Bu xalqın, bu məmləkətin sahibi harda ölübdür?!

16.09.1991

www.kitabxana.net

Bir də

Ağdamın, Şuşanın seyrinə dalam,
Görəm Zəngilanı, Laçını bir də.
Sosda, Əskəranda, Xankənddə olam,
Gəzəm Füzulini, Xaçını bir də.
Şən olsun Qubadlı, Cəbrayıl eli,
Odlar ölkəsinin gövhəri, ləli!
Xocalı qızının xınalı əli
Yolmaya pərişan saçını bir də.

Olam oylağında Xanın, Bülbülün,
Qalam qayğısına Xarı bülbülün.
Öpəm ləçəyindən çiçəyin, gülün,
Siləm gözlərinin yaşını bir də.
Gəzəm Ağdərədə şehli çəməndə,
Azam Xocavənddə dumanda, çəndə.
Çingizi seçmişəm qardaş seçəndə,
Tapam Salatıntək bacını bir də.
Eldən uzaq ola kədər, qəm-qada,
Gah Turşsuda olam, gah İstisuda.
Yataqxanalarda, çöldə, çadırda
Görməyəm köçkünü, qaçqını bir də.
Oxuya Qarabağ şikəstəsini,
Eşidəm Qədirin həzin səsini.
Görəm qalibiyyət təntənəsini,
Dinləyəm qələbə marşını bir də!
Qırxqızın döşündə qurula dəyəm,
İsa bulağına enəm, baş əyəm.
Kəlbəcərdə aşıqları dinləyəm,
Unudam ağrını-acını bir də.
Natavan zövq ilə, məharət ilə,
Vaqif könül açan şeiriyyətiylə,

www.kitabxana.net

Üzeyir ecazkar sənəti ilə
Bəzəyə sənətin tacını bir də.
Belimizi həsrət yükü əyməyə,
Anamız, bacımız qara geyməyə.
Xəzan saraltmaya, dolu döyməyə
Bağanesda bağı, bağçanı bir də.
Enəm Əlibəylidən, Ağdamı gəzəm,
Alı Dədə pirində qurbanlar kəsəm.
Berddə dığaların burnunu əzəm ,
Qanmaza qandıram suçunu bir də.
Yağını qanına bələnən görəm,
Külünü gözünə ələnən görəm.
Yenə qapımızda dilənən görəm
Naşükür «axber»i, «axcı»nı bir də.
Bir qarış yerim də yada qalmaya,
Yurduma «xoz», «çoşka» tamah salmaya.
Binnətəm, çən-çiskin duman almaya
Yurdumun dağını, daşını bir də!

15.07.1992

www.kitabxana.net

Xocalıdadır

Üz-üzə qalmışam kədərlə, dərdlə,
Dərdin mübtəlası Xocalıdadır.
Zülmün ədalətlə, mərdin namərdlə
Qovğası, davası Xocalıdadır.

Başsız başçılardan olmadı həyan,
Sinəmdə od çatdı Zori Balayan.
"Ocaq daşı" üstə bayquş ulayan
Yurdun xarabası Xocalıdadır.

Olmadı obanı yadına salan,
Tanklarla, toplarla etdilər talan.
Yüz- yüz körpələrin yarımçıq qalan
Yuxusu, laylası Xocalıdadır.

Həddi var hər zülmün, hər zəlalətin,
Tarixdə tayı yox bu müsibətin.
Mərdlərə yas tutan bir məmləkətin
Yası, yasxanası Xocalıdadır.

Bilsin Xirosimo,Naqasaki də,
Xatında ot basmış yol da, səki də.
Yanvar faciəsi əsrin Bakıda,
Fevral faciəsi Xocalıdadır.

Şəhərin qalmayıb daş üstə daşı,
Yar-yarı itirib, qardaş-qardaşı.
Didərgin bacımın gözünün yaşı,
Anamın naləsi Xocalıdadır.

Bir eli boğdular içində qanın,
Xar oldu mahalı İbrahim xanın.
Min-min şəhid vermiş Azərbaycanın
Qanlı Kərbələsı Xocalıdadır.

Göydən yağış kimi yağdı qurşunlar,
Qan tökdü, qan içdi azğın qoşunlar.
Hələ də qudurmuş «pyos»lar, «şun»lar
«Svinya», «xoz» dəsi Xocalıdadır.

www.kitabxana.net

Gözü çıxarıldı kəsik başların,
Süngüylə deşildi üz, göz, baş, qarın.
Gülləyə tuş olmuş şikəst quşların
Dağılmış yuvası Xocalıdadır.

El yatmır ünündən ahu-zarımın,
Yazı qara gəldi ilk baharımın.
Talanmış, tapdanmış çəmənzarımın
Nərgizi, laləsi Xocalıdadır.

İvanla Vartazar işlədib hiylə,
Günahsız xalqıma qurdular tələ.
Niyə xəcalətdən ölmürəm? Hələ
Bayquşların səsi Xocalıdadır.

İnandıq bambılı vəziryanlara,
Harsundan süd əmmiş «xınzır»yanlara,
Qarabağ əsirdi "harpaz"yanlara
Bicin «şurtvats»ı Xocalıdadır.

Nə «Tayms» yazmadı, nə «TASS» bunları.
Zəncirləmədilər qudurğanları
«TASS» ölüb, a «Tayms» indi yaz barı,
Yerevan tulası Xocalıdadır.

Bunları tək Çingiz yaydı cahana,
Dərddir, göz dağıdır hər bir baxana.
Hay salaq, car çəkək-yayaq hər yana
Əsrin son bəlası Xocalıdadır.

Uçub xanımanlar, sönüb ocaqlar,
Yerlə yeksan olub divarlar, tağlar.
Köksünə üst –üstdən çəkdilər dağlar ,
Binnətin şəfası Xocalıdadır.

Pyos-köpək(rusca)
Şun-köpək (ermənicə)
Xoz-donuz (ermənicə)
Harsun-qadın (ermənicə)
Xınzır-donuz(ərəbcə)
Harpaz-avara (ermənicə)
Şurtvats-dönük,dönmə (ermənicə)

www.kitabxana.net

14.03.1992

Beş ildi

Qəlbim qan ağlayır, cəllada dönüb,
Çəkirlər sinəmə dağı beş ildi.
Dərdli göylərimdə buluda dönüb
Yaralı köksümün ahı, beş ildi.
Bir-birindən yaslı gəlir illərim,
Car olur gözümdən axan sellərim.
Mərdlərə yas tutur qərənfillərim,
Anam, bacım deyir ağı, beş ildi.
Qisası alınmır axan qanların,
Min-min şəhid olmuş qəhrəmanların.
Tarixin şöhrəti Cavad xanların
Xar olur aranı, dağı beş ildi.
Dağılıb Əskəran, Xocalı, Xaçın,
Qubadlı, Cəbrayıl, Kəlbəcər, Laçın.
Ağdama, Xankəndə həsrətdi qaçqın,
Şuşada kef çəkir yağı, beş ildi
Ay Allah! Bu sitəm görünüb harda,
Yad səni evindən zorla çıxarda?!
Füzuli, Zəngilan qalıbdı darda,
Talanır bağçası, bağı, beş ildi.
İt-itlə birləşib, şir yalqız qalıb,
Əsirlikdə min-min oğul-qız qalıb.
Min-min bağça gülsüz, bağ barsız qalıb,
Yanıb bostanların tağı, beş ildi.

Qırılır çadırda qalanlarımız,
Əlil, yetim-yesir olanlarımız.
Qalmır qayğımıza kalanlarımız,
Umuruq yadlardan qayğı, beş ildi.
Vətən eşqi Məcnun edib Binnəti,

www.kitabxana.net
Tükənməz vətənə mehri-ülfəti.
Qalsa vətənidir, ölsə cənnəti,
İtiribdi Qarabağı, beş ildi.

24.01.1993

Vətən deyə-deyə yandım

Dörd ildi iblislər böhtan, şər qusur,
Fəlakət tökülür elimin üstə.
Yazım qara gəlir, bülbülüm susur,
Sar qonur bağçada gülümün üstə.
Yurdumuza qara yellər əsibdir,
Ehtiyac, səfalət bizə nəsibdi.
Suyumuzu haramılar kəsibdir,
Göydən zülm yağır zülümün üstə.
İnəktək sağırlar inək sağanı,
Çəltiktək döyürlər çəltik yığanı.
Satıb çörək aldıq köhnə yorğanı,
Qalmışıq bir cırıq kilimin üstə.
Çeynənib çürümür bu «keçid» sözü,
Hər gün yalançılar aldadır bizi.
Çox söz var deməyə, qorxuram, düzü,
Başım bəla çəkər dilimin üstə.
Əl açıb dilənir gəlinlər, qızlar,
Milləti dilənçi edir qansızlar.
Vətən deyə-deyə yandım, arsızlar
Çalıb-oynayırlar külümün üstə.
Xalqı talayanlar xalqa fors edir,
Gündə bir Maşayla barda tans edir.

Xankənddə dığalar «qasnı çors» gedir,
Qarabağ gəbəmin - zilimin üstə.
İş tapılmır sexdə, nə də mədəndə,
Haqqını almayır işə gedən də.

www.kitabxana.net
Binnətəm, haqqımı tələb edəndə
Sınır dubinkalar belimin üstə.

17.02.1991

Ürəyim Arazın qırağındadır

Zamanmı dəyişib, fələkmi çaşıb,
Quzğunlar Laçınlar oylağındadır?
Şirlər tülkülərin toruna düşüb,
Qartallar quzğunun caynağındadır.
Çoxunun toyuna qarışıb yası,
Oğul ölüb, ağlar qalıb anası.
Qarabağ qızının nişan tanası,
Haykanuş-şortunun qulağındadır.
Dağılıb Ağdamım, talanıb Şuşam.
Laçına, Xankəndə həsrət qalmışam.
Xocalıda, Əskəranda yanmışam,
Külüm hər qaçqının ocağındadır.
Çox dedim, dərdimi duymadı naşı,
Göynəyir dağlanan sinəmin başı.
Göyçə gölü olub gözümün yaşı,
Göyçəm yağıların tapdağındadır.
Nə qışda sevinir könlüm, nə yazda,
Kərəmim, Dilqəmim inləyir sazda.
Özüm Bakıdayam, ruhum Tovuzda,
Ürəyim Arazın qırağındadır.
Binnətəm, tacımdır öz obam, elim,
Bu taydan o taya çatmayır əlim.
Həsrətin odunda qovrulan dilim
Dərbəndin, Təbrizin sorağındadır.

15.02.1994

www.kitabxana.net

Görməyir korlar

Bir gözələ saldı meylini hərə,
Kimi nakam oldu, kimi bəxtiyar.
Mən də bir Məcnunam özümə görə
Mənim Vətən adlı bir sevgilim var.

Bakımla Təbrizim qibləgahımdır,
Göyçəmlə Dərbəndim səcdəgahımdır,
Araz göz yaşımdır, bulud ahımdır,
Gözümdən car olur ağlar bulaqlar.

Gözüm görə-görə talanır varım,
Dağılır bürclərim, uçur hasarım.
Nə taqətim yoxdur, nə ixtiyarım,
Edirlər başıma gen dünyanı dar.

Doğru danışanı lağa qoyurlar,
Haqq gəzənə min qadağa qoyurlar.
Kəndə Xudayarı ağa qoyurlar,
Zeynəb, Məmmədhəsən ağlayır zar-zar.

Yenə füsqi-ficur həddən aşıbdır,
Kələf dolaşıbdır, baş qarışıbdır.
Başsız başçıların ağlı çaşıbdır,
Məclisdə bir-birinə bağırır bar-bar.

Nə yaman gündəsən, sevgili Vətən,
Sinəndə at çapır hər yoldan ötən.
Binnətəm, oduna odlanıram mən,
Yanıram, külümü görməyir korlar.

11.03.1989

www.kitabxana.net

Ay Vətən
(Daxili qafiyə)

Eşitmirlər, daşı yarır ünüm, ay Vətən, ay Vətən!
«Qarabağ» dedikcə yanır dilim, ay Vətən, ay Vətən!
Yolum uzaq, yüküm ağır, qolum qançır, özüm fağır
Göydən zülm üstə yağır zülm, ay Vətən, ay Vətən!
Canımızdan keçə-keçə, şəhid verdik neçə-neçə,
Göz yaşımdır mənim Göyçə gölüm, ay Vətən,ay Vətən!
Fəğanımdan aləm yatmır, keyləri naləm oyatmır.
Ağdama, Şuşaya, çatmır əlim, ay Vətən, ay Vətən!
Dərdli dilim Xankənd deyir, Laçın, Gorus, Dərbənd deyir,
Təbrizi, Xoyu istəyir könlüm, ay Vətən, ay Vətən!
Yağı aldı silahımı, şəhid etdi pənahımı,
Heç kim eşitmir ahımı, neylim, ay Vətən,ay Vətən?!
Kaş birləşib ola bir can, Bakı, Dilcan, Qafan, Zəncan,
Bütöv ola Azərbaycan-elim, ay Vətən, ay Vətən!
Binnət səndən ilham aldı, sözün qənddi, dilin baldı.
Yandım, Xocalıda qaldı külüm, ay Vətən, ay Vətən

23.03.2003

Bax

(daxili qafiyə)

90-cı il Yanvar. Ağır gün. Acı rüzgar,
Bakıda mitinqlər var, Bakıda tətillər var.
Üzlərdə kədər, qubar, ürəklərdə intizar,
Bu ağır zamana bax, bu bəd gələn qışa bax.
Tutulubdu şəhərə gələn yollar hər yandan,
Axışdı küçələrə gəlin, qız, qoca, cavan,
Tuş oldular gülləyə, küçə, meydan oldu qan,

www.kitabxana.net

Qan axan meydana bax, qana batmış daşa bax.
Günahsızlar buz kimi soyuq sazaqda əsdi,
Quzğunlar quduz kimi bəndi-bərəni kəsdi.
Dinsizlər qansız kimi qan içməyə tələsdi,
Üzdən axan qana bax, gözdən axan yaşa bax.
Qara geydi qızıl dan, banlamamış beçələr,
İçdi isti, qızıl qan soyuq, asfalt küçələr.
Dağılmış yuvalardan perikdi boz sərçələr,
Dağılmış eyvana bax, yaralanmış quşa bax.
Neçə evi yıxdılar, dağıtdılar o gecə,
Yandırdılar-yaxdılar, verdilər çox işgəncə.
Nə qocaya baxdılar, nə körpəyə, nə gəncə,
Qudurmuş İvana bax, bu müxtəlif yaşa bax.
Nə qədər ağlar, Allah, nə qədər ağlar gözüm?
Binnətəm, görməyib, ah, heç belə dağlar gözüm.
Sil yaşını, yaxşı bax, yaxşı bax, ağlar gözüm,
Əldən gedən cana bax, başdan çıxan huşa bax.

22.01.1990

Kim çəkəcək?

Nə yaman günə qaldıq, nə yaman günə, Allah!
Ehtiyac qapımızı kəsdirir axşam-sabah.
Hanı ədalət divan, hanı ədalətli şah?
Nə vaxtadək qansızlar qanımızı içəcək?
Bu elin, bu millətin dərdini kim çəkəcək?
Yurdumuz əldən gedir, hər yanda alver gedir,
Başsızlar düşünməyir, Vətən gedir, yer gedir
Məmur da alver edir, muzdur da alver edir.
Kotanı kim sazlayıb, torpağı kim əkəcək?
Bu elin, bu millətin dərdini kim çəkəcək?
Kənddə nə dənimiz var, nə də dəyirmanımız,
Nə dəmirçixanamız, nə də ki, xırmanımız.

www.kitabxana.net

Yad ellərdə neft tapır, yüzlərlə Fərmanımız,
Bizə kim neft tapacaq, bizə kim yol çəkəcək?
Bu elin, bu millətin dərdini kim çəkəcək?
Kürsülərdən deyirlər; "göruləsi iş çoxdur"
Hara getsən rəislər deyir; – Bizdə iş yoxdur.
Fəhlə, kəndli, ziyalı ac, əmr verənlər toxdur
Nə şorumuz var yeyək, nə ayranımız içək,
Bu elin, bu millətin dərdini kim çəkəcək?
Milləti əldən salıb hər gün artan bahalıq
Onmin manata qalxıb üç manatlıq ət, balıq.
Qış girib, nə qaloş var, nə pambıqlı arxalıq.
Başımızda papaq yox, əllərimizdə əlcək,
Bu elin, bu millətin dərdini kim çəkəcək?
Pullular gur yerlərdə sex açır, dükan açır,
Pulsuzlar ya dilənir, ya yad ellərə qaçır,
Nə odun var, nə də qaz, hamı sətəlcəm-qançır.
Qənd ala bilmirik ki, barı qaynar su içək,
Bu elin, bu millətin dərdini kim çəkəcək?
El hərraca qoyulub, alan, satan bilinmir,
Milləti oda salıb, qırıb-çatan bilinmir,
Doğru kimdi, oğru kim, ara qatan bilinmir.
Satqını kim tapacaq, sadiqi kim seçəcək?
Bu elin, bu millətin dərdini kim çəkəcək?
Millət vəkillərinin maaşı tez-tez artır,
Ziyalının qazancı çörəyə güclə çatır,
Binnətəm, el malını hərə bir yana dartır,
Nə vaxtacan olacaq bu soyhasoy, çəkhaçək?
Bu elin, bu millətin dərdini kim çəkəcək?
Ay Allah, bu millətin dərdinə bir əncam çək!

19.11.1992

www.kitabxana.net

Şəhidlər
(Mərsiyə)

Zarımaqdan daha bizdə qalmayıb can, şəhidlər,
Göynəməkdən, sızlamaqdan olduq giryan, şəhidlər.
Analarımız ağlamaqdan düşdü haldan, şəhidlər,
Bacılarımız üzün etdi qana qəltan,şəhidlər.
Tuş oldunuz quzeydən bəd əsən qara yellərə,
Sizləri şəhid elədi qənim olan ellərə.
Qərq elədi gözümüzdən axan qanlı sellərə,
Qalmışıq ah-vaylı,yaslı,dili nalan,şəhidlər.
Tankla, pulemyotla çıxdı yağılar qarşımıza.
Qar yerinə güllə yağdı Yanvarda başımıza.
Sinəmizə döyə-döyə qərq olduq yaşımıza,
Ərşə çıxır ahu-nalə, fəryad, fəğan, şəhidlər.
Günahınız nəydi sizi yağı qana bələdi,
Üstünüzdən tankla keçdi, qaçanı güllələdi.
Tutduğunun qol-qıçını qırıb, əlil elədi,
Qanlı Kərbəlaya döndü küçə, meydan, şəhidlər?!
Çoxunuz cavan öldünüz, yetmədiniz ərsiyə,
Dustağam qəm zindanında mən, yazıram «Həbsiyyə».
Ana-bacılar ağlayır, oxuyuram mərsiyə,
Gözümüzdən yaş yerinə car olur qan, şəhidlər.
Ataların hönkürtüsü sinələri dağlayır,
Analar qara geyinir, qara örpək bağlayır.
Bir həftədir millətimiz yas tutur, qan ağlayır,
Qara bayraqlar asılıb hər eyvandan, Şəhidlər.
Bizə vurulan yaralar ölənədək sağalmaz,
Qəddarlıqla, zülm etməklə sitəmkar zəfər çalmaz.
«Buynuzsuz qoçun qisası buynuzlu qoçda qalmaz»
Alınacaq qisasımız yağılardan, şəhidlər.
Ağı deyir, nalə çəkir qız-gəlinlər səhərdən,
Baş əyirik qəbrinizə, boğuluruq qəhərdən.

www.kitabxana.net
Zəfər çalıb, xalis tuncdan, qranitdən, mərmərdən,
Sizə abidə qoyacaq Azərbaycan, şəhidlər.

27.01.1990

Azərbaycan

«Bilinməyir yaşın sənin
Nələr çəkmiş başın sənin»
S. Vurğun

Çox gəzmişəm diyar-diyar,
Hər diyarda övladım var.
Qoynun bizə olacaq dar,
Heç bilmirəm nə vaxtacan?
Azərbaycan, Azərbaycan.
Xəstə gördüm yüz yaşında,
Həsrət-hicran savaşında,
Vətən sevdası başında,
Qəriblikdə verirdi can,
Azərbaycan, Azərbaycan.
Gənclər gördüm tunc biləkli,
Fil qüvvətli, şir ürəkli,
Pak arzulu, xoş diləkli,
Uzaq düşmüş qucağından,
Azərbaycan, Azərbaycan.
Ana gördüm qəlbi ahlı,
Yad ellərdə-yad pənahlı.
Dedi yanıqlı-yanıqlı:
«Həsrət məndə qoymadı can»,
Azərbaycan, Azərbaycan.
Alagözlü qızlar gördüm,
Dərdli, ağlar-sızlar gördüm,
Qaçqın pənahsızlar gördüm,
Yaş yerinə töküldü qan.

www.kitabxana.net

Azərbaycan, Azərbaycan.
Çaylar keçdim, dağlar gördüm,
Talan olmuş, bağlar gördüm,
Bağbanını ağlar gördüm,
Yaş axırdı yanağından,
Azərbaycan, Azərbaycan.
Körpə gördüm süd nəfəsli,
El həsrətli, el həvəsli,
Tuti dilli, bülbül səsli,
Od umurdu ocağından,
Azərbaycan, Azərbaycan.
Güneyi Quzeyə həsrət,
Bu tayı o taya həsrət,
O tayı bu taya həsrət
Qalacaqdır haçanacan
Azərbaycan, Azərbaycan?
Qəribdir, təqsiri nədir?
Fərmanların Tümendədir.
Hərəsi bir yad kənddədir.
Neft tapır yad torpağından,
Azərbaycan, Azərbaycan.

Övladların didərgindi,
Yad qoltuqlarda min-mindi.
Barı, çağır gəlib indi,
Yağılara qusdtursun qan,
Azərbaycan, Azərbaycan.
Yada qaldı ata mülkü,
Bizə qaldı hicran yükü,
Özümüzü özümünkü,
Etdi qərib, ağlar-giryan,
Azərbaycan, Azərbaycan.
Atayanlar,Balayanlar,
Xətayanlar,bəlayanlar,
Bizi oda qalayanlar

www.kitabxana.net

Biz yandıqca dedilər:-Yan!
Azərbaycan,Azərbaycan.
Ağır işdə xəstə elədi,
Canımıza qəsd elədi,
Haqqımızı kəsdi,yedi
Levon-heyvan,İvan-“çurban”
Azərbaycan,Azərbaycan.
«Get, sabah gəl» deyə-deyə,
Qoymadılar vəzifəyə,
Nə də qara fəhləliyə,
Yad ellərdə olduq çoban,
Azərbaycan, Azərbaycan.
Kimi gördüm, çoxdur dərdi,
Əkdi, səpdi, yadlar dərdi.
Övladların dərbədərdi,
Yadına sal, onları an,
Azərbaycan, Azərbaycan.

20.04.1993 (Krasnovodsk)

www.kitabxana.net

Qarabağdadır

Məni gəzmə Bakıda, nə də Tovuzda, qardaş,
Ürəyimdə qəm-kədər, gözlərimdə qanlı yaş,
Huşum özümdən uzaq, halı pərişan, çaş-baş,
Sərsəritək gəzirəm, fikrim düzdə-dağdadır,
Səhərə çox var, sübhüm, danım Qarabağdadır.
Hər yanda baş qaldırıb dostbazlar, dəstəbazlar,
Hər tində dükan açır müftəxorlar, işbazlar.
Məmur, sahibkar olur, xoruzbazlar, quşbazlar,
Bəylik edən tülkülər cəbhədən uzaqdadır,
Mərd yarasından axan qanım Qarabağdadır.
Cəbhələrdə can verir Xətai qeyrətlilər,
Silaha sarılıbdır Həcərtək ismətlilər.
Hələ sərvət toplayır pullular-dövlətlillər,
Qeyrətlilər cəbhədə, arsız yol azmaqdadır,
Şərafətim, şöhrətim, şanım Qarabağdadır.
Yağılar Xocalıma, Laçınıma od vurub,
Kəndlərimi dağıdıb, bəndlərimi uçurub.
Məktəbi viran edib, məscidə mina qurub,
Hələ satqın, fərari qənimət yığmaqdadır,
Qızıl mədənim, gövhər kanım Qarabağdadır.
Saraylarım dağılıb, evlərim viran olub,
Mərdlərim şəhid olub, qızlarım saçın yolub.
Bağım-bağçam talanıb, çiçəyim-gülüm solub,
Nə qartalım zirvədə, nə bülbülüm bağdadır,
Ağlar nənəm Natəvan xanım Qarabağdadır.
Ordadır gələcəyim, səadətim, həyatım,
Qarabağdır, Qarabağ, ürək oyan bayatım.
Ordadır çahargahım, segahım, muğamatım,
Toplar susdura bilməz, çalıb-çağırmaqdadır,
Üzeyirim, Bülbülüm, Xanım Qarabağdadır.
Bilmirəm hardan endi bu fəlakət,bu zülm,

www.kitabxana.net
Xar oldu ayaqlarda-soldu Xarı bülbülüm.
Xəzan vurdu, saraldı otum, çiçəyim, gülüm.
Yadların qanlı əli hələ balda,yağdadır,
Qaymağım,yağım,balım,şanım Qarabağdadır.
Cıdır düzü yas tutur, Şuşa yağılardadır,
Vaqifin şair ruhu nigarandır, dardadır
Qədir yanıb qovrulur, haqq - ədalət hardadır?
Binnətəm, çoxdan gözüm göydə, üzüm haqdadır,
Bakıda can verirəm, canım Qarabağdadır.

26.05.1992

Yazıram elin dərdini

Qanlı göz yaşımı mürəkkəb edib,
Beş ildir yazıram elin dərdini.
Min-min şəhid olmuş igidlərimin,
Min-min ər gözləyən gəlin dərdini.
Əsir düşüb min-min gəlinim, qızım,
Beş ildir gözümdə qalıb murazım.
Beş ildir xəzandan seçilmir yazım,
Bir gündə çəkirik ilin dərdini.
Satqınlar satdılar, azğınlar aldı,
Ağdamım, Xocalım xaraba qaldı.
Füzuli dedikcə ahım ucaldı,
Dərdim ötdü Füzulinin dərdini.
Yadlar at oynadır Cıdır düzündə,
Əsgəranda, Xankəndinin özündə.
Anaların əli qalıb üzündə,
Hər qız çəkir yüz min filin dərdini.
Hərə bir partiya yığıb başına,
Qardaş qənim olub öz qardaşına.
Baxan yoxdur Kəlbəcərin yaşına,
Görən yoxdur Cəbrayılın dərdini.
Büküb qəddimizi kədər, qəm, fikir,

www.kitabxana.net

Kim satıb, satılıb, açılmır bu sirr?
Şuşada üç uçmuş pyedistal çəkir,
Güllələnmiş üç heykəlin dərdini.
Qaçqınlar qırılır çadırda, vallah!
Milləti qırdırdı dazbaş – zalım şah!
Böyüklü, kiçikli götürək silah,
Çəkək məmləkətin gəlin dərdini.
Vaxtsız xəzan vurub, güllərim solub.
El dərdi ilk dərdim, ilk qəmim olub
Binnət elə sevib, elə vurulub,
Məcnun çəkib bir gözəlin dərdini.

23.07.1993

Dərdimiz bir deyil ki...

Bəsdir bəs, tayfalara, nəsillərə bölündük,
Küçələrə bölündük, tirələrə bölündük,
Bölgələrə bölündük, ölkələrə bölündük.
Nə qədər bölmək olar, nə qədər bir milləti?!
Neçə yerə, neçə yol bölərlər məmləkəti?!
Aman Allah! Hər dəfə bölündükcə kiçildik,
Kiçildikcə saralmış zəmi kimi biçildik,
Biçildikcə xar olduq, seçkin düşdük-seçildik,
Biçənlər də biz olduq, bəzən biçilənlər də.
Başsız başçılar saldı yazıq xalqı bu dərdə
Dərdimiz bir deyil ki,danışmayaq,dinməyək,
Saysız dərdlərimiz var, bilmirik kimə deyək.
Kimə ərizə yazıb,kimdən kömək diləyək?
Şikayət etmək-çətin,qəbula düşmək-çətin,
Oduna yanan yoxdur bu zavallı millətin.
Hər qarış torpağından qızıl, gümüş, mis çıxan,
Istisuyu, sirabı, nefti sel kimi axan,

www.kitabxana.net

Varına, sərvətinə yadlar həsədlə baxan,
Ölkənin də qocası-qarısı dilənərmi?!
Yarısı qaçqın düşüb, yarısı dilənərmi?!
Xudayarlar həmişə salıb nifaq, ədavət,
Pozulubdur qanunlar, xar olubdur ədalət.
Turpu çıxardammarıq olmasa bizdə vəhdət.
Araba da tərpənməz, hərə çəksə bir yana,
Arabamız məhv olar—qalarıq yana-yana.
Hələ fitnə törədir, daz div meydan sulayır,
Hələ şirlər tordadır, qurdun-qurdu ulayır.
Hələ yaltaq tulalar qurda quyruq bulayır.
Dərə-xəlvət, tülkü-bəy, tüğyan edir cinayət,
Hələ qapazaltıdır demokratiya, hürriyyət.
Hələ də həqiqətin çəkilir üstə pərdə,
Ziyalara zülmətlər divan tutur tinlərdə.
Pıçıltıyla danışır çoxu xeyirdə-şərdə.
Cəsuslar dəyişirlər hər gün maskanı, cildi,
Nə iyirminci ildir, nə də otuz yeddinci ildi.
Hamı deyir: «Birləşək», hərə bir yana çəkir,
Biri İrana çəkir, biri Turana çəkir.
Çoxu yalan vəd verib, əlini Qurana çəkir.
Bilmirik ki, inanaq yalana, ya Qurana,
Millət həsrət qalıbdır xalqa arxa durana.
Haqqını alammırsan torba sal, millət, dilən!
Yardım um, sadağa al, götürüb minnət, dilən!
Dərdlərini yazmaqdan çərlədi Binnət Dilən!
Sabirlər nə qazandı, mən nə qazanasıyam,
Vətənimin yolunda şam kimi yanasıyam.

24.04.1991

www.kitabxana.net

Bu xalqın

İşlərimiz çətin olub çətindən,
Dilənir, əl açır hərə bir tindən,
Adam yerə girir xəcalətindən,
Kömək, yardım umanı çox bu xalqın.
Ümidi yox, gümanı yox bu xalqın.
Zalımların artıb gücü, fürsəti,
Unudublar insanlığı, mürvəti.
Zəlil eləyiblər yazıq milləti,
Yanıb odda qalanı çox bu xalqın.
Bir qeydinə qalanı yox bu xalqın.
Bu millətin, ya rəbb, nədir günahı?!
Çoxdur düşmənləri, yoxdur pənahı.
Kasıb çörək üçün tapmır beş şahı,
Milyonçusu, kalanı çox bu xalqın,
Xalqı yada salanı yox bu xalqın.
Çoxdur əmr verən, göstəriş verən,
Yoxdur bir ustaya sifariş verən.
Işsiz qalmır yaltaq, məddah, işverən.
Mədhiyyəçi olanı çox bu xalqın,
Bir millətçi olanı yox bu xalqın.
Kasıb pencər, şor - mor alır bazardan,
Ayda bir yolunu salır bazardan.
Qızdırmadan, sətəlcəmdən, azardan
Saralanı, solanı çox bu xalqın,
Qançır, vərəm olanı çox bu xalqın.
Hərbikomlar haqqı danıb büsbütün,
Əsgər edir ancaq oğlunu lütün,

www.kitabxana.net

Qarabağda kef-damaqdadır Ərtün,
Çadırlarda qalanı çox bu xalqın.
Qaçqın, köçkün olanı çox bu xalqın.
Bəsdir, çox inlədi qəlbimin simi,
Binnətəm, göynətdi dərdim içimi.
Heyif bir xilaskar sərkərdə kimi,
Hücum təbli çalanı yox bu xalqın,
Qisasını alanı yox bu xalqın.

03.02.1991

Nicat ver, Allahımız

(daxili qafiyə)

Bir dərdliyik hamımız, möhnətdəyik hamımız,
Zülmətdəyik hamımız, açılmır sabahımız.
Gecə uzanır yaman, ərşə çıxır ah, aman,
Daz uddurur bizə qan, yoxdur bir pənahımız.
Nə qanun var, nə qayda, su yoxdur arxda, çayda,
Yanır, kül olur yayda bostanımız, bağımız.
Qazan xörəyə həsrət, nə yağ yoxdur, nə də ət,
Qalıb çörəyə həsrət süfrəmiz, tabağımız.
Başçı olur naşımız, bəla çəkir başımız,
Dağılır dam-daşımız, yıxılır çardağımız.
Daş yağdırır göyümüz, qan ağlayır gözümüz,
Eşidilmir sözümüz, ərşə çıxır ahımız.
Boşalıb çuvalımız, satmağa yox malımız,
Darğadır dəllalımız, koxadır dəbbağımız.
Bal umur həkimimiz, yal umur yaltağımız,
Pul umur hakimimiz, çul umur məddahımız.
Nazir rəisi soyur, rəis müdiri soyur,
Müdir muzduru soyur-soyuluruq hamımız.
Tamadadır artistlər, işsizdir mühəndislər,
Artıb cinlər, iblislər, çoxalıb günahımız.

www.kitabxana.net
Binnəti dərd alıbdır, küçələrə salıbdır,
Kafirlərə qalıbdır cənnət Qarabağımız.
Nicat ver, Allahımız!
Rəhm elə, ey şahımız!

28.02.1990

Çadır şəhərində

Hər gün çadır şəhərinə xəyalımın güzarı var,
Hər bir çadır şəhərinin öz günü, öz rüzgarı var.
Orda nə kənd cah-calalı, nə də şəhər hay-küyü var,
Hər qaçqının öz qayğısı, öz dərdi, öz azarı var.
Üzlər qəmli, baxışlar lal, kar sükutdan küsür xəyal,
Hər ürəkdə qüssə-məlal, hər qəlbin öz əsrarı var.
Bu şəhərdə küçələr dar, səkilər yox, evlər soyuq,
Qaçqınların komasının nə damı, nə divarı var.
Təhnəsi boş, süfrəsi boş qaçqınların, köçkünlərin,
Torbasında bircə günlük nə arpa var, nə darı var.
Üstü çadır,altı çamır,göydən yağan üstə damır,
Yardımkom qeydinə qalmır,sübhədək ahu-zarı var.
Evi qəm-qüssə anbarı, hasarı kədər hasarı,
Nə bağı, nə tarlası var, nə mülkü var,nə varı var.
Qışda donur, yayda yanır, dərd odunda alovlanır,
Nə ümidi, nə gümanı, nə səbri, nə qərarı var.
Ömür sürür ac-yalavac, ayaqyalın, başıaçıq,
Nə başında papağı var, nə əynində paltarı var.
Soyuqda, şaxtada, qarda sökük, cırıq çadırlarda,
Binnət, qaçqın qalıb darda, nə dostu, nə qəmxarı var.

30.03.1992

www.kitabxana.net

Qarabağ getdi bada

Ələnsin gözümə torpaq! Qarabağ getdi bada,
Soltan bəyi hardan tapaq? Qarabağ getdi bada.
Minlərlə övladımız əsir-yesir, şəhid olub,
Qalmışam bəs niyə mən sağ? Qarabağ getdi bada.
Qarabağlı Bakımızda şadlıq evləri tikir,
Alıbdır şəhərdə mülk, bağ, Qarabağ getdi bada.
Qaçqına, köçkünə evlər tikirik, yol çəkirik,
Veririk hamısına torpaq, Qarabağ getdi bada.
Oxuyub-çalmağa yaman qarışıbdır başımız,
Oynayır qızlarmız çılpaq, Qarabağ getdi bada.
Vaqonda, çadırda çoxdan qırılır qaçqınımız,
Şuşada kef edir Arsaq, Qarabağ getdi bada.
Gecə gündüz oxuyuruq Qarabağ şikəstəsi,
Həsrətik Xankəndə ancaq, Qarabağ getdi bada.
ATƏTdən, BMT-dən biz niyə yardım umuruq,
Özümüz güclə almasaq, Qarabağ getdi bada.
Binnətəm, yaraşıqdır ən uca bayraq Bakıya,
Xankəndə sancmasaq bayraq, Qarabağ getdi bada.

09.05.1992

Duraq elin keşiyində

A didərgin Vətən oğlu, acıyıram halına mən?
Niyə yardım diləyirsən, pay umursan yadlardan sən?
Vaqonlarda, çadırlarda, yataqxana küncündəsən,
Özündən xəbərin varmı, bilirsənmi nə gündəsən?!
Nə vaxtadək ondan-bundan,yardım-kömək umacaqsan?

www.kitabxana.net
Nə vaxtadək haqsızlığa sən dözüb, göz yumacaqsan?
Anan-bacın əsirlikdə, sən Bakıda səfil-səryən,
Oğlun-qızın dilənçidir, yığılmayır küçələrdən.
Nə əvvəlki ev-eşiyin, nə əvvəlki dövranın var,
Yazda səni dolu döyür, qışda yağır başına qar.
Axşamadək küçələrdə boyun büküb iş gəzirsən,
Yerin-yurdun yada qalıb, sən şəhərdə «dinc» gəzirsən.
Gah muzdursan, gah hambalsan, gah da səfil-sərgərdansan:
Kəndin yerlə-yeksan olub, bilirsənmi sən hardansan?
Çırağın, ocağın sönüb, suyun axmır, otun bitmir,
Əsir düşmüş qardaşına əlin çatmır, ünün yetmir.
Harayını kar qulaqlar eşitməyir neçə ildi,
Lal məmurlar əhvalını nə soruşdu, nə də bildi.
Yardımları yeyə-yeyə yardımkomlar sığmır yola,
Çox tüksüzlər tükləndilər,qacqınları yola-yola.
Sən ATƏT-dən, BMT-dən umma kömək, yardım-filan,
Neçə ildir eşidirsən ancaq bol vəd, şirin yalan.
Bilirsənmi danışıqla donuz çıxmaz darılıqdan,
Bilirsənmi səndən qorxmaz ermənilər görməsə qan?
Neçə ildir ermənilər ov ovlayır ovlağında,
Qürrələnib,kef edirlər allı-güllü yaylağında.
Dağıdıblar məzarını şəhid olmuş qardaşının,
Ayaqaltı eləyiblər qardaşının baş daşını.
Qaçanda hərmədə qalan,başsız papaq təhqir olub,
Əcdadların üz qoyduğu ulu torpaq təhqir olub.
Bilirsənmi sən içdiyin bulaqlardan yadlar içir,
Bilirsənmi məhəlləni yadlar əkir,yadlar biçir?
Nə vaxtadək vaqonlarda,çadırlarda qalacaqsan?
Səni qaçqın,xar edəndən nə vaxt qisas alacaqsan?
Silah götür, partizan ol, dağa-daşa, çöllərə düş.
Yağıları yandırıb yax, Babək kimi dillərə düş.
Soltan bəytək hünər göstər, alqışlayım hünərini,
Sən qalib ol, öpək sənin zəfər çalan əllərini.
Gəl, qardaşım, silahlanaq, duraq elin keşiyində,

www.kitabxana.net

Xoşbəxt olsun hər didərgin öz evində-eşiyində.
ATƏT – filan boş söhbətdir, kömək umma heç bir kəsdən,
Çoxları bu atəşkəsi uzadırlar, Binnət, qəsdən.

26.07.1992

On iki ildir

Nə könlüm açılır, nə üzüm gülür,
Nə təbim çağlayır, on iki ildir.
Göylərdən üstümə kədər tökülür,
Qəlbim qan ağlayır, on iki ildir.

Yazsam dərdlərimi, alovlanaraq,
Qələm nalə çəkər, alışar varaq.
Hara qaçıramsa, taleyimə bax,
Dərd məni haqlayır, on iki ildir.

Aldı silahımı sərkərdəm - zalım,
Qoymadı yağıdan, yaddan öc alım.
Hardasan, ağ atlım, hər an Xocalım,
Səni soraqlayır, on iki ildir.

Sönüb bir şəhərin odu-ocağı,
Dağılmış evlərin yanmır çırağı.
İnsafı unudub qan içən yağı,
Sinəmi dağlayır, on iki ildir.

Yadlar at oynadır Cıdır düzündə,
Bacımın murazı qaldı gözündə.
Ehtiyac içində, Çadır düzündə,
Anam yas saxlayır, on iki ildir.

Binnətəm, olmuşam köz, görə-görə,
Haqqım tapdalanır göz görə-görə.
BMT yağıya üz görə-görə,
Əlimi bağlayır, on iki ildir.

25.02.2002

www.kitabxana.net

Tovuza gəl

Qarlı qış sovuşub, bahar gələndə-
Göylərdən torpağa nur töküləndə,
Açanda gözünü nərgiz, bənövşə,
Üzünə güləndə çəmən, çöl, meşə.
Dərələr, təpələr əlvan geyəndə,
Hər quş öz dilində nəğmə deyəndə,
Çən-çisək çəkilib, duman itəndə.
Dağda kəklik, bağda bülbül ötəndə,
Tələs qaranquşdan, durnadan əvvəl
Tovuz tamaşalı obamıza gəl.
Başından düşəndə dağın ağ şalı,
Ağappaq geyəndə alça, albalı,
Çiçəkdən çiçəyə qonanda arı,
Güllər qımışanda günəşə sarı,
Qızılgül, itburnu qönçələnəndə,
Çisəkdən çəmənə şeh çilənəndə,
Iydənin çiçəyi şaxı əyəndə,
Quzqulaq, qulançar özəkləyəndə,
Yemliyin şehindən islananda əl
Çıxım pişvazına, sən Tovuzuma gəl.
Qarı əriyəndə yamacın, yalın,
Zirvədən gələndə qıyı qartalın,
Sınanda bulağın gözünün buzu,
Göy otun üstünə çıxanda quzu,
Səhərlər Ağdağın mehi əsəndə,
Göylər ayazıyıb, yağış kəsəndə,
Çiçəklər jalədən sırğa taxanda,
Günəş gülümsəyib yerə baxanda
Bizim yerlər olur hər yerdən gözəl,
Bizim abad, gözəl, şən Tovuza gəl.
Tovuza çatmamış saxla maşını,

www.kitabxana.net

Bu müqəddəs yurda əy öz başını.
Gözəldir baharı-yazı Tovuzun,
Şirindir söhbəti,sözü Tovuzun.
Bizə istər yayda,istər yazda gəl,
Toya şana gəlsən, sən payızda gəl.
Eşitmək istəsən şirin avazı,
Dinləmək istəsən aşığı,sazı,
Bizim sazlı-sözlü obamıza gəl,
Bizim toylu-şanlı şen Tovuza gəl.

Yaz gələ bilməsən yayda gəl, barı,
Birgə qarşılayaq gəl, son baharı.
Gəl lalə, qızılgül pardaqlananda,
Səba çiçəkləri varaqlayanda.
Gözəllər gəzməyə düzə çıxanda,
Boyotu, şehtökən dizə çıxanda,
Yal- yamac özünə bəzək vuranda,
Hər quş öz zövqüncə yuva quranda,
Gözəllər özünə bəzək vuranda,
A Binnəti heyran eləyən, gözəl,
Mənim kimi vurul, sən Tovuza gəl.

01.06.2006

Şəhidlər Xiyabanında

(20 yanvar 2007-də Şəhidlər xiyabanında oxudum. TV-də göstərdilər)

Zəvvar, asta yeri, bu Xiyabanda,
Şəhid olmuş, nakam insanlar yatır.
20 yanvarda boğulub qanda

www.kitabxana.net

Murazı gözündə qalanlar yatır.
Yalın əlləriylə tankı əyləyən,
«Mən ölüm, millətim yaşasın»,- deyən.
Canını Vətənə sipər eləyən,
100 güllə yarası alanlar yatır.
Çıxdı küçələrdə qan dizə kimi,
Deşdi sinəmizi qəm nizə kimi.
Burda İlham kimi, Fərizə kimi,
Əhdinə vəfalı olanlar yatır.
Xalqıma elə dağ çəkib qansızlar,
Ölənədək gözlərimdən qan sızlar
Burda Salatıntək qəhrəman qızlar,
Ülvi Çingiz kimi oğlanlar yatır
Məzarlar al geyib gülüstan kimi,
Şəhidlər uyuyur qəhrəman kimi.
Burda Şah İsmayıl, Cavad Xan kimi,
Tarixdə əbədi qalanlar yatır.
Hər bura gələndə car olur yaşım,
Hər şəhid qəbrinə əyilir başım.
Burda oğlum, qızım, bacım, qardaşım-
El üçün, xalq üçün yananlar yatır.
Başını uca tut, Vətən, fəxr elə,
Binnət, sən də öyün bu gündən belə.
Bu müqəddəs yerdə ölümlərilə
Ölümə qələbə çalanlar yatır,
Tarixdə əbədi qalanlar yatır.

19.01.2007

www.kitabxana.net

Bakı

Gəl balamtək öpüm, bağrıma basım,
Anamtək qayğıkeş, mehriban Bakı.
Gündüzü günəşli, axşamı aylı,
Gecəsi işıqlı-çıraqban Bakı.
Öpür ayağını aşiqin Xəzər,
Adın nəğmə kimi dillərdə gəzər.
Nə sənin tayın var, nə sənə bənzər
Sən həm ixtiyarsan, həm cavan, Bakı.
Görübsən ağrılı fəsillər, illər
Əsibdir üstündən çox qara yellər.
İki gözü kimi qoruyub ellər,
Səni hər yağıdan, hər yaddan, Bakı.
İsçəri şəhərdə küçələr, evlər
Tarixə şahiddir. Qocaman şəhər.
Darıyır saçını xəzri hər səhər,
Hər axşam, hər gecə-hər zaman, Bakı.
20 yanvarda, çıxmaz yadımdan,
Oldu igidlərin qanına qəltan.
Cəsursan, həmişə alovdan-oddan
Şir kimi çıxmısan qəhrəman, Bakı.
Səni qəlbi sanır azad Vətənim,
Binnətəm, başına dolanım sənin.
Ziyarətgahımdır, pirimdir mənim
Dağüstü parkdakı Xiyaban, Bakı.

22.01.2007

www.kitabxana.net

Şəhidlərə mərsiyə

Bir ildir bir müsibət üzür Azərbaycanı,
Asimana ucalır xalqımızın fəğanı
Ağlamaqdan bir gözüm Arazdır, bir gözüm Kür,
Ahım buluda dönüb, tutubdur asimanı.
Dilim fəryad qoparır, göz yaşım selə dönüb,
Qorxuram göz yaşımdan qopa Nuhun tufanı.
Çəkilməz dərdlərimlə dustağam daş zindanda,
Qaranlıq zindanımın kafirdir zindanbanı.
Bənizlər tutqun solğun, könüllər dərdli, yaslı.
Yenə dolur, boşalır şəhidlər xiyabanı.
Insanlar asta – asta, sıx cərgələrlə, dərdli.
Ziyarətə gəlirlər bu müqəddəs məkanı.
Nə insanın sayı var, nə gülün, nə çələngin,
Bu məzarlıq mat edib gülzarı, gülüstanı.
Al - əlvan qərənfillər, qızıl güllər hüznlə
Bəzəyir matəm dolu yaslı məzarıstanı.
Qışın şaxtalı çağı, qar yağır, ayaz kəsir
Burda güllər, çiçəklər bürüyübdür hər yanı.
Yenə əli qoynunda zarıyıb inləyirəm,
Dərdimin nə loğmanı, nə də yoxdur dərmanı.
Dərd məni elə üzüb, dostlar tanımır məni,
Bir kölgəyəm, bir də səs, bada vermişəm canı.
Yasxananı sazlayın, ağı deyin ağlayın
Çoxdan ölüb getmişəm, çağırmayın loğmanı.
Şəhidlərlə bir öldüm iyirmi yanvarda mən,
Kim deyir ölməmişəm, kim deyir bu yalanı?!
Çoxdandır ki, bircə yol ürəkdən gülməmişəm,
Çoxdandır qınayıram güləni, oynayanı.
Sözüm qəm donu geyib, söhbətim matəm donu,
Şeirim ağı, mərsiyə, kim dinlər bu giryanı?
Sevinib şənlənməyi fələk alıb əlimdən,

www.kitabxana.net

Qırıb yazıb – pozduğum qələmi, qələmdanı.
Bu qəmxana dünyada dərdlərimlə tək qaldım,
Şəhid oldu dostlarım, tərk etdilər dünyanı.
Bu matəmə yas tutur həm bəşər, həm mələklər,
Lənətləyir müdam Qarapeti, İvanı.
Yox imiş azğınların insafı, mərhəməti,
Qana hərislər tökər nahaqdan nahaq qanı.
Göygöz, kürən iblislər, baltaburun şeytanlar
Birləşib, başımıza dar etdilər dünyanı.
Göylər də yas saxlayır, yerlər də şəhidlərə,
Binnətəm, şəhidlərin yerdə qalmasın qanı.

20.01.1991

Şəhid anasıyam

Oğlu şəhid olmuş bir anayam mən,
Gəlini dul qalmış qaynanayam mən,
Dərd əlindən dəli-divanəyəm mən.
Qalmayıb gözümdə yaş ağlamaqdan,
Tükənib taqətim yas saxlamaqdan.
Fələyi kar edib amanım, ahım,
Dərddir, ah-nalədir axşam-sabahım.
Şəhidlər qəbridir ziyarətgahım.
Sızlayıram hər məzarın yanında,
Müqəddəs Şəhidlər xiyabanında.
Orda yüz-yüz məzar sıralanıbdır,
Hamımızın qəlbi yaralanıbdır,
Üzüm haqda, əlim göydə qalıbdır.
Alaq yağılardan, yadlardan qisas,
Biz də bayram edək, saxlamayaq yas.
Çıxmır xəyalımdan o yanvar, o qış,
Heç zaman nahaq qan yerdə qalmamış.
Ölməyəm düşməndən qisas almamış,

www.kitabxana.net
Şəhidlərin qanı qalmasın yerdə,
Yurduma qara qış gəlməsin bir də.

24.01.1992

Əlim də getdi

Vaxtsız xəzan vurdu, soldu gülşənim,
Çiçəyim də getdi, gülüm də getdi.
Bağ-bağçamı talan etdi düşmənim,
Çəmənim də getdi, çölüm də getdi.
Dağıtdılar Xocalını, Laçını,
Məhv etdilər dağda-daşda qaçqını.
Döydü dizlərinə, yoldu saçını
Anaların saçı əlində getdi.
Biz yaraqsız olduq, düşmən yaraqlı,
Biz suçlu sayıldıq, suçlular haqlı.
Əsir apardılar qolları bağlı,
Əlil sağ qalanın belində getdi.
Qisasdır, zəfərdir istəyim mənim,
Qanla sulanıbdır çölüm, çəmənim.
Şəhid, əlil oldu min-min sevənim,
Məcnunum da getdi, Leylim də getdi.
Bezməyək düşmənə qəbir qazmaqdan,
Dığaların səflərini pozmaqdan.
Qarabağın dərdlərini yazmaqdan
Dəftər də, qələm də, əlim də getdi.
Binnət, hər misranı mənayla bəzə,
Haqq gəzənlər getdi gedər-gəlməzə.
Ədalət, həqiqət, haqq gəzə-gəzə,
Sabir də, Möcüz də, Cəlil də getdi.

16.02.2011

www.kitabxana.net

Azərbaycan ordusu!

Təlimlər başa çatır, yetişir son imtahan,
Azğın qəsbkarlara vermə döyüşdə aman.
Sənin şücaətinə güvənir Azərbaycan,
Qoy başlansın son döyüş-haqq-ədalət davası,
Silahlan, hücuma keç, Azərbaycan ordusu!
Bəsdir tapdaq altında inlədi torpağımız,
«Şun»a, «xoz»a yurd oldu aranımız, dağımız.
Xankəndində yellənsin qələbə bayrağımız,
ATƏT-in BMT-nin olmadı bir faydası
Silahlan, hücuma keç, Azərbaycan ordusu!
Koroğlutək nərə çək yad titrəsin səsindən,
Düşmən bağrı çatlasın Babəklər nərəsindən!
Azad et Qarabağı quduzlar pəncəsindən!
Qələbədir-qələbə dərdimizin davası,
Silahlan, hücuma keç, Azərbaycan ordusu!
Öz yurduna qayıtsın yurdu talan olanlar,
Sevinsinlər, gülsünlər ağlar - giryan olanlar!
Gözüdar, dili haça, qəlbi ilan olanlar.
Bəsdi aranı qatdı, bəsdi bulandırdı su.
Silahlan, hücuma keç, Azərbaycan ordusu!
Üzəvarı danışan riyakar həmsədrlər
Öz xeyirləri üçün ancaq gəlib-gedirlər.
Utanmayırlar, bizdən güzəşt tələb edirlər,
Ara düzəltməz, əyər, məslək, vicdan oğrusu.
Silahlan, hücuma keç, Azərbaycan ordusu!
Aşkar silahlandırır hələ yağı-yağını,
Birləşib,zəbt edirlər Zakirin torpağını.
Doğru deyiblər, basmaz it-itin ayağını
Quzğunlara qalmasın Laçınların yuvası,
Silahlan, hücuma keç, Azərbaycan ordusu!
Kömək, imdad gözləmə "brat"dan, "bəradər"dən,

www.kitabxana.net
Üzünə gülümsəyib, qımışsalar da hərdən.
Mərifət ummaq olmaz “xoz”dan, “medved”dən, “xər”dən,
Bir bezin qırağıdır bu cındırlar hamısı.
Silahlan, hücuma keç, Azərbaycan ordusu!
ABŞ-ın, Fransanın şamı bizə nur salmaz.
Hər qərəzli dost olmaz, hər yad yada yer almaz.
Şəhidin qanı yerdə, qisas məhşərə qalmaz.
Cəsur şirlərin olmaz tülkülərdən qorxusu.
Silahlan, hücuma keç, Azərbaycan ordusu!
Bəsdi sınağa çəkdi daşnaq gədələr bizi,
Qana qəltan etdilər min-min Fəridimizi.
Əlil, şəhid etdilər yüzlərlə Mübarizi,
Qiyamətə qalmasın şəhidlərin qisası,
Silahlan, hücuma keç, Azərbaycan ordusu!

26.11.2011

Kosmonavt

Kosmonavt, peykinlə göyləri dolaş,
Məncə pay-piyada ana torpağı,
Sən dərin göylərin sirrlərini aç,
Mən döndərim gülüstana torpağı.
Uç Aya, Günəşə, uç Yupiterə,
Apar Yerin Göyə salamlarını.
Mənimsə imkanım ola bir kərə
Görəm ayrı düşmüş obalarımı.
Mövhümat, cəhalət bəsdir bu qədər
Həqiqəti dandı, haqqı unutdu
Sən ərşi dolandın, qazandın zəfər
Qəhrəmanlığına bir şübhə yoxdu.
Sən uçdun göylərə nəzər salmaqçün,
Gördülər enməyin sayılır zəfər.
Daha da alçaldı ucalmaq üçün
Alçala-alçala ucalan kəslər.

www.kitabxana.net
Şimşək həsəd çəksin, yar buludları,
Uçmaq insanlarda sönməz həvəsdir.
Sənin olsun dünya mükafatları,
Mənə azad Vətən, azadlıq bəsdir.

15.04.1962

Budur

Ən şərəfli ömür Vətənə şərəflə xidmət etməkdir.
Ən şərəfli ölüm Vətən uğrunda ölməkdir.
Binnət Eloğlu.

Vətənini sevəsən, elinə vurulasan
Bax, əsl ülfət budur, əsl məhəbbət budur!
El oduna yanasan, elin oğlu olasan
Bax, əsl qeyrət budur, əsl ləyaqət budur!
Xeyirxah iş görməyə hamı girə yarışa,
Sərhədləri sökələr, el-elinə qarışa.
Rəhbər də, rəiyyət də Vətən üçün çalışa
Bax, əsl vəhdət budur, əsl cəmiyyət budur!
Aravuran xəbislər aralığı qatmaya,
Yadlar doğmalarını evdən çölə atmaya.
Öz elində qohuma, dosta əlin çatmaya
Bax, əsl həsrət budur, əsl müsibət budur.
Qonşusunu dalayır yalı artan, quduran.
Şah ədalətli olsa, qan qusar qan udduran.
Hər yerdə məhəbbətlə deyər yerindən duran:
Bax, əsl dövlət budur, əsl hökümət budur!
Evinə sahib çıxa çust yamayıb silənlər,
Səni evindən qova, sənə qonaq gələnlər,
Deyəsən, eşitməyə dərdini dərd bilənlər,
Bax, əsl dəhşət budur, əsl məşəqqət budur!
Özündən böyük oldu millətin dərdi-səri.
Millətə "ata" oldu müstəbid, gic, sərsəri.
Otuz ildə taladı eli "ellər rəhbəri"

www.kitabxana.net
Bax, əsl nifrət budur, əsl xəyanət budur!
Biclər əlifbamızın başında turp əkdilər,
Müqəddəs ocaqları dağıtdılar, sökdülər.
Gizli, aşkar millətin qəlbinə dağ çəkdilər,
Bax, əsl möhnət budur, əsl fəlakət budur!
Qanunları pozdular, əyildikcə əydilər,
Yerimizi böldülər, haqqımızı yedilər,
Qəzetlərdə yazdılar, kürsülərdən dedilər:
"Bax, əsl adət budur, əsl ədalət budur!"
Gündə bir dəyyus elə kələk gələ, aldada,
Xalqın başından basa, heykəl ucalda yada.
Gizli, aşkar Vətəni gah dağıda, gah sata,
Bax, əsl qarət budur, əsl tələfat budur!
Başına qapaz vurub, ovcuna tum tökələr.
Mədrəsəni dağıdıb, məscidini sökələr,
Elini parçalayıb, tikanlı sədd çəkələr.
Bax, əsl zillət budu, əsl rəzalət budu!
Haqqını tələb etsən, ağzına daş basalar,
Oğruların əliylə türmələrdə asalar.
Haqsızlıqlara dözməz, divarlar da səs salar.
Bax, əsl vəhşət budur, əsl cinayət budur!
Qazancını verəsən peysəri yoğunlara,
Su açа bilməyəsən, pul verməmiş cuvara,
Əkdiyini yad yeyə, göz yaşların suvara,
Bax, əsl zəhmət budur, əsl əziyyət budur!
Bir xəlbir dən olmaya elin xırmanlarında,
İkiqat şahad yığa yad dəyirmanlarında,
Yadlar qaçaqlıq edə sənin ormanlarında,
Bax, əsl zülmət budur, əsl qiyamət budur!
İşləyən əlli alır, işləməyənlər min-min.
Gah eldə yasaq olur, gah da azad olur din.
Qeyrətlilər, millətin dərdinə əlac edin!
Bax, əsl söhbət budur, əsl məsləhət budur!
Biz üşüdük, qazımız bizdən uzaqda yandı,

www.kitabxana.net
Ədalətin adıyla zülm ərşə dayandı.
Haqqını tələb edib, şükür, xalqım oyandı!
Bax, əsl cürət budur, əsl cəsarət budur!

Son qoyduq ahu-zara, sədləri yara-yara,
Axışdıq meydanlara, dözdük çovğuna, qara.
Döndük tunc yumruqlara, monolit divarlara,
Bax, əsl qüdrət budur, əsl dəyanət budur!

Xalq cəbhəsi yaradıb, yağıları yanıdıq,
Bicləri, çuğulları, qorxaqları qınadıq,
Satqınları tanıdıq, mətinləri tanıdıq,
Bax, əsl şöhrət budur, əsl mətanət budur!

Bircə an uzaq düşsəm, könlüm dözməz həsrətə,
Mən əbədi aşiqəm bu elə, bu millətə,
Odu, suyu, torpağı, müqəddəsdi Binnətə,
Bax, əsl hörmət budur, əsl sədaqət budur!

Ölkəni abad edək, yad da sevib, baş əysin,
Gözü götürməyənlər çatlasın, zəhər yesin!
Vətəni cənnət edək. Dost da, düşmən də desin:
Bax, əsl millət budur, əsl məmləkət budur!

20.12.1989

Yoxdur

(bir köçkünün dilindən)

Ay oğul, yaz deyim, kiməm, hardanam,
Qaçqınam, köçkünəm, ünvanım yoxdur.
Yoxdur ev-eşiyim, barım-barxanam,
Səfil-sərgərdanam, məkanım yoxdur.

Qəm deşir sinəmi, açılmır könlüm.
Dərdimi danışsam alışar dilim.
Bezmişəm həyatdan gəzirəm ölüm.
Bu gündən sabaha gümanım yoxdur.

Gülləbaran oldu qohumum, qonşum -
Ərim, oğlum, qızım, bacım, qardaşım.
Dərd alıb ağlımı, dağılıb huşum,

www.kitabxana.net

Adımı yadına salanım yoxdur.
Sıxır məngənətək qəlbimi dərdim,
Şirin arzu əkdim, acı qəm dərdim.
Soyadım-Yerazdır, adım-didərgin
Nə desəm elə yaz, yalanım yoxdur.
Yağılara mülküm, varım qalıbdır,
Güllü bağçam, bağım, barım qalıbdır.
Saysız pətəklərim, arım qalıbdır.
Binnət, qisasımı alanım yoxdur.

18.02.1989

Yeddi gündür

Müsibət yasxanasında yas tuturam yeddi gündür.
Nə durur, nə dincəlirəm, nə yatıram yeddi gündür.
Qara geyib, yas saxlayır bütün çalıb oxuyanlar.
Yeddi gündür nə şənlənən, nə gülən, nə oxuyan var.
20 yanvar gecəsi od ələndi başımıza,
Xalqımıza zülm etdilər, qərq olduq göz yaşımıza.
İnsanları əzib, keçdi ağır tanklar, Beteerlər,
Şəhid oldu günahsızlar, yas saxladı göylər, yerlər.
Sınanmamış silahları üstümüzdə sınadılar,
Küçələri, meydanları qanımızla suladılar.
Əliyalın insanları güllələdi qudurğanlar,
El yolunda süngülərə sinə gərdi qəhrəmanlar.
Üstümüzə silahlardan alov yağdı, od töküldü
Ağlar-sızlar halımıza dost ağladı, düşmən güldü.
Əlimdə nə ixtiyarım, nə gücüm var, nə silahım,
Bu günümdə türkdən başqa nə dostum var, nə pənahım.
Dərdimiz elə dərddir ki, qəmimiz elə qəmdir ki,
Binnətə olan bu sitəm, elə ağır sitəmdir ki,
Nə dillər danışa bilər, nə qələmlər yaza bilər.
Bu dərdlərə nə dəmirlər, nə də daşlar dözə bilər.

27.01.1990

www.kitabxana.net

Gedir

Şəhidlər xiyabanı... Azadlığın qurbanı
Olanlarla görüşə dərdli bir şəhər gedir.
Göz yaşına qarışıb yanaqların al qanı,
Yaşlı ata-analar, qızlar, gəlinlər gedir.
Qardaşlar gözü yaşlı, bacılar qara bağlı,
Atalar köksü ahlı, analar qəlbidağlı.
Həsrətdir öz elinə, qaçqındır Qarabağlı,
Cəsur oğlanlar, qızlar, gəlinlər əsgər gedir.
Azıb azğın düşmənlər, əliqanlı baş kəsir,
Xocalını yandırıb, Ağdərəyə tələsir,
Silahsız insanları qırır, aparır əsir,
Vətən yolunda fəda ata, oğul-ər gedir.
Torpaq yağıya qalar olmasa mərd obada.
Sərkərdə qaçaq olsa, heç verməz ordu bada.
Sədərəyə top atan göz dikib Ordubada,
Əliyalın əllərdən Laçın, Kəlbəcər gedir.
El qeyrəti çəkənlər qırılır, Allah, hoydu,
Muzdur evində yasdır, düşmən evində toydu.
Ağdamda dava gedir, Bakıda soyhasoydu
Tinlərdə, dalanlarda şıdırğı alver gedir.
Bəsdir şəhid olanlar, bəsdir kəfən geyənlər,
Elin qeydinə qalın, "Vətən", "Millət" deyənlər.
Kürsülərdən hayqırıb, sinəsinə döyənlər,
Oğul əkəsi torpaq, baba yatan yer gedir.

20.01.1993

Lazımdır Azərbaycana

Çəkilsin qaranlıq. İşıqlı, nurlu,
Səhər də lazımdır Azərbaycana!
Günəşsiz olmasın bircə günü də,
Ülkər də lazımdır Azərbaycana!
Dayansın şimalın qara yelləri,
Çəkməsin sınağa göylər yerləri!

www.kitabxana.net
Qoruyaq yağıdan, yaddan elləri.
Çəpər də lazımdır Azərbaycana!
Gəlin tələsməyək şəhid olmağa,
Tələsək düşməndən qisas almağa!
Düşmənin canına lərzə salmağa,
Təpər də lazımdır Azərbaycana!
Görüb hər tufanı, boranı, qarı,
Talanıb sərvəti, dövləti, varı.
Zülmətdən işıqlı sabaha sarı
Səfər də lazımdır Azərbaycana!
Bəsdir, çaşdığımız sual-cavabda,
Gərək aldanmayaq heç bir hesabda.
Müəllim də, məktəb də, dərs də, kitab da,
Dəftər də lazımdır Azərbaycana!
Danışıqla zəfər çalınmaz, qağa!
Gərək hazır olaq qisas almağa.
Təkcə siyasət yox, zəfər çalmağa
Hünər də lazımdır Azərbaycana!
Saysız açılmamış dəfinəmiz var,
Min ağzı möhürlü xəzinəmiz var,
Var olsun bu halal sərvət, təmiz var,
Gövhər də lazımdır Azərbaycana!
Ordusu olmasa bir məmləkətin,
Onun yaşaması çətindir çətin.
Alaylar pozmağa müzəffər, mətin
Ləşkər də lazımdır Azərbaycana!
Qaçıb gizlənməsin hərə bir küncə,
Birlik pozulanda azalar güc də.
Basılmaz qala da, alınmaz bürc də.
Səngər də lazımdır Azərbaycana!
Qələbə istəyir sağ da, əlil də,
Bu gün millət dərdi çəkən Xəlil də.
Sabir də, Hadi də, Mirzə Cəlildə,
Cəfər də lazımdır Azərbaycana!

www.kitabxana.net

Çəkir arabanı hərə bir yana,
Kimisi İrana, kimisi Turana.
Yazıla tarixə, düşə dastana.
Zəfər də lazımdır Azərbaycana!
Pirimdi Xəqani, Qətran, Nəsimi,
Binnətəm, mərdlərdən aldım dərsimi.
Bu gün Babək kimi, Xətai kimi
Sərkərdə lazımdır Azərbaycana!

15.09.1996

Yaraşmaz bizə

Hələ ki, Qarabağ yağılardadır,
Hələ ki, Xocalı, Şuşa dardadır,
Hələ ki, tapdanır Laçın, Kəlbəcər,
Hələ ki, talanır yüz-yüz kənd-şəhər,
Hələ ki, Xankənddə xandır dığalar,
Hələ ki, minlərlə əsirimiz var,
Hələ ki, çarə yox dərdlərimizə
Şənlənmək, sevinmək yaraşmaz bizə.
Çalıb-oynamağı yasaq edələr,
Oynayıb-güləni dustaq edələr,
Şadlıq evlərini möhürləyələr,
Şadlanmaq, sevinmək olmaz deyələr!
Yubileyi, bayramı ləğv eləyələr,
Çalıb oynayana lağ eləyələr.
Hələ də yas tutur gəlinlər, qızlar,
Hələ də anasız, atasızlar var.
Atəşkəsdir, hələ şəhid veririk,
Hələ yaslı gəzib qara geyirik.
Hələ yumruq kimi birləşməmişik,

www.kitabxana.net
Tülkülər önündə şirləşməmişik.
Hələ ki, qələbə çalmamışıq biz,
Düşməndən intiqam almamışıq biz,
Qış da çıxıb getsə, bahar da gəlsə,
Göydən üzümüzə günəş də gülsə,
Başımıza çiçək də, gül də tökülsə,
Yolumuza almaz da, ləl də tökülsə,
Çəməndə gül-çiçək, çıxsa da dizə
A, Binnət, şənlənmək yaraşmaz bizə.

08.03.2003

El dərdi

(daxili qafiyə)

Gecə keçib gecədən, nə gələn var, nə gedən.
Məni yuxusuz edən, el dərdidir, el dərdi.
Gədələr şahlıq edir, biclər Allahlıq edir.
Ellər! El əldən gedir, çəkdiyimiz kədərdi.
El elindən qovulur, köçkün didərgin olur.
Vətən boşalır, dolur, bu nə gəldi-gedərdi?!
Qeydimizə qalan yox, könlümüzü alan yox.
Bizi yada salan yox, ah - vayımız hədərdi.
Çöllərə su gətirdik, əkdik, səpdik, bitirdik.
Hər cür nemət yetirdik, biz becərdik, yad dərdi.
Görüləsi iş çoxdur, iş gəzənə iş yoxdur.
Hazırdan yeyən toxdur, aclar becərənlərdi.
Milləti aldadanlar, eli soyub - çapanlar,
Aralığı qatanlar xəbislər, iblislərdi.
Çoxdu kalanlarımız, rüşvət alanlarımız,
Kənddə qalanlarımız qocalar, xəstələrdi.

www.kitabxana.net
Uçub dəyirmanımız, dağılıb xırmanımız,
Yaxşı dolananımız hər kənddə beş nəfərdi.
Tərif yazır məddahlar, fələyə çatıb ahlar,
Süd tapmayır uşaqlar kənddə, bu nə xəbərdi?!
Ev tikən evsiz qalır, mülki olan mülk alır,
Evsiz subay qocalır cavanlar dərbədərdi.
Tapılmır ucuz mallar, bazar olub "padvallar".
Bazarı möhətkirlət soyxanaya döndərdi.

12.07.1988

Ana dili

Yüz dil bilsəm, sevəcəyəm
Yenə ana dilimi.
Yer üzünə dəyişmərəm
Öz yurdumu, elimi.
Qoy hər yetən öyünməsin
"Şeir dilliyəm",-deyib.
Hələ şeir məclisində
Xalqım susmaq bilməyib.
Başdan-başa şeiriyyətdir
Dağım, düzüm, aranım.
Ruhu oxşar, könül açar
Dili Azərbaycanın.
Hər sözündə min məna var,
Hər şeirində min hikmət.
Fəxr etməyə haqqın vardır,
Ana dilinlə, Binnət.

21.101973

www.kitabxana.net

Balakən-Bakı yolunda

Tələsmə, ay şofer, demə ki, gərək
Bir maşın qabaqda olmasın məndən.
Doyunca seyr edim Zaqatalanı,
Bu yerlər narazı qalmasın məndən.

Elə hey baxdıqca baxmağım gəlir,
Ruhu məftun edən bu şən diyara.
Hara tələsirsən, bir də kim bilir,
Haçan düşəcəkdir yolumuz bura?

Baxmağı qalacaq bizə dünyanın,
Bircə yol nə olar, eşit məni də.
Başına döndüyüm Azərbaycanın
Qaxı da gözəldir, Balakəni də.

Bilmirəm, robotsan, nəsən, ay zalım,
Bir bulaq başına çatanda saxla.
Mən sizin yerlərin seyrinə dalım,
Sən də bir maşının yağını yoxla.

Göynükdən keçəndə, sən əziz canın,
Bir az yoldan kənar saxla maşını.
Ismi məhşur olmuş, İsmipünhanın
Qəbrinə hörmətlə əyim başımı.

Harda görməyiblər, ay şofer, səni,
Nə qədər xoşbəxtsən bu dünyada sən.
Kəndbəkənd gəzməkçün ana vətəni
Bəzən, şofer olmaq istəyirəm mən.

Eşidək Şəkinin şirin dilini,
Qədim xan sarayına tamaşa edək.
Böyük Fətəlinin muzey evini,
Ziyarət etməyə çiçəklə gedək.

18.08.1973

www.kitabxana.net

Yazaq zəfər marşını
(Məsnəvi)

Bəzən səyyar xəyalımla dolaşsam da dünyanı,
Bircə an da tərk etməyir könlüm Azərbaycanı.
Şair könlüm gərşd etsə də gah yerdə, gah havada
Oxay deyib, dinclik tapır, vətən adlı yuvada.
Yeri-göyü, qarış-qarış dolaşsa da xəyalım,
Aya-Günə, ulduzlara yol açsa da xəyalım,
Ürəyimin hər teliylə vətənimə bağlıyam,
Fəxr edirəm, Odlar Yurdu-Azərbaycan oğluyam.
Ana vətən, bəxtiyaram, şəndir ana qucağın,
Şöhrətindir təmiz havan, odun, suyun, torpağın.
Bir dirilik nəfəsidir yanağından öpən meh,
Abu-həyat çeşməsidir ayağından öpən şeh.
Çəmənlərin könül açır, çiçəklərin solmazdır,
Torpağın ləl-cəvahirat, daşın dürdür, almazdır.
Bir-birindən ətirlidir hər bağçan, hər çəmənin,
Üzə gülür bağ-bağçanda nərgizin, yasəmənin.
Dəniz kimi aşıb-daşır, varın, malın-dövlətin.
Günəş kimi yayılıbdır, cahana şan-şöhrətin.
Yer üzünün hər yerini gəzir sözün-sorağın,
Bu dünya durduqca yansın , vətən, nurlu çırağın!
Sən canımdan, varlığımdan, həyatımdan əzizsən,
Aydan arı, sudan duru, safsan, paksan, təmizsən.
Basılmayan vətənisən qəhrəman bir millətin,
Sarsılmazdır, tükənməzdir sənin polad qüdrətin.
Dağın qarlı, bağın barlı, havan təmiz, suyun-saf
Bəzən sənə hücum çəkib paxıl, xain, nainsaf.
Bəzən alt-üst edilsə də, Beyləqanın, Qəbələn,
Düşmənləri xar eləyib son döyüşdə qələbən.
Tomrislərin, Babəklərin vətənisən-yurdusan,
Xətainin, Cavad xanın ocağısan, odusan.
Vətən, sənə xor baxanın öz çırağı sönübdür,

www.kitabxana.net
Ocağına su atanın öz ocağı sönübdür.
Bulağına daş atanın öz suyu qan olubdur,
Torpağımdan pay umanın yurdu viran olubdur.
Vətən, yenə göylərində qara bulud görünür,
Səndən yer uman zəlillər dizin-dizin sürünür.
Bir –birinə arxalanıb quduz "xoz"lar, "çoşka"lar,
Qonşuya xain baxanın öz koması boş qalar.
Bu döyüşdə deməmisən son sözünü hələ sən,
Düşmənləri xar edəcək son döyüşdə qələbən.

XXX

Gözümdə niyyətim də var, ürəyimdə arzum da.
Qələbə marşı səslənsin mənim könül sazımda,
Vətənimin igidləri qoy silaha sarılsın,
Igidlərin nərəsindən düşmən bağrı yarılsın.
Qarabağın göylərindən köçsün qara buludlar,
Yusun qanlı köynəyini güllər ,çiçəklər, otlar!
Deyib-gülsün azad olmuş elin hər oğlu,qızı
Vətənimə həsəd çəksin səhərin dan ulduzu!
Kəsilməsin yurdumuzdan səadətin ayağı,
Gülsün bayram libasında Azərbaycan torpağı
Yurdumuzun məhəbbəti hər könüldə gül açsın,
Şöhrətimiz yer üzünü qarış-qarış dolaşsın!
Qapımıza yol tapmasın aclıq, azar, ehtiyac,
Bir nəfər nə yoxsul olsun, nə dilənçi, nə də ac!

Şəhid olmuş igidlərin qanı yerdə qalmasın,
Vaxtından tez bir çiçək də, bircə gül də solmasın.
Abadlaşsın viran olmuş bütün kəndlər, şəhərlər,
Könüllərə müjdə versin gülər üzlü səhərlər,
Uzaq olsun bu yerlərdən düşmənlərin ayağı
Günəşlə yanaşı dursun Azərbaycan bayrağı!
Bu bayrağın kölgəsində ömür sürək, gün görək,
Fərəhindən dağa dönsün yurdu sevən hər ürək.
Bir qarış da torpağımız tapdaq altda qalmasın,

www.kitabxana.net
Yurdumuzda bir yağı da, bircə yad da qalmasın.
Soyunsun yas paltarını oğlu ölmüş analar,
Şəhid vermiş anaların sevinməyə haqqı var.
Gül-çiçəklə qarşılayaq zəfər çalmış ərləri,
Qoy var olsun zəfər çalmış mərdlərin mərd əlləri!
Bundan sonra ağ günlərin bizdən üzü dönməsin,
Elimizdə bir çıraq da, bir ocaq da sönməsin!
Şadlıq, sevinc büsat qursun hamımızın üzündə,
Qələbəni bayram edək bu il Cıdır düzündə.
Binnət kimi kim sevirsə torpağını, daşını,
Gəlsin qızıl hərflərlə yazaq zəfər marşını.

08.05.1993

www.kitabxana.net

Gülüm, sənin xatirinə
“Sənin acığına” şeirinə parodiya

Deyər gülər, şən olaram,
Gülüm, sənin xatirinə.
Gül ollam, gülşən olaram,
Gülüm, sənin xatirinə.
Sənə qışda yaz olaram,
Xoş arzu, muraz olaram,
Aşıq olsan, saz olaram,
Gülüm, sənin xatirinə.
Əndamına tül olaram,
Gül olsan, bülbül olaram,
Bağça olsan, gül olaram,
Gülüm, sənin xatirinə.
“Danış”, desən, danışaram,
“Alış” desən, alışaram,
“Barış” desən, barışaram,
Gülüm, sənin xatirinə.
“Dinmə” desən, lal olaram,
Yanağında xal olaram.
Dodağında bal olaram,
Gülüm, sənin xatirinə.
Çox naz eləmə Binnətə,
Salma azara, möhnətə.
Dözərəm hər əziyyətə,
Gülüm, sənin xatirinə.

15.07.2010

www.kitabxana.net

Lələ

(Səlim Sinədəftərə nəzirə)

Havayı maaşdır ala bilənə
Rüşvət almayana gülürlər, lələ.
Kömək eləməzlər etməsən hörmət,
Etsən köməyinə gələrlər, lələ
Çalan çalıb, çalır, çalacaq yenə,
Alan alıb, alır, alacaq yenə,
Yolan yolub, yolur, yolacaq yenə,
Yolunası varsa yolurlar, lələ.
Minnət olub, olur, olacaq yenə,
Hörmət olub, olur, olacaq yenə,
Rüşvət olub, olur, olacaq yenə,
Rüşvəti verəndən alırlar, lələ.
Rüşvəti almağı bilməyən müdir,
Deyir:-Pis dövrdür, pis zəmanədir.
Rüşvət alanların işi düz gedir,
Almayanlar düzdə qalırlar, lələ.
Rüşvətin cəfası, səfası da var,
Bilir bəd nəfsinə kölə olanlar.
Hədiyyə adıyla rüşvət alanlar
Ya məhbus, ya varlı olurlar, lələ.
Binnət, çoxu görüb "Sabah gəl",-deyən,
Tək sən ha deyilsən xoşüz görməyən.
Rütbəsi olmayan, rüşvət verməyən
Adamı get-gələ salırlar, lələ.

16.03.1986

www.kitabxana.net

Göydən zülm yağır hələ

(Dostum Rasim Kərimlinin «Hələ» şeirinə cavab)
(daxili qafiyə)

Azadlıq, haqq arzulayır, Rasim, min-min fağır hələ.
Yerdən fəlakət göyərir, göydən zülm yağır hələ.
Yada daş daşıyırıq biz, xərək olub kurəyimiz.
Bu əzabla çörəyimiz daşdan güclə çıxır hələ.
Çıxsın sarı divin gözü, sinəmizə yığır közü,
Kim deyirsə doğru sözü, onu əzir, sıxır hələ.
Bu div belimizdə yükdü, qəddimizi əydi, bükdü.
Zoru çoxdu, kefi kökdü, içir, kefə baxır hələ.
Yoxdur onda insaf, vicdan, doymayır içdiyi qandan.
Haqq gəzəni bu haqq danan söyür, döyür, boğur hələ.
Quzeydən dolaşdı kələf, Cavidlərimiz oldu tələf.
Haqqa, hürriyyətə tərəf yoxdur bir yol, cığır hələ
Zalım bizə zülm eyləyir, elə hey "Rabotay",-deyir.
Biz becəririk, o yeyir, ehtiyat da yığır hələ.
Binnət candan bezib daha, ümidi qalıb Allaha.
Bu ikibaşlı əjdaha suyumuzu soğur hələ.

15.12.1973

Dolanırıq

(daxili qafiyə)

Neçə ildir azadlıq, haqq gəzə - gəzə dolanırıq.
Əsarətə, zəlalətə dözə - dözə dolanırıq.
Soran sorur qanımızı, yeyən yeyir yanımızı,
Muzdurluqda canımızı üzə - üzə dolanırıq.
Artırmırlar maaşımızı, aldadırlar başımızı,
Gözümüzdən yaşımızı süzə - süzə dolanırıq.
Qansoranlar çıxıb cızdan, içib doymur qanımızdam.
Özümüzdən, canımızdan bezə - bezə dolanırıq.
Haqqı danır hələ haqsız, sinəmdə yer yoxdur dağsız,

www.kitabxana.net
Düz deyənə hələ ağız büzə-büzə dolanırıq.
Qoşulub məddahlarına yaltaqlanırlar harına,
Bayramlarda ac qarına süzə-süzə dolanırıq.
Çox çəkibdir Binnət cəfa, kəttamız gəlmir insafa,
Dərdimizi ipə - sapa düzə - düzə dolanırıq.

20.02.1991

Nə deyəsən?!

Kəmsavada cavab

(daxili qafiyə)

A Kəmsavad, hər yerdə var vicdanı kor, ruhu karlar
Ordakı mar, burdakı mar, mardan-mara nə deyəsən?!
Yaltaqlana-yaltaqlana, gör ucaldı yaltaq hara.
Hər gün artan yaltaqlara, məddahlara nə deyəsən?!
Bədxah xalqa kömək etmir, rüşvətsiz bir iş düzəltmir.
Puldan başqa söz eşitmir belə kara nə deyəsən?
Ara vuran ölmür niyə, öz eybini bilmir niyə?
Minüzlüyə, mindilliyə-riyakara nə deyəsən?!
Artıb quduz-yolu azan, tələ quran, quyu qazan.
Gördüyünü əyri yazan "sənətkara" nə deyəsən?!
Binnət, qarov bizi görmür, yolu çaşıb izi görmür .
Gözlülər var düzü görmür, belə kora nə deyəsən?!

Yoxdur

(M.P.Vaqifə nəzirə)

Bayram oldu, varlı çalıb-oynayır,
Bizim evdə xoş bir əhval da yoxdur.
Nə ocaq var, nə də qazan qaynayır,
Evdə ət-yağ bircə misqal da yoxdur.
Necə deyək, gülək, kefi çağ olaq?
Un ala bilmədik fəsəli salaq.
Pul tapa bilmədik düyü, yağ alaq,

www.kitabxana.net
Evdə satılası bir mal da yoxdur.

www.kitabxana.net
Qaz gəlmir, işıqlar sönür axşamlar,
Ev şamu-qəribə dönür axşamlar,
Çıraqda nöyüt yox, şamdanda şamlar,
Süfrədə qatlama, qoğal da yoxdur.
Bəsdir, az sınağa çək, Allah, bizi,
Adam saymır nə səy, nə bədxah bizi.
Zülm edib alçaldır hər alçaq bizi,
Həyatdan bezmişik, əcəl də yoxdur.
Uşaqlar qəmgindir, gülüb-danışmır,
Arvad yenə məndən küsüb, barışmır,
Binnət bir xeyirə-şərə qarışmır,
Sazı kökdən düşüb, qaval da yoxdur.

18.03.1991

Gəldi

Keçdi xəstəliyim, sağaldı yaram,
Loğmanım-dərdimin davası gəldi.
Qəmim, qüssəm itdi, nə bəxtiyaram,
Bütün dərdlərimin şəfası gəldi.
Getmişdi, çəkirdim kədəri, yası,
Qayıtdı, könlümün silindi pası.
Geyinib əyninə bayram libası,
Ömrümün, günümün mənası gəldi.
Onunla getmişdi səbrim, qərarım,
O gəldi, gül açdı bağım, baharım.
Ömür-gün yoldaşım,vəfalı yarım,
Üç əziz balamın anası gəldi.
Gəzdi Mülkülüdə, Düz - Cırdaxanda,
Tovuzda-canımdan əziz məkanda.
Elə bil, a dostlar, yar qayıdanda
Evimə Ağ dağın havası gəldi.
Gəldi, üzü güldü səmanın, yerin,
Qohuma, qonşuya xəbər göndərin.
«Gözün aydın» deyin, muştuluq verin.
Bayramdır-Binnətin Şahbazı gəldi.

www.kitabxana.net

11.09.1986

Yatıbdır

(Qəmkeş Allahvediyə,
Azaflı Mikayıla nəzirə-cavab)

Qəmkeş,dünya özü qəbiristanlıqdır.
A.Mikayıl

A Azaflı Mikayıl, hər qəbiristanda,
Kim bilir nə qədər insan yatıbdır.
Hər soyuq məzarda, məzarıstanda,
Məkan sükut edir, zaman yatıbdır.
Düşür məzarlığa güzarım hərdən,
Tapmıram Müşfiqin məzarını mən.
Saray boyda türbələr var mərmərdən
Çoxunun içində nadan yatıbdır.
Uçub sərdabələr-olub viranlıq,
Orda stalinlər etmir tiranlıq.
Nə qulluq edən var, nə də ki xanlıq,
Quldan aşağıda soltan yatıbdır.
Nə Firon hökm edir orda, nə Şəddad,
Məzlum zülmkardan diləmir imdad.
Göz tökən, baş kəsən, qan içən cəllad
Olub öz qanına qəltan, yatıbdır.
Orda yanaşıdır yaxşı da,pis də,
Harun da, Hatəm də, bic də, xəsis də.
Yüz il zərbaf geyən, qızıl taxt üstə,
Torpağın altında üryan yatıbdır.
Orda yaltaqlanmır tülkülər qurda,
Yaltaqlar, məddahlar yarışır burda.
Bir məqbərə gördüm, dedilər:-orda
Bir pəltək, başı daz, şeytan yatıbdır.
Dahi var, qalmayıb ondan bir nişan.
Tapmadım qəbrini, oldum pərişan.
Bir məzarlıq gördüm, hər yanı gülşən,

www.kitabxana.net
Orda yüz-yüz şəhid olan yatıbdır.

www.kitabxana.net

Orda qədri yoxdur dövlətin, varın,
İşləmir fərmanı şahın, xotkarın.
Min dilli, min üzlü riyakarların
Dilində mədh, böhtan, yalan yatıbdır.

Xətai babamız yaratdı, tikdi,
Məscid, məktəb açdı, düz yollar çəkdi.
Harda ki, haqq yoxdur-dərəbəylikdir,
Xalqın keşiyində duran yatıbdır.

Cavad xan çəkibdir Vətən qeyrəti,
Tarixə bəzəkdir şanı-şöhrəti.
Qürbətdə, qəlbində Vətən həsrəti,
Almaz, Məmmədəmin, Nəriman yatıbdır.

Nəimi qətl oldu Şərur çölündə,
Nəsimi söyüldü Hələb elində.
Cavidin, Cəfərin şair qəlbində,
Göylərdən də dərin ümman yatıbdır.

Kopernik kül oldu içində odun,
Tələşla yaşadı Üzeyir, Vurğun.
Var dövlət hərisi yüz –yüz Nəmrudun,
Olub malı-mülkü talan, yatıbdır.

Çoxu məzarını qazıbdır özü,
Çoxunun bircə yol gülməyib üzü.
Orda milyon-milyon ağrında sözü,
Gözündə muradı qalan yatıbdır.

O qədər dərdim var sayammaz naşı,
Didib-parçalayır qardaş-qardaşı.
Paxıl ürəklərdə bəşərə qarşı,
Fəlakət, fırtına, tufan yatıbdır.

Haqqım tapdalanıb hər addımbaşı,
Yaxıb yanağımı gözümün yaşı.
Zülmə, haqsızlığa, tirana qarşı.
Qəlbimdə inqilab, üsyan yatıbdır.

Binnətəm, bu sirdən olmadım agah,
Orda bərabərdir dilənçiylə şah.
Öyün xoş halına, ay ana torpaq,
Qoynunda Tusitək loğman yatıbdır.

www.kitabxana.net

23.08.1991

Dağlar
(Aşıq Ələsgərə nəzirə)

Hələ üzün gülmür, könlün açılmır,
Hələ pərişandır halların, dağlar.
Oğlun, qızın şəhid, əlil olubdur,
Qoynunda qalıbdır qolların, dağlar.
Qucağında alaçıqlar qurulmur,
Qız nişanı, oğul toyu vurulmur.
Bulanıbdır bulaqların, durulmur,
Qana dönüb axar suların, dağlar.
Igidlər dağılıb, gözəllər köçüb,
Yaylaqda yaylayan aranı seçib.
Fürsət zalımların əlinə keçib,
Çoxalıbdır qeylü-qalların, dağlar.
Qartalların qaçqın, köçkün oldular,
Zirvələrinə yapalaqlar qondular.
Körpələrin gədiklərdə dondular,
Yas saxladı qarlı yalların, dağlar.
Ötmür məclisində bəzəkli sazlar,
Açmayır könlünü şirin avazlar.
Mavi sularından perikib qazlar,
Üzmür göllərində quların, dağlar.
Murğuz məlul-məlul yollara baxır,
Başına od yağır, ildırım çaxır.
Nə ilxı var, nə sürü var, nə naxır,
Dağıldı dövlətin, malların,dağlar.
Çoxdandır üstünə bir gələn yoxdur,
Qucağında gəzib-dincələn yoxdur.
Binnət hey soruşur, bir bilən yoxdur
Nə vaxt açılacaq yolların, dağlar?

25.05.1994

www.kitabxana.net

Küsməyə dəyməz

(M. Araza cavab)

Umdum, nə verdi ki, küsəm nə verə
Mən belə dünyanın nəyindən küsüm.

M.Araz

Yaz baharda gələr, qış zimistanda,
Nar ağacda dəyər, qarpız bostanda.
Qar zirvədə olar, gül gülüstanda,
Dünya nizamını bir misqal əyməz,
Küsmə, bu dünyadan küsməyə dəyməz.

Dünyanın fırlanan çarxı dəyişmir,
Qanunu, qaydası, nırxı dəyişmir,
Dünya su açdığı arxı dəyişmir.
Suyu öz bağına çəkirsə hər kəs,
Şair, bu dünyadan küsməyə dəyməz.

Dünya nə dəvədi, nə də həvədi,
Nə ala gəvədi, nə kəcavədi,
Hər şey dəyişəndi, dünya əbədi,
Nə ondan yaxşı var, nə də var əvəz.
Vallah, bu dünyadan küsməyə dəyməz.

Çaylara bənd vurduq, dağları yardıq,
Yerin altda nə var üzə çıxardıq,
Meydan oxuyuruq dünyaya artıq.
Dünya heç bir kəsin qəlbinə dəyməz,
Insan etdiyini dünya eləməz.
Insan, bu dünyadan küsməyə dəyməz.

Əlində girovdur dünya şahların,
Oxuna bir ovdur dünya şahların.
Tökülən qanların, qopan ahların
Əgər bacarırsan qabağını kəs!
Zalım, bu dünyadan küsməyə dəyməz.

Dünyaya tikanlı məftil çəkmişik,
Üstə min atomlu baza əkmişik,

www.kitabxana.net

Cinayət törədib, cəza əkmişik.
Dünya ziyan verən bir tum da əkməz,
Bağban, bu dünyadan küsməyə dəyməz.
Taladıq simuzər xəzinəsini,
Min-min ləl, cəvahir dəfinəsini.
Fatehlər dəyişir xəritəsini,
Dünya millimetr xətti də əyməz,
Bədxah, bu dünyadan küsməyə dəyməz.
Qanun yazan da biz, pozan da bizik.
Yolu salan da biz, azan da bizik,
Günahsıza quyu qazan da bizik.
Günahı, qüsuru özümüzdə gəz,
Binnət, bu dünyadan küsməyə dəyməz.

05.01.1999

Bu xalq yaşamağı bacarır hələ

Heysiyyət üstündə, namus üstündə
Bu millət ölməyi bacarır hələ.
S.Rüstəmxanlı

Ölməyi bacaran yaşaya bilər,
Mənalı yaşayar, mənalı ölər.
Yerində ağlayar, yerində gülər,
Bu xalq ölməyibdir, yaşayır, lələ,
Bu xalq yaşamağı bacarır hələ.
Nankoru, namərdi, satqını da var,
Didərgini də var, qaçqını da var,
Dağılmış Ağdamı, Laçını da var.
Bir kimsə də yoxdur hoyuna gələ,
Bu xalq yaşamağı bacarır hələ
Kəsilib hər yandan bəndi, bərəsi,
Imdad diləməkdən tükənib səsi.
Dostam deyəni - çox, yoxdur bir kəsi,

www.kitabxana.net

Əlindən tutan- yox, verə əl-ələ,
Bu xalq yaşamağı bacarır hələ.
Uşaqtək inanır şirin yalana,
Dözür soyhasoya, dözür talana.
Daşıyır varını hərə bir yana,
Başı açılmır ki, özünə gələ,
Bu xalq yaşamağı bacarır hələ.

Qaçqını, əlili yardıma möhtac,
Hər gün qapısını döyür ehtiyac.
ATƏT-dən, sammitdən umsa da əlac,
Yanır kürəyində dörd ildi şələ,
Bu xalq yaşamağı bacarır hələ.

Artsa da günbəgün kölə bazarı,
Məddahlıq, yaltaqlıq, tərif azarı.
Hər gün çoxalsa da şəhid məzarı,
Qanlı göz yaşları dönsə də selə,
Bu xalq yaşamağı bacarır hələ.

Əgər gözü yaşlı güləni varsa,
Payı ədalətli böləni varsa.
Vətən uğrunda öləni varsa,
Dözürsə quzeydən əsən bəd yelə,
Bu xalq yaşamağı bacarır hələ.

Sabirlik, Cəlillik edəni varsa,
Hadilik, Xəlillik edəni varsa,
Allaha bəndəlik edəni varsa.
Binnət, səbir, dözüm, güc alır hələ
Bu xalq yaşamağı bacarır hələ.

28.08.1992

Azərbaycana gəlsin
parodiya

Vətənimin seyrinə çağırıram elləri,
Sərvət görmək istəyən Azərbaycana gəlsin!
S.Rüstəm

Vətənimin hoyuna çağırıram elləri,

www.kitabxana.net
Nicat vermək istəyən Azərbaycana gəlsin.
Viran edib vandallar şəhərləri, kəndləri,
Bərbad görmək istəyən Azərbaycana gəlsin!
Bizik, neçə ildir ki, «Bambılılara» inanan,
Rəzil həyat keçirən, hüququ tapdalanan,
Yad ellərə daşınan, gizli-aşkar talanan
Sərvət görmək istəyən Azərbaycana gəlsin!
Vətənpərvər mərdləri həbs olan, güllələnən,
Zindanlarda çürüyən, karserlərdə ilənən.
İyirmi yanvarda üstə göydən qurşun ələnən
Millət görmək istəyən Azərbaycana gəlsin!
Bir günlük çörək üçün çoxu edir muzdurluq,
Düşmənlər tank-top alır, biz toy evi qururuq.
Özəlləşmə adıyla soyğunçuluq, quldurluq,
Qarət görmək istəyən, Azərbaycana gəlsin!
Xalqımızın haqq səsi kar qulaqlara çatmır,
Daşı dələn düz sözü boş beyinlərə batmır.
Heyrətdəyəm, harayım yatanları oyatmır.
Heyrət görmək istəyən Azərbaycana gəlsin!
Ağdamım, Şuşam, Göyçəm, Gorusum əldən gedib,
Xocalını, Laçını barbarlar bərbad edib,
Əskəranı, Xankəndi azad və abad edib,
Cənnət görmək istəyən Azərbaycana gəlsin!
Göz yumdular BMT-də soyqırıma, talana,
Nobel mükafatını verdilər qan salana,
Utanıb, qızarmadan mükafatı alana
Nifrət görmək istəyən Azərbaycana gəlsin.
Bilmirəm neyləmişdik biz “Ellər atası”na,
O bizi həsrət qoydu
Dərbəndə, Borçalıya,
Irəvan xanlığına, Zəngəzur qəzasına.
Dədə baba yurduna-elinə-obasına
Həsrət görmək istəyən Azərbaycana gəlsin!
Əmrlə deyirdilər:-Baba deyin Leninə,

www.kitabxana.net
Sərkərdə, ulu rəhbər, ata-deyin Stalinə.
Bu gün onların gorna, yıxılan heykəlinə,
Lənət demək istəyən Azərbaycana gəlsin!

www.kitabxana.net

Qoy səsimə səs versin əgər varsa oyanan,
Gözümdən uzaq olsun haqdan uzaq dayanan.
Səməndər quşu kimi elin oduna yanan,
Binnət görmək istəyən Azərbaycana gəlsin!

12.04.1992

Yazımmı?
(Kəmsavada cavab)

Siyasətdən yazma dedin, yazmaram!
Oğurluqdan, cinayətdən yazımmı?
Vətənini yağılara satanın
Törətdiyi xəyanətdən yazımmı,
Oyatmaram, zəhləm gedir yatandan,
Abırını, namusunu atandan.
Torpağını düşmənlərə satandan
Fəraridən, biqeyrətdən yazımmı?
Kəndxuda olalı kənddə Xudayar,
Kənddə nə abadlıq, nə rahatlıq var.
Nə mal-qoyun qalıb, nə də dövlət var,
Talan olmuş mal-dövlətdən yazımmı?
Vəzifə çatalı kor yapalağa,
Bülbüldən imtahan götürür qarğa.
Qurda tapşırıblar sürünü, qağa,
Bu zülmdən, zəlalətdən yazımmı,
Tutulub dəhnələr, dağılıb bəndlər,
Arx suya həsrətdir, əkilmir həndlər.
Bağlanır qapılar, boşalır kəndlər,
Imkan tapan qaçır kənddən, yazımmı?
Küçələrdə əsim-əsim əsirik,
Qapı-qapı günlərlə, iş gəzirik.
Qaçqınların yardımından kəsirik,
Etdiyimiz qənaətdən yazımmı?
Özümüzə tuşlanıbdır oxumuz,

www.kitabxana.net

Dərd çəkməkdən ərşə çıxıb yuxumuz.
Qəm- qüssədən havalanıb çoxumuz,
Şeir deyir bədahətən, yazımmı?
Itlər, qurdlar kəsib bəndi-bərəni,
Qovammırıq darımıza giräni.
Birləşməsək qırammarıq kərəni,-
Qurtarmarıq əsarətdən, yazımmı?
Haqsızlığa sinə gərən nərdir, nər,
Dərdim desəm divar ağlar, dər dinər.
Çəkə bilməz mən çəkdiyim dərdi nər,
Binnət çəkən əziyyətdən yazımmı?

07.03.1991

Məmləkətim, millətim

(Hörmətli Zəlimxan Yaquba cavab)

Yaman yerdə haqlayıbdır zülm, sitəm, dərd bizi,
Yaman yerdə haqlayıbdır zalım, kəmfürsət bizi.
Birləşməsək, məhv edəcək kəmfürsət namərd bizi,
Hərə bir tərəfə çəkir –birləşmək nədən çətin?
Viran olur məmləkətim, sail olur millətim.
Dərbəndə həsrət qalmışam, Təbrizə çatmır əlim,
Dərdlərimi yazmaq üçün qələmə yatmır əlim.
Tərpədirəm,yatanları niyə oyatmır əlim?
Çağırıram, bağırmaqdan tükənibdir taqətim,
Viran olur məmləkətim, sail olur millətim.
Nə Allaha ahım çatır, nə də ki, şaha ünüm.
Yalvarıram Yaradana üzü qibləyə yönüm.
Belə keçir gecələrim, belə keçir hər günüm,
Gözümdə qalır istəyim, arzum, kamım, niyyətim.
Viran olur məmləkətim, sail olur millətim.
Çadırlarda, vaqonlarda ölür qaçqın, didərgin.
Cəbhələrdən şəhid, əlil, yaralı gəlir hər gün.
Dilimdə ahlar-amanlar, gözlərimdə kədər, kin.

www.kitabxana.net

Budur fələkdən nəsibim, budur haqdan qismətim,
Viran olur məmləkətim, sail olur millətim.
Fürsət tapan eldən qaçır-üz tutur yad ellərə,
Ahımız buluda dönüb, göz yaşımız-sellərə.
Necə dözək quzeydən bu sərt əsən bəd yellərə?
Qanımızı tökənlərə çatmır gücüm-qüvvətim,
Viran olur məmləkətim, sail olur millətim.
Yenə hər gün başımıza yağır güllə yağışı,
Yenə hər gün ah- vaydayıq, axır gözmüzün yaşı.
Yenə hər gün itirir yar – yarı, qardaş – qardaşı
Yenə ata – ana ölür, uşaqlar qalır yetim.
Viran olur məmləkətim, sail olur millətim
BMT- də hələ bizi yada salan, sayan yox,
Halımıza acıyan yox, qeydimizə qalan yox,
Dünyanın heç bir yerində belə soyğun, talan yox.
Gizli-aşkar yad ellərə daşınır var dövlətim,
Viran olur məmləkətim, sail olur millətim.
Acgözlər cibini güdür, «şair»lər məddah olur,
Yetən yetəni aldadır, qazancı günah olur.
Aslanlar tələyə düşüb, tərs- tərsə pənah olur,
Nə tərsə inamım qalır, nə tərsliyə rəğbətim,
Viran olur məmləkətim, sail olur millətim.
Bu ölkənin oğlu ərdir, qızı mətindən mətin,
Niyə musavatım-məhkum, yasaqdır-hürriyətim?
Binnətəm, haqq söz deməyə yoxdur haqqım, cürətim.
Kafərlər tapdağındadır Qarabağım-cənnətim,
Viran olur məmləkətim, sail olur millətim.

09.04.1991

İçində

(*Hüseyn Arifə cavab)*

Nə ağır həyatdır, nə acı dövran,
Bülbüllər yas tutur bağın içində.

www.kitabxana.net
Istidən, bürküdən qovrulur aran,
Dağ boyda dərdi var dağın içində.

www.kitabxana.net

Qaçqın, köçkün, əlil qalıb arada,
BMT heç bizi salmayır yada.
Qırılır çadırda, yataqxanada,
Doqquz nəfər bir otağın içində.

Belə yaşamağı qalsın andıra,
Dost yox qolumuzdan tuta, qaldıra.
Nazilib dönmüşük qayış baldıra,
Palçığın çamırın, lığın içində.

Nə giley sevirəm, nə də ki qeybət,
Dostdan pay umarlar, şahdan mərhəmət.
Gecələr hər yanı bürüyür zülmət,
Bakı qalır çil-çırağın içində.

Unudub insafı kalanlarımız-
Mersedes, mülk, rüşvət alanlarımız.
Qara günə qalıb qalanlarımız,
Ac-yalavac qaranlığın içində.

Çoxunun düz sözü, düz işi yoxdur,
Xalq sevmək, yurd sevmək vərdişi yoxdur.
Arasan, axtarsan bir kişi yoxdur,
Qırx məddahın, yüz yaltağın içində.

Ehtiyac artdıqca insan dərd çəkər,
Gölə qələm düzər, xain, xərdəcəz.
Alim zail olar, şair dərdəcər,
Beş gün qalsa on axmağın içində.

Rüşvətxor mərmərdən hördürür divar,
Muzdurun nə evi, nə hasarı var.
Kiminin bəzəkli qırx otağı var,
Kimi ölür bir soxağın içində.

Dərd üstə dərd yağır, dəyişir dövran,
Bir dərdə bir çarə tapmır yüz loğman.
Halım xarab olub, əhvalım yaman
Yamanların, yamanlığın içində.

Yıxdı evimizi xəlvəti söhbət,
Məmurlardan giley, pislərdən qeybət.
Gülməyin, başını itirib Binnət
Bicin, gicin, fırıldağın içində.

www.kitabxana.net

28.05.1992

Sənsiz gülüm
(Mürəbbe-dördlük)

Sənsiz elə bil dünyada bir kəsim yoxdur, gülüm,
Sənsiz deyib-gülməyə də həvəsim yoxdur, gülüm.
Sənsiz artıb ağrılarım, yaralarım qövr edir,
Sənsiz dərdimə dəva yox, gəlsə yüz doktor, gülüm.
Sənsiz evim saray olsa, mənə zindan kimidir,
Sənsiz varım, malım, mülküm, gülüm, talan kimidir.
Sənsiz həyatım-tarimar, evim viran kimidir,
Sənsiz yorğanım, döşəyim buzdan soyuqdur, gülüm.
Sənsiz yarın Məcnun kimi eşqindən çölə düşər,
Sənsiz Aşıq Qərib kimi saz alıb elə düşər.
Sənsiz Kərəm kimi yanar, ağıza, dilə düşər,
Sənsiz Binnətin qüssəsi həddindən çoxdur, gülüm.

10.08.1976

Bu qan yerdə qalır hələ

Nahaq qan tökəndə qalmaz,-
Bu qan yerdə qalır hələ.
M.İsmayıl

Yaylağımda dağ yanıbdır,
Aranımda bağ yanıbdır.
Zülm ərşə dayanıbdır,-
Bu qan yerdə qalır hələ.
Göydən yağır zülmün qoru,
Azalıbdır haqqın nuru.
Açılmır düşmənin toru,-
Bu qan yerdə qalır hələ.
Keçib çıraq, sönüb ocaq,
Yanıb bostan, quruyub tağ.
Ölüb bağban, talanıb bağ,-

www.kitabxana.net
Bu qan yerdə qalır hələ.

www.kitabxana.net
Satıblar yerin çoxunu,
Yaş gözdən qovub yuxunu.
Göyərmir zəfər toxumu,-
Bu qan yerdə qalır hələ.
Yatıb dünyanın yiyəsi-
Ədalət, qanun yiyəsi.
Tapılmır qanın yiyəsi,-
Bu qan yerdə qalır hələ.
Çoxdandır tökülüb bu qan,
Ölkəyə səpilib bu qan,
Torpağa əkilib bu qan,-
Bu qan yerdə qalır hələ.
Binnətəm, bizdə yox günah,
Qanlar tökdü xallı,daz şah.
Üz döndərib bizdən Allah,-
Bu qan yerdə qalır hələ.

20.01.1991

Deyəmmərəm

(Səlim Sinədəftərə cavab)

A qəmxarım, eşit məni,
Yada dərdim deyəmmərəm.
Sevinc əkdim, qəm göyərdi,
«Çiçək dərdim»,- deyəmmərəm.
Şəhid oldu tay-tuşlarım,
Bacılarım, qardaşlarım.
Selə döndü göz yaşlarım,
Sildim-dərdim, deyəmmərəm.
Qan sel oldu küçələrdə,
Bakı batdı qəmə, dərdə.
Əlil oldu bu məhşərdə
Neçə mərdim, deyəmmərəm.

www.kitabxana.net
Binnətəm, əlim çənədə,
Yasa batmışam yenə də.
Elə dərdim var sənə də,
A həmdərdim, deyəmmərəm.

24.01.1990

Şübhələnmişəm
(Səlim Sinədəftərə cavab)

Dünyanın axırı çatıb deyəsən,
Bəd gələn illərdən şübhələnmişəm.
Yurdumuza hər gün quzeydən əsən
Qara sərt yellərdən şübhələnmişəm.
Yenə mat qalmışam əlimdə qələm,
Məhv olur-talanır, dağılır aləm.
Yerdən dərd göyərir, göydən yağır qəm,
Bu qopan məhşərdən şübhələnmişəm.
Yanır od içində yaxın gündoğan.
Ərşə tüstü kimi qalxır ah-aman.
Hər gün üstümüzə göylərdən yağan
Fəlakətdən, şərdən şübhələnmişəm.
Tərif eşitməkdən key olub huşlar,
Alqışdan, çəpikdən səy olub başlar,
Quzğuna mədhiyyə yazır bayquşlar,
Məddah gədələrdən şübhələnmişəm.
Fərqini bilən var yaxşının, pisin.
Haqqı deyə bilmir, susur, neyləsin?
Desə qəzəbinə gələr iblisin,
Zərd,bəd iblislərdən şübhələnmişəm.
Hələ ən qorxulu dəhşət var öndə,
Havada, dəryada, yerin üstündə
Yüz nüvə silahı sınanır gündə,
Sınadan kəslərdən şübhələnmişəm.
Yad barınır aşıb-daşan varımdan,

www.kitabxana.net

Aranda barımdan, dağda qarımdan.
Vallah, yazmasam da yazdıqlarımdan,
Daha çox şeylərdən şübhələnmişəm.
Binnət olduğutək yaz gördüyünü,
Hər sənətkar yazmır göz gördüyünü,
Bəzən də tərs yazır düz gördüyünü,
Şairdən, nasirdən şübhələnmişəm..

15.02.1989

Beş
(Qıfılbənd – Səlim Sinədəftər)

O nədir ki bu dünyada bədəni bir, başı beş?
Beş açılır, beş yumulur, gözü beşdi, qaşı beş.
On dörd bəndi, on dörd tacı bağlanıbdı səfə-səf,
Var özündən savayı da üç nəfər qardaşı beş.
Üç mərtəbə xanəsində iyirmi qul, dörd vəzir,
Gecə-gündüz qulluq edir yorulmadan müntəzir.
Iyirmi isə az müddət on üstündə çox gəzir,
Var hərdən bir hal soruşub görüşən sirdaşı var.
Bu beşləri cəm elədim, hesab yüzü addadı,
Unutmaram, şair qardaş, yazdıqlarım yaddadı.
Mən Səliməm, xəbər alsan dərsim bir ustaddadı,
Məclisində məsləhətçi dayanıb yoldaşı beş.

20.11.2011

Beş
(Qıfılbəndin açması)

Binnət Eloğlu.

A Səlim dostum, o əldir bədəni bir, başı beş.
Bir əldəki barmaqların gözü beşdir,qaşı beş.
Beş barmaqda on dörd bənd var, bir birinə bağlanıb

www.kitabxana.net
Hər barmağın özünün də üç büküm qardaşı var.

www.kitabxana.net

Iyirmi barmaqlar quldur, ayaqlar,əllər-vəzir.
Gecə - gündüz ayaq ələ, əl ayağa- müntəzir,
Iki ayaq, on barmağın üstündə insan gəzir
Sağ əlin bir hal sorusub görüşən sirdaşı var.
Əl ayaqda olanların sayı yüzdən ziyadə,
Binnət qıfılbəndi açdı, dost, səni saldı yada
Yaranandan bir şagirddir həyat adlı ustada
Məktəbində dərs öyrənir bir şagirddir yaşı beş.

Var

(Qıfılbənd. Səlim Sinədəftər)

Səhər-sübhi bir qalaya tuş oldum,
On səkkiz qapısı, on aynası var.
Canlıdır, cansızdır onun əsası,-
Arifsən de bunun nə mənası var.
On səkkiz doqquza iki qırx beşə,
Dörd haram buyrulub altı dərvişə.
Üç beşə bağlanıb, beş də onbeşə,
On dörd qeyrim üçün müəmması var.
O qala bənd edib on iki şahı,
Yazıb hər birinə on beş günahı...
Müxtəsəri budur sözün kütahı,
Səlimdən dərs öyrən bir «əmma»sı var.

21.11.2011

Var –Valeybol meydanı

(Qıfılbəndin açması)

Binnət Eloğlu

Voleybol meydanının olur hər yerdə
Uzunu on səkkiz,eni on metr
On metrlik bir tor lazımdır bir də
Üç metrlik iki ədəd dümdüz tir.
Meydan iki yerə tən bölünmüşdür.

www.kitabxana.net
Torun hündürlüyü iki qırx beşdir.
Taym üçdür, əsas zərbə on beşdir.
Kim tez vursa oyun xeyrinə bitir.
Bu oyunda on iki nəfər oynayır,
Bir nəfər vurulan topları sayır,
Binnət bağlamanı açdı, ay, şair.
Yenə qıfılbəndin vardırsa, gətir.

Hər yaşıl ağacın altı sizindir

(Zəlimxan Yaqubun "Bu yaşıl-ağacın altı bizimdır"şeirinə parodiya.)

A kefə baxanlar, kefdən qalmayın,
Hər yaşıl ağacın altı sizindir.
Heç kəsi bir ağac altda qoymayın,
Hər yaşıl ağacın altı sizindir.
Satın, bağışlayın malınız təki,
Hamısı sizindir, yoxdur şəriki.
Fantanlı parkdakı, göy meşədəki-
Hər yaşıl ağacın altı sizindir.
Dağı da, düzü də qamarlatdırın,
Kələ-kötürünü hamarlatdırın,
Harda ağac varsa, hasarlatdırın
Hər yaşıl ağacın altı sizindir.
Marallar bəslədin göy talalarda,
Ceyran, cüyür gəzsin qoy talalarda.
Dincəlin, kef çəkin yay talalarda
Hər yaşıl ağacın altı sizindir.
Sizə bir qadağa yoxdur hələ ki,
Milli bulvara da tez hasar çəkin.
Yol kənarındakı, küçələrdəki
Hər yaşıl ağacın altı sizindir.
Qəzəbi qorxutmur sizi Allahın,

www.kitabxana.net
Gözündən uzaqsız vəzirin, şahın.

www.kitabxana.net

Ziyafət də verin, kefə də baxın,
Hər yaşıl ağacın altı sizindir.
Yerinə yetəcək təmiz diləklər,
Binnət də, millət də o günü bəklər.
Bir gün gələcəkdir, deməyəcəklər-
"Hər yaşıl ağacın altı sizindir"

04.08.2009

Məmləkətin, Millətin

Hörmətli şair Zəlimxan Yaquba 2-ci cavab.
Dur ayağa məmləkətim, qalx ayağa millətim.
Z. Yaqub

Şair qardaş, hər yetəndən xalqa sərkərdə olmaz,
Fəraridən heç gizir də, adi əskər də olmaz.
Qeyrət arsızlarda olmaz, fər fərsizlərdə olmaz.
Silah alıb vuruşmağa əgər yoxsa fürsətin,
Dura bilməz məmləkətin,qalxa bilməz millətin
Hansı bəyzadə vuruşdu nə vaxt, hansı cəbhədə?
Hansı əfəlin əliylə verdik şansı cəbhədə?
Başçılar harda batmışdı, axdı qan-su cəbhədə?
Güdazına gedibdirsə inam bir biqeyrətin
Dura bilməz məmləkətin, qalxa bilməz millətin.
Döyüşdən geri çəkdilər vuruşan batalyonu,
Oğlu əsgərlik etmədi kimin varsa milyonu.
Kim kasıbsa, gücsüzdürsə əsgər etdilər onu.
Gah qəhrəman, gah da satqın sayılırsa Sürətin,
Dura bilməz məmləkətin, qalxa bilməz millətin.
Çin ipi dolaşdırıbsa, iş olubsa dualıq
Xalq qara günə qalıbsa, başdan iylənib balıq
Milləti əldən salıbsa kasıbçılıq, bahalıq,
Dolanmağı olubdursa xalqın çətindən çətin,
Dura bilməz məmləkətin, qalxa bilməz millətin.

www.kitabxana.net
Ivan ,Vartan Qarabağı quldurtək talayırsa;
Sahibsiz qalan evlərdə bayquşlar ulayırsa,
Əgər millət atəşkəsi dinclik-aman sayırsa,
Görünmürsə hələ sonu haqsızlığın, zillətin
Dura bilməz məmləkətin, qalxa bilməz millətin.,
"Hayestan"ı hayla, küylə bərbad etmək xülyadır
Siyasətlə Qarabağı azad etmək xülyadır,
Bol vədlərlə məmləkəti azad etmək xülyadır.
Yazıq millət girincdirsə torunda əsarətin,
Dura bilməz məmləkətin, qalxa bilməz millətin.
Harınlar varlanmaq üçün boş vədlə baş qatırsa,
Gizli-aşkar el malını talayırsa, satırsa,
Boş vədlərə inananlar xumarlanıb yatırsa,
Yatanları oyatmağa çatmayırsa cürətin,
Dura bilməz məmləkətin, qalxa bilməz millətin.
Haramxorlar, rüşvətxorlar pul yığmaq bəhsindəsə,
Bu maskalı dələduzlar şeytandırsa, cindirsə,
Igidlərmiz muzdurluqçün Rusetdəsə ,Çindəsə,
Hələ sonu görünmürsə ayrılığın- hicrətin,
Dura bilməz məmləkətin, qalxa bilməz millətin.
Əgər xalqın beşdən biri qaçqın, köçkün, əlilsə,
Milləti zəlil eləyən xallı gözdən zəlilsə,
Məddahlar ənam alırsa, həbs olunan Xəlilsə,
Bədxahlara xoş gəlmirsə yazdıqları Binnətin,
Dura bilməz məmləkətin, qalxa bilməz millətin.

24.05.1994

www.kitabxana.net

Başına dolandığım

(Həyat yoldaşım Şahbaz xanıma)

www.kitabxana.net

Necə keçir güzaranın?
Yaz, başına dolandığım.
Suallarıma cavab ver,
Düz başına dolandığım.

Yazdıqlarımı aldınmı,
Oxuyub razı qaldınmı,
Cavabnı yola saldınmı
Tez başına dolandığım?

Vəfa, Şəfa xoşhaldımı,
Rayona meyil saldımı?
Qardaşın mənə aldımı
Saz, başına dolandığım?

Qız olsa, bənzəyə aya,
Oğul olsa, çata hoya,
Təki, yersiz qaytarmaya
Söz, başına dolandığım.

Getdin, unutdun kişiyi,
Rahatlamışam beşiyi,
Sənsiz basıb ev – eşiyi
Toz, başına dolandığım.

Getdiyin fəsilmi, ilmi,
Binnətin sənsiz deyilmi?
Gəlsən, daha bəs deyilmi,
Öz başına dolandığın?

30.03.1985

Başına dolandığım

(Şahbaz xanım – mənə)

Xoşdu güzaranım, gəlib
Yaz, başına dolandığım,
Cavablarını verirəm
Düz, başına dolandığım.

Yazdıqlarını almışam,
Oxuyub razı qalmışam,
Cavabnı yola salmışam
Tez, başına dolandığım.

Qızların aram olmayıb,
Rayona meyl salmayıb.
Qardaşım sənə almayıb
Saz, başına dolandığım.

Oğul, ya qız çata hoya,
Böyüyəndə bizi saya,
Ədəbi, ağlı olmaya
Az, başına dolandığım.

Bacarmırsan bircə şeyi,
Neynirəm səntək kişiyi?
Niyə basıb ev eşiyi
Toz, başına dolandığım?

Şahbazam, hər sözün almaz
Hər misran bir güldür, solmaz.
Həsrətin ömrü çox olmaz,
Döz, başına dolandığım.

06 .04. 1985

İ T H A F L A R

www.kitabxana.net

Millət vəkillərinə

Yeni rütbə, nişan qanunlaşdırın,
Vəkillər, qanuna təzədən baxın.
Döyüşdən çəkinən generalların
Çiyninə qorxaqlıq paqonu taxın.
Qarabağ bizimsə, niyə yaddadır?
Adımız qaçqındır, evimiz çadır.
Vasitəçilər gəlir- gedir, baş qatır,
Təslimə aparır bizi bu axın.
Niyə yardım umub, boyun bururuq?
Yad vədəbazlara çəpik vururuq.
Biz niyə yadlardan kömək umuruq?
Hanı igidləri bəs bu torpağın?
Şadlıq evlərində oynadıq, bəsdir,
Döyüşən ərləri qınadıq, bəsdir.
Verilən vədlərə inandıq, bəsdir,
Çıxın yalanların torundan, çıxın !
Satqınlar yağıya satdı Şuşanı,
Asdı yaxasına " Döyüş" nişanı.
Çağrın el atası Heydər babanı,
Gəlib qayğısına qalsın bu xalqın.
Talanır ölkənin sərvəti, varı,
Gedir İrəvana, Parisə sarı.
Hoydu, vətənimin mərd oğulları,
Düşmən külə dönsün, yandırın-yaxın !
Yurdu azad edin, məhkəmə qurun,
Binnətəm, torpağı satan quldurun
Alnına "Satqınsan"damğası vurun,
Yaxasına "Töhmət" nişanı taxın.

16.05.1992.

www.kitabxana.net

A Türk dünyasına töhfəsi elin

(Hörmətli millət vəkili Qənirə xanım Paşayevaya)

Allah olsam, səni şah eləyərdim,
Dərgahın olardı kəbəsi elin
Məddah olsam, səni mədh eləyərdim
A Türk dünyasına töhfəsi elin.
Dərdimiz bir deyil, bükəm, bağlayam,
Qeyrətim, qürurum qoymaz ağlayam.
Sən cəfakeş qızı, mən də oğluyam,
Bizimdir ən ağır şələsi elin.
Fədakar, mübariz xalq vəkilisən.
Xalqın duyan qəlbi, kömək əlisən,
Haqqı görən gözü, deyən dilisən,
Səsinə güc verir haqq səsi elin.
Çəkək, çəkiləsi dərdlərimiz var,
Alaq, yağılarda kəndlərimiz var
Hələ əlil, əsir mərdlərimiz var,
Hələ alınmamış qisası elin.
Hələ boş görüşlər, sazişlər bitmir,
Hələ riyakarlar bizi eşitmir
Hələ BMT – ni narahat etmir
Tələbi, harayı naləsi elin.
Car çək kürsələrdən, yay səsimizi,
Millətlər eşitsin qoy səsimizi.
Qursunlar ədalət məhkəməsini,
Gülsün günəş kimi çöhrəsi elin.
Sənintək el dərdi çəkir Binnət də.
Canı Təbrizdədir, ruhu Dərbənddə
Sənintək bircə qız olsa hər kənddə,
Şad yaşayar, olmaz qüssəsi elin.

22 11 2010

www.kitabxana.net

Canın sağ ola!
(Qardaşım Yolçuya)

Bəxtin açıq ola, canın sağ ola,
Bədəninə həkim əli dəyməyə!
Səndən azar, ağrı, qəm uzaq ola,
Qamətini qardaş qəmi əyməyə.
Həsəd çəkməyəsən deyib-gülənə,
Sevincindən göz yaşını silənə.
Can qurban edəsən qədir bilənə,
Ancaq bir tikəni nankor yeməyə.
Utanmaza el söysə də utanmaz,
Özünü düşünən el üçün yanmaz.
Binnətin sözünə ağıldan dayaz
Nə «yaxşı»deməyə, nə «pis» deməyə.

15.09.2003

Məni gəzmə, yoxam
(Başdaşına, Ermənilər Namiq Həmzəyevin üstünə benzin töküb yandırıblar)

Düşdü köçüm köçdən geri,
Dərd əlində qaldı yaxam.
Naləm tutdu göyü, yeri,
Yerdə ünəm, göydə axam.
Çaşdı sarvan, azdı karvan,
Hər tərəfim zülmət, duman.
Daha yoxdur ümid, güman
Bu düşdüyüm oddan çıxam.
Oda atdı məni zalım,
Alovlandım dilim-dilim.
Yandım, ələ gəlməz külüm,
Yarım, məni gəzmə, yoxam.

www.kitabxana.net

11.08.1996

Gətir

Oğlum Ariflə, Jalənin toyunda

Xoşbəxt, xoşqədəm ol, qızım, özünlə
Ər evinə şadlıq, səadət gətir.
Şən, gülər üzünlə, şirin sözünlə
Xoş əhval, xoş ovqat, xoş ülfət gətir
Günəştək ləkəsiz, aydan arı ol,
Oğlumun sevimli vəfadarı ol.
Təmiz qəlbin ilə haqqa sarı ol,
Tanrıya ürəkdən şəhadət gətir.
Haqqın dərgahında ağ olsun üzün,
Dərdsiz – qəmsiz keçsin gecən, gündüzün.
Şeirimi bəzəsin söhbətin – sözün,
Mənə ilham gətir, şeriyyət gətir.
Tərifin nəğmətək düşsün dillərə,
Şöhrətin yayılsın bütün ellərə.
Mənə, qaynanaya, baldıza, ərə
Hörmət, izzət, qayğı, məhəbbət gətir.
Bəxtinə nur saçsın ata öyüdü,
Bu gün ən bəxtəvər, ən xoş günündü.
Sənə halal olsun ananın südü!
Halal nemət, xeyir, bərəkət gətir.
Ucal öz zəkanla, öz savadınla,
Elə yaşa, el fəxr etsin adınla!
Ağlınla, elminlə, istedadınla
Ana yurdumuza şan – şöhrət gətir.
Heç kimin gözündə qalmasın kamı,
Allah qəbul etsin xeyir – duamı!
Amin - amin desin ürəkdən hamı,
Əmin – amanlıqla, əmniyyət gətir.
Abır, həya, ismət, ləyaqət gətir,
Varıma mülkümə vərasət gətir.

www.kitabxana.net
Bir Əli, bir Əhməd, bir Binnət gətir,
Şahbaz, Sineyvar və Səadət gətir.

02.11.2013

Bir də

(Bacım Şöhrətə)

Nə ola qoşulub tay-tuşlarıma,
Gəzməyə gədəydim Ağ dağa bir də!
Quyu dərəsindən silfiyə qalxıb,
Qulançar, quzqulaq yığmağa bir də.
Çoxdandır az düşür güzarım kəndə.
Turş gilas qızarıb, şahtut dəyəndə.
Quşlarla bərabər oyanıb mən də,
Qonaydım budaqdan budağa bir də!
Uşaqkən vuruldum mən Alagözə,
Gülüşü, söhbəti məzəydi məzə.
Nola qabaqlaşaq, duraq üz-üzə,
Heyran olam o gül yanağa bir də.
Indi Şahbazındır hər zovqü-səfam,
Can-ciyərim Vəfam, Arifim, Şəfam.
Nə eşqim tükənər, nə də ki vəfam
Kim istəyir çəksin sinağa bir də.
Bacım, bağçamızdan pencər döşürə,
Anam yağlı, şorlu kətə bişirə.
Təpitmə düzəldə, sacı düşürə
Xəngəl hazırlaya qonağa bir də.
Doymadım Murğuzdan, Qazan gölündən,
Binnətəm, o yerlər keçir könlümdən.
Yayın əvvəlində Ceyran çölündən
Köçəydim Murğuza-yaylağa bir də.

18.06.1980

Qızım

(Qızım Vəfaya)

www.kitabxana.net
Dünyanın şöhrəti, sərvəti dəyməz,
Gözünün bir damcı yaşına, qızım.
Hüsnünün nuruna heyrandır günəş,
Ay da həsəd çəkir qaşına, qızım.

Zərrəcə qəm çəkmə, gözümün nuru,
Incilərdən safsan, kövsərdən duru.
Itirmə isməti, mətni, qüruru,
Min sədd çəkilsə də qarşına, qızım.

Eldə üzü ağ ol, alnı da açıq,
Sadə ol, olsan da hamıdan artıq.
Bütün sınaqlardan zəfərlərlə çıx,
Gül-çiçək səpsinlər başına, qızım.

Şəfaya, Arifə əziz bacısan,
Şahbaza, Binnətə şöhrət tacısan.
Deməsinlər: – «Şöhrət, dövlət acısan»
Uyma dünyanın daş-qaşına, qızım.

19.08.1996

Osman müəllim

(Tovuz rayonu Düz-Cırdaxan orta məktəbinin vətənpərvər müəlliminə)

Yazanların qərəzsiz tənqidçiləri olsa,
Yazanlar daha yaxşı yazar, Osman müəllim.
Qərəzli tənqidçilər şerin şah misrasını,
Ən yaxşı bəndlərini pozar, Osman müəllim.

Şeir var hər misrası yüz dərdin məlhəmidir,
Şeir var hər kəlməsi yüz mərdin həmdəmidir.
Şeir var el sevinci, şeir var-el qəmidir,
Şeir var məclisləri bəzər, Osman müəllim.

Şeir var sevənlərə mehr, ülfət, vəfadır,
Şeir var xəbislərə qəhər, ağrı, cəfadır.
Şeir var xəstələrə loğman, dərman, şəfadır,
Şeir var düşmənlərə azar, Osman müəllim.

www.kitabxana.net
Elə şeir var oxu, eləsi var cır, tulla,
Şair var sözü, şeri, dəyməz bir qara pula.
”Şair” var ölməyir ki, elin canı qurtula,
Hamı çəkir əlindən həzar, Osman müəllim.

www.kitabxana.net
Daha Vurğun, Üzeyir, Sabir çətin tapılar.
Həmişə mətbuatın məxfi senzurları var.
Haqq deyənin üzünə bağlanıbdır qapılar
Çapxana daim olub bazar, Osman müəllim.
Nə Kəmsavad çap oldu, nə Səlim yada düşdü,
Qəmküsarlar, Hadilər alova-oda düşdü.
Cavad, Müşfiq, Məzahir tufana-bada düşdü,
Cavid Sibirə etdi güzar, Osman müəllim.
Yolların ayrıcında yolu çaşıb qalmışam,
Səhər açılmır,qardaş, dərdə-qəmə dalmışam.
Ayda-ildə bir dəfə ələ qələm almışam,
Məndən olarmı şair-yazar, Osman müəllim?!
Illərlə yazdıqlarım mənə ağır yük oldu.
Şeirimi bəyənməyən kötüdən-kötük oldu,
Ağıldan bap-balaca, başdan lap böyük oldu.
Onlara şeirim qəbir qazar, Osman müəllim.
Deməsinlər, şeirində niyə gül yar görünmür.
Nə cəh-cəlal, təmtəraq, nə zər, nə var görünmür.
Epitetləri kövrək, çəmən-gülzar görünmür,
Şeirim dostlara olsun gülzar, Osman müəllim.
Əbədi həsrətimdir Təbriz, Dərbənd həsrəti,
Bir-birinə həsrətli o kənd-bu kənd həsrəti,
Şükür, anlayanlar var sənin kimi Binnəti,
Qorxutmaz onu ölüm, məzar, Osman müəllim.

Kəmsavad-Gəncəli el şairi
Səlim-Tovuzlu el şairi
Məzahir-Borsunlu el şairi.

29.10.1992

www.kitabxana.net

www.kitabxana.net

Qışımız çox sərt gəldi

(Atamın bacısı – əziz Məleykə xanımın xatirəsinə.)

Ölümünü eşitdim,
Ah çəkdim, ah vay etdim.
Göz yaşımı çay etdim.
Üzdü məni kədər, qəm.
Harayıma nə həmdəm,
Nə də bir həmdərd gəldi
Qışım yaman sərt gəldi.
Oldum məlul mükəddər,
Kədərim üstə kədər,
Dərdim üstə dərd gəldi.
“Maman öldü” , deyildi
Qəddim sındı, əyildi.
Yazım bir yaz deyildi,
Qışım da lap sərt gəldi....
Dörd yetim anasıydın,
Həm də ki, atasıydın.
Nə gün gördün həyatda?
Dərd çəkdin, əzab çəkdin,
On beş il sevinc əkdin,
Kədər dərdin həyatda
Üzünə heç gülmədi
Üzüdönmüş həyat da.
Qara gündən sovuşub,
Ağ günə çathaçatda
Nakam getdi Hamaya,
Göz yaşın döndü çaya.
Cavan getdi Səlminaz –
O gülərüz, sərvinaz
O vəfalı yar, gəlin
Qoynunda qaldı əlin.
Öldü bacın, qardaşın,
Qurumadı göz yaşın.
Nələr görmədi gözün,
Nələr çəkmədi başın,
Bunlara necə dözdün?
Sənsizlik, ay babamın
Bizə son yadigarı,
Mənim, övladlarının
Bölünməz mülkü, varı
Dözülməzdir, çətindir,
Bizi giryan eyləyən
Sənin müsibətindir.
Bu gün hüzr yerinə-
Əziz nəvələrinə,
Salatına, Binnətə,
Məhəmmədə, Hümbətə
Başsağlığı verməyə,
Çox səbr diləməyə
Mahal gəlib, kənd gəlib,
Bizə dərd, möhnət gəlib,
Qışımız çox sərt gəlib.

Dekabr 2008.

www.kitabxana.net

A qardaş

(Düz-Cırdaxan orta məktəbinin müəllimi Məstanov Qəməndərə)

Deyirlər:- durma yaz, yaxşı yazırsan,
Kimdir qiymət verən yazıma, qardaş?
Nə məddah deyiləm, nə də ki, yaltaq,
Heç yerdə çap olmaz yazım, a qardaş.

Susdururlar haqlı söz danışanda,
Söz sinəmi deşir az danışanda.
Bədxahın yanında düz danışanda,
Az qalır daş basa ağzıma, qardaş.

Günbəgün sıxlaşır dumanlar, çənlər,
Kefdədir havayı yeyib-içənlər,
İclasda başıma sığal çəkənlər
Çöldə şillə çəkir üzümə, qardaş.

Zamandan qismətim möhnətdir, qəmdir,
Amalım böyükdür, imkanım kəmdir,
Qananın dərdinə şerim məlhəmdir,
Nadana zəhərdir sözüm, a qardaş.

Başını girləyir hərə birtəhər,
Binnətəm, sinəmi deşir qəm-qəhər.
Üzüm haqda qalıb, açılmır səhər,
Zülmətdən açılmır gözüm, a qardaş.

16.03.1989

Nizami Gəncəvi

(Əvvəl - axır)

Neçə yüz ildi ki, şair, bəşər dərs öyrənir səndəN,
Nəsil-nəsil insan oğlu zövq almış söz gülşənindəN.

Inci saçdın şeir mülkündə şahənşah olandan bərİ,
Illər, aylar qocaltmadı yazdığın şah əsərlərİ.

Zaman keçdikcə, şairim, söz gülşənindən gül solmaZ,

www.kitabxana.net
Zərifdir, safdır, parlaqdır qoyub getdiyin hər almaZ.
Amalın, eşqin, istəyin yetişəcək istiqbalA,
Azərbaycan-ana yurdun şükür, çıxdı istiqlalA.
Məhəbbətin çələnginə bəzək vurdun səhər-axşaM,
Mənzilini ilham pərin işıqlatdı əlində şaM.
Istəyin xalqa xoş günlər, diləyin xoş rəftar idİ,
Istiqlala can atanlar hər dərdə giriftar idİ.
Gəncənin gülzar qoynunda hördün sözdən saysız çələnG,
Gəlin kimi sığal verdin hər sözünü etdin qəşənG.
Əldən-ələ keçdi şerin, sözün düşdü dildən-dilƏ,
Əlində ilhamın camı dolub daşdı ildən-ilƏ.
Nuşirəvanlar, Xosrovlar, Səncərlər bəd əməlindəN,
Nə usandı, nə utandı dərs alana kimi səndəN.
Cilalanmış hər bir sözün, şeir taxtında qoymusan taC,
Cahanda söz şahı sənsən, şairlərdən almısan taC.
Ərməğanını sən aldın şeirin, sözün ədalətlƏ,
Əzəmətli heykəlinə baş əyirəm məhəbbətlƏ.
Vüsala yetişdi Fərhad, hirsindən boğuldu XosroV,
Verdi öz hökmünü zaman, Bəhramlardan yayındı oV.
Indi Leyli Məcnundur, sevənlər xoşbəxtdi indİ,
Indi əyyam xoş əyyamdır, Binnət də sevdi-sevildİ.

24.12.1996

Bəkir müəllim

(Tovuz rayonu Düz-Cırdaxan orta məktəbinin tarix müəlliminə)

Tarix saxta yazıldı, saxta tarix öyrətdin,
Tarix saxta keçilən, dərsdi, Bəkir müəllim.
Tarixi düz danışıb, faktları düz deyəndə,
Bədxahlar səsimizi kəsdi, Bəkir müəllim.
Otuz ildir tarixdən məktəbdə dərs deyirsən,
Günahkar tarixçidir, avanda tərs deyirsən.
Nə zaman ki nahaqqı haqqa tərəf əyirsən,

www.kitabxana.net
Açılır yalanların üstü, Bəkir müəllim.

www.kitabxana.net
Yetmiş ildə yüz ağan oldu, bir haqq almadın,
Sənə «azad» dedilər, ancaq azad olmadın.
Ömrün boyu dərd çəkdin, bir saat şad olmadın
Üstünə quzey yeli əsdi, Bəkir müəllim.
Qaçhaqaçda doğubdur, bizi yazıq anamız,
Neçə yol belimizə şəlləndi barxanamız.
Yağılara qalmazdı Göyçəmiz, Topxanamız,
Bilsəydik nədir yadın qəsdi, Bəkir müəllim.
Çox böyük tarixçilər öz qanına bələndi,
Tarixi düz yazanlar Nargində güllələndi.
Düzü-düz görənlərin gözünə kül ələndi,
Ağzına daş basdılar, susdu, Bəkir müəllim.
Bayram günlərimizdə
"Matəm edin", dedilər,
Matəm günlərimizdə
"Bayram edin", dedilər.
Gözümüzə kül töküb,
bizə çıraq verdilər,
Işığı az,nefti az,
hisdi, Bəkir müəllim.
Azadlığımızı alıb, bizi ağlar qoya-qoya,
Əsarətdən qurtardı millətimizi guya.
Tunc monoment yapdılar on birinci orduya
Şükür, mənfur monoment uçdu, Bəkir müəllim.
Sarı, qara köpəklər varımıza dadandı,
Mədənlərdə biz öldük, imperiya var qazandı.
Qazımız, ağ neftimiz bizdən uzaqda yandı,
Bizə qaldı çirk, his-pas, tüstü, Bəkir müəllim.
Başı bəlalı xalqın gözüylə od götürdü,
Pambığını, neftini "böyük qardaşa" verdi.
Qafanı yada verdi, bizi Sibirə sürdü
"Xalqların xilaskarı","dostu", Bəkir müəllim.
Yada qızıl çıxartdı babamız Maqadanda,
Yada pambıq becərdi nənələrimiz Muğanda.

www.kitabxana.net

www.kitabxana.net

Atamız şəhid oldu Mozdoka od yağanda,
Anamız taleyindən küsdü, Bəkir müəllim.
Həsrət qaldıq qardaşa, qardaş dedik düşmənə,
Balamızı ac qoyub, çörək verdik düşmənə,
Dostu tapa bilmədik, çiçək verdik düşmənə,
Işlərimiz əvvəldən tərsdi, Bəkir müəllim.
Qardaş dedik gah farsa, gah "hay"ka gah da rusa,
" Bəradər" "axber", "brat", " bizə nə buyurdusa,
"Bəçeşm", "lısımem" ,"yest" dedik hər bəd dəyyusa
Bəsdi itaət etdik bəsdi, Bəkir müəllim.
Kimin əliylə öldü Gəncəli mərd Cavadxan?
Kimin tankları idi Xocalını dağıdan?
Kimin ordusu idi Bakıda qan axıdan?
Kim qoydu bizi qırx gün yaslı, Bəkir müəllim!?
Əyriyə-əyri deyək, gəl, düzə də düz deyək,
Azğına – azğın deyək, quduza – quduz deyək.
Bizə yağı kəsilən qansıza – qansız deyək.
Bəsdir, xalqım səbr etdi, susdu, Bəkir müəllim.
Adını düz demirik niyə bizi qıranın,
Binnətəm, düz deyəndə ağzımızı cıranın-
Üstümüzə Vartanı, Vazgeni qısqıranın?
Gəl, deyək ki, fitnəkar rusdu, Bəkir müəllim.

26.02.1997

Əlli il də yaşa sən

(Şair dostum Səlim Sinədəftərə)

(daxili qafiyə)

Altmış il ömür sürdün, əlli il də yaşa sən.
Qardaş, şair ömrünü, şərəflə vur başa sən.
Haray çək, el oyansın, düşmən qana boyansın.
Oda, alova yansın, bax-elə tamaşa sən.
Gül açsın arzuların, sevinsin dostun, yarın!
Qucağında gülzarın, gəz yarınla qoşa sən.

www.kitabxana.net

Ağrı yaramızdadır, satqın sıramızdadır.
Düşmən aramızdadır, düşmə dağa-daşa sən.
Haqq sözün olsun qəti, şeirin qılıncdan iti.
Dərd göynədir Binnəti, barı çəkmə haşa sən.

14.12.1988

Aşıq

(Aşıq Xanların əziz xatirəsinə)

Yenə sənin məclisinə gəlmişik,
Nə təmtəraq, nə cah - cəlal var, aşıq!
Yas içində, yas evinə gəlmişik,
Nə çal – çağır, nə tar – qaval var, aşıq!
Hanı xoş kəlamın, ağır ləngərin,
Hər havaya xalın, gülün, rənglərin?
Saz – söz meydanında boş qalıb yerin,
Niyə vaxtsız ölüm - əcəl var, aşıq?
Daha yoxdur sənə nəmər göndərən,
Qızıl saat, gümüş kəmər göndərən.
Namərdləri bir misrayla öldürən,
Nə sən varsan, nə məndə hal var, aşıq!
Qıy vurardın gədiklərin qaşında,
Izin qalıb torpağında, daşında,
Saz çaldığın bulaqların başında,
Səni gəzən min əhli – hal var, aşıq!
Qəhərlənib Binnət kimi dostların,
Yeri deyil təmtəraqlı tostların.
Sayı artıb səndən sonra yasların,
Saysız kədər, hədsiz məlal var, aşıq!

23.11.2000.

www.kitabxana.net

Xala

(Minə xalamın əziz xatirəsinə)

El sizə yığılıb, sənə çatırmı
Oğlunun, qızının naləsi, xala?
Əyib qəddimizi bir həftədir ki,
Kədərin, möhnətin şələsi, xala.
Gəl qoyma Elzadə saçını yolsun,
Şahzadə, Gülzadə gül kimi solsun.
Döşəyin cənnətin gülləri olsun,
Yorğanın behiştin laləsi, xala.
Bir bağın çiçəyi, gülü saraldı,
Bir bacı, bir qardaş bacısız qaldı.
Səni əlimizdən ölüm tez aldı,
Baş tutdu fələyin hiyləsi, xala
Durardım qarşında qul kimi hazır,
Sənin dərgahında əmrə müntəzir.
Hıçqıra – hıçqıra mərsiyə yazır
Bacının xalasız balası, xala.
Dərd verdin, Binnətin dərdləri azmı?
Fələk qara yazıb mənim yazımı.
El sizə yığılıb, evdə olmazmı
Altı oğul, üç qız anası, xala?

10.09.2002

A qızım

(Qardaşım qızı Nuranəyə)

Qış təzə giribdir, ayaz var, qar yox,
Hələ çox qalıbdır yaza, a qızım.
Bağçada çiçək yox, bağda da bar yox.
Möhtacıq işığa, qaza, a qızım.
Anana arxa ol, atana dayaq,
Sən də işgüzar ol ata-anan sayaq.

www.kitabxana.net

Həm dərsini öyrən, həm də evə bax-
Dən tök hinduşkaya, qaza, a qızım.
Bir an da keçirmə vaxtını hədər,
Səndən uzaq olsun qüssə, qəm, kədər.
Binnət əmin kimi ölənə qədər,
Müştaq ol aşığa, saza, a qızım.

01.01.1992

Ay ana, bağışla məni

(***Anam Sineyvar xanıma)***

Ən böyük rəssam olsam da,
Hər güldən min rəng alsam da,
Su üstə naxış salsam da,
Illərlə qələm çalsam da,
Illərlə oyaq qalsam da,
Vəsf edə bilmərəm səni,
Ay ana, bağışla məni.
Fərhad kimi dağ çapsam da,
Daşdan saray, tağ yapsam da,
Dəryalardan dürr tapsam da,
Kora şəfa, nur tapsam da,
Hər rəngi bir-bir tapsam da,
Vəsf edə bilmərəm səni,
Ay ana, bağışla məni.
Min şair təbim olsa da,
Min rəssam qəlbim olsa da,
Nurdan qələmim olsa da,
Min fəndim, çəmim olsa da,
Uğur həmdəmim olsa da,
Vəsf edə bilmirəm səni,
Ay ana, bağışla məni.

Sənin vəsfin şerə sığmaz,
Kitaba, dəftərə sığmaz,
Sənətə, əsərə sığmaz,
Kamala, hünərə sığmaz,
Göyə sığmaz, yerə sığmaz,
Vəsf edə bilmərəm səni,
Ay ana, bağışla məni.
Qarşında qüdrət acizdir,
Cəsurluq, cürət acizdir,
Məhəbbət, ülfət acizdir,
Rəng,qələm,sənət acizdir,
Yer-göy, təbiət acizdir,
Vəsf edə bilmərəm səni,
Ay ana, bağışla məni.
Heç kəsin çatmaz qüdrəti,
Istedadı, məharəti,
Yarada ana surəti,
Ana qılığı, ülfəti,
Qınama oğlun Binnəti.
Vəsf edə bilmərəm səni,
Ay ana, bağışla məni.

14.04.1971

www.kitabxana.net

Gətir, Bacı

(Bacım Səadətə)

Kasıb evə gələr qonağın acı,
Çörəyimiz qurtarıb, çay gətir, bacı.
Bir yol dəmləməyə çayımız qalıb,
Şəkəri xırda qır, say gətir, bacı.
Yumurtanı sabah gələnlər yedi,
Yağ-şorun yerini bilənlər yedi.
Əti bir az qabaq gələnlər yedi,
Bunlara qonşudan pay gətir, bacı.
Iki xiyar, üç-dörd pomidor qalıb,
Nə qatıq, nə pendir, nə də şor qalıb.
Soğan qurtarıbdır, kartof azalıb,
Bir az kartof bişir, soy gətir, bacı.
Ay Binnət, acından öldük deyirlər,
Acgödənlər hər nə versən yeyirlər.
Bu aclar yeməmiş gedən deyillər,
Bir az salat düzəlt, göy gətir, bacı.

15.03.1968

Atlılar qoydun piyada

(Böyük Mirzə Cəlilə)

Allahu-Əkbərlə soyuq, qaranlıq,
Yoxsul bir daxmada açdın gözünü.
Mövhumat, cəhalət, biclik, nadanlıq
Yüz pillə alçaldı görcək üzünü.
Qara günlərini salıram yada,
Alıb oxuduqca «Xatiratım»ı.
Qamçılı atlılar qoydun piyada,
Çapıb satiranın köhlən atını.

www.kitabxana.net

Qəlbən sadiq oldun iyirmi beş il,
«Molla Nəsrəddin»ə- bu sirli ada.
Sənin bir sözün də heç ölən deyil,
Neçə ki, həyat var yaşar dünyada.
Elə qəh-qəh çəkdin İsgəndər sayaq,
Yazıq Zeynəblərin düşdü yaşmağı.
Ayaqlar baş oldu, başlarsa ayaq,
Səndən şəfa umdu «Dəli yığnağı».
Həyat kitabıdır hər bir əsərin,
Nəsillər oxuyub dərs alacaqdır.
Əldən ələ keçib lətifələrin,
Bütün yer üzünə yayılacaqdır.

16.11.1965

Şair

(H.Arifin xatirəsinə)

Bəlkə məndən sonra qızınan oldu,
Dağlarda bir ocaq çatdım, qayıtdım.
H.Arif

Daha gedib-gəlmək olmur dağlara,
Yolları-izləri qar alıb, şair.
Sən gələndən sonra qızınan yoxdur,
Çatdığın ocaq da qaralıb, şair.
Çoxdan tutulubdur bəndlər, bərələr,
Zor ilə almasaq, sanma verələr.
Başı qarlı dağlar, dərin dərələr,
Yağı tapdağında xar olub, şair.
Yerindən, yurdundan olub göyçəli
Dərd çəkir aranı məskən seçəli.
Yaylaqlardan ağır ellər köçəli,
Gözümüzün yaşı car olub, şair.
Dağları xainlər çoxdan satıbdır,

www.kitabxana.net

Düşmən alıb murazına çatıbdır.
Dövran başımızı elə qatıbdır,
Dünya başımıza dar olub, şair.

Bayram libasını dağlar soyunub,
Gördüyün, çağlayan bulaqlar donub.
Qartal zirvəsinə yapalaq qonub,
Laçının yurdunu sar alıb, şair.

Mən də çox keçmişəm arandan, dağdan,
Bu köç son köçümüz oldu yaylaqdan.
Arandan yaylağa sarı baxmaqdan
Gözümüzün kökü saralıb, şair.

Həsrətdən lalələr, nərgizlər solub,
Şehtökən, qantəpər saçını yolub.
Saldığın cığırlar, izlər yox olub,
Keçdiyin keçidlər daralıb, şair.

Sənsiz pərişandır saçı sünbülün,
Boynu bükük qalıb xarı bülbülün.
Artıb ahu-zarı sarı bülbülün,
Güllərin üstünü xar alıb, şair.

Qisas almayınca üzümüz gülməz,
Dağımız, dərəmiz, düzümüz gülməz.
Xalqın fəryadını eşidə bilməz,
Necə ki katdası kar olub, şair.

Qalmışıq Vətəndə Vətənə həsrət,
Hicran xəstəsidir biçarə Binnət.
Qaçqın, köçkün olub həmişə millət,
Nə vaxt ki başçısı kor olub, şair.

27.11.1991

Qadası

(Qaynım Firdovsiyə)

Həsrət nədir həsrət çəkənlər bilər,

www.kitabxana.net
Ayrılıqdan həsrət doğar, qadası.
Çox ağlama yaşın seltək tökülər,
Aşıb-daşar, səni boğar qadası.

www.kitabxana.net

Günahını özün yaxşı bilərsən,
Minnətçiylə təvəqqeyə gələrsən.
Hələ çox ağlayıb, yaşın silərsən,
Gözlərindən leysan yağar, qadası.
Axır düşdü nazlı yarın yadına,
Dözəmmədin ayrılığın oduna.
Rəhmə gəlsə yarın çatar dadına,
Küçələrdən səni yığar, qadası.
Binnət sizin halınızı duyubdur,
Sən toylara, o bazara uyubdur.
Çoxdan bir-birinizə həsrət qoyubdur
Onu bazar, səni mağar, qadası.

08.12.1999

Qalmaya

(Qardaşım Yolçunun əziz xatirəsinə.)

Qəm könüldə, kədər üzdə, qüssə qəlbdə olmaya,
Dil duada, əl xudada, can möhnətdə qalmaya.
Ana ağlar, bacı giryan, qardaş dərddə qalmaya,
Candan əziz, sən ki yoxsan, var-dövlət də qalmaya.
Kəc, fələyin çərxi dönsün, göylər geyinsin qara,
Məni gözü yaşlı qoyub, səni qoydu məzara.
Yaralıydım, yağı vurdu yaramın üstə yara,
Mərd namərdə möhtac olub, zəlalətdə qalmaya.
Qohum-qonşu, qardaş-bacı toyda, yasda tanınar,
Xalqın gözü tərəzidir, elin imtahanı var.
Aralığa nifaq salar xain, xəbis, gözüdar,
Ziyan verən bir cuğul da, həşərat da qalmaya.
Canım gözlərimdən çıxır, tökdüyüm qan-yaş deyil,
Hər dərdə-möhnətə dözməz, ürək ətdir, daş deyil.
Hər can deyən bacı deyil, hər qardaş qardaş deyil,
Qardaşını istəməyən, qardaş kənddə qalmaya.
Ovundurmaz səndən sonra gül- gülüstan könlümü,

www.kitabxana.net
Sevindirməz səndən sonra nə toy, nə şan könlümü.
Məzardasan, dara çəkir məzarıstan könlümü,
Ruhum bədənimdən uça, məndə taqət qalmaya.
Hər üzümə gülüb mənə «can» deyən canan deyil,
Qardaşı qardaşdan edən iblisdir, insan deyil.
Qardaş, səni hər ağlayan qardaşın, anan deyil,
Sən ki yoxsan bu dünyada, heç Binnət də qalmaya.

18.04.2000

Eloğlu

(Güvəndiyim və inandığım hörmətli İlyas İsmayılova - altmış yaşı tamam olması münasibətiylə)

Yanaq el oduna Səməndər kimi,
Gül açsın çəkdiyin əmək, eloğlu!
Sən sərkərdə kimi, mən əsgər kimi
Gəl yağı üstünə gedək, eloğlu!
Bəsdir, at oynatdı yurdumda yağı,
Çəkdi sinəmizə dağ üstdən dağı.
Alaq yağılardan tez Qarabağı,
Şuşada bir deyək, gülək, eloğlu!
Silaha sarılsın, çağır hamını.
Yurda sipər etsin hamı canını,
Qoymayaq sönməyə elin şamını,
Quzeydən bərk əsir külək, eloğlu!
Əsarətdə ar da, namus da itər,
Daha əsarətə dözməyək, yetər!
Şərəfsiz yaşamaq-ölümdən betər,
Ölsək də şərəflə ölək, eloğlu!
Tələsməyək tezcə şəhid olmağa,
Tələsək vuruşub, zəfər çalmağa.

www.kitabxana.net

Gedək yağılardan qisas almağa,
Bəsdir olduğumuz mələk,eloğlu!
Qaçqınlar qalmasın çadır düzündə,
Mayda ziyafət ver Cıdır düzündə.
Binnətin təbəssüm gülsün üzündə,
Xankənddə yubileynə gələk, eloğlu!

15.10.1998

Payımsan bacı

(Bacım Qızdarxana)

Səhər Ülkərimsən, gündüz-Günəşim,
Axşam nurum, gecə Ayımsan, bacı.
Hər səni ananda düz gəlir işim,
Taleyim, qismətim, payımsan bacı.
Dar gündə, gen gündə yaxın yoldaşım,
Pənahım, həmdəmim, dostum, sirdaşım.
Sənsən, güvəndiyim, bacım, qardaşım,
Atamsan, əmimsən, dayımsan, bacı.
Sən varsan, üzümə gülür həyatım,
Sənsən ilk bəxşişim, ilk mükafatım.
Sənsən toy-düyünüm, şad olan vaxtım,
Bayramım, xoş günüm, ayımsan, bacı.
Göz üstə yerin var olsan qonağım,
Gəl bir az nurlansın evim, otağım.
Binnətəm,bəd gündə arxam, dayağım,
Xoş gündə yoldaşım, tayımsan, bacı.

18.04.1970

Ana

(Anama)

Şama pərvanətək, pirtək, Kəbətək,

www.kitabxana.net

Gəl, hər gün başına dolanım, Ana.
Qolubağlı əsrin, kölən, qulunam,
Sənsən şahlar şahım, sultanım, Ana.
Ayağının tozudur başımın tacı,
Nə yar əvəz edər səni, nə bacı.
Bütün dərdlərimin sənsən əlacı,
Sənsən çarəm, davam-dərmanım, Ana.
Səni hər misramda ansam da azdır,
Adını dastana salsam da azdır.
Yolunda şam kimi yansam da azdır,
A mənim halıma yananım, Ana.
Neyləyim, xoşuna gəlməyir şəhər?
Kənddə yaşayırsan mənsiz birtəhər.
Sənsiz suyum - ağı, yediyim- zəhər,
Qor olub döşəyim, yorğanım, Ana.
Mənə hamıdan çox yanan da sənsən,
Həmişə qeydimə qalan da sənsən.
Binnətəm, sağlığım, şəfam da sənsən,
A mənim şəfakar loğmanım, Ana.

17.02.1976

Amin

(Nəvəm Aminin bir yaşı münasitiylə)

Qohum-qonşu bir yaşına gəlibdir,
Arzu eləyirlər:-Yüz yaşa, Amin!
Atana, anana yaxşı övlad ol,
Vəfalı qardaş ol qardaşa, Amin.
Sənə arxa olsun Hüseynlə Sami,
Əmin oğlanları, dayın, üç əmin.
Ömrünün şadlıqla keçsin hər dəmi
Dünyan olsun abad, tamaşa, Amin.
Baban, nənələrin, bibinlə xalan-
Sevərək hər sənə hədiyyə alan.

www.kitabxana.net
Sənlə öyünsün, fəxr etsin hər an,
Layiq ol təbrikə, alqışa, Amin.
Sənə oğlum desin Füzuli, Tovuz,
Adına güvənsin azad ölkəmiz.
Gorus, Dərbənd, Bakı, Borçalı, Təbriz
Səyinlə birləşə, qovuşa, Amin.
Şöhrəti, şanı ol baban Binnətin,
Qazan hörmətini elin, millətin.
Pənahı olasan bəşəriyyətin
Sevincin-sevincə qarışa, Amin.

24.09.2010

Hüquqşünas qardaş

(Respublika Dövlət İttihamçısı
Bəşir Cəfərova Hörmətlə)

Cinayət azalar, cani azalar,
Məmləkətdə qanun iqtidar olsa.
Insan xoşbəxt olar, el azad olar
Vətəndə azadlıq, sülh paydar olsa.
Hüquqşunas qardaş, ədalətli ol;
Haqqın keşiyində dəyanətli ol,
Qanuna-qaydaya sədaqətli ol,
Hakim adil olmaz, qərəzkar olsa.
Bilirsən ağırdır haqsızlıq dağı,
Suçsuza pənah ol, suçluya yağı.
Çalış büdrəməsin haqqın ayağı
Yollar buz bağlasa, hər yan qar olsa.
Haqqı sevən haqqa tərəfdar olar,
Haqqı danan eldə bədnam, xar olar.
Sənə ömrü boyu minnətdar olar
Kim sənin sayəndə bəxtiyar olsa.

www.kitabxana.net
Yalançı şahidi, üzə duranı;
Yaxşı insanlara tələ quranı,
Böhtanla, fitnəylə ara vuranı
Məhkum et, əlində ixtiyar olsa.

www.kitabxana.net
Dünyada haqsızlıq bitməyib, bitməz,
Haqqa sığınanın əməyi itməz.
Binnətə gədələr gədəlik etməz,
Ona haqq işində havadar olsa.

06.02.2012

Güvəncimiz, fəxrimiz

(Güləş üzrə iki dəfə dünya çempionu-
əzizimiz Aslanov Vuqar Tovuzluya)

Vuqarımız, fəxrimiz, güvəncimizsən, Vüqar
Fərəhimizsən, Vuqar, sevincimizsən, Vüqar.
Şanımız, şərəfimiz, öyüncümüzsən, Vüqar.
Elə dosta, qohuma ,candan əzizsən, Vüqar...
Sevinmişik həmişə sən qələbə çalanda,
Yarışlarda hər dəfə qızıl medal alanda.
Öyünmüşük həmişə
Sən cürətli şir kimi,
Özündən güclüləri,
Fəndgirləri, bicləri
Künc - bucağa sıxanda,
Adlı-sanlı çox məhşur pəhləvanlar yıxanda,
Azərbaycan himnini hər dəfə çaldıranda,
Vətənin bayrağını
Sən bütün bayraqlardan yüksəyə qaldıranda.
Hər dəfə də yarışdan üzü ağ, alnı açıq,
Qızıl medalla çıxdın.
Çox döşünə döyəni bircə həmləylə yıxdın.
Heyran etdin hamını iki dəfə cahanda -
Bir dəfə Budapeştdə, bir dəfə də Tehranda.
Zəfər çaldığın üçün,
Medal aldığın üçün

www.kitabxana.net
Bu gün sevincimizin hüdudu - yox, həddi - yox,
Bil ki, bu gün səndən də, ata-anandan da çox
Azərbaycan sevinir,
Sənin ilə öyünür.
Çünki sənin qanında vətən məhəbbəti var,
Vətən təəssübü çəkən Xətayi qeyrəti var.
Hər vətəndə yaşayan hələ vətəndaş deyil,
Vətənə gərəkli bir kəsək deyil, daş deyil.

06.07.1997

Müəllimlərə

Əssə də quzeyin qara yelləri,
Coşsa da fələyin quduz selləri,
Siz ey məmləkətin müəllimləri,
Maymaq öyrətməyin siz uşaqları!
Uşaqlar üzü ağ çıxsın sabaha,
Keçməyin yaltaqlıq dərsini daha.
Bağçada, məktəbdə vəzirə, şaha
Yaltaq öyrətməyin siz uşaqları!
Düz olar müəllim, müəllim yazan,
Məktəbdən azandır yolunu azan,
Olmasınlar ayaq altını qazan,
Bədxah öyrətməyin siz uşaqları!
Olsalar da usta, ya diş həkimi,
Ya bənna, ya memar Əcəmi kimi,
Haqqa meyl etsinlər Nəsimi kimi,
Məddah öyrətməyin siz uşaqları!
Vətən sabahını tapşırıb sizə,
Vətəndaş böyüdün vətənimizə.
Satqın, çuğul olub yalandan üzə,
Durmaq öyrətməyin siz uşaqlara!
Binnət çəkilsə də dilindən dara,
Baş əyməz xalq qanı içən xunxara.
Ağa-ağ desinlər, qaraya-qara,
Qorxaq öyrətməyin siz uşaqları!

www.kitabxana.net

12.10.1991

Qızlarım

(Qızlarım-Vəfanın Universiteti bitirməsi,
Şəfanın ATU-ya girməsi münasibətilə)

Üzümüzü ağ etdiniz hər yerdə,
Həmişə üzü ağ olun, qızlarım!
Bizə sevinc,şadlıq bağışladınız,
Çox sağ olun,çox sağ olun qızlarım!
Dostlarınız,qohumlarınız var olsun,
Deyin-gülün, düşmən baxıb xar olsun.
Xoşbəxt olun,tale sizə yar olsun.
Dərddən-qəmdən uzaq olun,qızlarım!
Yolunuzda şam elədik ömrü biz,
Nə etdiksə, etdik sizdən ötrü biz.
Zəhmət,hünər,məna dolu ömrünüz
Vətən boyda bir bağ olsun,qızlarım!
Hərəniz bir qardaş olun Arifə,
Həmdəm olun,yoldaş olun Arifə.
Ananız tək sirdaş olun Arifə,
Arxa olun,dayaq olun,qızlarım!
Siz şərəfi,şanısınız Binnətin,
Əsiri olmayın varın, dövlətin.
Ata-ananıztək sadə ,mərd,mətin,
Əyilməyin,bir dağ olun,qızlarım.

23.06.2001

www.kitabxana.net

www.kitabxana.net

Biləsən

(Ustadnamə)

Həyat bir ümmandır dalğalı, dərin,
Onda qəvvas olub üzə biləsən.
Tərsin, pisin, nəsin, mərdimazarın
Əlindən yaxanı üzə biləsən.

Halal şirin olar, yavan da yesən,
Alçalarsan alçaqlara baş əysən.
Səhv edib günahsız bir qəlbə dəysən,
O səhvi özünə cəza biləsən.

Dilinə gəlməyə ah-aman qəti,
Çəkməyəsən hicran qəmi-möhnəti,
Belini bükməyə Vətən həsrəti,
Dözümün çox ola, dözə biləsən.

Nadanın hökmüylə görüləndə iş
Ya kabab çiy qalar, ya da yanar şiş.
Səbrin hədsiz ola, ürəyin geniş,
Fələyin zülmünü məzə biləsən.

Ay Binnət, sevincdən axa göz yaşın,
Qovuşa bir-birnə bacın, qardaşın.
Əlindən tutasan yarın, yoldaşın,
Eldə başı uca gəzə biləsən.

21.09.1970

www.kitabxana.net

Bunlara

(müxəmməs)

(Müxəmməs. IX-sinif şagirdlərinə zarafatla)

Ah həmkarım, şuluq salır, vermə çox imkan bunlara!
Hər dərsdə sorğuya çəkək, quraq imtahan bunlara.
Nə yazır, nə eşidirlər, gəl udduraq qan bunlara.
Öldürsən də qanan deyil, demə, «öyrən,qan» bunlara.
Yaxşılıq başa düşməzlər, çox yandırma can bunlara.
Əmək dərsi gələn kimi, hərəsi bir yana qaçır.
Elə bil canavar cummuş, arxacdan yüz dana qaçır.
Biri bufetə yollanır, biri tez dükana qaçır.
Biri də siqar çəkməyə, xəlvət bir dalana qaçır.
Al ağacı, kəs qapını, eləyək divan bunlara.
Bunların nə oxumaqdan, nə yazmaqdan xoşu gəlir.
Lövhəyə nə yazırsansa, tez pozmaqdan xoşu gəlir.
Müəllimə kələk gəlib, baş yozmaqdan xoşu gəlir
Bu ərkansız,dinsizlərin, yol azmaqdan xoşu gəlir.
Kömək etməz Tövrat,İncil, müqəddəs Quran bunlara.
Yenə bir bəhanə tapdı, qoyma qaçdı,Maşallahı.
Qollarına qüvvət versin, Əli Mərdan-Şahlar şahı!
Sıx sinfin bir küncünə, tanıtdır ona Allahı.
Baş demə,göz demə, döşə, ərşə-büləndolsun ahı.
Düzəlməzlər,qənim olsun, qədiri-Sübhan bunlara.
Səs salanları küncə yığ, hədsiz şuluq salanı döy!
Bir-birini əqrəb kimi, ilan kimi çalanı döy.
Gecikəni məzəmmət et, hər gün "iki"alanı döy.
Qaçan qaçdı,tutammazsan, qayıt yerdə qalanı döy.
Ya da direktora ərz et, versin bir fərman bunlara.

www.kitabxana.net

www.kitabxana.net

Yox, vurma,vursan məktəbə sabah yüz ağaclı gələr,
Bacı,qardaş,ata,ana, ağsaqqal,ağsaçlı gələr.
Ata əli tapançalı, ana gözü yaşlı gələr,
Əmi əli dəyənəkli,dayı əli daşlı gələr
Qahmar çıxar qohum,qonşu,dost,yad hər yandan bunlara.
Sabir demiş,aman Allah! Of,necə bədzatdı bunlar,
Vurçatdasın qaldırdılar,aralığı qatdı bunlar,
Dəzgahları sındırdılar,sinfi dağıtdı bunlar,
Əldə olan alətləri pəncərədən atdı bunlar,
Cindilər,şeytandılar,kim deyər insan bunlara?
Səs-küydən qulaq tutulur, elə bil ki,qaz yolurlar.
Ağlı azları döydükcə, daha ağlı az olurlar.
Utanmazlara vurduqca, sırtıq,utanmaz olurlar.
Dərsdən qaçanlar dizdən bərk, ağıldan dayaz olurlar.
Aparsın, təpik döydürsün, çöldə Qəhrəman bunlara.
Zəng çölə vurulan kimi, dəli kimi bağırdılar.
Qapını cəftəsiz görüb, beşi sinifdən cırdılar.
Pəncərədən qaçmaq üçün, iki şüşəni qırdılar.
Danlaq,irad kömək etmir, döyülməkdən yağırdılar.
Uşaq göndər,həkim gəlsin, sürtsün bir dərman bunlara.
Nə dəftəri,nə qələmi, nə önlüyü var bunların.
Nə çantası,nə çantada, gündəliyi var bunların.
Rüb tez gəlsin, tətil olsun, bir diləyi var bunların.
Yenə də xosunlaşırlar, bir kələyi var bunların
Kələk işdə nə cin çatar, nə də ki, şeytan bunlara.
Eminin əlində ağac, cəllad kimi dayanıbdır.
Vurub Sabirin başına, nə qandırıb,nə qanıbdır.
Vurulan xosunbay olub, ölü kimi uzanıbdır.
Binnət bu səhnəni görüb, dərs deməkdən usanıbdır.
Götürüb dəftər-qələmi, yazıb bir dastan bunlara.

18.11.1992

www.kitabxana.net

Gözlə, gözlə sən
(Divani)

Bağbansansa, cəfaya döz, bağı gözlə, gözlə sən,
Şamamalar saralınca tağı gözlə, gözlə sən.
Hakimsənsə mərd hakim ol. Həkimsənsə loğmantək,
Xəstələrə şəfa axtar, sağı gözlə, gözlə sən.
Yağılar tapdağındadır Gorus, Göyçə, Kəlbəcər,
Yurdun qədrini el bilər, zərin qədrini-zərgər.
Istər şanlı sərkərdə ol, istər sıravi əsgər,
Sayıq ol, sərhəddi pozar yağı, gözlə, gözlə sən.
Al yağıdan qisasını, qiyamətə saxlama,
Düşmən qabağından qaçıb, uşaq kimi ağlama.
Hər yetənə sirr söyləmə, hər yada bel bağlama,
Yad qatar bir gün aşına ağı, gözlə, gözlə sən.
Şər adamdan uzaq dolan, şər işə salar səni,
Fürsət tapanda əqrəbtək, ilantək çalar səni.
Quduz xislətli gədələr didər, parçalar səni,
Çarmıxda çəkər sinənə dağı, gözlə, gözlə sən.
Binnət, sən ki, etməyibsən yeyib-yatmağa həvəs,
Vaxtını hədər keçirmə, bir iş görməyə tələs.
Yamacda, yalda girlənmə, tərpən, zirvəyə tələs,
Duman çökər, çiskin alar, dağı gözlə, gözlə sən.

12.04.1971

Olsun
(Divani)

Məmləkətim, ayağa qalx, yağılardan qisas al,
Qoy hər qızın Tomris olsun, hər oğlun Babək olsun.
Hər ildırım hücumların yağını oda yaxsın,
Hər əsgərin cəbhələri yaran bir şimşək olsun!
Qalibiyyət bayrağını göyə qaldır vüqarla,
Cəngavər igidlərini yola sal iftixarla.

www.kitabxana.net

Düşmənlərin anaları ağlasın ahu-zarla,
Bacılarının nəsibi gözdən yaş tökmək olsun!
Xətayilər torpağını talamaq, bölmək olmaz,
Yağılardan öc almamış igidə ölmək olmaz.
Alçaqların qarşısında mərdə əyilmək olmaz,
Şəhidlərin cəsurluğu bizlərə örnək olsun.
Bədnam, nankor, namərd, qonşu üz verdikcə qudurur,
Abırı, həyanı atıb, yalan, böhtan uydurur.
Hələ də axmaq ayılar, itlərə arxa durur,
Istəyir ki, qulluğunda yaltaq, bic köpək olsun.
Axşam – sabah canmıza daraşır parazitlər -
Furaşkalı, əmmaməli xunxar gənələr, bitlər.
Hər tərəfdən üstümüzə hürüşür quduz itlər,
Ayıq olaq, əlimizdə tüfəng, dəyənək olsun.
Hər mömin libaslı iblis türkə "bəradər" olmaz,
Binnətəm, "ser","müsyo","mujik"türkə bərabər olmaz.
Xalqım, boş sözlərə uyma, döyüşsüz zəfər olmaz,
Hücuma keç, qələbə çal, Haqq sənə kömək olsun!

19.04.1999

Olmaya
(Divani)

Mərd mərd ilə ortaq ola, namərdə tay olmaya,
Bağ salıb, barını dərə, əməyi zay olmaya.
Heç bir kəsin bağçasının gülü vaxtsız solmaya,
Ahı buluda dönməyə, göz yaşı çay olmaya.
Millət, Vətən deyənlərin çoxları xain çıxdı,
Ayı, tülkü əlbir olub, fəndlə pələngi yıxdı.
Qanımızı tökən dazbaş qan içdikcə qanıxdı,
Şənbə gecəsitək gecə, yanvartək ay olmaya.
El qeyrəti çəkənlərin çoxu getdi güdaza,
Satqınlar mənsəbə çatdı xalqa gor qaza-qaza.
Yay- yaya, payız-payıza, qış-qışa, yaz da yaza,

www.kitabxana.net
Bənzəməyir. Bizdən küsüb Göy, Günəş, Ay olmaya?
Xalqı ayaqaltı edib naşılar çıxdı taxta,
Taxt-taca layiq olanlar qan qusdu laxta-laxta.
Məzlumların günü qara, bəylərin vədi saxta,
Zorla əldən-ələ keçən taxt - tac, saray olmaya.
El malına göz dikənin el otursun vayına!
Yardımkomlar, əlilkomlar yanmır elin hayına.
Daraşıblar əlillərin, yetimlərin payına,
Binnətəm, nə belə yardım, nə belə pay olmaya!

07.03.1992

Oğul

(Oğlum Arifə)

Hər səhər məktəbə tələs, qalma bir dərsdən, oğul.
Əlaçı ol, dalda qalma, bacar, heç kəsdən, oğul.
Atanı, ananı eşit, müəllimə hötmət et.
Ömrün boyu oxu, öyrən, düşmə həvəsdən, oğul.
Yükün kitab, dəftər olsun, vərdişin dərs oxumaq,
Hər dərdinə çarə tapar, bilsə hər kəs oxumaq.
Sənə şan-şöhrət gətirər, hədər getməz oxumaq,
Hifz eləyər bəd nəzərdən, həm bəd nəfəsdən, oğul.
Öyrənməyə könül verən sevər dəftər - kitabı.
Əziyyətdən uzaq olar, heç vaxt çəkməz əzabı.
Binnət kimi elmi sevən, dürüst bilər hesabı.
Geri qalmaz heç bir zaman qatardan-dəstdən, oğul.

17.09.1993

Qalmayıb

(Mərsiyə-qəsidə)

Ağlamaqdan göz yaşımız olubdur car, qalmayıb,
Əldən gedib qəmxarımız, bizə qəmxar qalmayıb.

www.kitabxana.net

Gözlər ağlar, üzlər qəmgin, toylar yasa dönübdür,
Nə çalan var, nə çağıran, nə də mağar qalmayıb.
Ana vətən qan ağlayır, hüznlə yas saxlayır,
Vurulmaqdan sinə qançır, üzdə tutar qalmayıb.
Əzizləri şəhid olan zarımasın, neyləsin?
Xəzan əsib, viran olub, çəmən-gülzar qalmayıb.
Ürək ahlı, sinə dağlı, könül həsrət, yol bağlı,
Bizə tuş olmayan xata, bəla, azar qalmayıb.
Qara şəhər qara geyib, yas saxlayır küçələr,
Qara bayraq asılmamış eyvan, divar qalmayıb.
Aman Allah! Tapılmayır qara parça, qara lent,
Getmədiyim, baxmadığım dükan- bazar qalmayıb.
Toplar, tanklar divan tutub əliyalın şəhərə,
Körpü uçub, yol dağılıb, çəpər, hasar, qalmayıb.
Ölüm saçan silahların qəhqəhəsi susmayır,
Evdən çıxmaq qadağandır, cəlladda ah qalmayıb.
Yezidlərin, faşistlərin, daşnaqların əliylə
Talan olub bağ-bağçalar, parklar, bağlar qalmayıb.
Göydə Günəş qara geyib, zülmət boğur şəhəri,
Sınıb işıq dirəkləri, bircə fənər qalmayıb.
Dünən bizə qardaş deyən nankorların əliylə
Sinəmizə çəkilməmiş hansı dağlar qalmayıb?!
Dalğa- dalğa insanların dalğalanır göz yaşı,
Bizi ağlar qoyan zalım niyə ağlar qalmayıb?
Bər-bəzəkli reklamların qaralıb çılçırağı,
Sarayların sütunları sınıb, tağlar qalmayıb.
Ağlar qalıb, ağı deyir Zeynəb- elin bülbülü,
Inləməyən, sızlamayan bir kaman, tar qalmayıb.
Üç gündür ki, matəm ünü bürüyübdür ölkəni,
Ümüdlərin odu sönüb, səbir, qərar qalmayıb.
Hanı mənim qoç Koroğlum, Cavanşirim, Xətayim?
Babəklərin, Nəbilərin meydanı dar qalmayıb.
Düşmən çıxdı, Binnət, sənin "xilaskarım" dediyin,
Nankorlarda nə sədaqət, nə etibar qalmayıb.

www.kitabxana.net

24.01.1990

www.kitabxana.net

Ölümmü, qalımmı?

Şəri xeyirindən qat-qat artıqsa,
Ölümmü, qalımmı bu dünyada mən?
Əzabı çoxdursa, rəhmi yoxdursa,
Ölümmü, qalımmı bu dünyada mən?
Ülfəti soyuqsa, eşqi səfasız,
Sevinci kasadsa, dərdi şəfasız,
Düşməni zalımsa, dostu vəfasız
Ölümmü, qalımmı bu dünyada mən?
Fitnəsə, böhtansa, şərsə əməli
Özü müəmmasa, işi gülməli,
Ağıl öyrədirsə alimə dəli
Ölümmü, qalımmı bu dünyada mən?
Hələ zülm edirsə haqsız haqlıya,
Haqdan dərd gəlirsə haqqa bağlıya,
Nə gülə bilirəm, nə də ağlaya
Ölümmü, qalımmı bu dünyada mən?
Ağıllar çaşıbsa, başlar gicdisə,
Bədxahlar şeytandan, cindən bicdisə,
Zaman dönübdürsə, dövran kəcdisə
Ölümmü, qalımmı bu dünyada mən?
Qan tökürsə çərxin qanlı əlləri,
Kəsirsə doğru söz deyən dilləri,
Əsirsə yurduma quzey yelləri,
Ölümmü, qalımmı bu dünyada mən?
Binnnətə lağ edən, a gülməlilər,
Xalqa biganələr, sağkən ölülər,
Mənə ağıl dərsi verən dəlilər,
Ölümmü, qalımmı bu dünyada mən?

03.10.1992

www.kitabxana.net

Öldürün məni!

Əgər qanun-qayda, ədalət yoxsa,
Doğruluq, düzgünlük, həqiqət yoxsa,
Etibar, sədaqət, məhəbbət yoxsa,
Öldürün, öldürün, öldürün məni!
Əgər kar edirsə, fələyi ahım,
Haqqım tapdanırsa, yoxsa pənahım,
Qeydimə qalmırsa şahım, Allahım,
Öldürün, öldürün, öldürün məni
Əgər sevincimdən qəmim çoxdursa;
Taleyim, qismətim, bəxtim yoxdursa,
Azad yaşamağa haqqım yoxdursa,
Öldürün, öldürün, öldürün məni!
Əgər haqq- ədalət gəzmək günahsa,
Qanunu – qaydanı pozanlar haqsa,
Mənim savabımdan günahım çoxsa,
Öldürün, öldürün, öldürün məni!
Əgər zülm edirsə haqsız haqlıya;
Qoymursa nə gülə, nə də ağlaya,
Tanrı rəhm etmirsə haqqa bağlıya,
Öldürün, öldürün, öldürün məni!
Əgər məhv edirsə rüşvət qanunu;
İşləmirsə Allah, dövlət qanunu,
Haqsızlıq tökürsə haqqın qanını,
Öldürün, öldürün, öldürün məni!
Əgər fərqi yoxsa yaxşının, pisin;
Insanla şeytanın, qızılla misin,
Felinə uyursa mömin iblisin ,
Öldürün, öldürün, öldürün məni!
Əgər haqqı danan hakim haqdırsa,
Fərman işləmirsə, dərman saxtasa,
Təsəllimiz dözüb, ağlamaqdırsa,
Öldürün, öldürün, öldürün məni!

www.kitabxana.net
Əgər BMT bizə kortək baxdısa;
Şəhidlərin qanı nahaq axdısa,
Qisas qiyamətə qalacaqdısa,
Öldürün, öldürün, öldürün məni!
Əgər xar olursa xalqım, Vətənim;
Düşmən əlindəsə çölüm-çəmənim,
Nəyimə gərəkdir bu ömür mənim?
Öldürün, öldürün, öldürün məni!
Əgər yağılardan qisas almasam;
Döyüşüb, vuruşub, zəfər çalmasam,
Binnətəm, qazi ya, qalib olmasam,
Öldürün, öldürün, öldürün məni!

18.09.1992

Öləsən səni
(Həcv)

(Hacı Xaliq Bəşər – bədnam bir dələduz "Öldürün məni" "Göydən zülm yağır hələ", "Bazara həvəsləndirmə" adlı şeirlərimi öz imzası ilə "Xural" qəzetində çap etdirib.)

Əgər səndə namus, qeyrət yoxdursa;
Vətənə, millətə hörmət yoxdursa,
Əhdin, etibarın, andın saxtasa,
Öləsən, öləsən, öləsən səni!
Əgər incikdirsə, səndən yad, yaxın;
Qohuma, qonşuya yoxsa pənahın,
Sənə qənim olsun şahın, Allahın,
Öləsən, öləsən, öləsən səni!
Əgər xeyirindən şərin çoxdursa;
Mənliyin, şərəfin, arın yoxdursa,
Sədaqətin, etibarın yoxdursa,
Öləsən, öləsən, öləsən səni!

www.kitabxana.net

Əgər vicdanın kar, qəlbin dustaqsa,
Ruhun xəzan vurmuş bəhrəsiz bağsa,
Sənin savabından günahın çoxsa,
Öləsən, öləsən, öləsən səni!
Əgər düşmənsənsə haqqa bağlıya;
Zülm edirsənsə haqqa bağlıya,
Haqq səntək zalımı niyə saxlaya?
Öləsən, öləsən, öləsən səni!
Əgər danırsansa sən vicdanını;
Hər gün pozursansa, oğru, qanunu
Düz olar töksələr sənin qanını
Öləsən, öləsən, öləsən səni!
Əgər itisənsə, gədə, sən pisin,
Sən zayın-zayısan, pisisən, pisin.
Qulusan şeytanın, cinin, iblisin,
Öləsən, öləsən, öləsən səni!
Əgər işin alıb aldatmaqdırsa;
Diplomların, möminliyin saxtasa,
Səndə qəlb buzdursa, nəfəs şaxtasa,
Öləsən, öləsən, öləsən səni!
Əgər harınlaşmış bir quduzsansa;
Insafı, mürvəti, rəhmi azsansa,
Şantajçı, böhtançı, dələduzsansa,
Öləsən, öləsən, öləsən səni!
Əgər xar olursa, xalqın, Vətənin,
Vecinə deyilsə, biqeyrət, sənin,
Nəyinə gərəkdir bu həyat sənin?
Öləsən, öləsən, öləsən səni!
Əgər qəsbkardan qisas almasan,
Fərari, döyüşüb zəfər çalmasan,
Binnətəm, qazi ya qalib, olmasan,
Öləsən, öləsən, öləsən səni!

02.02.2011

www.kitabxana.net

Xoş gəlibsiniz

Əziz balarımız, elmə,ürfana
Siz sadiq qalmağa xoş gəlibsiniz.
Qayğıkeş, mehriban müəllimlərdən
Dərs - bilik almağa xoş gəlibsiniz.
Qəvvas dürr çıxarar cumsa dərinə,
Heç zaman güvənməz fərsiz fərinə.
Elmin fəth olmamış zirvələrinə
Yeni yol salmağa xoş gəlibsiniz.
Hünərlə qorudu vətəni Babək
Bilik, hünər olsun yarağınız tək!
Ucalan üçrəngli bayrağımıztək
Hər gün ucalmağa xoş gəlibsiniz.
Siz qorxu bilməyən cavan şir kimi,
Meydandan tülkülər qovan şir kimi.
Döyüş meydanında Cavanşır kimi
Qələbə çalmağa xoşgəlibsiniz.
Binnətəm, həmişə əsgər tək sayıq
Elin keşiyində dayanmalıyıq.
Anamız vətənin adına layiq
Vətəndaş olmağa xoş gəlibsiniz.

01.09.1993

Qıfılbənd

Bir yol bir nəzərlə seyr eləmişəm
Bir oyuncaq-iki üzlü dünyanı.
Bu oyun dünyanın ağ günü on beş,
Qara gününün də on beşdir sanı.
Burda iki şahin hökmü, sözü var,
Şahın hər birinin altı üzü var.

www.kitabxana.net

Hər bir şahın iyirmi bir gözü var,
Bu şahların nə əti var, nə qanı.
Bu şahların iki şahənşahı var,
Iki şahənşahın bir Allahı var.
Bu dünyanın sevinci var, ahı var,
Binnət, sevin, qəmə vermə yaxanı.

18.04.1999

Söyüd

"Araz qırağında, küləkli gündə,
Mən bir söyüd gördüm çayın üstündə."
N.Həsənzadə

Bu odlu şeiri neçə il qabaq,
Oxudun, atəşi qanımda qaldı.
Vidalaşıb getdin, a şair, ancaq
O söyüdün dərdi canımda qaldı.
Hər külək əsəndə elə bilirəm,
Sərhəddə-Arazın qırağındayam.
Gözümdə intizar, ürəyimdə qəm.
Çoxdandır Təbrizin sorağındayam.
Görəndə söyüdün üzündə kədər,
Bir yığın dərd salır canıma fikir.
Ay şair, yurdumda bütün söyüdlər
Məftilli söyüdün dərdini çəkir.

21.01.1967

www.kitabxana.net

www.kitabxana.net

Bazara həvəsləndirmə

(*M.Ə.Sabirə nəzirə*)

Mənim bağım, baharım!-
Alverdən halı, oğlum!-
Bazar zamanı gəldi,
Dur, get, sat malı, oğlum!
Ey gözüm, ey canım,
Get bazara, cavanım!
Dükan-bazar açıldı,
Tayların tay-tay aldı.
Bazarın qabağında
Üç-dörd kisə göy qaldı.
A göy alıb satanım!
Get bazara, cavanım!
Oğul, yatma, amandır,
Zaman başqa zamandır.
Bir dükanda işləyən,
Bir alverçi kalandır.
Dur, a mənim kalanım,
Get bazara, cavanım!
Əlini pula öyrət,
Oxumağa etmə cəhd.
Hər nə alsan ucuz al,
Baha sat, qazan sərvət.
Dur,a yatıb qalanım,
Get bazara. cavanım...

Alverdə var az, zəhmət-
Şəhərlərə səyahət.
Hərədə bir sifət var.
Alverçidə min sifət.
A min sifət olanım!
Get bazara, cavanım!
Allah olsun köməyin!
Baş tutsun hər kələyin!
Ayıq ol,ələ keçmə-
Hədər gedər əməyin.
A bisavad qalanım!
Get bazara, cavanım!
Bazarkomun tap çəmin,-
Pulla onu et təmin.
Çek yazana da pul ver,
Olmasın qəti qəmin.
Qaz vur dolsun qazanın!
Get bazara, cavanım!
Hər ay bir yerə haqq ver,
Onluqları şax-şax ver,
Gələn ayın haqqını
Beş-altı gün qabaq ver.
Dur, başına dolanım!
Get bazara, cavanım!

01.06.1987

www.kitabxana.net

Zəfər çalsın ədalət

Xoş gəlib, səfa gəlib harayıma gələnlər,
El oduna yananlar, el dərdini bölənlər,
El üçün çalışanlar, el dərdini bilənlər,
Bizim parytiyamızın budur ülvi qayəsi-
Zəfər çalsın ədalət - “ Ədalət” partiyası!
Rədd olsun qanımızı avtomatla tökənlər!
Yurdumda azad olsun yurd həsrəti çəkənlər!
Qoşulun sıramıza, el qeyrəti çəkənlər,
Od vuraq, külə dönsün haqsızlığın tayası,
Zəfər çalsın ədalət - “ Ədalət ” partiyası!
Karvana sarban olmaz kor, əyri yolla gedən,
Ədalətli şah olmaz öz xalqına zülm edən.
Sülh azadlıq axtaran, çıxma bizim cərgədən.
Qiyamətə qalmasın şəhidlərin qisası,
Zəfər çalsın ədalət - “ Ədalət ” partiyası!
Fitnənin fitilini dazbaş cin alışdırıb,
Iblis daşnaqlar ilə aranı qarışdırıb,
Mələk donuna girib, kürən bizi çaşdırıb,
Xalqın yarısı qaçqın, didərgindir yarısı
Zəfər çalsın ədalət-“ Ədalət” partiyası!
Çağırıb tapşıranda sürünü xallı qurda,
Tülkülər aslanlara tor qurar orda - burda.
Çaqqallar gödən yırtır yenə bu vurhavurda,
Millətin xilas yeri, xilaskarı, xilası
Zəfər çalsın ədalət-“ Ədalət” partiyası!
Barbarların əliylə olubdur bərbad vətən,
Ədalət zəfər çalsa olacaq abad vətən-
Məramı haqsızlıqdan uzaq və azad vətən.
Məhv olsun canilərin cinayət partiyası
Zəfər çalsın ədalət-“ Ədalət” partiyası!
Minlərlə şəhid, itkin, əsir, şikəst, əlil var,
Didərgin, qaçqın, köçkün, dərbədər, dul gəlin var.

www.kitabxana.net
Nə Hadi, nə Möcüz var, Nə Sabir, nə Cəlil var.
Xunxarı mədh edənin olmaz abrı-həyası,
Zəfər çalsın ədalət-“ Ədalət” partiyası!
Zırpı turp çıxan deyil, birləşib, güc verməsək
Qarabağ azad olmaz döyüşlərə girməsək.
Zəfər çala bilmərik topa sinə gərməsək,
Yurdumda paydar olsun sülh-azadlıq dünyası!
Zəfər çalsın ədalət-“ Ədalət” partiyası!
Bəsdir talan etdilər ölkənin sərvətini,-
Pambığını, neftini, varını, dövlətini.
Gəlin çəkək vətənin, millətin, qeyrətini,
Binnətəm, olaq yurdun fədaisi, fədası
Zəfər çalsın ədalət-“ Ədalət” partiyası!

02.02.1992

www.kitabxana.net

Hələ

İblisi bəh-bəhlə başa çəkirik,
Daş-qalaq edirik mələyi hələ.
Özümüz-özümüzə zülm eləyirik,
Günahkar sayırıq fələyi hələ.
Haqsızlıq oyaqdır, ədalət yatıb.
Daz cin küpdən çıxıb, aranı qatıb.
Mömin sifətində kafirlər artıb,
Baş tutur biclərin kələyi hələ.
Bəylər də çoxalıb, indi bəylik də.
Səylər də çoxalıb, indi səylik də.
Gədələr hökm edən dərəbəylikdə
Haqqın qandallıdır biləyi hələ.
Çəkdik bəlasını bəlalı əsrin.
Bizə düşdü dərdi, məlalı əsrin.
Yağı zindanında zavallı əsrin
Qalır gözlərində diləyi hələ.
Qananlar danışıb gülmür ürəkdən,
Harınlar doymayır haram yeməkdən.
Ayıra bilməyir unu kəpəkdən,
Ay Binnət, dövranın ələyi hələ.

16.01.1991

Kişilənir

(*daxili qafiyə)*

Arvadından qorxub, kolda gizlənən də kişilənir.
Etibardan düşüb, hər gün izlənən də kişilənir.
Arsız arvadtək nazlanan, lap gec qanan, lap az qanan,

www.kitabxana.net

Evdə, çöldə qapazlanan, dizlənən də kişilənir.
Ölmür yerində bürüşüb,el içində gözdən düşüb.
Danlanmaqdan üzdən düşüb,üzlənən də kişilənir.
Kişilərə tələ qurdu, şər atana şahid durdu.
Atasının qəbri, yurdu, düzlənən də kişilənir.
Binnət kimi zəhmət çəkib,nə bağ salıb, nə yer əkib.
Ömrü boyu minnət çəkib, bizlənən də kişilənir.

13.04.2002

Xeyri yoxdur
(daxili qafiyə)

Xəsisdən pay,arsızdan ar gözləməyin xeyri yoxdur.
Satqın eli satıb, qaçıb, izləməyin xeyri yoxdur.
Görmür kasıb olanları millətin kor kəlamları.
Qabırğası qalınları dizləməyin xeyri yoxdur.
Söndürübdür dazbaş şamı, qaranlıqda qalıb hamı.
Ağzımızın itib tamı, "duz" deməyin xeyri yoxdur.
Belimizdə turp əkilir, sinəmizə dağ çəkilir.
Eybimizi aləm bilir, gizləməyin xeyri yoxdur
Sürümüzə dadandı qurd, viran oldu, dağıldı yurd.
Əgər evdə yoxsa qurud, "əz" deməyin xeyri yoxdur.
Satan satıb Qarabağı, muradına çatıb yağı,
Təpəsi xallı ulağı, bizləməyin xeyri yoxdur
Əldən düşdük yaza-yaza, söz kar etmir utanmaza.
Dil bilməzə,söz qanmaza söz deməyin xeyri yoxdu.
Batır vətən,ölür millət, haqsızlığa dözmür Binnət.
Nə səbr var,nə də taqət, "döz" deməyin xeyri yoxdur.

05.03.1991

www.kitabxana.net

Sənə nə?

Baba Pünhan, nə haraydır salmısan,
Aclıq artır, azar artır, sənə nə?!
Parlamentə yalan vədlə seçilib,
Susan susur, yatan yatır, sənə nə?!
Hamı bilir balıq başdan iylənir,
Başa keçən kabinetdə piylənir.
Qaçqın, işsiz, əlil, yetim dilənir,
Ölən ölür, batan batır, sənə nə?!
Sinəmizə dərd dərd üstə qalanır,
Ziyalımız tum satmaqla dolanır.
Sərvətimiz gizli-aşkar talanır,
Alan alır, satan satır, sənə nə?!
Zalım məmurlardan baş açmaz fələk,
Xalqa yalan vədlər kələkdir-kələk.
Məmləkəti ördək, balıq, xərçəngtək,
Hərə bir tərəfə dartır, sənə nə?!
Evdə satılası yox kilim, gəvə,
Bilmirik nə sataq, un alaq evə.
Yubley, bayram konsertiylə hər TV
Hər gün başımızı qatır sən nə?!
Bəylik edir hər tülkü bir dərəyə,
Tor qururlar hər gündə bir fərəyə.
Maaşımız yarım aylıq çörəyə,
Bəzən çatmır, bəzən çatır, sənə nə?!
Yerinə yetməyir yalan vədələr,
Sanma vədəbazlar uzaq gedələr.
Öyrədilmiş-həyasızlar, gədələr,
Kişilərə böhtan atır, sənə nə?!
Pərdədir qurulan qurğu-büsatlar,
Binnəttək dərd çəksən, ürəyin partlar.
Ulağa işləyir çərləmiş atlar,
Hökm edir xallı daz qatır, sənə nə?!

www.kitabxana.net

16.04.1991

Dözürük hələ

Nə yaman səbrli,dözümlü xalqıq,
Dözürük vurulan təpiyə hələ.
Aclar oynayırlar əlində yaylıq,
Toxların çaldığı çəpiyə hələ.

Harınlar ölkəni taladı,soydu,
Biclər məmləkəti pis günə qoydu.
Elə bil gözləri kordu,qarovdu,
Məddahlar dağ deyir təpəyə hələ.

Şəhərdə işləmir sexlər,dəzgahlar,
Kənddə susuz qalıb əkinlər,arxlar.
Öz halal varımız on ölkə saxlar,
Yaddan pay umuruq ölkəyə hələ.

Canda ağrımız çox,başda qadamız,
Dünyaya sığmayır saxta ədamız.
Hər gün bir ölkədən gəlir sədamız,
Yolumuz düşməyib Ləkiyə hələ.

Yüz acın içində beş nəfər toxdur,
Aclıqdan,azardan qırılan çoxdur.
Bu dərəbəylikdə nəzarət yoxdur,
Qanuna,qaydaya,çəkiyə hələ.

Dərdi danışdıqca söhbət uzanır,
Su yoxdu,nə işıq,nə də qaz yanır.
Yadlar ölkəmizdən milyon qazanır,
Özümüz həsrətik qəpiyə hələ.

Yeni islahatdan danışır hərə,
Nə dərsə qayğı var,nə şagirdlərə.
Onuncu sinifdə bəzi heyvərə,
Dördü bölə bilmir ikiyə hələ.

Tükənməz sərvətdir,ruzudur Xəzər,
Sərvəti olan da yamaqlı gəzər?!
Pambığımız,ipəyimiz dünyanı bəzər,

www.kitabxana.net
Çindən ipək gəlir Şəkiyə hələ.

www.kitabxana.net
Binnətəm,çaşmışam bu vurhavurda,
Gün ağlayan yoxdur millətə,yurda.
Möminlər şeytana,qoyunlar qurda,
Toyuqlar inanır tülküyə hələ.

09.03.1991

Qeybətkeşə
(Həcv)

Özün qeybətkeşsən,anan qeybətkeş,
Atan görbagor da qeybətkeş idi.
Nəslində,kökündə kişi olmayıb,
Deyələr: - qurumsaq yaxşı kişiydi.
Sırtıq sifətindən qaçıbdır həya,
Qəlbində yurd salıb paxıllıq,riya.
Quyruq bulayırsan səndən varlıya,
Yaltaqlıq,şırvanmaq tula işidir.
Üzə gülməyin var,dalda deməyin,
Əmək itirənsən,itsin əməyin!
Haram qazancın var,haram yeməyin,
Vərdişin sümsünən it vərdişidir.
Atanı,özünü öyməyin də var,
Yalandan döşünə döyməyin də var.
Özündən gücsüzü söyməyin də var,
Xoxun da uşağa xox gəlişidir.
Səndən yaramayıb nə qohum,nə yad,
Hər əməlin bəddir,sənin, a bədzat.
Səndən şərəflidir şərəfsiz arvad,
Kişiliyə yadsan,adın kişidir.
Bir az tələxəklikdə məharətin var,
Min bəd əməlin var, bəd adətin var.
Binnətəm,min dilin,min sifətin var,
Hələ yazdıqlarım mindən beşidir.

www.kitabxana.net

14.11.1980

Nankor
(*Həcv)*

Tulatək sülənərdin, axşam-sabah dövrəmdə,
A nankor, çibin idin mətbəximdə, süfrəmdə.
Hər məclisdə on dəfə şənimə tost deyərdin,
Səndən olmaz: – deyərdin, məni tərifləyərdin.
Həftələrlə, aylarla evimdə qonaq idin,
Nə sözümdən çıxardın, nə üzümə ağ idin.
Yalan, doğru nə desəm, təsdiqlərdin sözümü
Əzbərlərdin şerimi, təriflərdin özümü.
Indi işin rast gedir, məndən uzaq gəzirsən,
Hər sozümə qulp qoyub, mənə ağız büzürsən.
Kimliyin bəlli oldu,a gədə oğlu gədə.
Gədədən gədə törər, kişi olmaz heç vədə.
Nə atan xeyir verib bir kimsəyə,nə də sən,
Atan səndən gədəydi, sən atandan gədəsən.
Qoltuqlarda keçirtdin həyatının çoxunu,
Axtarırsan qohumun varlısını, toxunu.
Bir kasıb qohumunun qapısını açmazsan,
Varlı qohumun səni itlə qovsa qaçmazsan.
Əl tutmağın olmayıb,həmişə əl açmısan,
Gen günümdə itimdin,dar günümdə qaçmısan.
Sən haram yeyə-yeyə haramıya dönmüsən,
Binnətgilə gəlmirsən, günə – aya dönmüsən.

20.11.1983

M.S.Qorbaçova
(Məsnəvi)

Büt saydın, baş əydin hər heykəlinə,
Bəşər sadiq sandı səni Leninə.
Marksdan, Lenindən dedin sitatlar,

www.kitabxana.net
Bir deyil, beş deyil – saysızdır faktlar.

www.kitabxana.net
Başına cəm olmuş dostlarınla sən,
Böyük salonlarda təmtəraqla, şən.
Avazla oxudun beynəlmiləli,
Pak kommunist saydı səni çox dəli.
Elə qrimləndin, maskalandın ki,
Üzdə el oduna elə yandın ki,
Böyük alimlər də sənə inandı,
Dedilər: - «Pozulmaz ilqarı, andı»
Hansı elə getdin rəhbərtək, ərklə,
Xalq qarşısına çıxdı duzla, çörəklə.
Qəlbində dağıtmaq, qırmaq məqsədin,
Ölkəni yenidən qurmaq istədin.
Xalqlar arasında çaxnaşma saldın,
Tökdüyün qanlara baxıb, zövq aldın.
Hər yerdə danışdın xalqın adından,
Sözlərin «sülh» oldu, əməllərin «qan».
Çox günahsız qanlar tökdü əllərin,
Sənə qənim olsun bəd əməllərin!
Milləti-millətin üstünə saldın,
Neçə dürlü-dürlü mükafat aldın.
Gərək çəkiləsən dara, çarmıxa,
Hələ yaşayırsan ev yıxa-yıxa!
Indi hamı bilir, hamı bilir sən
Bir mələk donuna girmiş iblissən!

16.02.1990

Ay haram olsun sənə
(M.S.Qorbaçova)

Gördü el qeyrətini, ay haram olsun sənə!
Gördü şücaətini, ay haram olsun sənə!
Sənə inanmasaydıq ağlamazdı anamız.
Yağılara qalmazdı, a dazbaş, Topxanamız,
Göyçətək mahalımız, barımız, barxanamız,

www.kitabxana.net
Etməzdik qeybətini, ay haram olsun sənə!
Daşnaqlara uyubsan, el tamam əldən gedib,
Cana doymuş alimlər, igidlər eldən gedib.
Səni mədh eləyənlər başımızı dəng edib,
Öyür məharətini, ay haram olsun sənə!
A xunxar, el qanını zəli kimi sor hələ,
Zülm et, əlində imkan, qolunda var zor hələ.
Xalqı zülmətdə saxla, millətə qaz gor hələ,
Qır, məhv et millətini, ay haram olsun sənə!
Gündə yüz yağlı vəd ver, xalqı nağıla öyrət,
Bu elə lazım deyil işıq, qaz, çörək, yağ, ət.
Xalq səni dara çəkər dizində olsa taqət,
Didər sən öl ətini, ay haram olsun sənə!
Hərə bir yana qaçsa, boş qalar diyarımız,
Didərgindir yarımız, dilənçidir yarımız.
Qorx elin qəzəbindən, bəsdir, Xudayarımız,
Düşün aqibətini, ay haram olsun sənə!
Çağır qohumlarını, hara gedir var, desin,
Niyə artır yoxsulluq, millət olur xar desin.
Nöş Baba punhan desin, Binnət də aşkar desin
Sözün həqiqətini, ay haram olsun sənə?!

18.06.1991

Çadır düzündə
(daxili qafiyə)

Unutmuşuq yaylağı, dağı çadır düzündə,
Daz çəkir sinəmizə dağı çadır düzündə.
Qara günə qalmışıq-nə qaz yoxdur, nə işıq,
Qaçqın tapmır bir qaşıq yağı çadır düzündə.
Dığa-kefdə-damaqda, Nağı-qan ağlamaqda,
Dığa-Cıdır düzündə, Nağı-çadır düzündə.
Dərman tapmır xəstələr, vaxtsız ölür körpələr,

www.kitabxana.net
Tapmazsan bircə nəfər sağı çadır düzündə.

www.kitabxana.net
Qaçqın qəlbində yara, yas tutur, geyir qara,
Ağlayır, anır Qarabağı çadır düzündə.
Yardımkom gəlir kələk, cindir-sifəti mələk,
Vermirlər içək, ölək, ağı çadır düzündə.
Kefi kökdür satqının, eli satan azğının,
Ərşə çıxır qaçqının ahı çadır düzündə.
Əynimizdəki köhnə, un yox, boş qalıb təknə,
Nə yardım görürük, nə qayğı çadır düzündə.
Hər gələn yüz vəd verir, nə çay, nə də qənd verir,
Bizə hələ dərd verir yağı çadır düzündə.
Çadırlar nəm, soyuqdur, nöyüt, qaz, kömür yoxdur,
Bir nəfər məmur yoxdur axı çadır düzündə.
Binnət, bicin, alçağın yerdə qalsın yançağı,
Qış görürük palçığı, lığı çadır düzündə.

19.02.1992

Qoymayın
(daxili qafiyə)

Hələlik qəflətdə yatsın, millət ayıla, qoymayın!
Itir itsin, batır batsın, millət sayıla qoymayın!
Kimin ağzı nədir dinə, salın dilənçi həddinə!
Sail edib salın tinə, evində qala, qoymayın!
Haramxor, acgödən divlər, öz xeyrini güdən divlər,
Maarifə zidd gedən divlər, millət elm ala, qoymayın!
Yığın qoçu başçıları, məhv eləyin yaxşıları.
Başa çəkin naşıları, alim ucala, qoymayın!
Gücünüz var, pulunuz var, nökəriniz, qulunuz var,
Qurdsunuz, qurd yolunuz var, xalqı bu yola qoymayın!
Öz hayına qalsın hərə, pul tapmasın xeyrə-şərə.
Milləti çəkin məhşərə, artıb çoxala qoymayın!
Qoy dilənsin şagird, müəllim, nə dərs olsun, nə də təlim.
Kim desə, - «dağılır elim», onu mahala qoymayın!
Kasıb – kusub əsgər olsun, elindən dərbədər olsun.

www.kitabxana.net

Dərd çəksin dərdəcər olsun, dərdi azala qoymayın.
Gəzdiyi haqqdır Binnətin, həddi olar hürriyyətin.
Yumun ağzını millətin, hay-haray sala, qoymayın!
Səsi ucala, qoymayın!
Dinc nəfəs ala, qoymayın!

12.02.1991

Bizə nə?!

Beş nəfər kənddə toxdur, yüz nəfər acdır, bizə nə?!
Ölkədə kasıbçılıq həddini aşdı, bizə nə?!
Bizə nə imkansızlar tapmır yavan çörəyə pul,
Ayrana, şora, südə, bircə qaşıq kərəyə pul?
Şomuya, yolotuna, cincilimə, tərəyə pul,
Niyə biz verməliyik yetimə, füqəraya pul?
Əlillər, didərginlər ac-yalavacdır, bizə nə?!
Ölkədə kasıbçılıq həddini aşdı, bizə nə?!
Biz Tağıyev deyilik, eyləyək xeyriyyəçilik,
Hələlik dəbdə deyil, neyləyək xeyriyyəçilik?
Kasıbın çıxsın canı, qoy gedib etsin çərçilik,
Hamballıq, muzdurçuluq, qapılarda nökərçilik.
Gülüzlü Tükəzbanlar qul-qarabaşdır, bizə nə?!
Ölkədə kasıbçılıq həddini aşdı, bizə nə?!
Bilirik, məmləkətdə kasıb da var, kalan da var,
Rüşvətxor varsa, rüşvət verən də var, alan da var,
Qırx otaqlı mülkdə tox, çadırda ac qalan da var,
Sailə-dilənçiyə döngə də var, dalan da var.
Yer üstə dilənçilər tində dalaşdı, bizə nə?!
Ölkədə kasıbçılıq həddini aşdı, bizə nə?!
Bizə nə, Şuşa batdı, Xocalını dağıtdılar,
Ağdamı, Kəlbəcəri, Qubadlını da satdılar?!
Sevgili Haykanuşlar muradlarına çatdılar,
Dul qalan Tükəzləri ağlatdılar, sızlatdılar.
Qarabağ viran olub, xarabalaşdı, bizə nə?!

www.kitabxana.net
Ölkədə kasıbçılıq həddini aşdı, bizə nə?!

www.kitabxana.net

Neftimiz fantan vurdu, ya bahalaşdı, sizə nə?!
Çoxları milyonlarla xaricə qaçdı, sizə nə?!
«Tolkovi» qeyrətlilər «tolkuçka» açdı, sizə nə?!
Bəzimiz heyvərədir, lap danabaşdır, sizə nə?!
Məmləkət viran oldu, xarabalaşdı, bizə nə?!
Ölkədə kasıbçılıq həddini aşdı, bizə nə?!
Bizə nə, qəzet-jurnal böhtan, şaiyə, yalan yayır,
Binnət də qoca vaxtı ağlı çaşıb, sayıqlayır.
Məddahlıq, tamadalıq edir indi şair-mayır,
Mitinqə gedənləri zopalılar tumarlayır
Ara qarışdı, bizə nə?!
Prezident qaçdı, sizə nə?!
Işiniz yaşdır, bizə nə?!
Qəlbimiz daşdır, sizə nə?!

18.04.1991

Qardaş

Xallı dazbaş edir bizə sitəmi,
Gəzmə özgəsində zavalı, qardaş!
Nadanlar adamı saymır adamı,
Qınama taleyi, yığvalı, qardaş.
Sürünü qoruyan yala həsrətdir,
Məmur gəzdirən at nala həsrətdir.
Arı saxlayanlar bala həsrətdir,
Oğrular yeyirlər saf balı, qardaş.
Bir bax, işləyənlər dişləmir daha,
Ahımız, ünümüz yetişmir şaha,
Maaşlar çox azdır, ərzaq çox baha
Haramxorlar rəis olalı, qardaş.
Ölkəmizin varı on ölkə saxlar,
Satıb öz cibinə qoyur alçaqlar.
Muzdurun haqqını vermir bədxahlar
Quldurlar vəzifə alalı, qardaş.

www.kitabxana.net

Arsıza kar etmir felyeton, şeir,
Yardımkom qaçqının payını yeyir.
Şairlər mədhiyyə, meyxana deyir,
Müğənnilər atıb qavalı, qardaş.
Həsrətik qatığa, ayrana, şora.
Zəlilər divləşib qan sora-sora,
Işimiz əl çalmaq, sözümüz "ura"
Millət qara günə qalalı qardaş.
Taxtdan düşənləri düşmən sananlar,
Taxta çıxanlara yaltaqlananlar,
Mədhiyyə yazanlar, məddahlananlar
Danışır havalı-havalı, qardaş.
Möhtacıq çirkablı Kürün suyuna,
Millət məcbur olub içə, yuyuna.
Qurddan çoban olmaz, vallah, qoyuna,
Müfəttiş qoymazlar dəllalı, qardaş.
Qulluq edən azdır haqqın dininə,
Rast gəllik kafirin gündə mininə.
Gözətçi qoyurlar toyuq hininə,
Acgödən tülkünü, çaqqalı, qardaş.
Pul alıb qulduru darğa qoyurlar.
Belə darğalar da xalqı soyurlar.
Dövrə bax, rüşvətlə rəis qoyurlar
Dabbağı, qəssabı, baqqalı, qardaş.
Şirin yalanlarla mail olmuşuq,
Vədlərə inanıb zail olmuşuq,
Binnətəm, dilənçi-sail olmuşuq,
Gəzirik qoltuğu torbalı, qardaş!

10.03.1991

www.kitabxana.net

Yazmayaq

Şair qardaşlarım, ataq qələmi,
Əl götürək şeiriyyatdan, yazmayaq!
Nadürüstlər bizə ağız büzməsin,
Uzaq olaq məzəmmətdən, yazmayaq!

Yazıb nə qazandı əvvəl yazanlar,
Düz yola qayıtmaz yoldan azanlar.
Xalqa kəfən biçib, qəbir qazanlar,
Əl çəkməzlər xəyanətdən, yazmayaq!

Bizə nə kim verir, kimi də alır?
Rüşvəti dayı da, əmi də alır.
Məmur var-həm verir, həmi də alır,
Bu alverdən, ticarətdən yazmayaq!

Bizə nə, kim xalqı talayır, soyur,
Dağıdır ölkəni-xaraba qoyur?
Bizə nə, kim-kimin gözünü oyur?
Söz açmayaq cinayətdən, yazmayaq!

Sabir nə qazandı, Möcüz nə tapdı?
Cəlilin hər sözü böyük kitabdı.
Bizim yazdığımız hədər, əzabdı,
Qaçaq hədər əziyyətdən, yazmayaq!

Bizə nə, qaçqınlar soyuqdan əsir,
Bizə nə, kim kimin haqqını kəsir?!
Bizə nə, dörd ildir Qarabağ əsir,
Qurtarmayır əsarətdən, yazmayaq?!

Yerlə yeksan oldu Xocalı, neynək?
Niyə yas saxlayaq, qara geyinək?
Bizi eşidən yox, niyə deyinək?
Millət çəkən müsibətdən yazmayaq!

Bizə nə, əlillər, yetimlər sızlar?
Nolsun əsirlikdə gəlin var, qız var?
Bizə nə, bir milyon qaçqınımız var?
Zəlillikdən, zələlətdən yazmayaq

www.kitabxana.net
Biganələr bizi təhnizlər, danlar,
Binnət yazdığını haqq sevən anlar.
Daşqalaq eləyər bizi nadanlar,
Nadanlıqdan, cəhalətdən yazmayaq!

12.03.1992

Yoxdur

Pul verib, vəzifə alıbdır gədə,
Düşünüb - duymaqdan xəbəri yoxdur.
Nə dərkənar qoya bilir sənədə,
Nə möhür vurmaqdan xəbəri yoxdur.
Yekə bir otaqda yalqız oturur,
Krossvord tapmaqla özünü yorur.
«Mərkəz» arağından mərkəzdə vurur,
Mərkəzdən uzaqdan xəbəri yoxdur.
Arvadı evində dərddən çərləyir,
Yanında gündə bir Maşa hərləyir.
Katibə çayından içib tərləyir,
Soyuqdan, sazaqdan xəbəri yoxdur.
Mersedesdə gəzir, son dəbdə geyir,
Qaçqının, əlilin payını yeyir.
O da iclaslarda «Qarabağ»-deyir,
Amma Qarabağdan xəbəri yoxdur.
Gözündən uzaqdır alçalan, enən,
Qapısı bağlanan, ocağı sönən.
Qapı-qapı gəzib çörək dilənən,
Məktəbli uşaqdan xəbəri yoxdur.
Pul yığır əlinə düşəli fürsət,
Şəhərdə mülk alıb, bağda imarət.
Onun qaza, suya, işığa həsrət,
Tovuzdan, Qazaxdan xəbəri yoxdur.

www.kitabxana.net
Bilir qaydasını verib-almağın,
Müfəttişi razı yola salmağı.
Ay Binnət, hər şeyi bilən maymağın,
Obadan, oymaqdan xəbəri yoxdur.

20.02.1992

Oxumuram, əl çəkin
(M.Ə.Sabirə nəzirə)

Oxu mənimdir əgər, oxumuram, əl çəkin!
Nəsihət etməz əsər, oxumuram, əl çəkin!
Sanmayın mən bədbəxtin elmə həvəsi yoxdur.
Isti paltarım yoxdur, məktəb-sinif soyuqdur,
Məktəbə ac getməyin mənə ziyanı çoxdur,
Cana zərərdir, zərər, oxumuram, əl çəkin!
Nəsihət etməz əsər, oxumuram, əl çəkin!
Nolsun hələ uşağam, yaxşı-yaman sanıram,
Elmin gərək olduğun anlayıram, qanıram,
Müəllim pul yığanda verməsəm, utanıram.
Çəkirəm qüssə-kədər, oxumuram, əl çəkin!
Nəsihət etməz əsər, oxumuram, əl çəkin!
Eləmirsiz rəhm mənim gözdən axan yaşıma,
Baxmırsız təqaüdü az-tələbə qardaşıma,
Qışda tapa bilmirəm, "şapka" qoyam başıma,
Lütəm, görmürsüz məgər, oxumuram, əl çəkin!
Nəsihət etməz əsər, oxumuram, əl çəkin!
Əhvalımız bəllidir, a başçılar, sizlərə,
Bir insafa gələsiz, rəhm edəsiz bizlərə,
Inanmıram mən daha dediyiniz sözlərə,
Saymır bizi bir nəfər, oxumuram, əl çəkin!
Nəsihət etməz əsər, oxumuram, əl çəkin!
Qalan yoxdur qeydimə, yanan yoxdur halıma,
Yoxdur dərdimi çəkib, acıyan əhvalıma.

www.kitabxana.net
Nə müəllimə hörmət var sizdə, nə də alimə,
Dilənir tələbələr, oxumuram, əl çəkin!
Nəsihət etməz əsər, oxumuram, əl çəkin!
Bəsdir, cəhənnəm olun, bizi çox aldatdınız,
Bol-bol yalan vəd verib, başımızı qatdınız.
Şagirdi, tələbəni kafirə oxşatdınız.
Hamımız olub qul, nökər, oxumuram, əl çəkin!
Nəsihət etməz əsər, oxumuram, əl çəkin!
Inanıb aldanmışıq, siz kimi laməzhəbə
Nə şagirdə qayğı var, sizdə nə də məktəbə.
Pul tapa bilməyirəm dərslik üçün kitabə,
Bahadır qələm, dəftər, oxumuram, əl çəkin!
Nəsihət etməz əsər, oxumuram, əl çəkin!
Pulum olmaz, əl açıb sail ola bilməsəm,
Alver edə bilməsəm, maşın yuyub, silməsəm.
Xəstə anam sağalmaz dərman ala bilməsəm,
Bacım acından ölər, oxumuram, əl çəkin!
Nəsihət etməz əsər, oxumuram, əl çəkin!
Şagirdə, tələbəyə budurmu qayğı sizdə?
Minlərlə uşaq dərsə getməyir ölkəmizdə,
Sizdə mərhəmət olsa, dərsə gedərik biz də,
Millətə biganələr, oxumuram, əl çəkin!
Nəsihət etmək əsər, oxumuram, əl çəkin!
Cana zərərdir, zərər, oxumuram, əl çəkin!

24.02.1991

Millət, hələ yat
(daxili qafiyə)

Olsa on bal zəlzələ yat, qorxu bilmə bir belə, yat!
Qopsa tufan, vəlvələ yat, yanğın ola, sel gələ, yat!
Ayılma, millət, hələ yat!
Sayılma, millət, hələ yat!

www.kitabxana.net
Yastığını elə rahat, döşəyin də olsun üç qat,
Axşamdan gir yatağa yat, ayağını yaxşı uzat,
Nə üstündən yorğanı at, nə səs salıb xalqı oyat.
Olsa fəlakət hələ yat, dönsə məmləkət külə yat!
Ayılma, millət, hələ yat!
Sayılma, millət, hələ yat!
Könül ver xabi - qəflətə, nadanlığa, cəhalətə,
Uyma elmə, qiraətə, maarifə, mədəniyyətə,
Fikir vermə siyasətə, aşiq olma hürriyyətə!
Salma canı əziyyətə, düşmə nahaq əngələ, yat!
Ayılma, millət, hələ yat!
Sayılma, millət, hələ yat!
Yat, hələ bu qəflətdə qal, yat, xabi- cəhalətdə qal!
Yat, hələ bu illətlə qal, yat, bu halda, bu dərddə qal!
Yat, qalxma səndə yoxdur hal, üstünə üç yorğan da sal
Yat, yorğan üstə qalmaqal davam edir, yat, hələ yat!
Ayılma, millət, hələ yat!
Sayılma, millət, hələ yat!
Tərpətsələr oyanma, yat, top atsalar oyanma, yat!
Dinsə sur, qopsa qiyamət, məhşərə gəlsə həzarat,
Zərrəcə olma narahat, yat yerində rahat-rahat.
Yuxundan qalma bir saat, lap göydən Allah gələ, yat!
Ayılma, millət, hələ yat!
Sayılma, millət, hələ yat!
Torpağını alsalar da, səni qaçqın salsalar da,
Yatağına dolsalar da, marlar səni çalsalar da,
Övladların yad diyarda əsir-yesir olsalar da.
Qaçaqaçda donsalar da, yadlardan yardım dilə, yat!
Ayılma, millət, hələ yat!
Sayılma, millət, hələ yat!
Unut yüzlərlə yaylağı, yüzlərlə sərin bulağı,
Unut obanı, oymağı. Binnətə çox çəkib dağı-
Şuşada kef çəkir yağı. Unut o yurdu, oylağı-
Dazbaş cənnət Qarabağı satıbdır Vartangilə, yat!

www.kitabxana.net
Ayılma, millət, hələ yat!
Sayılma, millət, hələ yat!

12.05.1992

Gülə-gülə
(Həcv)

Nankor bir qohum gələrdi,
Hərdən bizə gülə-gülə.
Itib, onu axtarıram,
Gəzə-gəzə, gülə-gülə.
Kasıb qohuma kəc baxar,
Varlı yada qahmar çıxar.
Böhtan deyər, qara yaxar.
Düzümüzə gülə-gülə.
Dəm vurar namusdan, ardan,
Gileylənər dostdan, yardan.
Qeybət edər qohumlardan
Özümüzə gülə-gülə.
Əl tutmaz əl açsaq əgər,
Pay da verməz acsaq, əgər.
Üzə gülər, kül üfürər
Gözümüzə gülə-gülə.
Ay Binnət, riyadır sözü,
Öz eybini qanmır özü.
Üzdən düşüb sırtıq üzü,
Üzümüzə gülə-gülə.

25.10.1991

Dönmüşük köşəyə, qardaş

Hələ yaza çox var, işıqsız, qazsız,
Qalmışıq üşüyə-üşüyə, qardaş.
Ala bilməyirik pambıq tıxayaq,
Qapı-bacadakı deşiyə, qardaş.

www.kitabxana.net

Uşağın üzünə baxa bilmirik,
Aclıqdan yermizdən qalxa bilmirik.
Paltarmız üzülüb, çıxa bilmirik,
Yorğan bürünməsək eşiyə, qardaş
Dilənçilər yollar boyu düzülüb,
Ümidimiz yerdən, göydən üzülüb.
Yorğan üzdən düşüb, mitil süzülüb,
Üz tapa bilmirik döşəyə, qardaş.
Kəndxuda seçmişik ara qatanı,
O da odunçuya verib baltanı.
Hər gün ağac kəsib, odun satanı,
Gözətçi qoyubdur meşəyə, qardaş.
Kasıblıqdan çoxu canından bezib,
Kattamız şişləri manqala düzüb,
Qarnı önə, boynu geriyə süzüb
Kababdan döşəyə-döşəyə, qardaş.
Dözdük-hər ağrını saldıq ürəyə,
Maaşımız çatmır şora, çörəyə.
Binnətəm, həsrətik çaya, xörəyə,
Nazilib dönmüşük köşəyə, qardaş.

11.03.1991

Nə oyan, nə də cəngə bax

(daxili qafiyə)

Mənə nə var deyən qafil, nə oyan, nə də cəngə bax,
Atan atsın, vuran vursun, nə topa, nə tüfəngə bax.
Iclaslarda döşünə döy, «Vətən, Millət»- deyə-deyə,
Hamı sənə baxıb desin:-igidə bax, zirəngə bax.
Mənə nə var, deyə-deyə baş girlədin ömür boyu,
Bir kor olmuş gözünü aç, qaçqına, pəsələngə bax.
A biqeyrət, anan-bacın, əsir-yesir, didərgindir,

www.kitabxana.net

Sən hələ Maşalarla gəz, gözələ bax, qəşəngə bax.
Yerli-yersiz zorlulara, yaltaq tula, quyruq bula,
Bir az altdan yanbız yala, nə irqə bax, nə rəngə bax.

www.kitabxana.net

Iblistək gir dondan-dona, çuğulluq et bundan ona,
Nə yaxşıdan yaxşıya bax, nə nəhəngdən nəhəngə bax.
Mənə nə var deyən xərdə namus, qeyrət, məslək olmaz,
Barı, bir yol el yolunda Çingiz kimi şəhidə bax.
Bala şəkər, südə su qat, arşını kəs, bir az qısalt,
Çəkidə Binnəti aldat, nə haqqa, nə pərsəngə bax.

20.03.2002

Gədəsən

(Həcv, daxili qafiyə)

Üzünü dolu döysün, üzdəniraq gədəsən.
Nəsli, kökü bədəsil, zatıqırıq gədəsən.
Fırıldağın, felin var, min üzün, min dilin var,
Hər biclikdə əlin var, şeytansayaq gədəsən.
Edirsən qeybət, giley, xoşuna gəlmir heç şey,
Itaətkar qul, lakey, düşük, yaltaq gədəsən.
Yada quyruq bulayan, "Ula",-desə ulayan,
Sinisini yalayan, acgöz, yalaq gədəsən.
Baş gəzirsən yarmağa, üz gəzirsən cırmağa,
Dostunu da vurmağa, hazıryaraq gədəsən.
Əməllərindən utan, insan ol, eybini qan!
Mərdlikdən, adamlıqdan, tamam uzaq gədəsən.
Binnətəm, ay balqabaq, gəl çəkim şəklini, bax.
Danabaş, dəvədodaq, uzunqulaq, gədəsən!

25.08.2005

Vəzifədə olanda... çıxanda

Tale sənə gülüb, bəxtin yar olsa,
Əlində vəzifə, ixtiyar olsa,
Artar dostların da, tanışların da,
Var üstə var gələr, artar varın da.
Hərə bir yol ilə sovqat gətirər,

www.kitabxana.net

Kimi gümüş yəhər, kimi at gətirər.
Məddahlar hey səni mədh eləyərlər,
Yaltaqlar adına tərif deyərlər.
Namusu, qeyrəti, arı atarlar,
Evdə pişiyinə siçan tutarlar.
Tulanı şampunla çimizdirərlər,
Ona qaşıqla tort yedizdirərlər.
Elə ki, vəzifə çıxar əlindən,
Məddahlar, yaltaqlar gen gəzər səndən.

14.08.1962

Olmur olmasın

(Sabiranə daxili qafiyə)

Ata: Dərsə hazır getmə, oğul, qiymətin olmur, olmasın!
Nə dərs öyrən, nə də peşə, sənətin olmur, olmasın!
Oğul: Doğru söz deməyə, ata, cürətin olmur, olmasın!
Öz elində azadlığın, hürriyyətin olmur, olmasın!
Ata: Nə dərsə bax, nə dəftərə, qoşul şuluq edənlərə,
Ol onlar kimi heyvərə, ismətin olmur, olmasın!
Xiffətin olmur, olmasın!
Oğul: Sən də inan yalanlara, get qoşul əl çalanlara,
Əl çalıb alçalanlara nifrətin olmur, olmasın!
Qeyrətin olmur, olmasın!
Ata: Evdən çıxıb məktəbə yox,özünü qumarxanaya sox!
Məktəbdə bir qiymətin yox, hörmətin olmur, olmasın!
Oğul: Gücün yox işə getməyə, məhkumsan ölüb itməyə,
Haqqını tələb etməyə, fürsətin olmur, olmasın!
Cəsarətin olmur, olmasın!
Ata: Meyl et siqara, arağa, şərabdan düşmə irağa,
Səhər yerindən durmağa taqətin olmur, olmasın!
Halətin olmur, olmasın!
Oğul: Orda-burda dilən, dolan, məskənin olsun tin-dalan,

www.kitabxana.net

Sail ol, qeydinə qalan cəmiyyətin olmur, olmasın!
Dövlətin olmur, olmasın!
Ata: Dolan restoranda, barda, gündə bir parkda, bulvarda,
Əsgərliyə getmə, yurda xidmətin olmur, olmasın!
Niyyətin olmur, olmasın!
Oğul: El oduna yanma, ata, öz eybini qanma, ata!
Heç kəsdən utanma, ata, izzətin olmur, olmasın!
Xəcalətin olmur, olmasın!
Ata: Bəsdir sinifdə qaldığın, hər dərsdən iki aldığın,
Əfəlsən, yoxdur qandığın, fərasətin olmur, olmasın!
Qüdrətin olmur, olmasın!
Oğul: Mitinqdən, piketdən yığıl, dubinka yedin bir yığın,
Şil-küt oldu əl-ayağın, vəhdətin olmur, olmasın!
Sərvətin olmur, olmasın!
Sən qazan harınlar yesin,
Dövlətin olmur, olmasın!
Bayramlarda da süfrəndə
Yağ, ətin olmur, olmasın!

24.09.1991

Yaltaqlığa hazırıq
(Sabiranə)

Yaltaqlığa, yaranmağa hazırıq,
Bəy nə desə, əl çalırıq çarthaçart.
Ağıllını danışmağa qoymarıq,
Səy nə desə, əl çalırıq çarthaçart.
Unutmuşuq Qarabağı, davanı,
Səngiməyir o vurhavur, athaat.
Cəbhələri tərk eləyib, qaçmışıq.
Başımıza mərmi yağmır şarthaşart.
Biz yenə də konsertdəyik, kefdəyik.
Yehayedir, içhaiçdir, yathayat.
Başdan başa Bakı dönüb bazara,

www.kitabxana.net
Hərtərəfdə alhaaldı, sathasat.
Möhtəkirlər dönüb acgöz quldura,
Soyhasoydur, yığhayığdır, çaphaçap.
Hamı aşkar alır, verir, rüşvəti
Alhaaldı, yolhayoldur, qaphaqap.
Kasıbımız çörək tapmır yeməyə,
Kalanımız dollar sayır şırthaşırt.
Alimimiz ac yatır, ac oyanır,
Ziyalımız ölhaöldür, bathabat.
Hərə dartır el malını bir yana,
Sökhasökdür, çəkhaçəkdir, darthadart
Milyonçumuz gündə bir saray yapır,
Qurhaqurdur, tikhatikdir; yaphayap.
Çörək gəzir, iş gəzirik il boyu,
Gəzhagəzdir, qaçhaqaçdır, yorthayort.
Yaxşımızdan gileylənir naşımız,
Axşamadək qeybət edir qırthaqırt.
Elə ağır yatmışıq ki, qəflətdən
Oyanmırıq min top salsa parthapart
El yolunda düşüb zülmün oduna,
Binnət yanıb külə dönür çırthaçırt.

13.06.1991

Köpək oğlusan

(həcv, daxili qafiyə)

Qanımızı sorursan, zəli köpək oğlusan.
Mahala od vurursan, dəli köpək oğlusan.
Çörək gəz qaça-qaça, dilən əl aça-aça.
Yatağan kimi haça dilli köpək oğlusan.
Həya yoxdur üzündə, riya çoxdur sözündə.
Qayə yoxdur özündə, milli köpək oğlusan.
Qənim olsun sənə din, çürütsün qəlbini kin.

www.kitabxana.net

Atan iblis, anan cin, bəlli köpək oğlusan.
Dərdi çox millətimin, suçu yox millətimin.
Boğmağa milləti min əlli köpək oğlusan.

www.kitabxana.net

Az yolunu hələ az, qisas məhşərə qalmaz.
Qəlbi qara, başı daz, xallı köpək oğlusan.
Binnətin göydə əli, nicat diləyir dili.
Şeytan kimi fitnəli, felli köpək oğlusan.

17.02.1991

Bu bərabərlikdirmi?

Sənin Volqaların var,
Mənim bir atım yoxdur.
Sənin milyonların var,
Mənim manatım yoxdur.
Bu bərabərlikdirmi?

Sənin Bilgəhdə bağın,
İçində-çarx hovuzu,
Şəhərdə beş otağın.
Mən evdə tapmıram su,
Bu bərabərlikdirmi?

Təyyarəyə, esveyə
"Buron"dur yerin sənin.
Mən həsrətəm kupeyə,
Tamburdur yerim mənim.
Bu bərabərlikdirmi?

Soçidə nahar edib,
Yaltada şam edirsən.
Işə yuxulu gedib,
Yorğun qayıdıram mən.
Bu bərabərlikdirmi?

Sənin xəstəxanana
Məni hec buraxmazlar.
Xəstəliyim bir yana,
Üzümə də baxmazlar.
Bu bərabərlikdirmi?

Sənə qulluq göstərən,
Quyruq bulayanlar çox,
Mənə bir kömək verən,
Sözümü eşidən yox.
Bu bərabərlikdirmi?

"Növbə" nədir, "Gözlə"!-nə,
Yəqin çıxıb yadından,
Katibən gözləyənə
Cavab verir adından.
Bu bərabərlikdirmi?

Sənin "get-gəl"-in çoxdur,
Mənim gedib-gəlməyim,
Sənin insafın yoxdur,
Mənimsə dincəlməyim.
Bu bərabərlikdirmi?

16.08.1989

www.kitabxana.net

Yaşayırıq
(daxili qafiyə)

Sinəmizi tufanlara gərə-gərə yaşayırıq.
Üstümüzə uçur divar, görə-görə yaşayırıq.
Xallı çəkir bizə dağı, halımıza gülür yağı,
Düşmənlərə Qarabağı verə- verə yaşayırıq.
Hər yan olubdur yasxana, matəmxana, məhbəsxana.
Özümüzə dustaqxana hörə-hörə yaşayırıq.
Hamı işsiz,sail,səfil,Vallah, dözməz bu dərdə fil.
Şəhidlər üstə qərənfil sərə-sərə yaşayırıq.
Baxan yox haqq kitabına, qanun,yasaq kitabına.
Əsarətin çirkabına girə-girə yaşayırıq.
Çiynimizdə dağ boyda yük, danışırıq başdan böyük.
Bölünmüşük bölük-bölük, tirə-tirə yaşayırıq.
Əzab çəkib sübhə qədər, çarə gəzir Binnət hədər,
Sevinc əkib, qüssə-kədər dərə-dərə yaşayırıq.

08.03.1991

Canavar çobanlıq edir

Xudayar kəndxudadır, mahalda fironluq edir.
Xoşuna gəlməyəni çomaqla oyanlıq edir.
Öldürüb eşşəyini biçarə Məmmədhəsənin,
Zeynəbin göz yaşını çörəyinə yavanlıq edir.
Altmışı keçib yaşı, məzara titrəyir başı,
Hələ bu nadan-naşı utanmır cavanlıq edir.
Başına cəm eləyib bu ac qurd yalquzaqları,
Yenə qoyun-quzuya canavar çobanlıq edir.
Oğru darğalıq edir, quldur müfəttişlik edir,
Quşçuluq fermasına tülkü pasibanlıq edir.
Çadırda, vaqonlarda qırılır qaçqınlarımız,

www.kitabxana.net

Çaşıb bu dələduzu, kəndə kəndxuda seçmişik.
Imkanı artan gündən hamıya yamalıq edir.
Binnətəm, yerdə qalıb şəhidlərimizin qanı,
Quldurlar kefə baxır, hələ qudurğanlıq edir.

14.07.1991

Var

(Həcv . M.S.Qorbaçova)

Onda fitnə törətməyə div, iblis istedadı var.
Hər şər işə bais odur, divin, iblisin adı var.
Hər qurumuş barmağıyla gündə yüz ev viran edir,
O bayquşun saya gəlməz xarabası, bərbadı var.
Çox analar ağlar qoyub, çox qapılar bağlar qoyub.
Görəsən hansı ölkənin belə zalım Şəddadı var?
Baş kəsməyə, qan tökməyə, qan içməyə hərisdir o,
Yazıqdır o məmləkət ki, onun belə cəlladı var.
O xunxara yaltaqlanıb, məddahlar mədhiyyə deyir,
Onu həcv etməyə qadir nə Sabir var, nə Hadi var.
Bic divlər, şeytanlar ondan fitnəkarlıq dərsi alır,
Hamısı da fəxr edir ki, Mişa kimi ustadı var.
O xallı keçəl qəddarın Aqanbekyantək yaltağı,
Qalina, Savçak, Balayan, Boner kimi bədzatı var.
Onu xaltada saxlayan, tula kimi qulaqlayan
Saxarov kimi dəllalı, Raisatək həmzadı var.
Məmləkəti başdan-başa xarabaya çeviribdir.
Ölkəni xaraba qoyub, təzdən qurmaq muradı var.
Riyakardır, mindillidir, minüzlüdür, min fəndi var,
Cin xislətli, div xislətli fitnəkardır, fəsadı var.
Min doqquz yüz doxsanıncı il, iyirmi yanvarda o,
Xalqımıza divan tutdu, tankı, topu, qıradı var.
Bakıda küçələr boyu qan axıtdı su yerinə,
O, elə bir tilsimçidir hər əməlində cadu var.
Yerlər, göylər qan ağladı bizə olan haqsızlığa,

www.kitabxana.net
Xalqımızın ərşə çıxan naləsi var, fəryadı var.
Qarabağın dərdi ilə, həsrətiylə yaşayırıq.
Göynəyirik, canımızda Şimalın soyuq badı var.
Dərd Binnəti əldən salıb, əlləri qoynunda qalıb.
Qırx gündür ki yas saxlayan arvadı, üç övladı var.

01.03.1990

Köpək oğlu
(Həcv. daxili qafiyə)

Qudurubsan, yolunu hələ az, köpək oğlu.
Haqqını istəyənə qəbir qaz, köpək oğlu.
Tülkü, fürsət var hələ, aslanlara qur tələ.
Aldat, kələk gəl elə, kələkbaz köpək oğlu.
Millətə quyu qazan, haqqın yolunu azan,
Vicdanını uduzan, qumarbaz köpək oğlu.
Daz başında xalın var, min üzün, min dilin var,
Cadun var, əməlin var, sehrbaz köpək oğlu.
Salıbsan qalmaqalı, fənadır elin halı.
Təkəbbürlü, ədalı, ədabaz köpək oğlu.
Qoşulmusan keylərə, özün kimi səylərə,
Heyvərədən - heyvərə, nataraz köpək oğlu.
Başı daz, çənəsi saz, huşu çaş, ağlı dayaz
Insafı, mürvəti az, rəhmi az köpək oğlu.
Dağ çəkirsən Binnətə, zülm edirsən millətə,
Teyfsən bəşəriyyətə, yaramaz köpək oğlu.

16.05.1990

Düz danışanı söyürük
(daxili qafiyə)

Xilaskartək mədh edirik xallı dazı öyə-öyə.
Xilaskarı məhv edirik xalq düşməni deyə-deyə.

www.kitabxana.net

Eybimizi örtsün torpaq, namus itdi, çətin tapaq.
Başımızdan düşdü papaq düşmənə baş əyə-əyə.
Nağıl deyib yatırırlar,dərdimizi artırırlar,
Səsimizi batırırlar ağzımıza döyə-döyə.
Başa çəkir naşımızı,dara çəkir yaxşımızı,
Iblis yozur başımızı, mələk donu geyə-geyə.
Hər şeyimiz ola-ola, niyə ölkə yardım ala?
Haramxorlar sığmır yola, yardımları yeyə-yeyə.
Düz görən gözü oyurlar, düz danışanı soyurlar.
Qulduru katda qoyurlar, Binnət ona söyə-söyə.

03.07.1991



www.kitabxana.net

Məni
(*daxili qafiyə*)

Hər əzaba dözümlüyəm,qorxutmaz qəm, kədər məni.
Kəc fələyin bəd rəftarı eyləməz mükəddər məni.
Sevinmədm eldən ayrı, artıq olub ömür yarı.
Quzeyin bəd, sərt rüzgarı hədələyir hədər məni.
Haramxorlar haqqı danır, nə qandırır, nədə qanır,
Özü kimi avam sanır elimdən bixəbər məni.
Zalımlarda yoxdur kərəm, qəm çəkməkdən oldum vərəm,
Dərd əlindən dərdəcərəm anlamaz dəngəsər məni.
Ağır yükdür hicran yükü, səbr yükü, dözüm yükü.
Öz evimdən özümünkü eləyib dərbədər məni.
Qınamasın el Binnəti, ağır olur el möhnəti.
Paralanmış yurd həsrəti para – para edər məni,
Didim – didim didər məni.

02.06.1964

Araz göz yaşımdır

Yurdum – Odlar Yurdu, mənim
Günəş – odum, atəşimdir.
Min illər axar, qurumaz
Araz qanlı göz yaşımdır.
Yurdum hərraca qoyulub,
Görəndə gözüm oyulub,
Dinəndə dərim soyulub,
Zülm,sitəm yoldaşımdır.
Boyun bükən, boyun əyən,

www.kitabxana.net
Nankorlardan qapaz yeyən,
Hər gün daşdan – daşa dəyən
Mənim bəlalı başımdır.
Hər gün yadlar qırıb çatan,
Binnət kimi bəxti yatan,
Şəhid olan, qanı batan
Mənim bacım, qardaşımdır.

27.07.1990

Qarışdı

Daz kürənə neyləmişdin,
Zəhər payına qarışdı?
Xəzan vurdu, gülün soldu,
Qışın yayına qarışdı.
Otuza çatmadı yaşın,
Sənsiz qaldı yar – yoldaşın
Sızladı bacın, qardaşın,
Əmin dayına qarışdı.
Binnətəm, soldu gülzarın.
Məhv oldu pak arzuların.
Qara geydi cavan yarın,
Toyun vayına qarışdı.

28.02.1990

Vətən

Əli qoynunda qalmışam,
Qan yaşıma boyanmışam,
Araz üstə dayanmışam,
Sağım – Vətən, solum – Vətən.
Əlim çatmır qardaşıma,
Qərq olmuşam göz yaşıma.

www.kitabxana.net
Necə dolanım başına?
Sınıb qılçın, qolun, Vətən.
Yadlar səni yarı bölüb,
Sənə gülüb, mənə gülüb.
Yolunda çoxları ölüb,
Biri də mən olum,Vətən!
Qoynunda qan tökdü cəllad,
Ərşə çıxdı nalə, fəryad.
Hər tərəfi tutub saldat,
Bağlanıbdır yolum, Vətən!
Gül əkib, vay dərə - dərə,
Binnət dönüb dərdəcərə.
Şəhid oldu, düşdü şərə
Yüz -yüz qızın,oğlun, Vətən.

03.02.1990

Arazda batasıyam

Gecə keçir, dan sökülür,
Görən nə vaxt yatasıyam?
Xəyalımda yollar çəkib,
Hələ körpü çatasıyam!
Qəm əlindən hara qaçım
Bu tilsimi necə açım?
A Təbrizli qardaş - bacım,
Sizə nə vaxt çatasıyam?
Yolu kəsib sərhəd, əsgər,
Sizə tərəf gəlsəm əgər
Ya arxadan güllə dəyər,
Ya Arazda batasıyam.
Binnətəm, yad verməz fürsət,
Ayrılıqdır bizə qismət.
Atam öldü sizə həsrət,
Üç həsrətli atasıyam.

www.kitabxana.net

12.06.1975

www.kitabxana.net

Buyur ağa kimi

Hər əmrinə müntəzirəm,
Gülüm, buyur ağa kimi.
Qucaqda aparram səni,
Bağçadan otağa kimi.
Əsli olsan, ollam Kərəm,
Bağban etsən, gül əkərəm,
İzin versən, yol çəkərəm
Dodaqdan- dodağa kimi.
Bağında bülbül olaram,
Yaxanda bir gül olaram,
Gəlib-getsən yol olaram
Evindən bulağa kimi.
Şah olsan təbəə olaram,
Saçına şəvə olaram.
Sənə kəcəvə olaram
Arandan yaylağa kimi.
Zülfünü darar, hörərəm,
Hər bir işini görərəm.
Alsan canımı verərəm,
Yolunda sadağa kimi.
Salma məni dərdə, qəmə,
Yayma ünümü aləmə.
Binnətə çox zülm eləmə
Yusifə Züleyxa kimi.

01.08.1970

Sən o tayda, mən bu tayda

Bəsdir, ağlar gözlü qaldıq
Sən o tayda, mən bu tayda.
Nə gün gördük, nə kam aldıq,
Sən o tayda, mən bu tayda.

www.kitabxana.net
Becərdik, yadlar yedilər,
Bizə “baran”, “xər” dedilər.
Çəkdik zəhmət,həsrət,kədər.
Sən o tayda, mən bu tayda.
Evi, yurdu viran olduq,
Gözü yaşlı, giryan olduq.
Ac - yalavac, üryan olduq.
Sən o tayda, mən bu tayda.
Göz yaşımız oldu Araz.
Gözümüzdə qaldı muraz.
Gün görmədik, nə qış, nə yaz
Sən o tayda, mən bu tayda.
Səttarxan, Babəktək duraq,
Yağını gözündən vuraq,
Zülmün zəncirini qıraq
Sən o tayda, mən bu tayda.
Binnətəm, gəl əlbir olaq,
Yadları lərzəyə salaq!
Yağılardan qisas alaq
Sən o tayda, mən bu tayda.

12.11.1988

Öldürrəm – Deyir

Neyləmişəm, baxışların
“Öldürrəm, Öldürrəm”,-deyir?
Dartılıb kaman qaşların,
Çırağnı söndürrəm deyir.
Suçum nədir, canım – gözüm,
Xatirinə dəyir sözüm?
Üzünə gülürəm, üzün
Sənə qan güldürrəm deyir.
Binnətin qəsdinə girmə,
Deyək – gülək, əzab vermə,
Qaş – qabağın:- nə dindirmə,
Nə səni dindirrəm deyir.

www.kitabxana.net

16.06.1977

Biləsən

Qürbətdə yüksələn qardaş,
Eldə yüksələ biləsən
Vətənə xor baxanların
Gözünü dələ biləsən
Vətənin hər fəsli yazdır,
Vətənsiz yaşım Arazdır,
Vətəni çox sevmək azdır,
Yolunda ölə biləsən.
Mujik dayanıb silahlı,
Yolumuzu edib bağlı.
Könül məlul, ürək ahlı
Olsa da gülə biləsən.
Yağı yüz yol girdi qəsdə,
Bizi qırdı dəstə - dəstə.
Atəş olub, yağı üstə
Göydən tökülə biləsən.
Binnət həsrətdir Təbrizə,
Ayrılıq dərd verir bizə.
Nola, gedə biləm sizə,
Sən bizə gələ biləsən!

11.12.1990

Düşə

Şəfa verən, şəfa tapa,
Dərd verəni dərdə düşə!
Şər gəzənin komasına
Qan da düşə, şər də düşə!
Olmaya dərdi qananın,
Elin oduna yananın.

www.kitabxana.net
Nankorun, haqqı dananın
Gözlərinə pərdə düşə!
Binnət sağlıq dilər mərdə,
Paxıl, xain düşsün dərdə.
Namərdin işi namərdə,
Mərdin işi mərdə düşə!

18.09.1984

Ölə bilmirəm

Həsrətliyik, görüşünə,
Əzizim, gələ bilmirəm.
İblislər nə vaxt açacaq
Yolları, hələ bilmirəm
Taleyə bax, qismətə bax,
Sinəmizə yad çəkir dağ.
Dərd verən çox, həmdərd uzaq,
Dərdimi bölə bilmirəm.
Sarı divin batsın başı!
Ayırdı iki qardaşı.
O vaxtdan gözümün yaşı
Car olur, silə bilmirəm
Yad yurdumu yenə bölür,
Elimdən əlim üzülür.
Zülm eləyib, mənə gülür,
Mən ona gülə bilmirəm.
Sən əl üzmə Binnətindən,
Yandıq hicran möhnətindən.
Qardaş, Təbriz həsrətindən
Ölürəm, ölə bilmirəm.

08.03.1989

www.kitabxana.net

El dərdi çəkək

Çox sevirəm elimi,
Çəmənimi, çölümü.
Yadın burda nə ölümü
Bu bağ mənim bağımsa?
Nə yad elə uyaram,
Nə Vətəndən doyaram.
Nə düşməni qoyaram
Bu mənim torpağımsa.
Əhdim, andım dəyişməz,
Etiqadım dəyişməz.
Başım düşməmiş düşməz
Bu mənim papağımsa.
Bağ becərək, yer əkək,
Binnətəm, quraq, tikək.
Gəlsin, el dərdi çəkək
Kim mənim ortağımsa.

12.09.1988

Bülbül

Mən el dərdi, sən gül dərdi
Çəkdik qışı, yazı, bülbül.
Öz bəxtindən nə sən oldun,
Nə də ki, mən razı, bülbül!
Odumuz külü göynədir,
Ahımız gülü göynədir.
Bir ildir eli göynədir
Yanvarın ayazı, bülbül.
Sən ötmürsən, gül ağlayır,
Mən çalmıram, tel ağlayır.
Bir ildir ki, el ağlayır,

www.kitabxana.net
Susub elin sazı, bülbül.
Mənim dərdim lap betərdir,
Çəkdiyim cəfa hədərdir.
Nə becərdimsə yad dərdi,
Mən qaldım tamarzı, bülbül
Viran olmuş bağlar qoydu,
Sinəmizə dağlar qoydu.
Yadlar yenə ağlar qoydu
Ağlar anamızı, bülbül
Susma, naləmiz ucalsın!
Sən inlə, Binnət ün salsın.
Bizimtək gözündə qalsın
Düşmənin murazı, bülbül!

24.01.1991

Qocalmazmı?

Qaçqın olub orda – burda
Çadır quran qocalmazmı?
İş axtarıb, qapılarda
Boyun buran qocalmazmı?
Sızıldayır qıçım, qolum,
Necə yatım, rahat olum?
Cibində qırmızı diplom
Asfalt vuran qocalmazmı?
Binnət, qışın qarı gəlib,
Qripi, azarı gəlib.
İşdən gecə yarı gəlib,
Tezdən duran qocalmazmı?

04.05.1991

www.kitabxana.net

Yoxdur
(daxili qafiyə)

Ayaq üstə can verirəm,dərdim çoxdur, dərman yoxdur.
Həsrət - hicran xəstəsiyəm,sağalmağa güman yoxdur.
Yurdum olub tikə - para, həsrət məni çəkir dara.
Dərdlərimə yoxdur çara,bir dərd bilən loğman yoxdur.
Şuşa çilik – çilik sınıb,Kəlbəcər Laçın talanıb.
Bağrım Xocalıtək yanıb,Qubadlı, Zəngilan yoxdur.
Füzulitək yaşım axdı,ahım, ünüm ərşə çıxdı.
Xalqa bol vəd verən çoxdur,el qeydinə qalan yoxdur.
Sevincim itib, yox olub,dərdim,kədərim çox olub.
Şadlıq evləri çoxalıb,toyda ləzzət alan yoxdur.
Mən Binnətəm, gözüm dolub,həyat mənə əzab olub.
Xəzan vurub, gülüm solub,bağım yanıb, bağban yoxdur.

05.10.2010

Çərx mənimlə məzələnir
(daxili qafiyə)

Xəstəyəm, loğman gəzirəm, qapı-qapı gəzə-gəzə,
Dərdimə dərman gəzirəm, göz yaşımı süzə-süzə.
Hər gün dərdim təzələnir, üstümə od-köz ələnir,
Çərx mənimlə məzələnir, sinəmə köz düzə-düzə.
Qızınmağa ocağım- yox, sığınmağa bucağım -yox,
Nə bağçam -yox, nə bağım -yox, taladılar təzə-təzə.
Atammıram dərd yükümü, yıxammıram qəm mülkünü,
Bada verdim ömrü- günü, səbr eləyib dözə-dözə.
Çəkə bilməz fil dərdimi, döyürlər elin mərdini,
Göynəyirəm el dərdini,çəkə-çəkə, yaza-yaza.
Əzab çəkmədən yoruldum, Odlar Yurduma vuruldum,
Mən Binnətəm, qəffas oldum, qəm bəhrində üzə-üzə

12.05.1992

www.kitabxana.net

Olur mənim

(daxili qafiyə)

Şuşa işğal olan gündən, göz yaşım car olur mənim.
Qarabağsız bu gen dünya, başıma dar olur mənim.
Sirrim olub aləmə faş, heyrətdən olmuşam çaş-baş.
Döşəyim buz, yastığım daş, yorğanım qar olur mənim.
Yandım dövrün möhnətindən, Dərbənd,Təbriz firqətindən,
Göyçə- Gorus həsrətindən, köynəyim qor olur mənim.
Yada qalıb bağçam-bağım, yurdum-yuvam, ağ otağım.
Sönüb ocağım, çırağım, işim ah-zar olur mənim.
Alınıb aranım, dağım, talanıb bostanım, bağım,
Binnətəm, yurdum, torpağım, millətim xar olur mənim.

09.06.1993

Haqq-ədalət gəzə-gəzə

(daxili qafiyə)

Ürəyimdə min dərdim var,danışmaram dil bilməzə.
Nə həmdəm, nə həmdərdim var,nabələdəm yola-izə.
Bu əzablar dünyasında,dərd var dərdin arasında.
Dərdin,qəmin dəryasında,qəffas oldum üzə-üzə.
Başa çəkdilər naşımı,dara çəkdilər yaxşımı.
Araz etdilər yaşımı,gözlərimdən süzə-süzə.
Cahan mənə dar qəfəsdi, yurduma bəd yellər əsdi.
Soyhasoydu, kəshakəsdi,insafsıza,mürvətsizə.
Yada qalıb Cıdır düzüm, qəmxanadır çadır düzüm.
Nə qədər səbr edim,dözüm,xar olmuşam dözə-dözə?
Gecəm öhnət,gündüzüm yas,tökülən qan yerdə qalmaz.
Qiyamətə qalsa qisas, bəşəriyyət gülər bizə.
Binnətəm,çox dərdə dözdüm,haldan düşdüm,canı üzdüm.
Yoruldum,usandım,bezdim haqq-ədalət gəzə-gəzə.

08.10.1992

www.kitabxana.net

Bilmirəm

Aranda gün döyür məni,
Yaylağa köçə bilmirəm.
Təşnəyəm, buz bulaqlardan,
Sərin su içə bilmirəm.
Yandım yadın qınağıyla,
Dondum baxtın sınağıyla.
Zəmanənin çanağıyla,
Dərdimi ölçə bilmirəm.
Bir xilaskar tapammıram,
Eli – elə qatammıram.
Təbrizimə çatammıram,
Arazı keçə bilmirəm.
Gördüm pisin ən pisini,
Böhtan, yalan deməsini.
Dərdin, qəmin zəmisini,
Qoymurlar, biçə bilmirəm.
Binnətəm, işim ahuzar,
Nə dostum, nə həmdərdim var.
Ürəyimdə min dərdim var,
Birini aça bilmirəm.

10.03.1988

Ölmüşəmmi?
(daxili qafiyə)

Laləmi günəş yandırıb, bənövşəmi ayaz mənim.
Dörd ildir ki, sevinməyir könlüm nə qış, nə yaz mənim.
Ikibaşlı sarı divlər töküb qanlar, yıxıb evlər.
Dərdimi Murğuz ediblər, göz yaşımı Araz mənim.
Yad kef edir yaylağımda, ov ovlayır oylağımda.
Ölmüşəmmi? Torpağımda bostan əkir Haykaz mənim.
Soltan bəylər, Cavad xanlar yoxdur, axır nahaq qanlar.

www.kitabxana.net
Vətənə xain çıxanlar gileyimi qanmaz mənim.
Yada qalıb göy çəmənlər,qızıl güllər, yasəmənlər.
“Xər”dən, “Mar”dan süd əmənlər,sözümdən utanmaz mənim.
Laçındadır çalağanlar,Xocalını talayanlar.
Yaltaq, yanbız yalayanlar,əhvalıma yanmaz mənim.
Namusu yoxsa adamın,ölsün, altda qalsın damın.
Puşkin deyib:-Ayağımın altındadır Qafqaz mənim.
Vüqarımdır Qarabağım,fəxrimdir yurdum, torpağım.
Binnətəm, aranım, dağım ayaqaltda qalmaz mənim.

18.09.1992

Suyum axmır, otum bitmir

Açılmır göyümün üzü,
Dağlarımdan duman getmir.
Çöllərimdə turac, kəklik,
Bağlarımda bülbül ötmür.
Azalıb gedib-gələnim,
Artıb halıma gülənim.
Dərdimə bax, dərd bilənim,
Dərdimə bir əlac etmir.
Itə yalaq, “xər”ə palan,
Yurdu satıb, qızıl alan,
Əhdi saxta, vədi yalan,
Niyə ölmür, niyə itmir?!
Məndən küsüb yığvalım da,
Uzaq düşüb əcalım da.
Külə dönmüş Xocalımda
Suyum axmır, otum bitmir.
Həsrətəm yaylaqlarıma,
Suyu buz bulaqlarıma.
Binnətəm oylaqlarıma
Əlim çatmır, ünüm yetmir.

14.04.1992

Qaya idim

(daxili qafiyə. Bir qaçqının dilindən)

Dağ boyda sal qaya idim, qəlpə-qəlpə qəlpələndim.
Vətən boyda dərya idim,ləpə-ləpə ləpələndim.
Ahım qalxdı ərşə kimi,saraldım bənövşə kimi.
Şuşa getdi, şüşə kimi,çilik-çilik çilikləndim.
Xocalıtək oda yandım,Kəlbəcər kimi talandım.
Laçın kimi parçalandım,bölük-bölük bölükləndim.
Bəla endi bulud kimi,başçım oldu manqurt kimi.
Budaq-budaq şahtut kimi,təpik-təpik təpikləndim.
Yurdum qaldı viranətək,odda yandım pərvanətək.
Evdən qaçdım divanətək,səfil-səfil səfilləndim.
Fizulitək bezar oldum,Zəngilantək tarmar oldum.
Cəbrayıl kimi xar oldum,ləkə-ləkə ləkələndim.
Binnət, dərddən çaşqın oldum,öz yurdumda köçkün oldum.
Yurd-yuvasız qaçqın oldum,çadır-çadır səpələndim.

16.11.1993

Gün küsüb gündüzümdən

(daxili qafiyə)

Yaş yerinə qan axır,giryan olan gözümdən.
İtirmişəm özümü,yox xəbərim özümdən.
Yol yoxuş, yüküm ağır, qol qançır, yaşım axır
Başıma alov yağır,div fələyin ağzından.
Suçum yox,söyülürəm,gücüm yox,döyülürəm.
Gündə yüz yol ölürəm mən biçarə azından.
Səksən səkkizdən bəri xalqın artıb dərd - səri.
Haramxor, oğru, əyri inciyir düz sözümdən.
Zülm elədi xallı daz, qisas məhşərə qalmaz
Rədd olar Mişa,Haykaz çəmənimdən, düzümdən.

www.kitabxana.net

Binnətə yox dost, həmdəm,buna necə dözüm mən?
Ay inciyib gecəmdən,gün küsüb gündüzümdən.

08.02.1990

Bəs deyilmi?

(daxili qafiyə)

Daz div, elin ürəyini üzdürdüyün bəs deyilmi?!
Sinəmizə odu-közü düzdürdüyün bəs deyilmi?
Sən başçımız olan gündən, göylər bezib ahdan, ündən.
Yaşımızı gözümüzdəm, süzdürdüyün bəs deyilmi?
Dərdlərimiz sığmır dilə, zülm edirsən bilə-bilə.
Sümüyümüzü zopa ilə əzdirdiyin bəs deyilmi?
Nə çay yoxdur evdə, nə qənd, çörəyimiz qəm, suyumuz dərd.
Sail edib, bizi kənd-kənd gəzdirdiyin bəs deyilmi?
Yıxdın, yaxdın məmləkəti, giryan elədin Binnəti.
Yazıq, zavallı milləti bezdirdiyin bəs deyilmi?

09.02.1990

Dövran çoxunu üyüdüb

Dövran çoxunu üyüdüb,
Ələyində ələyibdir.
Namərdə güc-fürsət verib,
Mərdi zəlil eləyibdir.
Düz görəni gözsüz edib,
Düz yazanı əlsiz edib,
Haqq gəzəni ya çərlədib,
Ya qanına bələyibdir.
Binnət, yaxşılıq ək, əksən,
Pislik dərər pislik əkən.
Çox şir kimi nərə çəkən
Quzu kimi mələyibdir.

22.10.1965

www.kitabxana.net

Yanağımda sel oynadı

Quzeyin bəd havasına,
Fəsad, fitnə-fel oynadı.
Fəlakətin girdabında
Işğal olmuş el oynadı.
Şəhid oldu tay-tuşlarım,
Həmkarlarım, yoldaşlarım.
Elə axdı göz yaşlarım,
Yanağımda sel oynadı.
Əldən getdi Qarabağım,
Yada qaldı bağçam, bağım.
Şan-şan oldu qara bağrım,
Gözümdə nisgil oynadı.
Necə dözüm mən bu dərdə?
Xocalıda, Kəlbəcərdə,
Sahibsiz viran evlərdə,
Bayquş ötdü, yel oynadı.
Qoyun deyim son nəfəsdə,
Bu dərd məni etdi xəstə.
Qarabağ xalçası üstə
İvan, Arakel oynadı.
Binnət, çoxdur dərdlərimiz.
Qisas alsın mərdlərimiz.
Öc aldı Ramil, Mübariz,
Dodaq güldü, dil oynadı.

13.10.2011

Dünyada

Nə bir adil hakim gördüm,
Nə də ədalət dünyada.
Çox günahsız məhkum gördüm,
Umur mərhəmət dünyada.

www.kitabxana.net

Doğru acdır, oğru toxdur,
Yaxşı azdır, yaman çoxdur.
Əzab boldur, insaf yoxdur,
Zalım, kəmfürsət dünyada.

Daş qoyulub haqqın üstə,
Haqqa yol tapmaz iblis də.
Qanunları edir xəstə,
Vəzifə, rüşvət dünyada.

Quldur xalqı çapar, talar,
Yerində deyib atalar:
"Düzlük gəzən düzdə qalar".
Yox düzə qiymət dünyada.

Kimin yox düzə rəğbəti,
Sevməz heç vaxt həqiqəti.
Gəzir haqqı, ədaləti.
Tapmayır Binnət dünyada.

26.11.1992

Hakimlər haqqı danmaya

Nola, canavar arxaca,
Tülkü hinə dadanmaya.
Insan şeytana uymaya,
Yalanlara aldanmaya.

Pis ad yaraşmaz qadına,
Nə də kişinin adına.
Günahkar, quru oduna,
Bir günahsız yaş yanmaya.

Bic ata bəd adətini,
Qazana el hörmətini.
Canilər cinayətini,
Hakimlər haqqı danmaya.

Kim yaxşılıq dəni əkib,
Yaxşılığa məbəd tikib.

www.kitabxana.net
Yoxsullar xəcalət çəkib,
Dost yanında utanmaya.
Binnət çata xoş niyyətə,
Ədalətə, səadətə.
Igid, ucuz şan-şöhrətə,
Gözəl vara aldanmaya.

17.01.2011

Mənim ürəyimdə

Vətən eşqi aşıb-daşır,
Ellər, mənim ürəyimdə.
Xalqım hər toyu, bayramı
Eylər mənim ürəyimdə.
El şadlanıb sevinəndə,
Ellə sevinərəm mən də.
El dərd çəkib, inləyəndə,
Inlər mənim ürəyim də.
Şair elə aşiq olar,
İlhamını eldən alar.
El təbliyəm açar, solar,
Güllər mənim ürəyimdə.
Nə şəri, xatası kəsir,
Nə qarı, şaxtası kəsir.
Hələ də şimaldan əsir
Yellər mənim ürəyimdə.
Qələbə marşı dinəndə,
Ordumuz qalib gələndə,
Xalqımız deyib-güləndə,
Gülər mənim ürəyim də.
Binnətəm, dərdliyəm hələ,
Şuşa, Xankənd həsrətiylə.
Təbriz, Dərbənd həsrətiylə,
Göynər mənim ürəyim də.

www.kitabxana.net

20.01.2011

Olub, olur, olacaqdır

El malını talayanlar;
Yad ocağı qalayanlar,
Yaltaq-sini yalayanlar
Olub, olur, olacaqdır.

Ona-buna ilişənlər;
Ayaq altını eşənlər,
Elin gözündən düşənlər
Olub, olur, olacaqdır.

Nəfəsi qış, qəlbi buzlar;
Yolunu azan quduzlar,
Nadürüstlər, dələduzlar
Olub, olur, olacaqdır.

Vicdanı kor, ruhu karlar;
Biclər, xarlar, riyakarlar,
Rüşvətxorlar, haramxorlar
Olub, olur, olacaqdır.

Eldə ucalan, alçalan;
Şərə düşən, şərə salan,
Rüşvət verən, rüşvət alan
Olub, olur, olacaqdır.

Qiymət verən, qiymət alan;
Töhmət verən, töhmət alan,
Lənət alan, rəhmət alan
Olub, olur, olacaqdır.

Binnət, aranı qatanlar;
Hər gün günaha batanlar,
Yurdunu yada satanlar
Olub, olur, olacaqdır.

04.02.2011

www.kitabxana.net

Q O Ş M A L A R

Nəsibim

Nəsibim - əbədi həsrət, intizar,
Yad sordu halımı, dedim; - "Yaxşıyam"
Mən əkdim, becərdim, yadlar apardı,
Mən necə dolanam, necə yaşıyam?
Mənə qardaş deyən qənimim oldu;
Çörəyimi yeyən qənimim oldu,
Paltarımı geyən qənimim oldu,
Elə sanmayın ki, keyəm, naşıyam.
Torpağım alındı, yurdum talandı,
Tarixim, əlifbam oda qalandı,
Xalqım sürgün oldu – yurd paçalandı.
Nə qədər dərd çəkəm, möhnət daşıyam?
Mənə başçı oldu küt, bic, gic, oğru,
Yalançı hökm edir, asılır doğru.
Baş alıb gedirəm Xəzərə doğru,
Bir xalqın car olan qanlı yaşıyam.
A dostlar, Vətəni hörmətlə anın!
Binnəti Tovuzlu – Təbrizli sanın,
O taylı – bu taylı Azərbaycanın
Ikiyə bölünmüş vətəndaşıyam.

21.10.1991

Ay pəri, Sənsiz

Yenə bir sabahım sənsiz açıldı,
Doğmadı göyümün ülkəri sənsiz.
Ahım dağ başında dumana döndü,
Yas tutdu günümün səhəri sənsiz.
Alışdı ahımdan daş külə döndü,

www.kitabxana.net
Yenə asan işim müşkülə döndü.
Axdı gözlərimdən yaş selə döndü,
Talandı ömrümün şəhəri, sənsiz.
Həsrətin ox olub sinəmi dəldi,
Naləm bulud kimi göyə yüksəldi.
Həsrətindən canım cəzanə gəldi,
Az qalıb ki, olam sərsəri sənsiz.
Zalım fələk karvanımı əylədi,
Məni səndən, səni məndən elədi.
Başıma qor, gözümə kül ələdi,
Gördüm cəhənnəmi, məhşəri sənsiz.
Ağzımın ləzzəti- şərbətim, balım,
Bütün varım-yoxum, cahım-calalım.
Xəzinəm, dəfinəm, dövlətim, malım,
Hamısı yox oldu, ay pəri, sənsiz.
Üstümə od tökür hicranın əli,
Dərdindən olmuşam divanə-dəli.
Məni məftun edən, ay el gözəli,
Heç nədir Binnətin əsəri sənsiz.

07.07.1964

Bəsdir, bir az da

Bəsdir, nifrinlədik bəxti, həyatı,
Bəsdir, lənətlədik fələyi, vaxtı.
Bəsdir, ağı dedik, çəkdik bayatı,
Gəlin el qeyrəti çəkək bir az da.
Bəsdir, işə keçək söhbətdən- sözdən,
Bəsdir, ataq yükü öz çiynimizdən.
Bəsdir, gecə - gündüz yaş tökdük gözdən,
Gəlin düşmən gözü tökək bir az da.
Bəsdir, əlbir olaq, əl - ələ verək,
Bəsdir, nəyimiz var biz elə verək.
Bəsdir, ling götürək, külüng götürək,

www.kitabxana.net
Gəlin yağı evni sökək bir az da.

www.kitabxana.net
Bəsdir, yeri verdik yağıya – yada,
Bəsdir, İvan, Vartan yetdi murada.
Bəsdir, qaçqın, köçkün qaldı arada,
Gəlin onlara ev tikək bir az da.
Bəsdir, haray çəkdi, ün saldı Binnət,
Bəsdir, rüsvay olduq, götürdük minnət.
Bəsdir, ayağa qalx, a xalq, a millət,
Gəlin zalım qəddi bükək bir az da.

06-10-2000

Yalvarır

Əzizim, hər dəfə səni ananda,
Dil dodağa, dodaq dilə yalvarır.
Könlümdən keçəni sənə yazanda
Əl varağa, varaq ələ yalvarır.
Üzüm gülür gülər üznə baxanda,
Gözüm gülür xumar göznə baxanda.
Əllərim telinin söznə baxanda,
Tel barmağa, barmaq telə yalvarır.
Şad oluram sənlə deyib- güləndə,
Bir birimizin əhvalını biləndə.
Sənin görüşünə gedib- gələndə
Yol ayağa, ayaq yola yalvarır
Nə vaxt ki, ayağın çəmənə dəyir,
Sənə gül-çiçəklər təzim eləyir.
"Qoy ona payəndaz mən olum"- Deyir,
Gül zambağa, zambaq gülə yalvarır.
Bağa yayılanda ətrin, nəfəsin,
Binnətə ruh verir gülüşün,səsin,
Istəyirlər səni xoşhal eləsin,
Bülbül bağa, bağ bülbülə yalvarır..

01-09-1975

www.kitabxana.net

Dünyanın

Mərd yaşadım, əyilmədim şaha da,
Əydi qamətimi dərdi dünyanın.
Dərd çəkdikcə dərdim artdı daha da,
Hər dərdi xətrimə dəydi dünyanın.
Qəm közləri sinəm üstə düzüldü,
Göz yaşlarım yanağıma süzüldü.
Elim-eldən, əlim-əldən üzüldü,
Şeytanı araya girdi dünyanın.
Həyat məzluma yas, zalıma toydu,
Zalımı bəzədi, məzlumu soydu.
Həyatından bezdi, canından doydu,
Hər kim ki, zülmünü gördü dünyanın.
Şahların başından tacını aldı,
Taxtı tarac oldu, yurdu boş qaldı.
Qananlar zövq ilə bağça-bağ saldı,
Nadanlar gülünü dərdi dünyanın.
Ay Binnət, Adəmdən, Həvvadan bəri,
Həyat dərdə salıb düşünənləri.
İblis sümüyündən düzəlib zəri,
Mars edib çoxunu nərdi dünyanın.

11.08.1986

Bu qəmxanada

Düşmənlər talamış bir şəhər kimi,
Ömrümü dünyanın qəmi taladı.
Zamanın, zalımın sitəmkar əli
Sinəmə köz yığdı, ocaq qaladı.
Yanvarda üstümə od,alov yağdı,
Qanıma qarışıb göz yaşım axdı.
Qəlbim para-para, sinəm dağ-dağdı,
Qəm dərdli könlümdə tala-taladı.

www.kitabxana.net
Bir kəsim olmadı yetişə dada,
Qaldı Qarabağım yağıya-yada.
Fani dünya adlı bu qəmxanada
Mən hara qaçdımsa, qəm yaxaladı.
Həsrət də tuş oldu mənə, möhnət də,
Bir xoş gün görmədim şəhərdə, kənddə.
Başına döndüyüm bu məmləkətdə
Həyatım əzabdı, dərddi, bəladı.
Düşmənlər taladı obalarımı,
Sərvətimi, dövlətimi, varımı.
Al-əlvan çiçəkli çəmənzarımı
Yağı düşmən biçdi, yad tayaladı.
Günlərim, aylarım kədərlə ötdü,
Qəhər ciyərimdə vərəm böyütdü.
Əlimdən Xocalım,Laçınım getdi,
Dağılmış Şuşamda bayquş uladı.
Yay-bürkü yandırdı, qış-ayaz məni,
Nə payız şad etdi, nə də yaz məni.
Binnətəm, nadanlar anlamaz məni,
Qananlar şerimə deyər: - əladı.

21.05.1992

De

Çatdır harayımı,qasid qardaşım,
Halımı hal-əhli olanlara de.
Gözüm görə-görə el-eldən gedir.
Varsa, el qeydinə qalanlara de.
Ovu da vermişik biz ovlağıda,
Aranda Aranı, dağda dağı da,
İrəvan, Zəngəzur, Göyçə yağıda
Qarabağ tuş olub talanlara, de.
Qananın əlindən haşa çəkirlər,
Nadanı alimtək başa çəkirlər.
Torpaq beyinlərə yalan əkirlər,

www.kitabxana.net
Nə qədər inanaq yalanlara? - de.
Sular qana dönüb bulaqlarımda,
Yadlar at oynadır oylaqlarımda.
Bulaqlar başında, yaylaqlarımda
Bir vaxt kef - damağa dalanlara de.
Dörd ildir dağ çəkir xalqıma yağı,
Binnətəm, göynəyir sinəmin dağı.
Şuşada düşmənə satıb torpağı
Bakıda mülk, rütbə alanlara de.

12.10.1992

Eşitmədi səsimi

Dar ayaqda harayladım dağları,
Kahal dağlar eşitmədi səsimi.
Kar qayalar səs vermədi səsimə,
Key yaylaqlar eşitmədi səsimi.
Duman çökdü, çiskin tutdu yolları,
Çən bürüdü yamacları, yalları.
Yolmu kəsdi qaratikan kolları,
Şah qovaqlar eşitmədi səsimi.
Nəhs ayrılıq niyə düşdü payıma,
Öz qanımı tökdü öz Tərs çayıma.
Qızıl qaya səs vermədi hayıma,
Qayalıqlar eşitmədi səsimi.
Yada qaldı allı-güllü gədiklər,
Sərin mehli, dəli yelli gədiklər.
Səsə, ünə oyanmadı kəkliklər,
Çınqıllıqlar eşitmədi səsimi.
Çən-çiskini dağıtmadı küləklər,
Hürkə-hürkə baxıb getdi əliklər.
Gəlişimi hiss etmədi çiçəklər,
Quzqulaqlar eşitmədi səsimi.
Gəzəmmədim çəmənləri, çölləri

www.kitabxana.net
Dərəmmədim çiçəkləri, gülləri.

www.kitabxana.net
Görəmmədim yaşılbaşlı gölləri
Buz bulaqlar eşitmədi səsimi.
Haqqı dandı, yolu azdı azğınlar,
Cızdan çıxdı, səddi pozdu pozğunlar.
Harayımdan hürküsmədi quzğunlar,
Yapalaqlar eşitmədi səsimi.
Hamı yatıb, yuxu getmir gözümə,
Bir müsahib tapammıram özümə.
Nə başsızlar fikir verdi sözümə,
Nə alçaqlar eşitmədi səsimi.
Yollar yordum qəm şələsi belimdə,
Mən Binnətəm, gün görmədim elimdə.
Gorus, Göyçə, Gölkənd bitdi dilimdə
Kar qulaqlar eşitmədi səsimi.

28.05.1991

Unudulmuşam

(Bir qaçqının dilindən)

Bir az nabələdəm, bir az da naşı,
Dörd yol ayrıcında çaşıb qalmışam.
Gorusla, Göyçəylə, Göyçə gölüylə,
Göynəyə-göynəyə vidalaşmışam.
Səmumu torpağı gözə ələyən,
İstisi, bürküsü tüğyan eləyən,
Üstü cadar-cadar ilan mələyən
Susuz bir səhrada fikrə dalmışam.
Karıxıb çaşmışam cığırı, yolu,
Rahat yol gəzirəm başı alovlu.
Görünmür gözümə bir bəşər oğlu
Elə bil cahandan uzaqlaşmışam.
Bu yol ayrıcında yoxdur bələdçim,
Çörəksizəm, su da yoxdur bir içim.
Gün qızıb, bulud yox göydə bir əlçim,

www.kitabxana.net
Gümana sığınıb, daldalanmışam.
Yuntək daranmışam qəm darağında,
Canım cəza çəkir yurd fərağında.
Boynu bükük qalıb yol qırağında,
Qəmin girdabında lövbər salmışam.
Köçüm köçdən qalıb, özüm karvandan.
Vartanlar hürüyür mənə hər yandan.
Küsmüşəm həyatdan,bezmişəm candan,
Kədərlə,qəhərlə qucaqlaşmışam.
Yerimi yersizlər əlimdən alıb,
Yurdumdan, yuvamdan didərgin salıb.
Evim yağmalanıb, xaraba qalıb,
Yuvası dağılmış, perikmiş quşam.
Yayım alov olub, yandırır məni,
Qışım qırov olub, dondurur məni.
Dövran çilik-çilik sındırır məni,
Tikə-tikə, para-para olmuşam.
Ay Binnət, nə simsar, nə də tanış var,
Nə həmdəm, nə həmdərd, nə də sirdaş var.
Məndən uzaq düşüb dostlar, tanışlar,
Tamam yaddan çıxıb, unudulmuşam.

30.05.1992

Olsun

Sevinc tərk etməsin, a dostlar, bizi,
Bu toy məclisindən qəm uzaq olsun.
Saqı şəlləndirsin məclisimizi,
Masabəyi sağlıq desin, sağ olsun.
Üzü gülsün bu məclisə gələnin,
Qohum-qonşu, dost qədrini bilənin.
Ayağı altında qoç kəsilənin,
Ayağı sayalı, üzü ağ olsun.
Allah qəbul etsin xeyir-duamı,
Bar versin bəy ilə gəlinin kamı.

www.kitabxana.net
Çatsın arzusuna, a dostlar, hamı,
Evində toy-büsat, yığıncağı olsun.
Hamıya xoş gələn bir məclis quraq,
Gəlin xanəndəni, aşığı yoraq.
Bəyin sağlığına sübhədək vuraq,
Könüllər durulsun, keflər çağ olsun.
Əylənək, şənlənək, oynayaq, gülək,
Binnətəm, həmişə toylara gələk.
Hamının evində arzu eləyək
Bax, belə toy-düyün təmtərağı olsun.

12.03.1993

Çoxdan

Loğmanlar tapmadı dərdimə dəva,
Özüm axtarıram çarəmi çoxdan.
Göyçə həsrətindən çəkirəm cəfa,
Yoxdur sarıyanım yaramı çoxdan.
Köhlənim yorulub, yollarda qalıb,
Sevincim tükənib, qəmim çoxalıb.
Könlüm açılmayır. Duman, çən alıb
Dağımı, düzümü, dərəmi çoxdan.
Deyib-gülməyimi kəm eləyiblər,
Nəsibimi kədər-qəm eləyiblər,
Yığıb sinəm üstə cəm eləyiblər
Azarı, ağrını, vərəmi çoxdan.
Haqsızlıq odunda yanmaqdır peşəm,
Haqq-ədalət gəzib, anmaqdır peşəm,
Sevməkdə Məcnunu mat eləmişəm,
Yanmaqda keçmişəm Kərəmi çoxdan.
Əzabla, ağrıyla keçib həyatım,
Saralıb gülşənim, bağım-bağatım.
Gah ahım ün salıb, gah da bayatım,
Unutmuşam toyu, bayramı çoxdan.
Qəflətdəkiləri hay oyatmayır,

www.kitabxana.net

Ah-naləmdən yerlər, göylər yatmayır.
Ahım çatan yerə, ələm çatmayır,
Kəsib yollarımı haramı çoxdan.
Top oyatmaz bizi, elə yatmışıq,
Qeyrəti itirib, eli satmışıq.
Fələk də ayırmaz, elə qatmışıq
Elin halalına haramı çoxdan.
Saralıb solalı gülüm, gülzarım,
Artıb ağrılarım, dərdim, azarım.
Binnətəm, Muğana düşmür güzarım,
Sellər aparıbdır Saramı çoxdan.

20.04.1991

Az qalıb havalanam mən

Yoxdur hoya çatan dostum, sirdaşım,
Daşdan daşa dəyib bəlalı başım.
Axıb Araz oldu qanlı göz yaşım,
Şəhriyarsız qalmış Savalanam mən.
Sinəmdə Qarabağ boyda qəmim var.
Nə dada yetənim, nə həmdəmim var.
Soyulmuş karvanım, batmış gəmim var.
Hər gün təzə əzab, qəm alanam mən.
Dərdimin katibi özüməm-özüm.
Zalımın zülmünə nə qədər dözüm?
Gəlmir bədxahların xoşuna sözüm,
Qiyməti, qisməti kəm olanam mən.
Əl çəkmir yaxamdan təlaş, təhlükə,
Azalmır canımdan qorxu, səksəkə.
Ədalət axtarıb, qəm çəkə-çəkə,
Binnətəm, az qalıb havalanam mən.

20.03.1992

www.kitabxana.net

www.kitabxana.net

Mənim

Gülüm, gül üzünü qəmli görəndə,
Möhnət məskən salır üzümdə mənim.
Ala gözlərini nəmli görəndə,
Dünya heçə dönür gözümdə mənim.
Qəm çəksən,qəlbimi çəkərsən dara,
Dərd çəksən,yas tutub, geyərəm qara,
Sənsiz cığırlara,sənsiz yollara
Düşməsin kölgəm də, izim də mənim.
Binnətin olmasın bir anı sənsiz,
Həmişə "can"deyib, "can"eşidək biz.
Xətrinə dəyəndə, a xətri əziz,
Xəcalət çəkirəm özüm də mənim.

12.05.1976

Olsa

Məcnun mat qalardı, Dilbər, eşqimə,
Səndə Leyli kimi məhəbbət olsa.
Ölərdim, verməzdim səni heç kimə,
Andına, əhdinə sədaqət olsa.
Vəfalı olsaydın,olmazdı dərdim,
Eşqinlə hər qəmə üstün gələrdim.
Yolunda Fərhadtək dağlar dələrdim,
Daşı Bisütundan daha sərt olsa.
Məhəbbət salmayıb borana kimi?
Çölə də düşərdim divanə kimi.
Yanardım oduna pərvanə kimi,
Qəlbində zərrəcə məhəbbət olsa.
Gül olsan, cəfakeş bülbül olardım,
Əsli olsan, yanıb boz kül olardım.
Sən eşqə şah olsan,mən qul olardım.

www.kitabxana.net
Əmrində, hökmündə ədalət olsa.
Bir an sevinməzdim,səni anmasam,
Şahiddir dəftərim,qələmim,masam.
Məni sevdin asan,unutdun asan,
Mən səndən dönməzdim qiyamət olsa.
Gəlhagəlin idi, çox idi şansın,
Nəcə qıydın, Binnət od tutub yansın?
Qoy sonra peşiman olsun, utansın,
Hər kim əməlində xəcalət olsa.

08.07.1974

Məhəbbət

Kimə hicran verdi,kimə də vüsal,
Hərəyə bir gözlə baxdı məhəbbət.
Kimiyə şan-şöhrət, sevinc, cah-cəlal,
Kimiyə qəm,qüssə, ahdı məhəbbət.
Leyli,Şirin,nə də Əsli kam annnnldı,
Fərhadın cəfası şəfasız qaldı.
Qeysi Məcnun etdi, çöllərə saldı,
Kərəmi yandırdı-yaxdı məhəbbət.
Onun nə topu var, nə də tüfəngi,
Nə əmri,nə möhrü,nə də ki zəngi.
Toxudu başına şöhrət çələngi,
Kimin ki, qəlbinə şahdı məhəbbət.
Sultana,Sərdara,dilənçiyə də,
Hakimə,loğmana,pinəçiyə də,
Şairə,çobana,heç nəçiyə də.
Taledir,qismətdir,bəxdi məhəbbət.
Satılmaz şöhrətə,sərvətə,zərə.
İstəsə şahı da çəkər məhşərə.
Ən şirin neymətdir sevən kəslərə,
Hər şeydən ülvidir,pakdı məhəbbət.

www.kitabxana.net
Anlamaz sirrini hər yetən onun,
Saysız fəndləri var bu sirli oynun.
Rüşvətə susamaz,keçməz milyonun,
Ay Binnət, hökmündə haqdı məhəbbət.

14.07.1974

Küçəyə çıxıbsan

Küçəyə çıxıbsan, günəş gizlənib.
Həsəddən günəşin günü qaradır.
Qarşıma çıxıbsan yenə bəzənib,
Çaşmışam, bilmirəm hara haradır.
Günəş sənin kimi yandırıb yaxmır,
Gur saçını görüb şəlalə axmır.
Hüsnünü görəli pərdədən çıxmır,
Ay gözü kölgəli,üzü qaradır.
Bal susub ləbinin balını görüb,
Gül solub üzünün,alını görüb.
Çəmənə çıxanda xalını görüb,
Lalənin ciyəri para-paradır.
Fərə kəklik səndən səkmək öyrənir,
Güllər hüsnünə rəng çəkmək öyrənir,
Bənövşə boynunu bükmək öyrənir,
Halı pərişandır, qəlbi yaradır.
Durram qulluğunda qul kimi sayıq,
Gecələr qalsam da sübhətək ayıq,
Yazdıqlarım deyil adına layiq,
Bilirəm hamısı cızma-qaradır.
Eşqinlə əl atır saza bilməyən.
Dağ çapır lək yeri qaza bilməyən,
Səni görən gündən yaza bilməyən
Eşqinlə gündə bir dastan yaradır.

www.kitabxana.net
Sormadın halımı bir yol,bivəfa,
Çəkdim ömrüm boyu yolunda cəfa.
Sənsiz yox Binnətin dərdinə şəfa,
Sağalmaz, bədəni sərpa yaradır.

05.03.1984

Qınadı camaat məni

Züleyxa cəlallım,mələk camallım,
Sənin Yusifinəm,sayma yad məni.
A pir kəramətlim,Kəbə misallım
Yetir muradıma-eylə şad məni.
Kasıb aşiqinəm,yoxdur heç nəyim,
Qapında qul etdin,itdi əməyim.
Qaldı gözlərimdə arzum,diləyim,
Nə sən sevindirdin,nə həyat məni.
Yolunda çox düşdüm alova,oda,
Bilmədin, abırım getdi arada.
Nə öldürdün,nə yetirdin murada,
Xar etdin,qınadı camaat məni.
Yoxdur səndən qeyri arxam,pənahım,
Sənsiz ərşə çıxır fəğanım,ahım.
Qul xatasız olmaz,varsa günahım,
Kərəm et,bağışla,pərizad,məni.
Hardasan,qış olub ömrümün yazı?
Qoymusan hüsnünə həsrət,tamarzı.
Rəhm elə Binnətə,a zalım qızı,
Yazığam,az yandır,az sızlat məni.

07.11.1963

www.kitabxana.net

Düşübdür

Açıb deyəmmədim sənə eşqimi,
Mənə məhəbbətin lalı düşübdür.
Bu dərdə salmasın Allah heç kimi,
Qəlbimə hər dərdin xalı düşübdür.
Yaradan yaradıb qəlbi buz səni,
Aşiqə biganə,rəhimsiz səni.
Sənə vurulalı qəmin,qüssənin,
Sinəmdə çar-çarpaz yolu düşübdür.
Əsli kimi eldən-elə köçəndə,
Kərəmtək arxanca düşmüşəm mən də.
İtmişəm dumanda,azmışam çəndə,
Başıma qar yağıb,dolu düşübdür.
Bir dəfə olmadın halımdan halı,
Gəzdim dərdli-qəmli,başı bəlalı.
Mənim ürəyimə lalənin xalı,
Sənin yanağına alı düşübdür.
Hər səni görəndə çaşıram yolu,
Nə sağı bilirəm,nə də ki solu.
Binnətə dünyanın dərdi,məlalı,
Sənə xoşbəxtliyin bolu düşübdür.

12.07.1963

Mən

Nə qəlbiqarayam, nə qaraqabaq,
Sevinci kəm, qəmi min şələyəm mən.
Dərdim Savalandır, ahım Qarabağ,
Göz yaşı Arazam, şəlaləyəm mən.
Yayda gün təntidib məni, qışda qar,
Qazancım az olub, əllərim qabar.
Günahım varsa da, savabım da var,

www.kitabxana.net

Insanam,nə iblis, nə mələyəm mən.
Bəzən çox nikbinəm, bəzən qəmkeşəm,
Dosta dost, düşməni yaxan atəşəm.
Nə əfsun, nə cadu yazmaqdır peşəm,
Nə sehrbaz kahin, nə fələyəm mən.
Nə şöhrət lazımdır, nə də tac mənə,
Gülməsin harın, tox, acdan ac mənə.
Çox sənət öyrədib ehtiyac mənə,
Həm rəssam, həm müəllim, həm fəhləyəm mən.
Qəmli faciəyəm, bayatıyam mən,
Sevgilim Vətəndir, Fərhadıyam mən.
Yurdumun memarı, xarratıyam mən,
Düşmənin yurduna zəlzələyəm mən.
Dərbənd,Gorus, Təbriz boyda qəmim var,
Yad talayan evim, yurdum, zəmim var,
Öz sevgim, öz dərdim, öz ələmim var,
Binnətəm, nə Kərəm, nə Lələyəm mən.

16.12.1996

Düşər.

Gözəl, möcüzədir, möcüzə hüsnün
Səni hər kim görsə heyrətə düşər.
Sənin vüsalına çatmayan aşiq
Cəhənnəmdən betər möhnətə düşər.
Aşiqin olanlar çəkər qəm-qəhər,
Dalınca sürünər hey axşam-səhər.
Kimə könül versən olar bəxtəvər,
Sorğusuz, sualsız cənnətə düşər.
A naz-qəmzə ilə can alan pəri.
Səndən can əsirgər hansı sərsəri?
Inan şah da olsa sənə müştəri,
Önündə baş əyər, minnətə düşər.

www.kitabxana.net

Çoxunu sevdaya salan afətsən,
Xəstə şəfa tapar mərhəmət etsən.
Bircə an gözünün önündən getsən,
Dünyanın əzabı Binnətə düşər.

16.03.1969

Vətən yasdan çıxsın

Quzeydən bərk əsir yenə küləklər,
Yenə üz döndərib bizdən fələklər.
Gözümdə qalmasın böyük diləklər,
Vətən yasdan çıxsın qan tökülməmiş!
Çıxsın qələbəylə xalqımız yasdan,
Çıxsın matəm rəngli qara libasdan.
Qələbə naminə yazım bir dastan
İlham tükənməmiş, bel bükülməmiş!
Qaçqınlar çadırdan yurda köçələr,
Şənlənə dağılmış hər kənd, hər şəhər.
Bəzənə Qubadlı, Ağdam, Kəlbəcər
Yetişəm Laçına, Laçın gəlməmiş!
On ildir başımız qarışıb yaman,
Halı pəjmürdəyik, qəlbi pərişan.
Sevinsin Füzuli, Xaçın, Zəngilan!
Çoxdan o yerlərin üzü gülməmiş.
Çəkilsin qaranlıq, gülsün dan üzü,
Açılsın Xankəndin, Şuşanın gözü.
Bəzəsin kağızı Binnətin sözü
Üfüqlər qızarıb, dan sökülməmiş!

12.06.1998

www.kitabxana.net

Sevəcəyəm mən

Sanma ki, dəyişə sənə ülfətim,
Necə görmüşdünsə,eləcəyəm mən.
Nə əhdim dəyişər, nə sədaqətim.
Belə yaranmışam,beləcəyəm mən.
Nə qədər salsan da dərdə, möhnətə,
Dözərəm yolunda hər əziyyətə.
And olsun saf eşqə, saf məhəbbətə,
Səni ömrüm boyu sevəyəcəyəm mən.
Könlüm səndən alıb eşqi, ilhamı,
Gözümün nurusan, qəlbimin kamı.
Məni sevməsən də qoy bilsin hamı
Hər gün dərgahına gələcəyəm mən.
Əvvəlki ilqarım, vəfam ölməyib,
Binnətəm, eşqimin odu sönməyib.
Sənsiz bircə an da üzüm gülməyib,
Sənə qovuşanda güləcəyəm mən.

16.12.1965

Sevirəm, sevəcəm səni

Sorğusuz-sualsız, səbəbsiz, suçsuz,
Sevgilim, sızlatma səni sevəni.
Sınayırsan, sına sədaqətimi,
Sevmişəm, sevirəm, sevəcəm səni.
Sənsiz səfa sürüb sevinməmişəm,
Süsənim, sevinməz sevən sevənsiz.
Sənsən səadətim, sənsən sevincim,
Sapsarı saralıb solaram sənsiz.
Sarsılmazdım sitəmindən, sultanım,
Siyah saçlarını sığallasaydım.
Sevib sevilməyi səni səvəli,

www.kitabxana.net
Sonsuz sevinc saydım, səadət saydım.
Sirr saxlamayandan saxla sirrini,
Sənin sərbazınam, sərdarım sənsən.
Soyuqda,sazaqda səhraya salma,
Sənə sığınmışam, simsarım sənsən.
Sənəm sevməmişəm səndən savayı,
Sənsən sevdiciyim, sadiqəm sənə.
Binnətəm, sevəli sinədəftərəm,
Söz-söhbət saysızdır səni sevənə.

21.04.1970

Analar

Ömrümüzə şöhrətsiniz-şansınız,
Sözümüzə mənasınız, analar.
Övlad üçün can əsirgər hansınız?
Siz hamınız anasınız, analar!
Yüz yaşayın, ay gözümüz, canımız,
Çiçək açsın hər arzunuz, kamınız.
Nəbilərə Həcərsiniz hamınız,
Cəfərlərə Sonasınız,analar.
Bu dünyada görməyəsiz qəm qəti,
Çəkməyəsiz nankor övlad minnəti.
Istəyirəm siz hamınız Binnəti,
Öz oğlunuz sanasınız analar!

13.06.1965

Ağ atlı oğlan

Üzüm haqda qalıb, gözüm yollarda,
Harada qalıbsan, ağ atlı oğlan?
Yoxsa səni udub naqqa balığı,
Dəryada qalıbsan, ağ atlı oğlan?

www.kitabxana.net

Səni gözləməkdən səbrim tükəndi,
Yağılar taladı şəhəri, kəndi.
Yoxsa düşmən kəsib bərəni, bəndi,
Sən darda qalmısan, ağ atlı oğlan?
Yağı pərən-pərən saldı ordunu,
Xainlər dar gündə atdı yurdunu.
Xanbala, Bəybala satdı yurdunu,
Səhrada qalıbsan,ağ atlı oğlan.
Həsrətin atanın qəddini əyib,
Deyirlər, dalınca kömək gəlməyib.
Şuşada son güllən özünə dəyib,
Orada qalıbsan, ağ atlı oğlan.
Gəlir ziyarətnə el dəstə-dəstə,
Solmaz güllər düzür məzarın üstə.
«Gəl qisas al!» deyir bir boyu bəstə,
Harada qalıbsan,ağ atlı oğlan?

19.12.1992

Necə əl çəkim?

A xallı daz, kürən, qoy bilsin hamı,
Aldın yorğanımı, cırdın çuxamı.
Sinəmə dağ çəkdin, açdın yaxamı,
Mən sənin yaxandan necə əl çəkim?!
Gözüm görə-görə min tələ qurdun,
Qanıma susayıb zəlitək sordun.
Üzümə irişib, arxadan vurdun,
Mənə kəc baxandan necə əl çəkim?!
Mən səndən görmədim xoş bir baxış da,
Başıma uçurdun komamı qışda.
Qapılara saldın qarda, yağışda,
Evimi yıxandan necə əl çəkim?!
Azad yaşamadım bircə anımı,
Azadlıq istədim, tökdün qanımı.

www.kitabxana.net
Binnətəm, yanvarda mənim canımı,
Odlara yaxandan necə əl çəkim?!

09.02.1990

Dillərə düşə

Nə ola çəmənə çıxasan, ey gül!
Ətrin çiçəklərə, güllərə düşə.
Mənim də farağat durmaya əlim,
Yazdığım əllərdən-əllərə düşə.
Ay məni odlara yandırıb-yaxan,
Sənə vurulduğumu başıma qaxan,
Sənə rast olanda açıla yaxan,
Dərdindən Məcnuntək çöllərə düşə.
Hardasan, pozubdur qəm əhvalımı?
Məktubla da soruşmursan halımı.
Bizim aramızı vuran zalımı
Dərdlərə, odlara, sellərə düşə.
Həsrətindən az qalır ki, ağlayam.
Sən gedəli mən sinəsi dağlıyam.
Məcburam şəninə dastan bağlıyam,
Aşıqlar oxuya, dillərə düşə.
İnsaf et, bir görün, qalmışam həsrət,
Ahım səni tutar, eylə mərhəmət.
Elə eyləmə ki, biçarə Binnət
Saz alıb aşıqtək ellərə düşə.

28.03.1960

Görünmür

Elin dərdləri çox, çarə edən yox,
Hələ ki, bir işıq ucu görünmür.
Yol var körpüsü var, gələn - gedən yox,
Yollar ağı deyir, yolçu görünmür.

www.kitabxana.net

Itə, qurda qaldı elin dağları,
Talandı bağçası, yandı bağları.
Pozuldu bostanı, yandı tağları,
Nə bağban, nə də ki, suçu görünmür.
Əlləri qoynunda Binnət qan ağlar,
Həsrətdən sızlayır ağlar bulaqlar.
Büküb məlul-məlul boynunu dağlar,
Ellərin yaylağa köçü görünmür.

16.05.1992

Nə mən, nə sən

Hicran atəşinə pərvanə kimi,
Nə mən alışmayım, nə sən alışma.
Mətləbə, murada yetməyənlərlə
Nə mən yarışmayım, nə sən yarışma.
Kimdəsə xoş qılıq, xoş üz görməsək,
Onunla dostluğu, ülfəti kəsək.
Bizdən küsənlərdən gəl biz də küsək,
Nə mən barışmayım, nə sən barışma.
Binnətəm, canına canım sadağa,
Artıq söz-söhbətə qoyaq qadağa.
Gəl duraq üz-üzə, dodaq-dodağa,
Nə mən danışmayım, nə sən danışma.

15.04.1980

Fələk

Arvad hesabına ucalan nadan,
Sənə əllərilə taxt qurur fələk.
Namərdlik eləyir mənə hər zaman,
Səninsə arxanda mərd durur fələk.
Tərs çərxin tərs olar gördüyü tədbir,

www.kitabxana.net
Pisə nəşə verər, yaxşıya cəbr.
Sənə şeş atdırır, mənə iki-bir,
Tərəfkeşlik edib uddurur fələk.
Mənə itirtdirir, sənə tapdırır,
Zorunu artırıb çalıb-çaldırır.
Sənə dəbdəbəli saray yapdırır,
Mənim çardağıma od vurur fələk.
Sənə qalxmaq üçün nərdivan qurur,
Məni yıxmaq üçün badalaq vurur.
Gah da şərə salıb üzümə durur,
Insafı unudub bəduğur fələk.
Uyma ilqarına bu gəlhagəlin,
Əl tut başqasına, tutursa əlin.
Bir gün puç olacaq, bu gəlhagəlin,
Bəzən qurduğunu uçurur fələk.
Əlindən gəlməyir fərli bir peşə,
Pul ilə oynayır əlin həmişə.
Binnətin düz sözü keçməyir işə,
Sənin yalanını doğurur fələk.

14.11.1987

Ahımdır mənim

Aləmə ün salan ney, kaman deyil,
Sinəmdən ucalan ahımdır mənim.
Vaxtsız solan çəmən, gülüstan deyil,
Xəzan vurmuş bağçam, bağımdır mənim.
Şəhidlər yasıdır saxladığım yas,
Qisas qiyamətə, qan yərdə qalmaz
Dərdimin dəvası qisasdır, qisas!
Yağıdan öc almaq çağımdır mənim!
Əlimdən gedibdir Şuşam, Ağdamım,
Sönüb Xocalıda ocağım, şamım.
Qələbə çalmaqdır murazım, kamım,

www.kitabxana.net

Məğlubiyyət sinə dağımdır mənim.
Yurdsuz qalıb didərginim, qaçqınım,
Dağılıbdır Kəlbəcərim, Laçınım.
Cəbrayılım, Zəngilanım, Xaçınım,
Viran olan Qarabağımdır mənim.

www.kitabxana.net
El dərdi qəddimi yay eləyibdir,
Gözümün yaşını çay eləyibdir.
Ömrümü-günümü zay eləyibdir,
Yediyim, içdiyim ağımdır mənim.
Binnətin dərdini yoxdur dinləyən,
Çoxdur sızıldayan, çoxdur inləyən.
Əsarət-atəşkəs vaxtı inləyən
Torpağım – aranım, dağımdır mənim.

04.01.1995

Dönəm mən

Həsrətəm, düşmüşəm sorağına mən,
Üz sürtəm Təbrizin torpağına mən.
Bu taydan o taya ata küləklər,
Dönəm bir söyüdün yarpağına mən!
Yoxdur rahatlığım, dincələm, yatam,
Hicran sona yetə, vüsala çatam!
Düşmənin qanını torpağa qatam,
Dönəm Səttarxanın yarağına mən.
Yurdum parça-parça bölünüb-heçəm,
Hazıram yurdumçun canımdan keçəm.
Düşməni saralmış,zəmitək biçəm,
Dönəm bir biçinçi orağına mən.
Gəzəm dərdli axan Araz boyunca,
Üzəm sularını mən quca-quca.
Hər iki sahili öpəm doyunca,
Dönəm xan Arazın dodağına mən.
Gücümü yağıya-yada görkəzəm,
Dosta nicat verəm, düşməni əzəm.
Dodaqlarda dinəm, əllərdə gəzəm.
Dönəm Şəhriyarın varağına mən.
Qanmayanı qandığıtək qandıram,

www.kitabxana.net
Hirsimi, kinimi alovlandıram.
Bizdən torpaq umanları yandıram,
Dönəm krimatoriya ocağına mən.
Məni qorxutmayır azğın düşmən də,
Öc almaq istəyən əsgərəm mən də.
Yolunda vuruşam, Vətən, öləndə
Dönəm bircə ovuc torpağına mən.
Sən mənə kömək ol, kömək ol, Allah!
Nə vəzir olmaqdır diləyim, nə şah.
Bir əlimdə qələm, birində silah,
Dönəm Ana yurdun dayağına mən.
Yurduma hər yandan tuşlanıb silah,
Yağıdan öc alam ölməzdən qabaq.
Qurtar zəlalətdən xalqımı, Allah.
Yalvarıram düşüb ayağına mən
Ölmək istəmirəm qisas almamış,
Bizə ölmək olmaz zəfər çalmamış.
Heç zaman xoş arzu gözdə qalmamış,
Dönəm bir muştuluq sorağına mən.
Binnətəm, on ildir, batmışam yasa,
Gülmərəm, Qarabağ azad olmasa.
Vətən xilaskartək bağrına basa,
Dönəm qalibiyyət bayrağına mən.

11.02.1998

Şuşayam

Ölməyib görəydim seyrini hər yaz,
Səndə vardır başqa lətafət, Şuşa!
S.Vurğun

Gözümdən yaş yağır, üzümdən məlal,
Fələyin dağılmış tufanasıyam.
Yoxdur o əvvəlki təmtəraq cəlal,

www.kitabxana.net
Bir yurdun talanmış viranəsiyəm.

www.kitabxana.net

Nə şənlik səsi var, nə də tar, qaval,
Yağı yağmalayıb elədi işğal
On ildir başımda qopub qalmaqal,
Yurdun matəmiyəm, elin yasıyam.
Nə Xan var, nə Bülbül, nə də Üzeyir,
Vurğun qucağımda yazmayır şeir.
Torpağım sızlayır, daşım inləyir,
Ayrılıq, intizar qəmnaməsiyəm.
Vəfasız qonaqlar gəlmir üstümə,
Baxmırlar başımdan qalxan tüstümə.
Yağılar dağıdır, durub qəsdimə,
Elin ləl cəvahir xəzinəsiyəm.
Yağılara satdı satqınlar məni,
Ağlayıb tərk etdi qaçqınlar məni.
Döyür dolu məni, döyür qar məni,
Qarabağın itmiş dəfinəsiyəm.
Binnətin qəlbitək çilik-çiliyəm,
Yurdun bağlı qolu, kəsik əliyəm.
Qədirin, Arifin dərdli diliyəm,
Azadlıq-hürriyyət təşinəsiyəm.

17.09.1998

Bizimdir

Gəl qələm götürək qoşa saz tutaq,
Süsənlər,sünbüllər,güllər bizimdir.
S.Vurğun

Şəhidlər üstündə hər gün yas tutan,
Yaslı qərənfillər, güllər bizimdir.
Olaq məmləkətin qəminə ortaq,
Ağrılı-acılı günlər bizimdir.
Gözəl Şuşamızda solur gözəllik,

www.kitabxana.net

Orda ağı deyir bülbüllə kəklik.
Saralıb solubdur güllük, çiçəklik,
Sonası yas tutan göllər bizimdir.
Eli sevən olub eldən didərgin,
Iş gəzir, əl açır tinlərdə hər gün.
Mübtəla oluruq min dərdə hər gün,
Pərişan, pəjmürdə tellər bizimdir.
Ölmək yaşamaqdan olubdu asan,
Dərd çəkir minlərlə didərgin insan.
Ehtiyac üzündən özünü asan
Qaçqınlar, əlillər, şillər bizimdir.
Elin qara gəlib baharı, yazı,
Sızlayır Qədirin dərdli avazı.
İnləyir, hönkürür aşığın sazı,
Acı ağı deyən dillər bizimdir.
Ərşə bulud kimi qalxır ahımız,
Gah bambılı, gah səy oldu şahımız.
Yağılara qalıb Qarabağımız,
Xarabazar olan ellər bizimdir.
Harın quduzlara yal çalanlarıq,
Hər gün təhqir olan alçalanlarıq.
Gopçu natiqlərə əl çalanlarıq,
Dilənən, əl çalan əllər bizimdir.
Sürünü, naxırı, ilxını talan
Eləyib, məlumat verdilər yalan.
Binəsiz, arxasız, çobansız qalan,
Yaylaqlar, çəmənlər, çöllər bizimdir.
Çoxdur pis işindən hələ xoşlanan.
Eldən gedir yada hər bağışlanan.
Qan ağlayan, gözümüzdən başlanan
Arazlaşan sular, sellər bizimdir.
Binnətəm, gözümdən car olur sellər,
Bağlandı ağızlar, kəsildi dillər.
Düz görən gözlərə çəkildi millər,

www.kitabxana.net
Gözlər bizimkidir, millər bizimdir.

18.05.1992

Tovuz

Zəvvaram,Kəbəmsən, dönüm başına,
Baş əyim, üz sürtüm hər qarışına.
Qurban olum torpağına, daşına,
Nəslimin, kökümün anası Tovuz!
Qonşundur Şəmkirlə, Gədəbəy, Qazax,
Şəninə dastanlar, mahnılar yazaq.
Olasan bəd gözdən-nəzərdən uzaq
Cahanın sonalar sonası Tovuz.
Yuyanda üzünü səhərin şehi,
Səni seyr edənin coşur fərəhi.
Darayır telini Ağdağın mehi,
Düşəndə başının cunası, Tovuz.
Üzünü görənlər yolundan qalır,
Füsünkar hüsnünə baxıb zövq alır.
Sənə aşiq olur, meylini salır,
Kimin varsa əhdə vəfası,Tovuz
Cırdaxan, Mülkülü məskənim- yerim,
Alı Dədə müqəddəs - ocağım-pirim.
Gəzə dodağında, barı, bir şerim,
Ola qulağının tanası, Tovuz.
Tarixə şöhrətdir şərəfin şanın,
Zəfər kitabıdır hünər dastanın.
Sənsən şan – şöhrətli Azərbaycanın
Basılmaz səngəri, qalası, Tovuz.
Cəfər, Tanrıverdi, Telli Əsəd, Nağı.
Dostuna dost olub, yağına yağı.
Leylilər, Məftunlar yurdu, oymağı,
Eşqin. məhəbbətin dünyası Tovuz.
Ay abad yaylağım,qışlağım,binəm,
Hanı cavanlığım?Boz atı minəm,

www.kitabxana.net
Ceyran çölü gəzəm,ençidən enəm?
Başımda eşqinin sevdası, Tovuz.

www.kitabxana.net
Qoynunda yurd salmış Oğuz, Koroğlu
Hüseyn, Nəcəf kimi sənətkar oğlun.
Göylərə körpüdür Xatıncan yolu,
Məlhəmdir Əsriyin havası, Tovuz.
Dağın başı qarlı, dərən dərindir,
Torpağın ruzulu, suyun sərindir.
Havan, otun, suyun, çiçəklərindir
Dərdlərin dərmanı-dəvası, Tovuz.
Çəmənim ,gülzarım, bağçam, bağımsan,
Ümidim, pənahım, səcdəgahımsan,
Məkkəm, Mədinəmsən, qibləgahımsan
Könlümün ibadətxanası Tovuz.
Torpağın taxtımdır,tozun tacımdır,
Oğlun qardaşımdır,qızın bacımdır.
Ağ dağ Mina dağım, kəndim Həccimdir,
Ruhumun Kəbəsi,Minası,Tovuz.
Bir yanım yaylaqdır, bir yanım aran,
Səndə Abuhəyat tapar axtaran.
Neçə ki canı var, yolunda hər an
Binnət yanasıdır, yanası,Tovuz.

24.09.1987

Sənin xətrinə

İnan, hara getsən, a xətri əziz,
Dalınca gələrəm sənin xətrinə.
Mən Fərhad olaram, sən Şirin olsan,
Dağları dələrəm, sənin xətrinə.
Doğmadan doğmasan, əzizdən əziz,
Bir an da sevinməz sevən sevənsiz.
«Qal» desən, qalmaram dünyada sənsiz,
«Öl»desən, ölərəm sənin xətrinə.
Binnətəm, eşqinlə coşub-çağlaram,
Qəmlənsən, yas tutub qara bağlaram.
Kövrəlsən, mən səndən qabaq ağlaram,
Qımışsan, gülərəm sənin xətrinə.

www.kitabxana.net

01.09.1977

Xilaskar olsa

Fani dünya adlı bu qəmxanada,
Deyərdim dərdimi bir qəmxaz olsa,
Bir loğman gəzirəm yetişə dada,
Xəstə şəfa tapar şəfakar olsa.
Sinəmdə ləl-gövhər xəzinəsi var,
Açaram olsa bir sərraf, xiridar.
Bəzzaz atlaz olar, zərgər zər olar,
Açıq bazar olsa, sövdəkar olsa.
Qəlbimi o qədər çəkilib dağlar,
Ah çəksəm, kül olar qayalar, dağlar.
Yerlər nalə çəkər, göylər qan ağlar,
Pərişan halımdan xəbərdar olsa.
Şəhid, əlil olmuş min-min mərdim var,
Nə dada yetənim, nə həmdərdim var.
Zəngəzur, Qarabağ,Göyçə dərdim var,
Aləm suya dönər, yaşım car olsa.
Arsızlar kef çəkir restoranlarda,
Daldey kafelərdə, xəlvət barlarda.
Binnətəm, məmləkət qalıbdır darda,
Vətən yasdan çıxar xilaskar olsa.

06.06.1990

Xoş gəlibsiniz

Möhtərəm qonşular, qohumlar, dostlar,
Bu şadlıq evinə xoş gəlibsiniz!
Bu toy sevincinə şərik olmağa,
Sevinə-sevinə xoş gəlibsiniz!
Hamınız çatasız arzuya, kama,
Toy-toya qarışa, bayram-bayrama!
Siz bu ziyafətə, bu ehtişama,
Bu toya-düyünə xoş gəlibsiniz!

www.kitabxana.net
Dinləyin sözünü danəndələrin,
Süzün havasına sazəndələrin
Bu bülbültək ötən xanəndələrin
Səsinə-ününə xoş gəlibsiniz!
Şənlənək,düşmənin kefini pozaq,
Qüssəni mat edək,qəmi uduzaq.
Bu kədərdən uzaq, möhnətdən uzaq
Şadlıq aləminə xoş gəlibsiniz!
Binnətəm, güvənə qızlar baxtına,
Oğlanlar şah ola bəylik taxtına.
Bəy ilə gəlinin bu şən vaxtına,
Bu əziz gününə xoş gəlibsiniz!

23.12.2001

Üşüyürəm, gəl

Həsrətin canıma od salıb, gülüm,
Ocaqda köz kimi yaşayıram, gəl.
Hicranın qəddimi kaman eləyib,
Sənsiz qəm yükünü daşıyıram, gəl.
Ayrılıq ruhumu salıb kəməndə,
Açmayır könlümü gül də, çəmən də.
Sığışa bilmirəm şəhərə-kəndə,
Yollar məni yorub, tövşüyürəm, gəl!
Binnətəm, gen dünya başıma dardır,
Qəm sinəm üstündə qatar-qatardır.
Sənsiz döşəyim buz, yorğanım qardır,
Yayda üç yorğanda üşüyürəm, gəl.

15.08.1980

www.kitabxana.net

Eləyibdir

Fələk bəzən qulu şahənşah edib,
Bəzən şahənşahı qul eləyibdir.
Dilqəmi dərdlərə düçar eləyib,
Kərəmi yandırıb kül eləyibdir.
Çox zalım şahların tacını alıb,
Taxtı tarac olub, yurdu boş qalıb.
Qeysi Məcnun edib, çöllərə salıb,
Leylinin yaşını sel eləyibdir.
Baxmır amanlara, baxmır ahlara,
Bəzən fürsət verir quduz şahlara.
Min-min günahsızı çəkdirib dara,
Zülmü məzlumlara bol eləyibdir.
Yağılara qalıb Ağdam, Ağdərə,
Başıma dar olub Yer- Göy, dağ-dərə,
Imkan, fürsət verib kəmfürsətlərə,
Əlif qamətimi dal eleyibdir.
Onda insaf, mürvət, ədalət hanı?
Dağıtdırdı Xocalını, Şuşanı.
Binnətəm, əzabın, zülmün karvanı
Dağlanmış sinəmi yol eləyibdir.

15.12.1990

Ceyran çölü

Gəldim, gəzdim, gördüm, könlüm açıldı,
Uşaqlıq oylağım, a Ceyran çölü.
Hər yandan üstümə ətir saçıldı,
Aldım çiçəklərdən pay, Ceyran çölü.
Açıb qucağında çiçəklər rəng-rəng,
Füsunkar seyrindən doymayır ürək.
Qınoğlu Söyünün çaldığı tütək,

www.kitabxana.net

Salır qucağına hay, Ceyran çölü.
Üstündə buludlar qaralır, dolur,
Çəmənin saralır, çiçəyin solur.
Ceyranla düzlərin pərişan olur,
Qonağın az olur yay, Ceyran çölü
Göydən gün üstünə alov ələyir,
Bürkü tüğyan edir,cövlan eləyir.
İyulda qoynunda ilan mələyir,
Laləzar olursan may,Ceyran çölü.
Binnət uzaq düşməz sənintək dostdan,
Bir gün yazacaqdır şəninə dastan...
Sirab olacaqsan, düşmə həvəsdən,
Milə olacaqsan tay, Ceyran çölü.

07.05.1963

Eşqimin

Yarın dərgahına yolu düşmədi,
Mənim bu nabələd, naşı eşqimin.
Gündə bir əsrarlı sevdaya düşdü,
Daşdan-daşa dəydi başı eşqimin.
Şahlığa çatmadı, taxtsız da getdi,
Nakam yaranmışdı, baxtsız da getdi.
Vədəsiz gəlmişdi, vaxtsız da getdi,
Tez gəldi şaxtalı qışı eşqimin.
İlk eşqin sevdası çıxmaz başımdan,
Yüz yara alsam da tənə daşımdan.
Uşaqkən vuruldum,mənim yaşımdan
Səkkiz yaş kiçikdir yaşı eşqimin.
Sevdim, məhəbbətlə çatdım bu yaşa,
Sevgiylə də vuram ömrümü başa.
Məhəbbətin oxu dəyməyə daşa,
Yaxşı ömrü ola yaxşı eşqimin.

www.kitabxana.net
Nə görüşə getdi, nə də görüşdü,
Binnətəm, həyatım ah-vayla keçdi.
Ara vuranların başına düşdü,
Dağdan ağır oldu daşı eşqimin.

14.06.1971

Düşsün

Izin ver, vəsf edim gül əndamını,
Adın nəğmə kimi dillərə düşsün.
Mədhin, vəsfin heyran etsin hamını,
Aləmə car olsun, ellərə düşsün.
Rəhm elə, son qoyaq bu fərağa gəl,
Şadlanaq, oxuyub-oynamağa gəl.
A qoynu müşk-əmbər, bizim bağa gəl,
Ətrin çiçəklərə, güllərə düşsün.
Qəlbində eşq olsa, dil açar daş da,
Dinər məhəbbətlə tökülən yaş da.
Hər yaşda sevərlər, Binnət bu yaşda
Az qalır eşqindən çöllərə düşsün.

16.06.1977

Köləyəm elimdə

(Bir qaçqının dilindən)

Özüm nabələdəm, yolum yoxuşdur,
Hara gedim qəm şələsi belimdə?
Qərib bir qonağam bu qəmxanada,
Qəm-qüssənin piyaləsi əlimdə.
Kövrəlmişəm, boğur məni qəm-qəhər,
Gözüm üfüqdədir, açılmır səhər.
Yediyim ağıdır, içdiyim zəhər,

www.kitabxana.net
Boğuluram gözdən axan selimdə.
Sarı, qara marlar məni çalıbdır,
Elim, obam yağılara qalıbdır.
Yersizlər yerimi zorla alıbdır,
Haqsız, muzdsuz bir köləyəm elimdə.
Dərd çəkməkdən oldum dəli, dərdəcər,
Nə Zöhhak zülm edib belə, nə Səncər.
Evim çadır, koma, özüm dərbədər,
Ölüb qurtarmıram, yoxdur ölüm də.
Didərgin deyiblər, Binnət, adıma.
BMT-nin düşməyirəm yadına
Atılmışam qaçqınlığın oduna,
Alışmışam, qovruluram külündə.

09.03.1992

Sənsiz könlümün

Sənsiz bir qəribəm öz elimdə mən,
A dostu, həmdəmi, yarı könlümün.
Sənsiz ərşə çıxır ahım-amanım,
İnləyir kamanı, tarı könlümün.
Bülbül yaşayarmı gülündən ayrı?
Günüm bir gün deyil, yar, səndən ayrı.
Yaz gəldi, əriyir dağların qarı,
Sənsiz əriməyir qarı könlümün.
Sənsiz əzablarım həddini aşır,
Ağlar gözlərimin yuxusu qaçır.
Sənsiz bağ-bağçada gül-çiçək açır,
Gül açmayır çəmənzarı könlümün.
Sənsiz üz-gözümdən kədər tökülür,
Üstünə qəm-qüssə,qəhər tökülür.
Dost-dostla,yar-yarla oynayır,gülür,
Üzü gülmür səndən ayrı könlümün.
Danış-gül naz ilə, mərhəmət ilə,

www.kitabxana.net
Ömrü başa vuraq məhəbbət ilə.

www.kitabxana.net
Nolar, insaf elə, mərhəmət elə,
Bir yol üzü gülsün barı könlümün.
Sənsiz çəkdim dərdi, qəmi, məlalı,
Bircə yol halımdan olmadın halı.
Rəhm elə Binnətə! Sənsiz qalalı
Möhnətdir yoldaşı-yarı könlümün.

19.10.1984

Hələ

Öyün, a bəxtəvər, güləndam xanım,
Ömrünün sultanlıq çağıdır hələ.
Məndən gen gəzirsən, üzülür canım,
Naz-qəmzən aləmi dağıdır hələ.
Buxağın bəyazdır ilk yağan qardan,
Dodağın meyxoşdur yetişmiş nardan.
Yanağın gözəldir güldən, gülzardan,
Qucağın behiştin bağıdır hələ.
Eşqindən olmuşam ağıldan səmə,
Sən salıbsan məni bu dərdə, qəmə.
Ahı daşı dələn dərdli sinəmə
Çəkdiyin ayrılıq dağıdır hələ.
Fələyi kar edib qəlbimin ahı,
Ah-vayla açıram sənsiz sabahı.
Binnətin üzünə, a şahlar şahı!
Könlünün qapısı bağlıdır hələ.

28.06.1987

www.kitabxana.net

Pişvazına çıxım gəl

Gülüm, qoyma həsrətindən üzülüm,
Gül-çiçəklə pişvazına çıxım, gəl.
Güləndamlım, gülcamallım, gülüzlüm,
O füsunkar camalına baxım, gəl.
Sənsiz keçən saatları sanadım,
Sənsiz sanki sınıb qolum, qanadım.
Gah özümü, gah da səni qınadım,
Ərşə çıxdı naləm, ünüm, ahım, gəl.
Demirsənmi hicrin məni məhv edər,
Harda qaldın? Üzdü məni qəm, qəhər.
Üz-gözümü bürüyübdür dərd, kədər,
Gəlişinlə dərddən, qəmdən çıxım, gəl.
A söhbəti şirin, sözü məzəli,
Tovuz tamaşalı, Tovuz gözəli.
Hardasan? Olmuşam divanə, dəli,
Ayrılığın küməsini yıxım, gəl.
Ay ömrümün bər-bəzəyi, zinəti,
Bu yaşında Məcnun etmə Binnəti.
Qoy bu acı ayrılığı, həsrəti
Vüsalınla yandırım gəl, yaxım, gəl.

24.01.1977

Qəçrəşdə

Gəlin bir də gələk Qəçrəşə, dostlar,
Gəncliyin alovu, odu sönməmiş.
Bir də bu yerlərə qayıdaq, nolar,
Bizdən təbiətin üzü dönməmiş.
Yamacda dincələk, düzdə oturaq,
Hər bulaq başında bir məclis quraq.
Ana təbiətin qoynunda olaq,

www.kitabxana.net
Çiçəklər saralıb, güllər solmamış.
Ətirli gülləri öpək, qoxuyaq,
Çobanyastığından çələng toxuyaq.
Quşlarla səs –səsə verək, oxuyaq,
Mahnısız, çalğısız qəlb isinməmiş.
Taladan-talaya bir cığır salaq,
Səfalı yerlərə baxaq, zövq alaq.
Qartallı dağların seyrinə dalaq,
Üstünü çən - çiçək, duman almamış.
Binnətəm, düşməyək ilhamdan uzaq,
Hərəmiz bu yerə bir şeir yazaq.
Çıxaq dağ başına, olsa da sazaq
Günəş əyilməmiş, qaş qaralmamış.

28.05.1988

Gəzirəm

Təşnəyəm, buz kimi dişi göynədən,
Dodağı donduran bulaq gəzirəm.
Başıma od yağır, yoxdu rəhm edən,
Aranda yanıram, yaylaq gəzirəm.
Yenə Qarabağa mənsiz gəldi yaz,
Köçüm yolda qaldı, köç yolda qalmaz.
Belə zülm olmaz, belə dərd olmaz,
Dilimdə ah-aman, Allah gəzirəm.
Ağlar gözlərimdən yuxum qaçıbdır,
Yurdum dağılıbdır, yuvam uçubdur.
Ocağım sönübdür, çıram keçibdir,
Bir kümə, bir isti ocaq gəzirəm.
Başımdan aşıbdı dərdim, məlalım,
Sinəmə çal-çarpaz dağ çəkir zalım.
Halımı deməyə qalmayıb halım,
Bir həmdərd-dərdimə ortaq gəzirəm.

www.kitabxana.net
Gedib Kəlbəcərim, Şuşam, Ağdamım,
Küsüb gözəllikdən, güldən ilhamım.
Külək çox bərk əsir, titrəyir şamım,
Tufana davamlı çıraq gəzirəm.
Həsrətəm dumanda,çəndə azmağa,
Yatammıram,yuxum yoxdur yozmağa.
Dərd məni yandırıb-yaxıb,yazmağa
Qələm axtarıram,vərəq gəzirəm.
Qəmlə doldurmuşam qəm gəmisini,
Həm qəmi çəkirəm, həm gəmisini.
Dünyanın dərd, kədər, qəm zəmisini
Biçməyə bir iti oraq gəzirəm.
Binnətəm, çalışdım yetəm murada,
Heyif ki, zəhmətim itdi arada.
İnsafsız, mürvətsiz, zalım dünyada
Azadlıq,müsavat və haqq gəzirəm.

27.08.1992

Eləyir

Füsunkar camalın, a xallı maral,
Naşı yolçuları yoldan eləyir.
Hüsnünü görənlər olur xəstəhal,
Ah çəkir, zarıyır, fəğan eləyir.
Səni sevənlərin qaradır günü,
Fələyi kar edir fəğanı, ünü.
Naz ilə can alma, azalt zülmünü,
Aşiqlər əlindən üsyan eləyir.
Şirindir sözlərin, şəkərdir dilin.
Zülflərinə sığal çəkəndə əlin,
Ayna qabağına tökülür telin,
Könlümün evini viran eləyir.
Bəzənib-düzənib evdən çıxanda,
Hamı heyran olur sənə baxanda.

www.kitabxana.net
Hərdən xoş baxışla mənə baxanda,
Könlüm, gözüm gülür, bayram eləyir.

www.kitabxana.net
O sərxoş duruşun, süzgün baxışın,
Alıbdır çoxunun başından huşun.
O ox kirpiklərin, o kaman qaşın
Binnəti qanına qəltan eləyir.

28.06.1966

Gülüm

Elə etmə səndən küsüm, inciyim,
Elə et dolanım başına, gülüm.
Öpüm yola salım, qarşılayanda
Gül-çiçəklə çıxım qarşına, gülüm.
Bir xoş təbəssümlə qışımı yaz et,
Şəkər ləblərinlə mənə niyaz et.
Mənə zülm eləmə, nazını az et,
Rəhm elə gözümün yaşına, gülüm.
Xətirimə dəysən, sağalmaz yaram,
Yüz min loğman gəlsə tapılmaz çaram.
Şəninə gündə bir dastan yazaram,
Bircə misram gəlsə xoşuna, gülüm.
Gülün ətri çatmaz, gülüm, ətrinə,
Ətrinin yanında gülün ətri nə?
Yayda qar istəsən, sənin xətrinə
Çıxaram dağların başına, gülüm.
Ağrıma, yarama məlhəmdir əlin,
Hər «gülüm»,-deyəndə, «can»-deyən dilin.
Binnətəm, mən səni yetirən elin
Qurbanam torpağna,daşına, gülüm.

10.09.1977

www.kitabxana.net

İnanımmı, inanmayımmı?

Deyirlər dünyada haqq - ədalət var,
Görən inanımmı, inanmayımmı?
Pak vicdan, saf qeyrət, düz sədaqət var,
Görən inanımmı, inanmayımmı?
BBS radiosu car çəkir bar-bar-
Güya Amerikada demokratiya var.
Güya demokratdır avropalılar,
Görən inanımmı, inanmayımmı?
Güya dostumuzdur İran, Rusiya,
Canbir, həmrəydilər bizimlə, güya.
Həsrət edənlərə məni o taya,
Görən inanımmı, inanmayımmı?
Yad ölkədə silah sınayanlara,
Yad elləri çapıb talayanlara,
Yad elləri oda qalayanlara,
Görən inanımmı, inanmayımmı?
Yalan eşidirəm gündə yüz kərə,
Bizə yalanını sırıyır hərə.
Binnətəm, radioda deyilənlərə
Görən inanımmı, inanmayımmı?

12.02.2011

Yoxdur

Günbəgün çoxalan, artan dərdimin,
Loğmanı, dərmanı, çarəsi yoxdur.
Ağı qalmayıbdır ağ ciyərimin,
Qara ciyərimin qarası yoxdur.
Riyakar görürəm hər addımbaşı,
Aza çox deyirlər, yamana yaxşı.
Dərmanlar saxtadır, həkimlər naşı

www.kitabxana.net
Sağalmır, qəlbimin parası yoxdur.
Binnətəm, məəttəl qalmışam neyçün?
Ədalət, həqiqət gəzdiyim üçün,
Düzə-düz, bicə-bic dediyim üçün
Çoxlarının mənlə arası yoxdur?!

18.09.1988

Getdi

Hatəmlər əl tutdu qohuma, yada,
Harunlar varını saxladı, getdi.
Yaxşılar yaxşı ad qoydu dünyada,
Yamanların adı çıxmadı, getdi.
Nizami, Xəqani əsərlər yazdı,
Indi onlar kimi yazanlar azdı…
Kim ki, haqqı dandı, düz yoldan azdı
Fələk qapısını bağladı, getdi.
Üzeyir dahidir, sənətdə təkdi,
Xalqa Cavad Xantək igid gərəkdi.
Mirzə Cəlil, Sabir el dərdi çəkdi,
Vurğun dağ çayıtək çağladı, getdi.
Mərd rəhmli olar, namərdsə cəllad,
Yaxşı abad edər, yamansa bərbad.
Baş kəsdi, qan tökdü Nəmrudla Şəddad,
Dağ çəkdi sinələr dağladı, getdi.
Nuşirəvan tanındı ədalətiylə,
Xətai yurd qurdu şah qüdrətiylə
Böyük loğman Tusi zəkavətiylə
Hikmətli kitablar bağladı, getdi
Nəsimi haqq gəzdi,"ənəlhəqq"-dedi.
Haqqı dananlara mənəm haqq dedi,
Binnət də sözünü üzə şax dedi,
Bu haqsız cahana sığmadı getdi.

04.07.1986

www.kitabxana.net

Vaxtıdır

Yaz gəlir, əriyir dağların qarı,
Bənövşənin yasdan çıxan vaxtıdır.
Nərgizin naz ilə günəşə sarı,
Qımışa-qımışa baxan vaxtıdır.
Quşlar cəh-cəh vurur sökülməmiş dan,
Bülbüllər zövq alır güllü bağlardan.
Qarlar əridikcə uca dağlardan,
Selin şaqqıltıyla axan vaxtıdır.
Buludlar tutmayır günəşə pərdə,
Gecə ay nurunu yayır göylərdə.
Təbiət möcüzə yaradır yerdə,
Göydə ildırımın çaxan vaxtıdır.
Bulaqlar şairtək coşur, çağlayır,
Çəmənlər, çiçəklər ətrini yayır.
Oğlan sevdiyinə çələng bağlayır,
Qızın telinə gül taxan vaxtıdır.
Binnətəm hardadır yarım? Göstərin,
Gəlsin, yollarına gül, çiçək sərim.
Biri-birisiylə sevən kəslərin
Gizlincə görüşə çıxan vaxtıdır.

24.04.2011

Hardasan?

Yanımdan gedəli canım yanında,
Gözlərim yolunda qalır, hardasan?
Hər dəfə həsrətlə səni ananda
Dilim ağızımda yanır, hardasan?
Sənsiz ah-vay ilə keçir hər anım,
Sənsiz yaşamağa yoxdur gümanım,
Sənsiz gecə-gündüz ahım, amanım

www.kitabxana.net
Aləmə qəmli ün salır, hardasan?

www.kitabxana.net
Təşnəyəm,həsrətəm dağda qarıma,
Bağçada gülümə,bağda barıma.
Sənsiz bəd yel əsir çəmənzarıma,
Güllərim saralır,solur,hardasan?
Məcnunam, yerim olub dağ-dərə,
Çəkdim həsrətini, düşdüm dərdlərə.
Sağ əlim halımı yazır dəftərə,
Sol əlim saçımı yolur, hardasan?
Sevgidir həyatın şirin neməti,
Sevmək hər yetənin deyil qisməti.
Vüsalın yaşadır, gülüm, Binnəti
Həsrətin canını alır, hardasan?

20.09.1978

Sözüm dustaq olub dilimin altda

Dərdimi dilimdən eşidən kimi,
Kağız nalə çəkir əlimin altda.
Qələmim alışar yazsa dərdimi,
Vərəq külə dönər qələmin altda.
Dərdim-çox, həmdəm-yox, bölə bilmirəm.
Ürəkdən danışıb, gülə bilmirəm.
Tutublar ağzımı, dinə bilmirəm,
Sözüm dustaq olub dilimin altda.
Gözümü yaş tutub, görə bilmirəm,
Bağıma, bağçama girə bilmirəm.
Qorxuram, bir lalə dərə bilmirəm,
İlanlar qıvrılıb laləmin altda.
Tükənib dözümüm, dözə bilmirəm,
Qoymurlar, asudə gəzə bilmirəm,
Bağçamdan bircə gül dərə bilmirəm,
Əqrəblər oynaşır gülümün altda.
Vətənimə, torpağıma vuruldum,
Şuşa getdi, şüşə kimi qırıldım.

www.kitabxana.net
Xocalı yananda yandım, qovruldum,
Ruhum hələ yanır külümün altda.
Eniş-yoxuş oldu yolum, yoruldum,
Heydən düşdü qıçım, qolum,yoruldum.
Xırmanımda şanalandım, sovruldum,
Sünbültək döyüldüm vəlimim altda.
Bezdik bu «keçid»dən, bu «atəşkəs»dən,
Çoxu bu davanı uzadır qəsdən.
Xalqıma çəkdilər dağı dağ üstdən,
Qaldıq əsarətin, zülümün altda.
Binnətəm, sızlayıb, yaram qan verir,
Halsızam, bilmirəm haram qan verir.
Cismim əzab çəkir, canım can verir
Canıma daraşan zəlinin altda.

29.05.1992

Çöllər, başınıza dolanım sizin

A dərin dərələr, sərin yaylaqlar,
Turaclı yamaclar, qartallı dağlar,
Ceyranlı, cüyürlü düzlər, oylaqlar,
Bir də qoynunuza yollanam sizin.
İçəm bulaqların buzlu gözündən,
Lalənin, nərgizin öpəm üzündən,
Zövq alam yurdumun hər bir düzündən,
Çöllər, başınıza dolanam sizin.
Gəzəm qoynunuzda, zümrüd meşələr,
Seyrangahım ola dilbər guşələr.
Ətirli çiçəklər, tər bənövşələr,
Hüsnünüzə heyran olanam sizin.
Binnətəm, sonasız olmasın göllər,
Ötsün bağçalarda şeyda bülbüllər.
Axşam ətrinizdən məst olum, güllər,
Səhər şehinizə bulanım sizin.

www.kitabxana.net

29.11.2010

Vətən

Vətən, sən anasan, mən sənə bala,
Övlada hədsizdir ülfətin sənin.
Günəştək yayılıb Şərqə, Şimala
Anam-Azərbaycan, şöhrətin sənin.
Mənə ilham verir baharın- yazın,
Hüsnünə bəzəksən qoca Qafqazın.
Qoynunda birləşib Kürün, Arazın,
Bax elə birləşə millətin sənin.
Ayrılıq olmaya, həsrət olmaya,
Bu tayın o taya həsrət qalmaya.
Binnətəm, canımı həsrət almaya,
Mənə şəfa verə şəfqətin sənin.

18.03.1961

Sənin ayrılığın

Sənin ayrılığın mənə məhşərdir,
Görüşün Kəbəni ziyarətimdir.
Hicranın qəlbimə qəmdir, qəhərdir,
Vüsalın bayramım, ziyafətimdir.
Mən səni görəndə xoşbəxtəm, şadam,
Səni görməyəndə şadlığa yadam.
Sənlə hər dərddən, qəmdən azadam,
Sənsizlik əzabım, əziyyətimdir.
Bəsdir həsrətindən çəkdiyim zülm,
Dərd qoyma dərdimin üstünə, gülüm,
Hürü camalına vurulan könlüm
Yanında bir kiçik əmanətimdir.
Sındırsan könlümü bir şüşə kimi,
Boynuburuq qallam bənövşə kimi.

www.kitabxana.net
Xəstəyəm, dərdimin sənsən həkimi,
Məni xəstə edən, gül, həsrətindir.
Bir insaf, mərhəmət yoxdurmu səndə?
Sormursan halımı məni görəndə?
Binnətəm, xoşbəxtəm səni görəndə,
Səni görməyəndə qiyamətimdir.

12.08.1962

Sadağa versən

Canımı canına qurban edərəm,
Nazına bir azca qadağa versən.
Vəsfini bir böyük dastan edərəm,
İşvənə, qəmzənə hadağa versən.
A Leylim, eşqinlə Məcnun olaram,
Züleyxam, Yusiftək qulun olaram.
Sənə xəta gəlsə, məmnun olaram-
Məni itələyib, qabağa versən.
Qal, - desən, əzizim, yanında qallam,
Al, - desən, qadası, qadanı allam.
Dolanıb başına sadağa ollam,
Binnətə bir busə sadağa versən.

14.06.1967

Dağların

Təpələr çəkəmməz dağlar çəkəni,
Anlamaz dərdini naşı dağların.
Azalmır başının dumanı, çəni,
Açılmır qabağı-qaşı dağların.
Zirvəsini payız duman bürüyür,
Yazda yağış, dolu, qışda qar döyür.
Yağı tapdağında yay qara geyir,

www.kitabxana.net

Yas tutur torpağı-daşı dağların.
Saralır qoynunda zümrüd meşələr,
Solur yaxasında tər bənövşələr.
Hanı o gördüyüm dilbər guşələr?
Yaxşı vaxtı vardı yaxşı dağların.
Çoxdandır qoynuna köçməyir ellər,
Qopub tufan, boran, bəd əsir yellər.
Dərdli sinəsini oyduqca sellər,
Car olur gözünün yaşı dağların.
Bir günü keçməyir qansız-qovğasız,
Başı qalmaqalsız, dava-şavasız,
Qonaqsız-qarasız, elsiz-obasız
Ağır keçir yayı, qışı dağların.
Həsrəti Binnəti yandırır-yaxır,
Bəlalı başında ildırım çaxır.
On ildir gözündən qanlı yaş axır,
Qovğadan açılmır başı dağların.

06.06.1998

Bicə, gicə inandım

Həyatımı didir, əlçim eləyir,
Əyirir zamanın cəhrəsi hələ.
Zülmə bax, bağ salıb, cəfa çəkirəm,
Yada qismət olur bəhrəsi hələ.
Köçüm köç etməyir dağa arandan,
Dağım ayazımır qardan, borandan.
Ayıra bilməyir yağı ayrandan,
Naşı başçıların nəhrəsi hələ.
Haramılar, divlər kəsib yolumu,
Bağlayıblar ayağımı, qolumu.
Dörd ildir ki, çəpərimi, kolumu
Qırır dığaların dəhrəsi hələ.
Azalmır könlümün qəmi, qübarı,

www.kitabxana.net
Dərdli dağlarımın ərimir qarı.
Talanır bağçamın, bağımın barı,
Qırılır budağı, pöhrəsi hələ.

www.kitabxana.net
Yüz dərdə düşürəm hər addım başı,
Tökülür başıma hər dərdin daşı.
Yaxır yanağımı gözümün yaşı,
Göynəyir gözümün giləsi hələ.
Ahım tüstü kimi ərşə diərndi,
"Xoz"lar viran qoydu şəhəri, kəndi.
Qaçqınlar, köçkünlər pərən-pərəndi,
Qalxır çadırlardan naləsi hələ.
Mən Binnətəm, Şuşa kimi talandım,
Xocalıtək yandım, oda qalandım.
Gic ayıya, bic tülküyə inandım,
Baş tutur onların kələyi hələ.

16.03.1992

Ay baba

Yaz gəlir,əriyir dağların qarı,
Ərimir canımın qarı, ay baba.
Yenə güllər açır, dərdli könlümün
Çiçək açmır çəmənzarı, ay baba.
Quzeydən üstümə kədər, dərd əsir,
Ehtiyac hər səhər qapımı kəsir.
Yurduma gün doğmur, hələ bəd əsir,
Şimalın sərt, bəd rüzgarı, ay baba.
Dərdlərimi deyəmmirəm dilimlə,
Vərəqlərə yazammıram əlimlə.
Ayırdılar zalımlıqla, zülümlə
Eldən-eli, yardan-yarı, ay baba.
Yağı bizi ilan kimi çalıbdır,
Qova-qova pərən-pərən salıbdır.
Ələsgərlə Alı, Şəmşir qalıbdır
Qəriblikdə, bizdən ayrı, ay baba.
Arxalı köpəklər susadı qana,
Qənim kəsildilər Azərbaycana,
İblislər yuvası Ermənistana

www.kitabxana.net
Niyə daş yağdırmır tanrı, ay baba?
Nöş nankora evimizdə yer verdik,
Ayağı altına xalı da sərdik,
"A kirvəcan" – deyib başa keçirdik,
Bədnam, bədxah Vartazarı, ay baba?
Binnətəm, sinəmə çəkdilər dağlar,
Görsə əhvalımı yad da qan ağlar.
Talanır əlimlə saldığım bağılar,
Yada qismət olur barı, ay baba.

17.03.1991

Bu axşam

(Aşıq Nemətin yaradıcılıq gecəsində salfetkaya yazdım, məclisdə oxudum)

Aşığın avazı, sazın nəvası,
Şəkərdi, şərbətdi, baldı bu axşam.
Rəssam xəyalımı, şair könlümü
Oxşayıb tilsimə saldı bu axşam.
Sizə heyran-heyran mən qulaq asıb,
Hamınızı öpürəm, bağrıma basıb.
Alimlər, şairlər, natiqlər susub,
Nadanlar danışmır, laldı bu axşam.
Əllər elə gəzdi tellərin üstdə,
Sanki bülbül ötdü güllərim üstdə.
Sənət meydanında – bu bəsəbəsdə
Hər kəs qiymətini aldı bu axşam.
Ya Rəbb! Gördüklərim yoxsa yuxudu?!
Pərdələrdə simlər xalı toxudu.
Nemət elə gözəl çaldı, oxudu,
Ona hamı heyran qaldı bu axşam.
Qoy var olsun bu saz, bu söz sənəti,
Sazdır, sözdür məftun edən Binnəti.
Sehrləyib valeh etdi milləti,

www.kitabxana.net
Nübar elə gözəl çaldı bu axşam.

11.03.2006

Yaranıbdır

Hüsnünə heyrandır Ay da, Ülkər də,
Camalın günəşə tay yaranıbdır.
Gözəl, hər kirpiyn oxu mat eylər,
Qaşların ən kamil yay yaranıbdır.
Bilmirsən halımı, ay el gözəli,
Sənə vurulalı, səni sevəli,
Gözümün yaşından gur şəlaləli
Dünyada bir yeni çay yaranıbdır.
Anlamaz naşılar, duyar duyuqlar,
Eşqin zirvəsində qar var, soyuq var.
Eşqdən pay ummasın qəlbi soyuqlar,
Məhəbbət Binnətə pay yaranıbdır.

13.07.2007

Nə yaxşı çəkib

Söz tapa bilmirəm vəsf edəm səni
Hüsnünü qüdrətin nəqqaşı çəkib.
Yaradan zövq ilə rəsm edib səni,
Nə gözəl yaradıb, nə yaxşı çəkib.
Əhsən hikmətinə, pür kamalına,
Səni xəlq edənin cah-calalına!
Hamını mat qoyub mah camalına,
Sənə ən füsunkar göz-qaşı çəkib.
Yaradıb ən kamil, ən canlı əsər,
Tayın-bərabərin yoxdur, müxtəsər.
Rafael də çəksə şəklini əgər,
Deyərlər:-Bu şəkli bir naşı çəkib.
Əli yaradanın sehr, fənd edib,
Eli camalına əsir, bənd edib.

www.kitabxana.net
Alı dodağına şəkər, qənd edib,
Xalı yanağında yanaşı çəkib.

www.kitabxana.net
Səni gözəllikdən var edən kişi
Sərində cəm edib kamalı, huşu.
Duruşunu sənəm, hürü duruşu,
Baxışını mələk baxışı çəkib.
Səni sevənlərin qalmayıb sağı,
Sənə məftunlara olubsan yağı.
Sən öz aşiqinə çəkdiyin dağı
Nə Züleyxa çəkib, nə Yaxşı çəkib.
Əl açdım, dərdimə etmədin çara,
Naz etdin, günümü elədin qara.
Sən öyün, el bilsin, Binnəti dara
İlahi hüsnünün fərraşı çəkib.

14.12.1965

De daha

Dostum, üzə - başa qırov düşübsə,
"Qocayam", "saqqalı çalam", de daha.
İtaət et arvad - uşaq nə desə,
"Məsləhət sənindir, balam",- de daha.
Nadana göstərdin yolun düzünü,
Məsləhət etməkdən üzdün özünü.
Nadürüstlər eşitmirsə sözünü,
Nə yol göstər, nə xoş kəlam de daha.
Cavab vermə, arvad sənə söysə də,
Xətrinə gündə yüz yol dəysə də.
Tutub saqqalından, yıxıb döysə də,
Yalvar-yaxar, "qadan allam", de daha.
Söz demə sözünü eşitməyənə,
Nadana, naşıya, səyin-səyinə.
Evdə, çöldə sənlə yol getməyənə
Yoldaş olma, "xəstə halam", de daha.
Arvad-uşaq səni saya salmırsa,
Qəm libası geyib, batmaynan yasa.

www.kitabxana.net
Biri sənin salamını almırsa,
Nə yaxınlaş, nə də "Salam" de daha.
Hərə bildiyini etsin, danışma,
Evdə qayda yaratmağa çalışma.
Binnətə qulaq as, sözə qarışma,
"Siz bilərsiz, karam, lalam", de daha.

07.03.1991

El dərdi, həsrəti.

Sinəmi şum etdi, dövran dərd əkdi,
Çəkdirdi gah aran, gah da dağ dərdi.
El həsrəti çəkdim, el dərdi çəkdim,
Çıxdı yaddaşımdan, bağça-bağ dərdi.
El həsrəti, dərdi məni kövrəltdi,
El dərdi, qeyrəti çəkməyə öyrətdi.
Hər gün məni sızıldatdı, göynətdi
Savalan həsrəti, Qaradağ dərdi.
Hicran dağı uca dağdan böyükdür,
Ağır dərddir, çəkilməyən bir yükdür.
Babadağdan, Qocadağdan böyükdür
Borçalı, Zəngəzur, Qarabağ dərdi.
İrəvan Yerevan olub nə vaxtdır,
Təbriz, Dərbənd ayrı düşüb, uzaqdır.
Gözümdə niskindir, sinəmdə dağdır
Kəlbəcər yaylağı, Dəlidağ dərdi.
Yurdlarımız qalıb yağıya-yada,
Yoxdur bir Xətayi yetişə dada.
Binnətəm, günahım nədir dünyada,
Bağımın barını hər alçaq dərdi?

05.08.1992

www.kitabxana.net

Sən varsan ölməyəcəyəm

Sənin həsrətinə son qoyub, canan,
Yanına əliboş gəlməyəcəyəm.
Gülüm,sən sevinib, gülsən də hər an,
Mən sənə çatmamış gülməyəcəyəm.
Sənə yetəcəyim sabaha alqış,
Əzizim, keçsə də neçə bahar, qış,
Bütün aləm bilsin, sənə çatmamış
Həyatda rahatlıq bilməyəcəyəm.
Unutma əhdini sən də yaxşımı,
Atmasınlar bizə tənə daşını.
Sənin həsrətinlə axan yaşımı
Sən dəsmal verməsən, silməyəcəyəm.
Məhəbbətlə ömür sürək başatan,
Sadiq ol, Binnətə rəhm etsin atan.
Sənin pak eşqindir məni yaşadan
Neçə ki, sən varsan ölməyəcəyəm.

27.02.1962

Üstə

Güləndam, Xaliqin zövqünə əhsən!
Sənə bəzək vurub bəzəyin üstə.
Qoy görüm pərisən, yoxsa mələksən,
Tökmə zülflərini üzünün üstə.
Bəlkə behiştdə də olmaz bənzərin,
Camalın gözəldir, kamalın dərin.
Sözün məzəlidir, söhbətin şirin,
Kim söz deyə bilər sözünün üstə.
Haqq səni yaradıb deyib-gülməyə,
Şuxluq, gözəllik də verib hədiyyə.
Gözünə bəd nəzər dəyməsin deyə,

www.kitabxana.net
Tez-tez telin düşür gözünün üstə.
Sənə Fərhad kimi hər kim vurulsa,
Dələr yüz Bisütun kimi dağ olsa.
Sənə səcdə qılar Məcnun sağ olsa,
Diz çökər, baş əyər izinin üstə.
Nazın oxlarıyla tökmə qanımı,
Baxışınla yıxma xanimanımı.
Binnətəm, zülm etmə, tez al canımı,
Baş qoyum, can verən dizinin üstə.

15.02.2007

Səndən ayrı

Gecəm aya dönür, gündüzüm ilə,
Günüm bir gün deyil, yar, səndən ayrı.
Bağçamda baxmıram çiçəyə, gülə,
Bağımda dərmirəm bar səndən ayrı.
Sənsiz nə yayım yay, nə yazım yazdır,
Nə könlüm açılır, nə kefim sazdır.
Yastığım sırsıra, döşəyim buzdur,
Yorğanım olubdur qar səndən ayrı.
Dərdlərimi yazsam, yanar varaqlar,
Əhvalımı yazan qələm qan ağlar.
Həsrətin çəkibdir sinəmə dağlar,
Dolub köynəyimə qor səndən ayrı.
A məni odlara yandırıb-yaxan,
Çıramı söndürüb, evimi yıxan,
Bil ki, sən gedəli bu geniş cahan
Olubdur başıma dar, səndən ayrı.
İnsaf et, Binnəti az sınağa çək,
Əyib qamətimi eləmə nuntək.
Eşqinlə düşərəm çölə Məcnuntək,
Olaram aləmdə xar səndən ayrı.

22.09.1976

www.kitabxana.net

Sonra ayrıl

Bir azca tələsmə, a canalanım,
Bir az da könlümü al, sonra ayrıl
Bir azca başına dönüm-dolanım,
Bir az da yanımda qal, sonra ayrıl.
Bir azca yada sal olub-keçəni,
Bir az da danış, gül, dinləyim səni.
Bir az azca ovundur bu dərd çəkəni,
Bir az da qəmxarım ol, sonra ayrıl.
Bir azca bəyan et günahım nədi,
Bir az da unutma ilqarı, əhdi.
Bir azca Binnətə verdiyin vədi
Bir az da yadına sal, sonra ayrıl.

06.11.1964

Gəncə

Hər an can atıram ziyarətinə,
Həsrətəm hüsnünə nə vaxtdı, Gəncə.
Vurğunam füsunkar təbiətinə,
Torpağın ruzulu torpaqdı, Gəncə.
Burda danışdırsan hər ağsaqqalı,
Şirin söhbətiylə dindirər lalı.
Qızın Məhsətitək müdrik, həyalı,
Oğlun Cavad xantək qoçaqdı, Gəncə.
Qucağı gülüstan, qoynu gülşənsən,
Azadsan, abadsan, xoşbəxtsən, şənsən.
Fəxrilə deyirəm:-Əbədi sənsən
Şeirin məbədi, paytaxtı, Gəncə.
Neçə yol zor ilə adın dəyişdi,
Neçə yol azğınlar üstünə düşdü,

www.kitabxana.net
Neçə yol qansızlar qanını içdi,
Neçə yol sinəndə qan axdı, Gəncə.
Yenə əyilmədin, qəhrəman şəhər,
Hər qanlı savaşdan çıxdın müzəffər.
Səndən ilham alıb hər axşam-səhər,
Nizami dastanlar yaratdı, Gəncə.
Şair burda köçdü haqq dərgahına,
Şahlar da baş əyir səcdəgahına.
Şeirin nəbisinə, şahəngahına
Mərmərdən məqbərə ucaltdı Gəncə.
Sənə qonaq gələn dərdi unudur.
Havan abi-həyat, suyun saf sudur.
Gündüzün şəfəqli, gecən nurludur,
Sabahın işıqlı sabahdı, Gəncə.
Gəzsələr dünyanı, tapılmaz tayın,
Öz gözəlliyi var burda hər ayın.
Təmtaraqlı olur novruzun, mayın,
Füsünkar olursan yaz vaxtı, Gəncə.
Bakı al şəfəqdir günəşdoğana.
Odlar Ölkəsinə Təbrizdir ana.
Binnət, Türküstana, Azərbaycana
Günəşdir, mayakdır, çıraqdı Gəncə.

28.09.2011

Tovuzda

Yurdumdur, yerimdir, asimanımdır,
Məni xəlq eləyib xilqət Tovuzda.
Anam, atam kimi mehribanımdır.
Görmüşəm xoş qılıq, ülfət Tovuzda.
Bir yanı arandır, bir yanı yaylaq
Qucağı gülşəndir, qoynu-bağça-bağ,
Qapısını açan hər yad, hər qonaq.
Görər qayğı, hörmət, izzət Tovuzda.
Canımdan əzizdir hər qarış yeri,

www.kitabxana.net
Şəfa-şəfakardır ocağı, piri.
Aşığın, avazı, şairin şeiri
Alıbdır hüsnündən qüdrət Tovuzda.
Mən onu Mədinəm, Məkkəm bilirəm,
Ondan gen düşəndə qüssələnirəm.
Onunla sevinib, deyib - gülürəm,
Könlümə yol tapmaz möhnət Tovuzda.
Gözümdür, qəlbimdir mənim bu diyar,
Vuruldum hüsnünə, oldum bəxtiyar.
Harda Binnət varsa, orda Tovuz var,
Ruhum məskən salıb cənnət Tovuzda.

15.06.1965

Tovuzda

Gözümün nurudur, canımın ruhu
Könlüm ilhamını alıb Tovuzda.
Həsrətindən getmir gözümə yuxu.
Şirin röyalarım qalıb Tovuzda.
Düşüb elim-obam yadıma yenə,
Məftunam yurdumun gözəlliyinə.
Nənəm yun şalını bürüyüb mənə,
Anam mənə layla çalıb Tovuzda.
Sevirəm deməyib hər gül üzlüyə,
Hər süzgün baxışlı, xumar gözlüyə.
Bir şirin gülüşlü, şəkər sözlüyə
Binnət öz meylini salıb Tovuzda.

02.03.1968

Fikrim, Xəyalım

Fikrim ceyran gəzir Ceyran çölündə,
Xəyalım Kəlbəcər yaylağındadır.

www.kitabxana.net
Huşum huşa gedib Maral gölündə,
Xallı maralların oylağındadır.
Xəyal nə sədd bilir, nə sərhəd bilir,
Nə hüdud tanıyır, nə də həddbilir,
Azaddır, nə kədər, nə də dərd bilir,
Daim öz kefində, damağındadır.
Xəyaldır həyata bizi bağlayan;
Arzulardır insanları saxlayan,
Məhəbbətlə sevib, coşub-çağlayan,
Sevən sevdiyinin sorağındadır.
Şair katibidir eşqin, həvəsin.
İlhamdan payı yox sevməyən kəsin.
Sehri, cazibəsi sevilən kəsin
Üzündə, gözündə, dodağındadır.
Binnətin qarışıb fikri, xəyalı,
Gülünc görünməsin xalqa bu halı.
Çoxdan ağarsa da saçı, saqqalı,
Hələ eşq oduna yanmağındadır.

21.07.2008

Üstə

Sənə bircə kəlmə acı söz desəm,
Gülüm, bir şillə vur ağzımın üstə.
Dilimdən dara çək xətrinə dəysəm,
Ya xətrinə dəyən sözümün üstə.
Sənin kimi dosta, yara, qonağa,
Sinəm payəndazdır, sərim sadağa.
Gəl duraq üz-üzə, qabaq-qabağa
Qoy o gül üzünü, üzümün üstə.
Dilimin əzbəri, a boyu bəstə,
Həsrətin Binnəti eləyər xəstə.
Mən səni saxlaram gözümün üstə,
Desən:-Başını qoy dizimin üstə.

www.kitabxana.net

18.04.1964

www.kitabxana.net

...Bir gözəllə

Könül açan bağ-bağçaya, çəmənə,
Gələndə də bir gözəllə gələsən.
Bəxtinə yar ola, gərdiş, zəmanə,
Güləndə də bir gözəllə güləsən.
Çəkməyəsən Vətən, yar həsrətini,
Çəkəsən dünyanın hər ləzzətini.
Eşqin, məhəbbətin səadətini
Böləndə də bir gözəllə bölәsən.
Yayda köç edəsən sərin yaylağa-
Yaylaq səfasından ilham almağa.
Əl üşüdən, diş göynədən bulağa
Enəndə də bir gözəllə enəsən.
Üstünə yağmaya həsrətin qarı,
Bir an olmayasan elindən ayrı.
Könlündən kədəri, dərdi, qubarı
Siləndə də bir gözəllə siləsən.
Sevəsən gözəlin əlasını da,
Naz edib, canını almasını da.
Ay Binnət,həyatın mənasını da
Biləndə də bir gözələ biləsən.

01.02.2012

Tovuz

Yaradan nə gözəl yaradıb səni,
Heyrandır hüsnünə baxanlar,Tovuz.
Yaxşı ad qazanar,şan-şöhrət tapar
Qoynundan səfərə çıxanlar,Tovuz.
Tanrı üst yanını dağ eləyibdir,
Alt yanını bağça bağ eləyibdir.
Hər yerdə üzünü ağ eləyibdir

www.kitabxana.net
Gah Mirzə,gah Əkbər,gah Xanlar,Tovuz.

www.kitabxana.net
Saz-söz meydanında sınağın olur,
Ağır toyun-şanın,yığnağın olur.
Aylarla ən əziz qonağın olur
Sənə qəlbi,könlü yaxınlar,Tovuz.
Qızın yolçuları yoldan eləyir,
Oğlun məclis qurub,mehman eləyir.
Pirinə sığınıb, şəfa diləyir
Qəlbini qəm-qüssə sıxanlar,Tovuz.
Torpağın Binnətə candan əzizdir,
Suyun abi həyatdır, havan təmizdir.
Qənirədir, Qəzənfərdir, Ramizdir
Yolunda çıraq tək yananlar Tovuz.

23.11.2000

Hələ var

Tezdir,qocalıqdan gileylənmə çox,
Lalə yanağının alı hələ var.
Gülzar həsrət çəkir gül üzarına,
Hüsnünün gülüstan halı hələ var.
A bizim ellərin yorğun maralı,
Həsrətin çəkənlər solu,saralı.
Cavanlar gəzsə də, səndən aralı,
Sənə məftunların çalı hələ var.
Vaxtdan gileylənib, qınama yaşı,
Allah gözəl verib sənə göz-qaşı.
Ala gözlərinin xumar baxışı,
Əhməri ləbinin balı hələ var.
Gözəlin hər yaşda əzizdir xətri,
Sənə layiq ola şeirin hər sətri.
İsti qucağının çəmənzar ətri,

www.kitabxana.net
Bəyaz buxağının xalı hələ var.

www.kitabxana.net
Söhbətin şirindir,sözün məzəli,
Səni gözəl edib Haqqın öz əli.
Sənə rast olalı olmayıb dəli,
Nə yaxşı Binnətin ağlı hələ var.

12.06.1987

Vətəndaş olaq

Zalım ağzımıza daş basır hələ,
Istəyir dinməyək,susaq,daş olaq.
Bədxah nadanlığa sürüyür bizi,
Çalışır bilməyək,danabaş olaq.
Danışığı böhtan,sözü yalandır,
Dili ilan dili,özü ilandır.
İlan oğlu ilan bizi çalandır,
İlanın başına gəlin daş salaq.
Binnətəm,xunxarlar susayıb qana,
Yağı yaranıblar Azərbaycana.
Qaçıb gizlənməsin hərə bir yana,
Gəlin,bu vətənə vətəndaş olaq!

14.03.1990

Dərdə bax dərdə

Ahım sənə çatmaz,kardır qulağın,
Ay fələk,halıma yerdə bax,yerdə.
Bəşərin qəlbinə çəkdiyin dağa
Toyda yox,şanda yox,şərdə bax,şərdə.
Bir fərq qoymayırsan yaxşıya,pisə,
Qızılı bərabər tutursan misə.
Mələk səcdə qılır divə,iblisə.
Namərdə baş əyən mərdə bax,mərdə.
Mənlə elədiyin gizli döyüşdü,
Dərdimi yazmaqdan əlim üyüşdü.
Bicə şeş-beş,mənə iki-bir düşdü,

www.kitabxana.net

Düzəltdiyin zərə,nərdə bax,nərdə.
Oğrular mərmərdən saraylar yapır,
Doğrular çörəyə güclə pul tapır,
Tox acı, ac toxu quduztək qapır,
Düçar olduğumuz dərdə bax,dərdə.
Nə şərə yarıyır, nədə ki, xeyrə
Özündən böyüyə pay verə - verə,
Yaltağın aldığı, rütbəyə, yerə,
Mülkünə, sürdüyü “Ford”a bax, “Ford”a
Halımızdan halı olanlar azdır,
Nadanlar coxalıb,qananlar azdır.
Millətin oduna yananlar azdır,
Başsız başçılara bir də bax,bir də.
Cahil başa keçir,alimə yer yox,
Maarifə,məktəbə,təlimə yer yox.
Yaşamağa yer yox,ölümə yer yox,
Yağılara qalan yurda bax, yurda.
Qanımı axıdıb yaşımı silən,
Gözümü çıxarıb, üzümə gülən,
Dünən düşmən, bu gün dost kimi gələn
Neftimə susayan lorda bax,lorda.
Elə başçı oldu bambılı, səmə,
Namərdlər mərdlərə qurdu məhkəmə.
Qaçqınlar çəkdiyi zülmə, sitəmə
Baş çək çadırlara, orda bax, orda
Tülkü həccə gedir, mömindir guya,
Nə ola toyuqlar hiyləni duya.
Dəyişib donunu, qoyun-quzuya
Çobanlıq eləyən qurda bax,qurda.
Binnətə çəkirlər dağı dağ üstdən,
Gözü açılmayır dumandan,sisdən.
Ayıra bilməyir yaxşını pisdən
Müfəttişlik edir, “xər”də bax, “xər”də

18 may 1992

www.kitabxana.net

Dünya

Zülmünü səpməyə şum axtarırsan,
Qoş əzab cütünü,ək məni,dünya!
Mənimtək cəfakeş çətin taparsan,
Sına, sınağına çək məni, dünya!
Haqsız işlərinə şahidsən özün,
Qəsdinə dursan doğrunun, düzün.
Yanaram qoynunda ocağın, közün
Demərəm: – Qırağa çək məni, dünya.
Yox et aramızdan fitnəni, feli,
Bir kimsə olmasın səndən gileyli.
Zülmün alovunda yandırma eli,
Yandırırsan, yandır tək məni,dünya!
İmanı, Müşfiqi gizlədin harda,
Daşqına dağ basdın daş zindanlarda.
Yerindən, yurdundan şaxtada, qarda
Didərgin elədin Bəhməni,dünya.
Səndən gileylidir, görsən hər kimi,
Gəzirəm dərdindən dərdəcər kimi.
Binnətəm, odunda səməndər kimi
Yanıram,söndürməz şeh məni dünya.

26.08.1972

Dünyanın

Yaxşı günü şadlıq, sevinc, fərəhdi,
Yaman günü ahuzardı dünyanın.
Məzlumlar becərdi, zalımlar yedi,
Zəlilər qanını sordu dünyanın.
Haqq göyə çəkilib, ədalət ərşə,
Kimi kədər çəkir, kimi də nəşə.
Oğrular, quldurlar qoyulur işə,

www.kitabxana.net

Sürüyə çobandı qurdu dünyanın.
Rüşvətsiz, bəxşişsiz bir iş düzəlmir,
Pulgir, müfəttişsiz bir iş düzəlmir.
Düzgün işləyənin işi düz gəlmir,
Ədalət gəzəni xardı dünyanın.
Hər kəsə böyükdür özünün dərdi,
Həyat kimə sevinc, kimə kədərdi.
Hamı can deyərdi, can eşidərdi,
Qayğısız günləri vardı dünyanın.
Ara qarışıbdır, işlər düz getmir,
Şah gədəni, gədə şahı eşitmir.
Fəryadı, fəğanı, ahı eşitmir
Elə bil qulağı kardı dünyanın.
Gül-çiçək açılmır bu necə yazdır?
Borandır,şaxtadır,qardır,ayazdır.
Yüz il daş daşısa,zəhmət yormazdı,
Binnəti dərdləri yordu dünyanın.

27.04.1989

R Ü B A İ L Ə R

(Ömər Xəyyama parodiyalar, nəzirələr, bənzətmələr)

1. Bu dünya bir qonaq evidir,hərə
Bu qonaq evində qalar bir kərə.
Bu mehmanxanada ikinci dəfə
Yer yoxdur nə şaha,nə də nökərə

2. İnləyən ney deyil,səsimdir mənim,
Naləli bülbüllə bəhsimdir mənim.
Yetiş hər arzuna,hər istəyinə,
Nə dərd rəva görsən, bəsimdir mənim.

3. Yalqızam,sirdaşım-kədər,qəm,ələm,
Bir vərəq kağızdır,bir qara qələm.

www.kitabxana.net
Hicran xəstəsiyəm,nə baş çəkirsən,
Nə məndə taqət var yanına gələm.

4. Arxanca uçmağa şahpərim yoxdur,
Nə varım,nə pulum,nə zərim yoxdur.
Mən səni görəli elə sərməstəm,
Özümün-özümdən xəbərim yoxdur.

5. Nə mey düşündürür, nə məzə məni,
Gündə bir dərd tapır təptəzə məni.
Dərdimə loğmanlar çarə tapmadı,
Göstərməyin hər dərdbilməzə məni.

6. Gülü budağından dərib qoxuma,
Zərifdir,incədir gülə toxunma.
Sağ ikən qeydimə qalmadın mənim,
Öləndə üstümdə ağı oxuma.

7. Əzabxana dünya,qəmxana dünya,
Binnəti doydurdun sən cana, dünya.
Nadana var-dövlət,taxt-tac,verirsən,
Dərd - bəla verirsən qanana,dünya.

8. Qalmayıb Süleyman mülkü dünyaya,
İnanma hiyləgər,tülkü dünyaya.
Bilsəydi bu dünya əzabxanadır,
Çoxları gəlməzdi bil ki,dünyaya.

9. Sevgilim, heyranam, məftunam sənə,
Ilham ver həm səhər, həm axşam mənə.
Mən sənin hüsnünün pərvanəsiyəm,
Nə çıraq lazımdır, nə də şam mənə.

10. Hər namə, hər şeir qəlbin səsidir,
Hər nəğmə könüllər tərənəsidir.
Eşqsiz, məhəbbətsiz, duyğusuz ürək
Soyuq viranələr viranəsidir.

11. Ulaq çəkə bilməz filin yükünü,
Şir bircə zərbəylə əzər tülkünü.
Yüz nadan yığılsa, anlamaz, duymaz,
Coşqun bir şairin qəlbindəkini.

12. Dünya müəmmadır, tilsimdir, sirdir,

www.kitabxana.net

Onun əzabına dözənlər şirdir.
Halım pərişandır, əzizim, sənsiz
Sevincim birdirsə, qəmim minbirdir.

13. Xəstənin fəryadı əridər daşı,
Dərmanı saxtasa, həkimi naşı...
Ədalət,azadlıq, birlik gəzirəm,
Tapmıram, car olur gözümün yaşı.

14. Meyvəli ağaca atarlar daşı,
Bilməz qiymətini gövhərin naşı.
Inanma hər dostun etibarına,
Pul üçün öldürər qardaş-qardaşı.

15. Dövran çox aşığın qırdı sazını,
Qoydu gözlərində şirin arzunu.
Yazıya- pozu yox, demiş atalar,
Pozmaq olmaz fələk yazan yazını.

16. Sevənlər dözərlər hicran dağına,
Eşqin əzabına, yar fərağına.
Bir qüssə, bir nisgil, bir həsrət çatmaz
Sevən aşiqlərin ayrılığına.

17. Döz, ey taleyindən gileylənən kəs,
Etdiyin ah - nalə əbəsdir- əbəs.
Fələyə çatsa da ahın, fəryadın,
Kor bəxtin yatıbsa, səni eşitməz.

18. Binnət, düzlük gəzmə, bilmirsən məgər,
Hər yerdə güc, rüşvət qanunu əyər.
Qara daş sındırar büllur güldanı,
Dəmir çəkic ilə əzilər gövhər.

19. Eşqindir ağlımı alt-üst eləyən,
Baxışındır məni sərməst eləyən.
Sənin vüsalındır davam-dərmanım,
A məni sağalmaz xəstə eləyən.

20. Hər şey əfsanədir eşq olan yerdə,
Eşqdən yaranıb bu göy də, yer də.
Bir dəfə düşmüşəm eşqin oduna,
Hazıram düşməyə o, oda bir də.

www.kitabxana.net

21. Məni sevməsə də, sevsə də canan,
Onsuz yaşamaram həyatda bir an.
Bu fani dünyadan ölüb gedərdim,
Onu sevməyimdir məni yaşadan.

22. Məndən uzaqlarda olsa da canan,
Qəlbimdədir onun məkanı hər an.
Özünü unudar, yolunu azar,
Sevən sevdiyini unutmaz bir an.

23. Eşq oduna düşən yanar Kərəmtək,
Quru bir budaqdır, sevgisiz ürək.
Əsil eşq, məhəbbət yarımçıq olmaz,
Ya eşqə fəda ol, ya eşqdən əl çək.

24. Hardasan, canımı aldı intizar?
Sənsiz bu gen dünya mənə oldu dar.
Gəl qurtar həsrətin zülmündən məni,
Hicrana nə səbrim, nə də tabım var.

25. Simsiz bir kamandr sevgisiz ürək,
Söndürəmməz eşqin odunu fələk.
Ya yarın eşqiylə bir hünər göstər,
Ya da aşiqlikdən bir yolluq əl çək.

26. Evim cənnət olur hər sən gələndə,
Sən də şad olursan, əzizim, mən də.
Sanıram dünyanın ən xoşbəxtiyəm,
Hər sənə qovuşub, deyib-güləndə.

27. Hoqqabaz fələyin fitnəsi, feli,
Kimi xəstə etdi, kimi də dəli.
Sirli, müəmmalı qoca dünyanın,
Nə sonu bilinir, nə də əvvəli.

28. Dilimi ağzımda dustaq etmişəm,
Ona danışmağı yasaq etmişəm.
Üzü bər-bəzəkli, qarı dünyaya,
Aldanıb, könlümü müştaq etmişəm.

29. Ölüm çox ucuzdur, həyat bahadır,
Dünyanın qarnı ac, ağzı kahadır.
Udar, yer üzündən yox edər səni,

www.kitabxana.net
Cahan adam udan bir əjdahadır.

30. Həsədimi çəkən riyakar divlər,
Yanıma dost kimi gəlib-gedirlər.
Evimdə üzümə gülürlər. Çöldə
Hamıya haqqımda qeybət edirlər.

31. Yeyib öz süfrəmin töküntüsünü,
Qənimət saymıram yad tikəsini.
Bu gün yaltaqlanıb, qab yalayanlar,
Sabah qabsız qoyar qab yiyəsini.

32. Dünyaya gələli səadət gəzdik
Ağ gün, firavanlıq, var-dövlət gəzdik.
Bilsəydik bu dünya əzabxanadır
Bu dərdli dünyaya qəti gəlməzdik.

33. Ağlaya-ağlaya gəldik cahana,
Ağlaşma yeriymiş bu əzabxana.
Ağlaya-ağlaya yola salarlar
Bir gün Binnəti də məzaristana.

34. Tez-tez gəl, yerin var gözümün üstə,
Dara çək bir yersiz sözümün üstə.
Barı, son nəfəsdə izin ver gəlim,
Baş qoyum, can verim dizinin üstə.

35. Ölüm şərbətini içəcək hamı,
Bu fani dünyadan köçəcək hamı.
Sonu xarabadır, hər bir sarayın
Sönəcək ocağı, keçəcək şamı.

36. Həsrətindir məni eləyən xəstə,
Hicrindir dərd qoyan dərdimin üstə.
Ilk görüşə vədə verdin, gəlmədin,
Barı, son görüşə gəl son nəfəsdə.

37. Etibarsız dünyada yoxdur vəfadan nişan,
Hiyləgər bir afətdir, geyinibdir zərnişan.
Inanma bu ilqarsız, sədaqətsiz cahana,
Inansan aldadacaq, olacaqsan pərişan.

38. Fələk İblislə əlbirdir, qəzadır, şərdir işi,
Zillət üstə zillət yağır, tərsdir çərxin gərdişi.

www.kitabxana.net

Fələk edir, İblis edir nə edirsə insana,
Fələkdən küs, İblisdən küs, bəxtindən küsən kişi.

39. Sirri bilinməyən hələ göylərdir,
Derik:-göydən yağan qəzadır, şərdir.
Nahaq qınayırıq yazıq göyləri
Hər şəri törədən bədxah bəşərdir.

40. Böyük məna olsa deyilən sözdə,
Hamıya xoş gələr bərbəzəksiz də.
Məclisdə az danış, yaxşı söz danış,
Bəd sözü ağzında dustaq et, gizdə.

41. Ala bilmək olmaz hər şeyi zərlə,
Hər qisası almaq olmaz xəncərlə.
Çalış həm elmli, həm qüdrətli ol
Dağ yarar birləşsə ağıl hünərlə.

42. Bilmirsə xəstənin nədir azarı,
O həkim sağalda bilməz naçarı.
Bilikdir, elmdir kamalın tacı,
Hər qıfılı açar, elmin açarı.

43. Elmə yox, nüfuza edirlər hörmət,
Zər, zor dərgahında xardır ədalət.
Hörmətin, sərvətin, rütbən yoxdursa
Bədxah hakimlərdən umma mərhəmət.

44. Qanun var, çoxu ona məhəl qoymayır fəqət,
Qanunu iflic edər qərəzkar hakim, rüşvət.
Bu fitnə, şər yuvası-bədxah dünyada bəzən,
Suçlu haqlı sayılır, suçsuz çəkir əziyyət.

45. Harda ki, hakim haqqı danır, qanun xəstədir,
Yoxdur düzlük, həqiqət, ədalət can üstədir.
Harda ki, qanunlara hakimlər etmir əməl,
Orda canilər- azad, suçsuzlar məhbəsdədir.

46. Ehtiyac, kasıbçılıq puç etdi ömrümüzü,
Bizi yandırdı-yaxdı haqsızlıq odu - közü.
Tamahın kor əlləri yapışıb yaxamızdan,
Səfalət girdabından, Allah, hifz elə bizi!

47. Min günaha batmışıq, düçarıq zəlalətə,

www.kitabxana.net
Təzədən başlamışıq duaya, ibadətə.
Ədalətsiz dünyada layiq olur çox zaman,
Canilər bəraətə, günahsızlar zillətə.

48. O ləbləri şəkər, yanağı lalə,
Sevgi məbədinə gəlməyib hələ.
Yoxdursa yanında bir qəmküsarın,
Tələsmə, badəni götürmə ələ.

49. O dəhanı şəkər, ləbi mey-məzə,
Mərhəmət eləyib, gəlibdir bizə.
Şənlənək, fürsəti verməyək bada
Sübhə kimi yuxu haramdır bizə.

50. Yol tapa bilməyib öz evinizə,
İçib, yenə sərxoş gəlibsən bizə.
Arvadın, uşağın yoxsul daxmada,
Yaşayır ac-susuz can üzə-üzə.

51. Qurandır ən kamil, müqəddəs kitab,
Onda hər suala tapılar cavab.
Onu inkar edən babi, kafirdir,
Öyrənən, öyrədən qazanar savab.

52. Ya Rəbb! Gözdə qoyma diləyimizi,
Çəkmə imtahana heç şeylə bizi!
Nə qədər mülkündə qonağıq, rəhm et,
Lütfünlə sevindir ürəyimizi.

53. İftiradır, sərvi boylu yar olmaz,
Belə bəd əndama məhəl qoyulmaz.
Xəyyam, öz həddi var şişirtmənin də,
Hər yalan bədii təyin sayılmaz.

54. Mən də çox düşündüm bir neçə müddət,
Necədir cəhənnəm, necədir cənnət.
Dərk edə bilmədim mən bu dünyanı,
O dünya necədir bilmərəm, əlbət.

55. Gəlsən, yollarına xalı döşərəm,
Ən gözəl çiçəyi, gülü döşərəm.
Getsən, fərağına dözə bilmərəm,
«Yar-yar», deyə-deyə çölə düşərəm.

www.kitabxana.net

56. Getmə, məni candan edər həsrətin,
Yağdırar üstümə kədər həsrətin.
Göynədə-göynədə yun kimi çırpar,
Məni pambıq kimi didər həsrətin.

57. Əsil sevən sadiq olar əhdinə,
Dözər hər əzaba, zülmə çətinə.
Gülüm, hər sınaqdan üzü ağ çıxan,
Aşiqi qonaq et ləbin şəhdinə.

58. Bəlkə sən pərisən, a boyu bəstəm,
Xumar baxşını görəli məstəm.
Sözümü bilmirəm dilim dolaşır,
Özümü bilmirəm elə sərməstəm.

59. Ruhumun ləbindən düşübdür neyi,
Qəlbimin canında qalmayıb heyi.
Sənin həsrətinlə ağlayan gözüm,
Görmək istəməyir daha heç şeyi.

60. Nə tez çıxıb getdi həmsöhbətlərim,
Heyf, boşa çıxdı bütün cəhdlərim.
Çap edə bilmədim yazdıqlarımı,
On kitab olardı yetmiş dəftərim.

61. Çoxdan ayrı düşüb can-cananından-
Sevimli dilbərim gedib yanımdan.
Mən ona həsrətli qalandan bəri,
Elə bil ayrılıb ruhum canımdan.

62. Yazdım yaxşıların yaxşılığından,
Bezdim paxılların paxıllığından.
Hər dövrün şairi gileyləndiribdir,
Yaman məmurların, yamanlığından.

63. O qədər mənasız şeir yazan var-
Sənətin yolunu çaşıb- azan var.
Həmişə yaltaqlar yaxşı yaşayır,
Çox vaxt mükafatı məddah qazanar.

64. Yaşadıq dünyada biz boş xəyalla,
Şirin duyğu ilə, acı məlalla.
Niyə gəldik bura, getdik buradan?

www.kitabxana.net

Bir cavab tapmadıq biz bu suala.

65. Çox gülmə aşiqə, ey əqli çaşıq,
Məhəbbət mülkünə odur yaraşıq.
Duyğusuz kərpicdir, daşdır, kəsəkdir,
Kim ki, sevməyirsə, deyilsə aşiq.

66. Ey könül evinin, yaraşığı gəl,
Artsın mənzilimin nur-işığı gəl.
Əzrail qapının ağzını kəsib,
Yol tap, yanıma gəl əcəldən əvvəl.

67. Vəslinə ümidim azalır hər gün,
Həsrətin canımı alacaq bir gün.
Sənə məhəbbətim yaşadır məni,
Peşiman deyiləm sevdiyim üçün.

68. Hüsnünə vurulmuş bir aşiqəm mən,
Sənə məhəbbətim artır gün-gündən.
Ən gözəl büt kimi sevirəm səni,
Məni duymasan da, sevməsən də sən.

69. Güldən ətirlidir canan dodağı,
Güldən də gözəldir canan yanağı.
Şirindir şəkərdən, şərbətdən, baldan,
Camın dodağından canan dodağı.

70. Ey ilham pərisi, tək qoyma məni,
Könlüm, gözüm, ruhum tərk etməz səni.
Gəlişin könlümə sevinc gətirir,
Gedişin qəlbimə yığır qüssəni.

71. Meyxor, meyi çox da tərifləmə sən,
Mey şirin olammaz canan ləbindən.
Bir canan busəsi azdıra bilər,
Alimi yolundan, mömini dindən.

72. Mey içib yolunu baş-ayaq gedən,
Nə meydən dəm vurma, nə sürahidən.
Canından əzizdir əsil sevənə,
Bir sürahi boylu min sürahidən.

73. Axsın meyi, sınsın meyin şüşəsi,
Məyus eləməsin bu hal heç kəsi.

www.kitabxana.net
Aşiqi sərxoşdan sərxoş eləyər,
Bir xumar gözlünün nazı, işvəsi.

74. Bilirəm hər şeyin heçdir axırı,
Camın, sürahinin puçdur axırı.
Yüz il mey içsə də, şərbət içsə də,
Silinməz məkrli qəlbin paxırı.

75. Saqi, məndən uzaq dalandır meyi,
Mənə təklif etmə amandır, meyi.
Məni sərxoş edib bir xumar gözlü,
Gözüm ondan başqa görmür heç nəyi.

76. Bizi sehrləyib sehrkar aləm,
Bir günü sevincdir, beş günü ələm.
Biz bu vəfasıza niyə uymuşuq?
Xəyala dalmışam əlimdə qələm.

77. Saqi, uzaq elə məndən badəni,
Gözüm yaxşı görsün mina gərdəni.
O xumar gözlünün süzgün baxışı,
Qoy hamıdan sərxoş eləsin məni.

78. Xəyyam, cəhənnəmlik sayılır sərxoş,
Bu fikir doğrudur qalx məndən soruş.
Həddən çox içənlər cəhənnəmlikdir,
Tez köçər dünyadan, yurdu qalar boş.

79. Xəyyam, cəhənnəmlik deyil sevənlər,
Çox qələt eləyib onu deyənlər.
Bil ki zahiddən də daha mömündür,
Eşqin məbədinə boyun əyənlər.

80. Deyirəm:- İçməyin heç vaxt şərabı,
Sındırın şərabı saxlayın qabı.
Mən yaxşı bilirəm, badəpərəstin,
Başda ağlı olmaz, ayaqda tabı.

81. Mey içən Bəhramın qəsri boş qaldı,
Yerində nə kərpic, nə də daş qaldı.
Şah indi, o qədər şərab içdi ki,
Başında nə ağıl, nə də huş qaldı.

82. Çox içmə, qədəhi əlindən burax,

www.kitabxana.net

Mey dolu kuzəni, camı sındıraq...
Adam ol, adamlar sırasında dur,
Nə olar ağıllı məsləhətə bax.

83. Sındır içi meylə dolu bardağı,
Meyə həsrət qalsın camın dodağı.
Dağıt meyxananın divarlarını,
Tökülsün tavanı, uçsun çardağı.

84. Ağılsız başlara gələr çox əngəl,
Fikirləş bir işi görməzdən əvvəl.
Bir az kef çəkməyə çəmənzara sən,
Ürək dostun ilə, ayıq başla gəl.

85. Bir yar, bir sazəndə, bir də çəmənlik,
Olduqca çox gözəl olar bu şənlik...
Məclisdə bir az çox içilsə şərab,
Dostlar arasında düşər düşmənlik.

86. Zahidin nə işi var meyxanədə?
O, kafir sayılır nuş etsə badə.
Qılsın namazını gündə beş dəfə,
Məscidmi qəhətdir ona dünyada?

87. Çəməndə rastına çıxsa bir canan,
Dayan xidmətində başınan, cannan.
Mey içib, söz atıb, ona sataşma,
Əgər əsər varsa səndə vicdandan.

88. Meyxanada meyxor, saqi və meydir,
Sızlayan kamandır, inləyən neydir.
Bir Vətən, bir canan, bir can şirindir,
Bir də öz ailən, qalan boş şeydir.

89. Yaxşılıq, yamanlıq törədən bizik,
Biri-birimizə öyrədən bizik.
Günahkar saymayaq fələyi, bəxti,
Günah edən bizik, şər edən bizik.

90. İçmə ki, içməyən kəsin üzü ağdır,
Günahdan, küfrdən, şərdən uzaqdır.
Bəhanə etmə ki, qəmdən içirsən
Guya içsən qəmin azalacaqdır?

www.kitabxana.net

91. Əcəlin oxundan qorumaz sipər,
Bir anın içində can əldən gedər.
Sağ ikən, dövlətin, qüdrətin varsa,
Məzluma kömək et, səxavət göstər.

92. Oğul, qiyamətlidir vaxtın anı da,
Çalış bir anın da getməsin bada.
Uyma oyunlara, əyləncələrə,
Hədər ömür sürmə sən bu dünyada.

93. Əlindən düşməyir camı şərabın,
O qədər içmisən qalmayıb tabın...
Elə çox içmə ki, səndən bezsinlər,
Utanmaz, üzünə bağlansın qapın.

94. Bu misra qalıbdır Ömər Xəyyamdan,
«Xoşdur bir damla mey iki cahandan».
O qədər içmə ki,axırda səni,
Çölə tullasınlar, tutub yaxandan.

95. Meyin fərmanına, boyun əyən kəs,
Kölə olma meyə, ondan uzaq gəz.
Keflənib dalanda, doqqazda yatan,
Sərxoşlar bir qədəh şəraba dəyməz.

96. Deyin gəlsin saqi, əlində küzə,
Gəzsin qədəhlərə mey süzə-süzə.
A dostlar, az içək bu şər abını
Kənardan baxanlar gülməsin bizə.

97. Meylə qarşılama sübhü, axşamı,
Meypərəstlik rüsvay edər adamı.
Mey çox ev dağıdıb, qəlblər sındırıb,
Sən də dağıt meyi, sındır bu camı.

98. Amandır bəzənib çıxma bazara,
Səni sevənləri salma azara.
Həsəddən çiçəklər saralar, solar,
Gülüm, ətrin, sayən düşsə gülzara.

99. Eşqə düşdüm, əldən gedir can, ana,
Vurulmuşam bir can alan canana.
Əsil sevgi belə olar, cananı

www.kitabxana.net
Göz görə, qəlb sevə, canı can ana.

100. Hara getdin, harda qaldın, gözəlim?
Sənsiz mənim öz yaxamdır, öz əlim.
Həsrətin qəddimi elə əyib ki,
Inanmıram bundan sonar düzəlim.

101. Dostlar, danışdığım öz dastanımdır,
Düz sözüm, söhbətim, düz dastanımdır.
Neylirəm bağçanı, gülüstanı mən,
Yarın qoynu bağçam, gülüstanımdır.

102. Bircə an yanında olmağım mənim,
De, neylədi sənə, a yağım, mənim.
Nazın qılınc çəkir, qəmzən oxlayır,
Çətindir salamat qalmağım mənim.

103. Sənsiz qanadları qırılmış quşam,
Kədərə həmdəməm, qəmə yoldaşam.
Halıma meyxorlar, nadanlar gülür,
Hüsnünü görəli elə sərxoşam.

104. Tutsaq da dünyanı ikiəlli biz,
Üzüllər axırda ondan əlimiz.
Bu fani dünyada gəldi-gedərik,
Torpağın altıdır son mənzilimiz.

105. Gəzmədi dünyanı doyunca heç kim,
Nə səyyah, nə dərviş, nə qul, nə hakim.
Dünya tamaşadır, mən tamaşaçı,
Baxdım gah sevindim, gah da qəm çəkdim.

106. Gecə yarı canan dedi:- Yıxıl, yat
Əl çək bu yazmaqdan, bir az ol rahat…
Kədərdir, qüssədir, qəmdir, cəfadır,
Sevgisiz, sevincsiz keçən hər saat.

107. Xəyyam öz dövründən elədi giley,
Dedi:- Yar şirindir bir də şirin mey.
Şərab iç, əlindən buraxma camı,
Bir cam meyə dəyməz , dünyada heç şey.

108. Mən də gileyliyəm öz zamanəmdən,
Möhnətdən,məlaldan,dərdən, aləmdən.

www.kitabxana.net

Bəlkə yaradıbdır yaradan bizi,
Torpaqdan, sudan yox, qüssədən, qəmdən.

109. Saqi, şərab vermə, su ver, təşnəyəm,
Canansız elə bil daş qəfəsdəyəm.
Onun məhəbbəti yaşadır məni,
Onsuz bu dünyada heçəm, heç nəyəm.

110. Saqi, bahar çağı girəndə bağa,
Toxunma çiçəyə, gülə, yarpağa.
Tapdama otları, asta qədəm bas,
Dahilər, xaqanlar yatan torpağa.

111. Hər dünyaya gələn bir gün köçəcək,
Üstündən karvanlar gəlib-keçəcək.
Şərab içən də var, içməyən də var,
Əcəl şərbətini hamı içəcək.

112. Müsəlman sövq edir islamiyyətə,
Babi meyl eləyir meyə, işrətə.
Deyir ki, boş sözdür, cəhənnəm, cənnət,
Qorxma cəhənəmdən, uyma cənnətə.

113. Dünyada qalacaq dünyanın varı,
Bağları bəhəri, dağların qarı.
Gözün kimi qoru, sev Vətənini,
Ananı, atanı, övladı, yarı.

114. Dünya nə yasxana deyil, ağlayaq,
Nə toyxana deyil, çalaq-oynayaq.
Nə xanagah deyil ibadət edək,
Nə də meyxanadır, içək məst olaq.

115. Içsəm, sərxoş edər üzümün suyu,
Xəcalətdən gedər üzümün suyu.
Ağlımı, abrımı əlimdən alar,
Şərməndə olaram mən ömrüm boyu

116. Çoxunun əqlini şərab alıbdır,
Dəli-divanətək düzə salıbdır.
Meyxanada meyxor, mey, kuzə vardı,
Meyxor ölüb, meylə, kuzə qalıbdır.

117. Mey içib evini yandıran axmaq,

www.kitabxana.net
De, sənə nə verdi yanğına baxmaq?
Nə canın qədrini bilər, nə camın,
Mey içib, qədəhi sındıran axmaq.

118. Şərab şər suyudur. Bu zatı şərdən,
Çox içsən ağlını çıxarar sərdən.
«Mənəm-mənəm» deyən çox cahangiri,
Şərabın kəməndi salıb yəhərdən.

119. Meyi zərrə-zərrə, damla-damla iç,
Əhli-keflə içmə, əhli-halla iç.
Amandır, özünü urvatsız etmə,
Nə badəpərəstlə, nə avamla iç.

120. Tənqid ediləsi səhvimiz çoxdur,
Eldə yüz nəfərdən üç-dördü toxdur.
Riyakar məddahlar, yaltaqlar artıb,
Bu günün Cəlili, Sabiri yoxdur.

121. Gördüm haqsızlığı, düşdüm həvəsdən,
Kədərdən sərxoşam, qəmdən sərməstəm.
Rüşvətxor, haramxor, mey içir məstdir,
Mənsə göz yaşımı içirəm, məstəm.

122. Naz etməyi nazlı cananlar bilər,
Eşq nədir, Kərəmtək yananlar bilər.
Him-cimi, eyhamı arif olanlar,
Qananın qədrini qananlar bilər.

123. Amandır, yaxanı qəmdən uzaq et,
Bir qədəh şərabla kefini çağ et.
Bir qədəhdən artıq içmə. Kuzənin,
ağzını bərk bağla, meyi dustaq et.

124. A Binnət, nəzmə çək öz bildiyini,
Hər kəs söyləyəcək öz bildiyini
Et nə bacarırsan,sənli ya sənsiz
Fələk eləyəcək öz bildiyini.

125. Fələyin işinə qarışma hədər,
Sıxar ovucunda səni, mum edər.
Görmədinmi fələk öz Vətənindən
Minlərlə adamı etdi dərbədər?!

www.kitabxana.net

126. Ilahi! Keçmədi bir günüm qəmsiz,
Barı etmə məni qərib, Vətənsiz.
Bir günahım varsa, keç günahımdan
Qul xatasız olmaz, ağa Kərəmsiz.

127. Allahım! Rəhmansan, adilsən, haqsan,
Nə olar mənə də rəhm ilə baxsan?
Məni bu dünyaya sən gətiribsən,
Bir gün də uqbaya apracaqsan.

128. Ya Rəbbim! Olmasa sənin iradən,
Heç zaman bir günah eləmərəm mən.
Qoyma haqq yolundan azmağa məni,
Qadirsən, hər şeyi görən, bilənsən.

129. Tanrı, uzaq edə məni günahdan,
Sual verəm, cavab alam Allahdan.
Sonumuzu torpaq edəcəkdirsə,
Bəs niyə yaratdı bizi torpaqdan?!

130. Qəbri itdi-batdı quduz xanların,
Xain çıxanların, ev yıxanların.
Qapısı bağlandı, ocağı söndü,
Elinə, xalqına xor baxanların.

131. Can alanlar içində bir dənəsən, bir dənə,
Canımı qurban verdim, istəyirsən bir də nə ?
Gülüm, səndən heç zaman usanmaram, dönmərəm,
Mürğü-ruhumu möhtac eləsən də bir dənə.

132. Kitabxanadan çox var meyxanamız,
Çoxdur sərxoşumuz və divanəmiz.
Nə olar biraz da yazaq, yaradaq
Ancaq mey içməyə gəlməmişik biz.

133. Gördük vəfasını dünyanın biz də,
Dərdimiz batində, şadlığmız üzdə.
Azadlıq, xoşbəxtlik, səadət gəzdik.
Qaldı diləyimiz ürəyimizdə.

134. Təvəqqe edirəm, ey adil hakim ,
Düz de, suçlu kimdir, gunahsızdır kim.
Bəzən pis hakimin hökmüylə əfsus.

www.kitabxana.net
Suçlu azad olur, suçsuz müttəhim.
135. Mən meyi sevmədim, cananı sevdim.
“Canan ləbi meydən şirindir”,- dedim.
Bir xumar gözlüyə, şirin sözlüyə
Rast olub, əlimdən dincliyi verdim.
136. Xoşdur kaman səsi, tarın avazı,
Bir kamil aşıq da dindirsə sazı...
Bir-birini sevən oğlanın, qızın
Bir ola amalı, əhdi, murazı.
137. Günah iş görməkdir fasiqin işi,
Günaha meyl etməz mömin ər-kişi,
Hər günahkarı da, günahsızı da
Taxtından salacaq çərxin gərdişi.
138. Uyduq cah-calala, sərvətə, yurda,
Qaldı cah-calal da, sərvət də, yurd da.
Dünya bir füsunkar mehmanxanadır,
Biz də beş-on günlük qonağıq burda.
139. Aparıb ağlımı hüsnünün şoxu,
Giryan gözlərimdən qaçıbdır yuxu .
Gözümdə qalacaq arzum, murazım,
Məni öldürəcək nazının oxu.
140. Xəyyam, bir damla mey xoş olmaz Tusdan,
Təxti-Keyqubaddan, mülkü-Kavusdan.
Çox evlər dağıdıb şərab şəriylə ,
Çox ana, çox ata çıxmayıb yasdan.
141. Girmə meyxananya, meyl etmə meyə,
Mey içib, özünü rüsvay etməyə...
Cəhd etmə mal kimi yeyib-yatmağa,
Nə də əyyaş kimi şərab içməyə.
142. Könül, gözün aydın, yar gəldi bizə!
Bir şənlik gətirdi məclisimizə.
Bir gün tərk edəcək canı canımız.
Canı fəda edək candan əzizə.
143. Ey saqi, uzaq et, məndən şərabı,
Könlüm üstün tutmaz qəmdən şərabı.

www.kitabxana.net
Fani dünya adlı bu qəmxanada
Bir həmdəmim yoxdur qəmdən savayı.

144. Böyük xosbəxtlikdir sevib-sevilmək,
Xoşbəxtdir sevənlər Leyli-Məcnuntək,
Yaşadım məhəbbət şələsi altda,
Axır əlif qəddim əyildi nuntək.

145. Vaxt keçdi, ümidi kəsdim vüsaldan,
Gedib cavanlığım, düşmüşəm haldan.
Məni gözü yaşlı ayırdı fələk
O, dili şəkərdən, ləbləri baldan.

146. İlahi, adının xatirinə sən
Qurtar xalqımızı xatadan, şərdən.
Mənə nə dərd versən özün bilərsən,
Elimi, obamı salma nəzərdən.

147. Dərd çəkdim, bilmədi dərdimi bir kəs,
Ay Binnət dərdsizlər dərd nədi bilməz,
Danışma dərdini dərd bilməzlərə,
Dərdini deməyə bir dərd bilən gəz.

148. Ey səba, xoş səda, xoş xəbər gətir,
Bağçalar bar versin, çəmənlər ətir,
Şadlıqdan, sevincdən yazam yazanda,
Qələmim yazmaya qəmdən bir sətir.

149. Elə baxma, a gözəllər-gözəli,
Alarsan ağlımlı, edərsən dəli,
Gülüşün mat edib balı, şəkəri,
Söhbətin şirindir, sözün məzəli.

150. Qalmadı canımda taqət, məhbubəm,
Hicran xəstəsiyəm, üzür məni qəm,
Sənsiz elə dərdli, elə qəmliyəm,
Halımı yazmağa acizdir qələm.

151. Hardasan, ahımdan alışıb dilim?
Dərdimi yazanda yandı qələmim.
Gedibsən, qoyubsan qəm pəncəsində,
Imkanım yoxdur ki, yanına gəlim.

152. Ruhu şad eyləyən, gülgün piyalə,

www.kitabxana.net

Səni çox axtardım gəlmədin ələ.
Sabaha az qalıb, üzüm haqdadır,
Barı rəhm eliyə, sevgilim gələ.

153. Dərdimi danışsam dodağım yanar,
Ah çəksəm ahımdan otağım yanar,
Necə ərz eləyim sənə halımı?
Əhvalımı yazsam varağım yanar.

154. Didir ürəyimi parçalayaraq
Əzizim, sənsizlik, intizar, fəraq.
Halımı yazmağa başlayan kimi,
Dərdimə dözməyib alışdı varaq.

155. Ölüm şərəflidir kölə olmaqdan,
Zülmə dözüb, zəlalətdə qalmaqdan.
Bir gün azad olmaq daha yaxşıdı,
Ömrü boyu əsarətdə qalmaqdan.

156 Günüm dərdlə keçdi, gecəm kədərlə,
Sabahım, axşamım qəmlə, qəhərlə.
Ömrün əvvəlindən sonuna qədər
Fələk məzələnir dərd çəkənlərlə.

157. Həyatda hərəyə bir qismət paymış,
Kimə ağ gün, kimə məşəqqət paymış.
Aldandıq füsünkar bər-bəzəyinə,
Sən demə, bu dünya əzabxanaymış.

158. Kim ki, şəhid olur azadlıq üçün
Adı əbədidir, şöhrəti üstün.
Vətənin yolunda şəhid olanlar
Sevilər, hörmətlə anılar hər gün.

159. Çoxlarına verdim mən bu sualı:
"Kimə qalacaqdır dünyanın malı?"
Dedilər:- Dünyadan şirinlik umma,
Zəqqumdur şəkəri, zəhərdir balı.

160. Ay fəndgir, hiyləgər, sehrkar dünya,
Mehri az, rəhmi az, sitəmkar dünya,
Sənə könül verdim, sevdim, vuruldum,
Gözümün yaşını etdin car, dünya.

www.kitabxana.net

Müxtəlif illərdə yazdığım rübilərin yarısı.

www.kitabxana.net

VƏTƏN BAYATILARI

Yarpaq budaqda yanar,
Həsrət dodaqda yanar,
Dərdimi dağa desəm
Alışar dağ da yanar.

Şamama tağda yandı,
Qurudu tağ da yandı.
Həsrətindən ah çəkdim
Dərə də, dağ da yandı.

Ah çəkdim qar dayandı,
Ahımdan qar da yandı.
Mən yara yetişmədim,
Həsrətdən yar da yandı.

Od tutdum külüm yandı,
Etdilər zülm,-yandı.
Bülbültək fəğan etdim,
Ahımdan gülüm yandı.

Dərə keçdi,dağ basdı,
Yağı mənə dağ basdı.
Öldüm yurd həsrətiylə,
Sevgilim qaldı yasdı.

Həsrət qaldım Ağdama,
Ağ otağa, ağ dama.
Yurduma xor baxanın,
Gözlərinə ağ dama!

Yağı sinəmi dağlar,
Çəkirəm qəmi,dağlar.
On ildi qəm çəkirəm,
Çəkim yenəmi, dağlar?

Bağbanam, gülüm yoxdur,
Güləm,bülbülüm yoxdur,
Dərman baha,dərdim çox.
Bir asan ölüm yoxdur.

Nə yada salanım var,
Nə könlüm alanım var,
Nə oduna yananım,
Nə qeydə qalanım var.

Simim yoxdu sazımda,
Gülüm açmır yazımda.
Dərbənd,Dərbənd deməkdən,
Dilim yandı ağzımda.

Yaram yurd yarasıdır,
Çətin qurtarasıdır.
Həsrətdən kül olacam,
Hələ bu harasıdır?!

Ahıma naşı yandı,
Çayların daşı yandı,
Yurd həsrəti çəkməkdən,
Sinəmin başı yandı.

www.kitabxana.net

Dağda qara həsrətəm,
Bağda bara həsrətəm,
Qürbətdə-elə həsrət,
Eldə vara həsrətəm.

Torum qayada qaldı,
Ovum səyyada qaldı.
Köçkün, didərgin oldum,
Torpağım yada qaldı.

Qar yağar dağ başına,
Qayasına,daşına,
Bulaqlar həsəd çəkir,
Çağlayan göz yaşıma.

Eldən olan dərd çəkər,
El dərdini mərd çəkər.
Elinə vurulana
Aşiqlər həsəd çəkər.

Yasa batmış aya bax,
Qana dönmüş çaya bax.
Bəy ölüb,gəlin ağlar,
Vaya dönmüş toya bax.

Gözüm o taya baxdı,
Qəlbimi hicran yaxdı.
Həsrət bir yara vurdu,
Yüz yerdən qanım axdı.

Sinəsi dağlıyan mən,
Yolları bağlıyan mən,
Əlim əlinə çatmaz,
Qolları bağlıyam mən.

Xəstəyəm çarə gəlsin,
Yalvarın yara,gəlsin,
Bizi həsrət qoyanın,
Bayramı qara gəlsin.

Gözüm o taya baxdı,
Gözümdən qan-yaş axdı,
Məni od yandırmazdı,
Həsrət yandırdı-yaxdı.

Bir çiçəyəm,dər məni,
Kölgə yerə sər məni,
Bir ölkəni dalayar,
Qudursa bir erməni.

Şilləni tərs hərləyin,
Ermənini tirləyin,
Ermənilər qudurub,
Birləşin zəncirləyin.

Quşlar göydə süzərlər.
Qazlar göldə üzərlər,
Qaçqınlar, didərginlər,
Canından əl üzərlər.

Yol açılsa Təbrizə,
Gedərəm süzə-süzə,
Görüşünə gələrəm

Mən çəkəni kim çəkir,
Mən tikirəm yad sökür,
Dilim bayatı deyir,

www.kitabxana.net

Yola gül düzə-düzə.
Gözlərim qan-yaş tökür.

Bu yaza qurban olum,
Bu saza qurban olum,
İki sahili öpən,
Araza qurban olum.

Qaçdım Araz boyunca,
Arazı quca-quca,
Yolum Təbrizə düşə,
Gəzəm, baxam doyunca.

Yaylağım yayda qaldı,
Balığım çayda qaldı,
Özüm bu tayda qaldım,
Yarım o tayda qaldı.

Yağı şeytandı, cindi,
Döydü, söydü, deyindi,
Qırdı «Vətən» deyəni,
Vətən qara geyindi.

Çox çəkmişəm mən ahı,
Hanı elin pənahı?
Aranı yadlar kəsib,
Arazın nə günahı?

Ordumuz zəfər çala,
Yağıdan qisas ala,
Araza körpü olam,
El üstümdən yol sala.

Yolum düşə Dərbəndə!
Dərdsiz olmaz hər bəndə,
Mən burda dara düşdüm,
Orda düşdü yar bəndə.

Yaylaqda dağım ahlı,
Aranda bağım ahlı,
Həm yurdumdan qovuldum,
Həm sayıldım günahlı.

El yolunda ölən var,
El qədrini bilən var,
Hicran xəstəsi canım,
Qalx, Təbrizdən gələn var!

Bizi az soymadılar,
Yedilər, doymadılar.
Yadlar məni Təbrizə,
Getməyə qoymadılar.

Yad hakimdi, vəkildi,
Yerim tankla əkildi,
Dostlarım şəhid oldu,
Sinəmə dağ çəkildi.

Arazın o üzündə,
Güllər açıb düzündə,
Qorxuram ki, dərməyəm,
Arzum qala gözümdə.

Gəmim dəryada qaldı,
Xınam qayada qaldı.

Nə qış kefim saz oldu,
Nə də yazım, yaz oldu,

www.kitabxana.net

Elim, yurdum, yaylağım,
Yağıya-yada qaldı.

Gülləri solan da mən,
Saçını yolan da mən,
Evimi yağı yıxıb,
Günahkar olan da mən.

Arazla canım axır,
Şöhrətim-şanım axır,
Hicran bir yara vurub,
Yüz yerdən qanım axır.

Çap olunmaz bayatım,
Yazmayım, necə yatım?
Təbrizin həsrətiylə,
Sona çatır həyatım.

Arazın suyu daşdı,
Daşdı, məcradan aşdı,
Şırıltısı-inilti,
Lilli suyu-qan, yaşdı.

Qar yağsa dizə kimi,
Gəlləm Təbrizə kimi,
Hicran dərdi tuşlanıb,
Sinəmə nizə kimi.

Dözərəm dözüm olsa,
Yazaram sözüm olsa.
Təbrizə sarı baxar,
Dostlar, yüz gözüm olsa.

Yadlar bölübdü eli,

Təbrizə həsrət qaldım,
Göz yaşım Araz oldu.

Qapımda cəftə qaldı,
Kitabım rəfədə qaldı,
Özüm bu taya düşdüm,
Yar o tərəfdə qaldı.

Gedirəm, dağlar qalsın,
Saldığım bağlar qalsı,
Məni yurddan qovanın,
Anası ağlar qalsın.

Araz, Araz, xan Araz,
Ay suyu yaş-qan, Araz,
Məni yağı yandırıb,
Demərəm, sən yan, Araz.

Yolum düşə Təbrizə,
Qonaq olam, dost, sizə,
Illərlə həsrətliyik,
Hicran dağ çəkdi bizə.

Dərə- mənim, düz- mənim.
Cığır-mənim,iz- mənim,
Bakı, Gəncə gözlərim,
Canımdır Təbriz mənim.

Araz, Araz olaydı,
Kədərim az olaydı!.
Təbrizi bir yol görəm
Kədərim azalaydı

Həsrətli yanar oda,

www.kitabxana.net

Axır gözümün seli.
Araza qurban olum,
Öpür iki sahili.

Gülüm, deyim yaz, saxla,
Ölsəm, yasım az saxla,
Elə fəda olmasam,
Nə ağla, nə yas saxla.

Yalqızam, yerim- ada,
Salan yox məni yada,
Hicran məni yandırır,
Bir kimsə çatmır dada.

Barlı bağda bara bax,
Qarlı dağda qara bax,
Mən salamat qalmayım,
Yada qalsa Qarabağ.

Cuvarı qabaqladım,
Suyu arxa bağladım,
Vətənimə vuruldum,
Elə arxa bağladım.

Yaxşı gün yaz günüdür,
Keflərin saz günüdü,
Eldən ayrı keçən gün,
Qəribin yas günüdür.

Hakim haqq divanında,
Pul aldı ,batdı qan da.
Qovulan da mən oldum,
Günahkar sayılan da.

Düşmüşəm yanar oda.
Araza ahım düşsə,
Qorxuram, yanar o da.

Oda düşsün yağını,
Görsün sinə dağını,
Laçın didərgin olub,
Sar alıb oylağını.

Karvanda nər qalmadı,
Tərlanda pər qalmadı,
Namərdlər eli tutdu-
Mərdlərə yer qalmadı.

Dağ çəkdin, barı, asma,
Dağı dağ üstə basma.
Yarın sözünü eşit,
Yadlara qulaq asma.

Kəklik qayada qaldı,
Maral talada qaldı,
El köçdü, oba köçdü,
Yaylağım yada qaldı.

Min dərdim var sinədə,
Ahım çatmaz sənə də,
Sən o tayda qəm çəkdin,
Əzab oldu mənə də.

Bülbül gül gəzər ağlar,
Sona göl gəzər ağlar,
Nə gül gəzər, nə də göl,
Binnət el gəzər, ağlar.

www.kitabxana.net

Əsgərəm, nə atım var,
Nə döyüş sursatım var,
Əyilmərəm düşmənə,
Mənim polad qatım var.

Təbriz soraqlıyam mən,
Sinəsi dağlıyam mən,
Göz yaşım Araz olub,
Yolları bağlıyam mən.

Gün çıxdı, düzə düşdü,
Tər axdı, üzə düşdü.
Vüsal bəxtəvərlərə,
Ayrılıq bizə düşdü.

Yad yaylağıma çıxıb,
Vurub köşkümü yıxıb.
Çəkdiyim yurd dərdidir,
Köşküm yadımdan çıxıb.

Bağa, bara gəlmişəm,
Dağa, qara gəlmişəm.
Bağ, dağ yağıya qalıb,
Dərddən zara gəlmişəm.

Haqq üzümə kəm baxıb,
Məni yandırıb yaxıb,
Çəkdiyim el dərdidir,
Öz dərdim yaddan çıxıb.

Sürüm yaylaqda qaldı,
Bülbülüm bağda qaldı,
Qartallar köçkün oldu,
Quzğunlar dağda qaldı.

Qəm yükü əyər nəri,
Yıxar hünərvərləri,
Həsrət qəribi edər,
Dərd çəkməkdən sərsəri.

Vətəndə vətənsizəm,
Ölmüşəm, kəfənsizəm,
Qarabağım desəm də,
Qarabağım, sənsizəm!

Dəryada gəmim qalıb,
Sinəmdə qəmim qalıb.
Yağıya bağım, bağçam,
Bostanım, zəmim qalıb.

Bülbül çəkər gül dərdi,
Gül çəkər bülbül dərdi.
Məcnun yar dərdi çəkdi,
Binnət çəkdi el dərdi.

Yada yaddı yad dərdi,
Mənə verdi yad dərdi.
Cəfa çəkdim, gül əkdim,
Yağı dərdi ,yad dərdi.

Susuz qaldı hovuzum,
Yatmadım, yuxu yozum,
Mərdləri şəhid oldu,
Yas saxladı Tovuzum.

Yanmışam, tökülmüşəm,
Uçmuşam, sökülmüşəm,
Həsrətin girdabında,
Yumaqtək bükülmüşəm.

www.kitabxana.net

Yaşım ümmana dönüb, Bağban çəkər bar dərdi,
Ahım dumana dönüb. Alma, heyva, nar dərd,
Qəm atlı, mən piyada, Cəfa çəkdim, bağ saldım,
Arzum gümana dönüb. Barını yadlar dərdi.

Müxtəlif illərdə yazdığım bayatıların yarısı

P O E M A L A R

Belədir halımız, ay baba, indi

(***Q.B.Zakirə xitab və nəzirə)***

Əvvəlkitək deyil, ay baba, indi
Iblislər məskəni olub Qarabağ.
Ilan yuvasına dönüb Xankəndi,
Daha mümkün deyil burada qalmaq.
Azıb bu diyarda yolunu millət,
Öz başından yekə eleyir qələt.
Yoxdur gediş-dəliş, tükənib ülfət,
Aqanbekyan salıb ortaya nifaq.
Işlər tərsinədir idarələrdə,
Dostluğun üzünə çəkilir pərdə.
Iki qonşu xalqı salıbdır dərdə
"Millət dərdi çəkən on – beş sarsaq".
Dayanıb, qatarlar, boşalmır yüklər,
Dostluğu unudur üzü dönüklər.
Başını itirib başıböyüklər,
Milləti azdırıb Vazgen qurumsaq,
Işləmir nəqliyyat, bağlanıb məktəb,
Nə böyük sayılır, nə ərkan - ədəb.
Torpaq davasıdır hər şeyə səbəb
Bizdən torpaq umur bir sürü axmaq.
Çoxdandır fəhlələr çıxmayır işə,
Mitinqi, piketi ediblər peşə

www.kitabxana.net

Yaraşır biz, palan, noxta keşişə,
Moskvada medal aldı bu paraq.
Gevorkovun azar düşsün canına,
Poqosyanın qolu düşsün yanına!
Boyandı erməni – kafir qanına
Sumqayıt Əsgəran, Qafan, Zvarçnaq.

www.kitabxana.net

Açılmır dükanlar, bağlanıb bazar,
Yeməyə nə alsın dəyyus Vartazar?
Haykanuş mətbəxdə ağlayır zar-zar
Yerevana heç nə aparmır Qazax.
Çaxnaşma yaradır xallı şarlatan
Ermənilərə kömək edir əlaltdan.
Yenə işə düşüb xançal, beşatan,
Gah orda, gah burda dağılır tifaq
Saqqalılar ara vermir savaşa,
Zori Balayan çəkirlər başa.
Derlər: "Bizim olsun Kəlbəcər, Şuşa",
Bədzat dəyyuslarda iştaha bir bax.
O gündən Bakıda mitinqlər artdı,
Qeyrətlilər Xalq cəbhəsi yaratdı,
Haqlı tələbimiz dünyaya çatdı,
Meydanda göründü üç rəngli bayraq.
Əlimizdə Musavatın bayrağı,
Axışdıq meydana qazi sayağı.
Dedik ki, vermərik nə Qarabağı,
Nə də yurdumuzdan bir qarış torpaq.
Başlandı azadlıq mübarizəmiz,
Günbəgün çoxaldı mübarizlərimiz.
Cavadxan, Səttərxan ovladıyıq biz,
Yoxdur azramızda bir nəfər qorxaq.
Ayılara arxalanır tülkülər,
Bu iblis xislətli tülkütəkilər –
Yeravandakılar, Xankənddəkilər
Hər gün meydanlarda salırlar yığnaq.
Günü qara olsun eli satanın –
Torpaq satıb, vara, mülkə çatanın!
Xalqı dərdə salıb, ara qatanın.
Özünün başında çatlasın çanaq...
Topxanada baltalanır palıdlar,
Nə dünyada belə qızıl palıd var,
Nə ermənilərtək yaramaz idbar,

www.kitabxana.net
Nə də daşnaqlartək alçaqdan – alçaq.
Gözümüzə xallı dazbaş kül atır,
Daşnaqlara gizli raket, tank satır.
Xankənddə günbəgün silahlar artır,
Hər düdəmə dığa gəzdirir yaraq.
Yağı silahlanır,qoşun yaradır,
Bizsə köçkünlərə qururuq çadır.
Çaşmışıq – bilmirik hara – haradır
Nə qoşunumuz var, nə tüfəng, daraq.
Bədxahlarımız bizi "avam"sayırlar,
Güya bizim qeydimizə qalırlar,
Kimdə silah, sursat varsa alırlar,
Deyirlər: "Yasaqdır silah saxlamaq".
Bitmir daşnaqların yer qalmaqalı.
Gümrüyə qatarlar silahla dolu
Gəlir, ermənilər kəsirlər yolu,
Bu kənddən o kəndə olmur addamaq.
Dığalar hər yerdə pusqu qurular,
Azəriləri güllə ilə vururlar,
Yandırırlar, tamaşaya dururlar,
Yananı vermirlər, məzara qoyaq.
Qonşuluğa, dostluğa göz yumurlar,
Utanmırlar, bizdən torpaq umurlar.
Qudurublar, ustumuzə cumurlar,
Əllərində balta, dəhrə, çapacaq.
Xankənddə güzaran pisləşir hər an;
Nə xəstəxanada tapılmır dərman,
Nə də xəstələr lazım olan qan.
Xəstəyə gələni oğurlayır sağ.
Pozulub əvvəlki nizam, yaraşıq,
Gah qaz güclü gəlir, gah su, gah işıq,
Məktəb, xəstəxana qalır yarımçıq,
Orda nəyə baxsan, pozulur damaq.
Orda bədəsillər su bulandırır,
Qurunun oduna yaşı yandırır.

www.kitabxana.net
Zəhmətkeşlər güclə baş dalandırır,
Daşnaq yağ – bal yeyir, hörtdədir konyak.
Yaltaq yaltaqlanır yallanmaq üçün
Arşaq "Ağdam"tapmır hallanmaq üçün
Müəllim, mühəndis dolanmaq üçün
Küçələrdə satır iynə, sap, sancaq.
Işləri düz gedir işi əyənin,
Qarını önə süzüb haram yeyənin.
Ağzını yumurlar doğru deyənin,
Düzgörən gözlərə uzanır barmaq.
Orda pencər yığır arvad da, ər də,
Yığılıb, qalmayıb çöldə pencər də.
Hər gün arvad – uşaq irəmələrdə
Gəzir quşəppəyi, çaşır,murcalaq.
Rüşvətə dadanıb orda hər bədzat,
Banklar müflis olur, xəzinə qarət.
Dükanda, bazarda yoxdur nəzarət,
Hamı bir – birinə gəlir badalaq.
Bunu meşəbəyi polis də bilir
Meşənin içində çətənə əkilir.
Əkənin başına sığal çəkilir,
Çəkənin başına qapaz –şapalaq.
Orda fabrik, zavod işləmir daha,
Sevinir salamat çıxan sabaha.
Ət, yağ, pendir – baha, çay- çörək-baha,
Yağ – bal qiymətinə satılır qaymaq.
Sədrlər əl altdan satır məhsulu,
Deyirlər: "Məhv edib çəyirtkə, dolu",
"Krunq" başçısına veriblər pulu,
Aradan çıxıblar, olmayır tutmaq.
Xankənd fərəsinə daşnaq ley olur,
Dərə xəlvət olub, tülkü bəy olur.
Haqsızlıqdan çoxu dəli, səy olur
Hakim müttəhimlə içir rom, araq.
Orda toxun aca yazığı gəlmir,

www.kitabxana.net
Rüşvət verməyənin işi düzəlmir.
Birləşib bir koma düzəldə bilmir
Qardaş, qayın, yeznə, üç – dörd bacanaq.
Rəislər haqq alır hər pinəçidən,
Polislər haqq alır hər dilənçidən,
Müdür rüşvət alır süpürgəçidən,
Dığalar rüşvətə olub dadanaq.
Baba, kim güclüsə haqlıdır orda,
Hamı kələk gəlir bu vurhavurda,
Hər kim nə etsə də, qoyunlar qurda,
Toyuqlar tülküyə inanmayacaq.
Işləmirlər, aralığı qatırlar,
Borc içində boğazacan batırlar,
Ərzaq üçün evdə nə var satırlar,
Nə yorğan – döşək var, nə də qab – qacaq.
Suçludur vurulan, suçsuzdur vuran.
Bizə diş qıcayır, azğın – qudurğan.
Bizdən torpaq umur yerindən duran.
Ağlı, huşu- dayaz, başı – balqabaq.
Bizə qul idilər dünənə qədər
Yüz cinsdən törənən bu düdəmələr.
Bu bədnam dığalar, bədcins gədələr
Bağlayırlar xallı dazla ittifaq...
Yerimə yurduma susayır yağı,
Vurur sinəmizə dağ üstdən dağı.
Suyumuz – göz yaşı, çörəyimiz –ağı,
Qazancımız olur qəm qucaq – qucaq...
Çox həsrət qalmışıq bir – birimizə,
Ayrılıq həmişə dərd olub bizə,
Bir yol oturmadıq, barı üz- üzə
Dərdimizi birgə deyib, ağlayaq.
Xainlər, satqınlar xalqı aldadır,
Yalan vədlər verib, mənsəbə çatır.
Xeyrini güdənlər yurdunu satır,
Kimə arxalanaq, kimə inanaq?

www.kitabxana.net
Əyrilər, oğrular, olurlar “Hacı”,
Başdan – başa keçir şahlığın tacı.
Yada salan yoxdur yoxsulu, acı
Kimdən kömək umaq, kimə əl açaq?
Yumurtanın yüz manatdır ədədi,
Yoxsa qiyamətdi – axır vədədi?
Varlının oğulu Türküyədədi,
Kasıbın oğlundan yoxdu səs – soraq.
Nə xış var, nə kotan, nə xırman nə vəl,
Ək, becər, yığışdır, a kəndçi, di gəl.
Şair məddah olub, alım bədəməl,
Heç kəsdə qalmayıb abır, qanacaq.
Hərə məhləsində bir firqə qurub,
Şöhrət, mənsəb hissi başına vurub.
Çoxu çalıb - çapıb, yeyib – qudurub,
Cəbhədən uzaqda gəzir kefi çağ.
Toyuq – cücə artmır, ley çoxalıbdır,
Ağlı azan artıb, səy çoxalıbdır.
Məzlum, muzdur artıb, “bəy”çoxalıbıdır,
Kimə muzdur olaq, çörək qazanaq?
Yurdumun üstündən getmir duman, çən.
Nə tədbir tökən var, nə plan çəkən.
Hamı alver edir, yox əkən, biçən,
Paslanır bel, kətmən, kərənti, oraq.
Belə zülm heç bir yerdə olmayıb,
Sussaq da ayıbdır, desək də ayıb.
Qarbağda fabrik, zavod qalmayıb,
Söküb Yeravana daşıyıb daşnaq.
Göyçəlilər yana- yana qalırlar;
Onların hər şeyini zorla alırlar,
Sonra döyə - döyə yola salırlar,
Hamısını ayaqyalın, başıaçıq.
Azərilərə orda zülm eləyirlər,
“Bizim ölkəmizdən çıxın”,- deyirlər.
“Çıxmıram”,- deyəni güllələyirlər

www.kitabxana.net
Evinin içində taraqqataraq.
Laçın yuvasını quzğunlar alır,
Laçınlar yurdundan didərgin olur.
Qaçhaqaçda qarlı yallarda donur
Yüzlərlə xəstə, şil, ixtiyar, uşaq.
BMT köçünün yanmır halına,
Işğalçının zəhər qatmır yalına.
Arsıza, xudbinə, gönüqalına
Təsir eləməyir məzəmmət, qınaq.
Azəri evləri zornan boşalır;
O evləri Sərkis, Siranuş alır.
El köçür, yuvası – yurdu boş qalır,
Tərlan yuvasına tutur yapalaq.
Ayrılırıq Bazarçaydan, Tərsçaydan,
Göyçə gölümüzdən, Karvansayadan.
Sanki ayrılırıq Günəşdən, Aydan
Yada qalır Ətrik, Talin, Spitak.
Çıxır son köçümüz Ermənistandan;
Qəmərlidən, Üçkilsədən, Dilicandan.
Ele bil ayılır ruhumuz candan
Yaşımız sel olur, gözümüz bulaq.
Çıxır əlimizdən Əstərək, Kəvər,
Abavan, Qızıl qoç, Soyulan, Ellər,
Düzkənd, Sərdərabad – safalı yerlər,
Yüz – yüz aynabəndli evlər, bağça – bağ.
Köçkünlər der: “Malımızı aldılar,
Gəvəmizi, xalımızı aldılar,
Pətəyimizi, balımızı aldılar,
Buna necə dözək, necə dayanaq”?
Hələ orda yüz- yüz kəndimiz qalır;
Zəngibasarımız, Gümrümüz qalır,
Basarkeçərimiz Vedimiz qalır
Bir də yüz – yüz bulaq, yurd, sərin yaylaq.
Yüzlərlə boşalmış kəndimiz təki
Çox qəsəbə, sovxoz, tütün fabriki

www.kitabxana.net
Qalır, kafirlərə sahibsiz təki,
Heyif, nankor dığalara qalacaq!
Biz - silahsız, silahlıdır yağılar,
Biz - günahsız, günahlıdır yağılar
Biz - pənahsız, pənahlıdır yağıar,
Daha ümidimiz Haqqadır ancaq.
Dada yetsin tanrı, köçkün oluruq!
Qovurlar, yuvasız – yurdsuz qalırıq
Dərbədər, didərgin, qaçqın oluruq,
Qaçağandan, Lökdən haraya qaçır?
Qırılsın düdəmə - "mul" ermənilər.
Bədzat, qorxaq, murdar, qul ermənilər!
Yanmağa layıqdır bu ölməlilər,
Qalsalar çox yerə sahib çixacaq.
Baba, yada qalır bağça – bağımız
Cantəpə yaylağmır, Murğuz dağımız
Bilirsən ki, yoxdur rahatlığımız
Ayı tülkü ilə olalı ortaq.
Bir vaxt zəbt edənlər İrəvanmızı
Axtadan, Aqindən qovur hammızı,
Alır Gorusmuzu, Baranamızı,
Kəsir dilimizi dinsək, danışsaq.
Quduzlaşıb, qudurğanlıq edirlər,
Pozğunlaşıb, bəd pozğunluq edirlər.
Azğınlaşıb, çox azğınlıq edirlər,
Tayqulaq Andronik, Şaumyan sayaq.
Ay baba, bu sitəm görünüb harda,
Gəlmə yerliləri yurddan çıxarda?
Amasya, Keşişkənd qalıbdı darda
Sevandan, Qafandan düşmüşük qaçaq.
Aşağı Qaranlıq, zülmətdə qalır,
Allahverdi, Meğri qürbətdə qalır.
Vorantsovka dərddə, möhnətdə qalır,
Düşmən həkim olsa,sağalmaz naçaq.
Qolunu bağlayıb oğlanlarının,

www.kitabxana.net
Yolublar saçını qoca qarının.
Itkinlərin ana – bacılarının
Sifəti qançırdır, sinəsi dağ –dağ.
Xankənddən də çıxır qaçqınlar köçü,
Nədir xalqımızın günahı, suçu?
Şəhərdə şəhərli, kəndə də kəndçi
Tapa bilmir rahat bir sığınacaq.
Bağlanır Xocavənd – Əsgəran yolu,
Şuşa,- Kərkicahan - , Mincivan yolu.
Dığalar kəsirlər hər yandan yolu,
Məcbur eləyirlər evimizdən çıxaq.
Deməklə, yazamaqla qurtarmaz, baba,
Köçkün, qaçqın olub qədim el – oba.
Göydən dolu kimi yağanda bomda,
Evdən qaçan qaçıb başıaçıq, çılpaq.
Hələ xata, təhlükədir xallı daz,
Bizi köçkün, qaçqın edır yaramaz.
Dərdimiz dastana, kitaba sığmaz,
Nə qədər danışsaq, nə qədər yazsaq.
Türkdən başqa yoxdu bir həmdəmimiz.
Zornan ayırdılar, ayrı düşdük biz.
Hamı yazar olsa, bitməz dərdimiz,
Otlar qələm olsa, yarpaqlar varaq.
Belədir halımız, ay baba, indi,
Qara günə qalıb el – oba indi,
Düçarıq möhnətə, əzaba indi,
Xilaskar yetişə, dərddən qurtulaq.
Baba, qara günün ömrü çox olmaz.
Qisas qiyamətə, qan yerdə qalmaz.
Əgər qiyamətə qalsa bu qisas,
Cənnətdə də olsam, ruhum yanacaq
Əgər el, yurd qayğısına qalmasam,
Elə, yurda yaxşı oğul olmasam,
Fürsət tapıb, yağıdan öc almasam,
Məhv olum, eybimi örtsün toz- torpaq.
Heç vaxt Pənah xanın, İbrahım xanın

www.kitabxana.net
Yurdu ola bilməz nökər Vartanın.
Xankəndi, Qarabağ Ermənistanın
Heç zaman nə olub, nə olmayacaq

23.30.XI. 1988

www.kitabxana.net

Müqəddəsim

(Müxəmməs)

(M.Füzulinin heykəli önündə düşüncələr)

A müqəddəs Kərbəlada baqı olan müqəddəsim,
Salam. Sənə layiq ola, ustadım, bu müxəmməsim.
Həsrətindən gah yanıram, gah əsirəm əsim-əsim,
Nə yanına gələ billəm, nə də çatmaz sənə səsim,
İmkanım-yox, üzüm-qara, İraq-uzaq, ömür-yarı.
Şəbi-hicran yandı canın, həsrət səni çəkdi dara,
Niyə olur şairlərin taleyi kəm, bəxti qara?
Niyə eldən uzaqdasan, de sən hara, İraq hara?
De kim saldı səni, baba, vətənindən uzaqlara?
A xalqımın həm şöhrəti, həm fəxri, həm iftixarı.
Odlar görüb yad ellərdə qəriblərin ağlar gözü,
Şair, mənə də gülmədi bəd zamanın dönük üzü.
Dövran məni gah dondurub, gah sinəmə yığıb közü.
Mənim də cardı dilimdə Vətən,Millət, həsrət sözü.
Gözü yaşlı, qəlbi ahlı baxıram Təbrizə sarı.
Heykəlinin önündəyəm, nələr keçmiş de başından.
Niyə kədər, qüssə yağır üz-gözündən, baxışından?
Vətənindən uzaq düşdün niyə, baba, ilk yaşından?
Niyə çaylar ağlar axır, yoxsa sənin göz yaşından
Yaranıbdır yer üzünün dərdi axan Arazları?
Qayıtmazmı yuvasına, baba, quşlar perikəndə?
Hansı tufan səni qovub, yol azmısan yoxsa çəndə?
Vətənindən qaçqın, köçkün, didərginsən yoxsa sən də?
Bəlkə səni də qovublar eldən-elə, kənddən-kəndə,
Ayaqyalın, başıaçıq, qarlı qışda, gecə yarı?
Danışmırsan, ulu ustad, icazə ver mən danışım,
Sanki, dünyada yalqızam, nə dostum var, nə tanışım.
Mənim də daş dəlir ahım, mənim də car olur yaşım.
Düz deyəndə, haqq gəzəndə daşdan-daşa dəyir başım,
Mənə əxlaq dərsi verir zinakarın -zinakarı.

www.kitabxana.net
Bölük-bölük, parça-parça, kəsik-kəsik, dilim-dilim,
Niyə yüz yol parçalanıb, paralanıb, şair, elim?
Bu möhnətə necə dözüm, dosta-yara çatmır əlim?
Gah farslaşıb, ərəbləşib, gah ruslaşıb ana dilim.
Öz dilində hökm eləyib kimin düşüb bəd güzarı.
Neçə şair görməsə də söz dərsini səndən alıb,
Natavanlar, Vidadilər, ustad, sənə həsrət qalıb,
Həsrət ilə, hörmət ilə onlar səni yada salıb.
Məhəbbətlə salam deyir, məzarına səcdə qılıb,
Yurdumdan İraqa gələn Azərbaycan zəvvarları.
Niyə halın pərişandır, aç qəlbini, danış barı?
Nə durmusan boynu bükük, ürəyində el qubarı?
Gəl dolaşaq dağım-dağım dağıdılmış obaları-
Bir-birinə həsrət qalmış o diyarı, bu diyarı,
Dinləyək tarixi bilən dünya görmüş babaları.
Dava gedir, baş qarışıb, hər bir işdə dolaşıq var;
Gözdən uzaq obalarda nə qaz, nə su, nə işıq var,
Məclislərdə nə çal-çağır, nə xanəndə, nə aşıq var.
Hara getsən qəbristanın bir yanında yaraşıq var,
Qatarlaşıb cərgə-cərgə şəhidlərin məzarları.
Cibdə pul yox, evdə çörək, hər yan alış - veriş - bazar,
Dərman, ərzaq saxta, baha, artıb ölən, xəstə, azar,
Əlbir olub, xalqı soyur quldur, dəllal, mərdimazar,
Qapı-qapı iş axtarır həkim, artist, rəssam, yazar.
Nə fəhlənin maaşı artır, nə alimin qonararı.
Qatar-qatar qovaq, çinar baltalanıb yollar boyu,
Soyğunçunun, dələduzun, kələkbazın artıb sayı.
Unudublar mərhəməti, görən yoxdu soyhasoyu,
Ərşə çıxır köçkünlərin, qaçqınların ahı-vayı,
Sayan yoxdu qapı-qapı iş axtaran muzdurları.
Hər yan çərçi bazarıdır, bilinməyir alan, satan.
Bir-birindən seçilməyir mömin, quldur, oğru, atan.
Öz xeyrini güdür ancaq vəzifəyə əli çatan.
Iblistək aranı qatıb xallı dazbaş-araqatan,

www.kitabxana.net
Özü qaçıb, iki xalqı bir-birindən salıb ayrı.
Küçə,meydan,hər yann bazar,satanlar çox,alanlar yox,
"Xalqım, elim," deyənlər çox, el qeydinə qalanlar yox,
Gözdən üzaq obaları anıb, yada salanlar yox,
Əlil, işsiz, didərgin çox, vədlər hədsiz,yalanlar çox,
Məktəblərə həsrət qalıb kasıbların balaları.
Qardaşlığa, qonşuluğa qələm çəkdi vicdansızlar,
Unutdular insanlığı riyakarlar, həyasızlar.
Tank, BTR altda qaldı cavan-cavan günahsızlar,
Qara geydi, ağı dedi, analar, gəlinlər, qızlar,
Fələkləri kar elədi xalqımızın fəryadları.
Ayağı yer tutan qaçır məmləkətdən uzaqlara,
Doğma yurddan, doğma eldən, doğma kənddən uzaqlara.
Baxan yoxdur kimsəsizə; qocalara, uşaqlara,
Qayğı, ərzaq azalıbdır əsgərlərə, dustaqlara,
Göz tikmişik yad ellərdən bizə gələn yardımlara.
Kolxozları dağıtdılar, var yoxunu taladılar,
Meşələri baltalayıb, ocaqlarda qaladılar.
Rüşvət, hədiyyə umanlar məmur deyil, bəladılar,
Bu gün muzdurluq edənlər hər dərdə mübtəladılar.
Bu gün əl açır dilənir xəstə, əlil, qoca, qarı.
Yataqxana, salxaq vaqon qaçqın, köçkün evi olur,
Vaqonlarda qaçqınların ruhu ölür, rəngi solur,
Qəm üstünə qəm tökülür, dərd üstünə dərd qoyulur.
Mən görmüşəm bir otaqda yeddi nəfər qaçqın qalır,
Gün qızdırır, qar soyudur yayda-qışda vaqonları.
Çoxalıbdır möhtəkirlər- dəni gizli saxlayanlar.
Indi nə inək sağan var, nə də nehrə çalxayanlar.
Azalıbdır əkən-biçən, kilim, gəbə toxuyanlar.
Artır şadlıq sarayları, bir də çalıb-oxuyanlar,
Məclislərdən sıxışdırıb yad musiqi sazı,tarı.
Dükanlarda, bazarlarda aldadır satan alanı,
Böhtançılar efirlərdən xalqa sırıyır yalanı.
Rəislər başa çəkirlər ön cərgədə əl çalanı-

www.kitabxana.net
Müavin, müdir olmaq üçün yaltaqlanıb alçalanı,
Mənsəb, rüşvət xar eləyib ədaləti, qanunları.
Danışmırsan, bilirsən ki, sözə qiymət verilməyir,
Elin dərdinə ağlayan gözə qiymət verilməyir.
Bədxahların bazarında düzə qiymət verilməyir,
Orda astar baha gedir, üzə qiymət verilməyir,
Düyü, buğda alınmayır, tez satılır arpa, darı.
Varlı olsan, salamını alardılar, yazıq baba!
Yaltaq olsan, məddah olsan geyərdin zərxara əba,
Şairlərə hörmət etməz gönü qalın, qəlbi qaba.
Seirin gəzir yer üzünü oymaq-oymaq ,oba-oba,
Şimşək kimi yarıb keçir sərhədləri, hüdudları.
Yandı canın həsrət ilə, vəsli-ruyi yar istədin;
Qalmış idin nalan qəfəs qeydində, gülzar istədin,
Nə şan-şöhrət, nə zər-sərvət, nə dövlət, nə var istədin,
Mətahını satmaq üçün bir özgə bazar istədin,
Nə gəzdiyin yarı tapdın ,nə gülzarı,nə bazarı.
Dedin:-"Ya Rəbb, bəlayi-eşq ilə qıl aşına məni",
Bəlayi-eşq bəlalara eylədi mübtəla səni.
Bəlalardan qurtarmadı müqəddəs Kərbəla səni,
Sən bəlanı istəyirdin,istədi həm bəla səni.
Əsdi xəzan, vaxtsız soldu öz ömrünün çəmənzarı.
Həsrət ilə çox baxmısan Vətənindən Vətəninə,
Böyük ülvi məhəbbətlə heykəl qoydu Vətən sənə.
Sənin Leylin Vətən idi, vurulmuşdun Vətəninə,
Vətəni sevməyinin özü nədir, Vətəni nə?
Vətənini sevməyəni nə el sevdi, nə də yarı.
Fələklər yandı ahımdan, oyatdı xalqı əfqanın,
Günəş kimi yer üzünə yayılsa da, adın-sanın
Üzdü səni şəbi-hicran, həsrət ilə yandı canın.
Üzünə nə bəxtin güldü, nə dövranın, nə cananın,
Səni çeşmi-giryan etdi, bəd zamanın sərt rüzgarı.
Hələ mənəm-mənəm deyir, baba, xudbin "bəng və badə",
Bir partiya yaradıbdır hərəsi bir məhəllədə.

www.kitabxana.net
Partiyalar gün ağlayıb hansı xalqa, nə vaxt, dədə?
Şah olmaqçün Vətənini yağılara satan gədə,
Taxta çıxsa, olacaqdır hansı elin tacidarı?
Indi də var mələk donlu iblis-əhdi, sözü yalan,
Indi də var sözə qiymət verməyən-küt, cahil, nadan,
Dilənçidən, pinəçidən, xidmətçidən rüşvət alan,
Özgəsini bəyənməyən-əməlindən razı qalan,
Vəziryanlar başa çəkdi bu riyakar yaltaqları.
Sənintək söz gözəlinə heç kəs bəzək verə bilməz,
"Söhbətül-əsmər"inə yox ,nə bənzəyən, nə də əvəz.
Yeddi cam dirilik suyu içsə də səhhəti-mərəz,
Sağalmasın xaindirsə, ülfətində varsa qərəz,
Sel aparsın, heç olmasın nə baş daşı, nə məzarı.
Imkan ola, barı bir yol türbənə baş əyə biləm!
Sənə layiq beş-on misra şəninə söz deyə biləm!
Yazdıqlarımla fəxr edəm, bir özümü öyə biləm!
Millətimə kəc baxanı əzə biləm, döyə biləm!
Torpağımdan qova biləm qara, sarı quduzları!
Indi də var ara qatan-mələk donlu xain, iblis,
Qəlbi-qara, zatı-qırıq, niyyəti-bəd, paxıl, xəbis,
Min-dil, min-üz, ələbaxan, qarınqulu, acgöz, xəsis,
Əhrimana qulluq edən-şər işlərdə mütəxəssis,
Parazitlər, tif yayanlar- yoluxduran hər azarı.
Haqqını ala bilmədin, yedi onu haramxorlar -
Səni hey get-gələ salan birokratlar, müftəxorlar,
Indi də var haqqı danan, qulağı kar, gözü korlar.
Cib güdənlər, acgödənlər, tamahkarlar, rüşvətxorlar,
Vəzifəyçün alçalanlar-rütbə, mənsəb dəllalları.
Bilirsənmi, əsir düşüb xələflərin Vaqif, Zakir?
Məzarları təhqir olub, pak ruhları əzab çəkir.
Hesabını qanmayanlar yenə bizlə hesab çəkir,
Kəlbəcəri yağı alıb, qorxudadır Tovuz, Şəmkir,
Xankəndində xanlıq edir Yerevanın "dığa"ları.
Çadırlarda qızdırmadan yüz-yüz öldü yazıq dağlı,

www.kitabxana.net

Leyliləri apardılar zülfləriylə qolubağlı,
Məcnunların əli yalın,silahı yox,yolu bağlı.
Anaların, ataların gözü yaşlı, qəlbi dağlı,
Döyə-döyə ayırdılar eldən -eli, yardan-yarı
İndi, ustad, xalqa ağzın sirrini söz qandırmayır,
Başçıların sözü indi çoxunu inandırmayır.
Utanmazı ,sözqanmazı söysən də söz yandırmayır.
Elə gönü qalınlar var gönünü köz yandırmayır.
Qəlbi daşa təsir etmir yayın günü, qışın qarı.
Pələngləri tora salır qudurmuş arxalı köpək
Ayıya tulalıq edir torpaq iddialı köpək,
Topxanada palıdları doğrayır baltalı köpək.
Işğalçıya "qardaş" dedi qeyrətsiz, bambılı köpək,
Istəyirdi hamam tiksin, qoz əksin, gözləsin barı.
Böyük ustad, hüzurunda uzunçuluq etdim bir az,
Istədim ki, halımızdan səni halı edəm bir az.
Bilirəm ki, Vətənimdə qışın ömrü uzun olmaz.
Xilaskarmız gələr, burdan ayağını çəkər ayaz.
Deyə-gülə, toy-bayramla qarşılarıq ilk baharı...
Sənin dərdin nədi, baba, çəkilməzdir mənim dərdim,
Ömrüm boyu dırnağımla sevinc əkdim, kədər dərdim.
Araz boyda göz yaşım var, mənim Dərbənd boyda dərdim.
Bir soruşan yoxdur, Binnət, nə ah-vaydı, nədi dərdin?
Bir dinləyən yoxdur məni, danışam dərdimi,barı.

12-19.04.1992

www.kitabxana.net

www.kitabxana.net

Həsrət

Sevimli şairimiz Seyid Məhəmmədhüseyn Şəhriyarın "Heydərbabaya salam" poemasına nəzirə

Vətənini, xalqını, sevən
Düz-Cırdaxanlılara ithaf edirəm.

Proloq

Cırdaxandadır

Vurğunam kəndimə, elə bilirəm
Hər şeyin əlası Cırdaxandadır.
Qoynunda ürəkdən deyib-gülürəm,
Ömrümün mənası Cırdaxandadır.
Adıyla başlanır, şerim, dastanım,
Onsuz ilə dönür hər keçən anım.
Ümidim, gümanım, şəfam, loğmanım,
Dərdimin davası Cırdaxandadır.
Könlümün sevinci, fəxri, qüruru;
Ömür karvanımın yolu, uğuru,
Dizimin taqəti, gözümün nuru,
Təbimin mayası Cırdaxandadır.
Düzdür adı kimi məkanı-yeri,
Şen olsun, bol olsun ruzusu-xeyri!
Qəlbimin ən şirin xatirələri,
Xəyalı, xülyası Cırdaxandadır.
Ona mənim rəssam gözümlə baxın,
Vurular, deyərsiz: - min-min yaylağın;
Çəmənin, gülşənin, bağçanın, bağın
Qoxusu, səfası Cırdaxandadır.
Həsrətlilər duyar həsrət çəkəni,
Kəndini sevməyən sevməz Vətəni.
Nəslimin, kökümün yurdu, məskəni,

www.kitabxana.net
Əbədi dünyası Cırdaxandadır.
Binnətəm, əzizdir Vətənin xətri,
Canımdan keçərəm yurdumdan ötrü.
Məni bihuş edir kəndimin ətri,
Cənnətin havası Cırdaxandadır.

I Hissə

1. Salam, Düz Cırdaxan – sevimli diyar!
Qoy o tayda rahat yatsın Şəhriyar.
Bu tayda da eldən yazan şair var,
Vətənə sevgidir məni yaşadan,
Bu ülvi sevgimlə xoşbəxtəm, şadam.
2. Düz-Cırdaxan! Ay uşaqlıq məskənim,
Biz doğmayıq, sən mənimsən, mən sənin.
Oylağımdır çölün, düzün, çəmənin,
Tutyamdır ab-havan, suyun, torpağın,
Gözümün nurudur, odun, ocağın.
3. Düz-Cırdaxan, bilməyirəm yaşını,
Üzünü ağ, uca görüm başını!
Simuzərə dəyişmərəm daşını,
Hər daşını həcər kimi öpərəm,
Sevimlimsən, başına gül səpərəm.
4. Həmişə mən səni salanda yada
Deyirəm ki, tayın yoxdur dünyada,
Ruhuma doğmadır Torpaqqala da,
Ağdağ da, Tovuz da, Kür qırağı da,
Yağılara qalan Murğuz dağı da.
5. Düz-Cırdaxan, üz tutduğum qibləmsən,
Cahanımsan, mahalımsan, ölkəmsən,
Kərbəlamsan, Mədinəmsən, Məkkəmsən,
Sən Kəbəmsən, dolanaram başına,
Qurban ollam, torpağına, daşına.
6. Düz-Cırdaxan, yazda güllər açanda

www.kitabxana.net

Ağ geyinər gilasın da, alçan da.
Hərdən səhər tezdən yuxum qaçanda
Ayaqyalın bağ-baçanı gəzərdim,
Qıjı axtarardım, yemlik gəzərdim.

7. Düz-Cırdaxan, səhər günəş doğanda,
Al şəfəqlər qaranlığı boğanda,
Qucağına göylərdən nur yağanda,
Görənləri heyran edir camalın,
Könül açan təmtərağın, cəlalın.

8. Düz-Cırdaxan, çərşənbələr gələndə,
Bayram ab-havası gələrdi kəndə,
Sevinərdik elin üzü güləndə,
Həyəti-bacanı təmizləyərdik,
Kaş həmişə bayram ola, deyərdik.

9. Novruz bayramında tonqal qalardıq,
Gecə lopa atıb, səs-küy salardıq,
Sübhədək yatmazdıq – oyaq qalardıq,
Dəs-dəs çillə çıxan evə gedərdik,
Oynayar, oxuyar-şənlik edərddik.

10. Qızlar arx üstündə, bulaq başında
Dilək dilərdilər sevən yaşında,
Əl-ayaq yığılıb, şər qarışanda
Qapı dinşəməyə gedərdi xəlvət,
Qəlbində, dilində xoş arzu, niyyət.

11. Bayram vaxtı səmənilər bişərdi;
Bişənlərdən hər evə pay düşərdi,
Qonşuluq bir az da şirinləşərdi,
Bir-birinə gediş-gəliş artardı,
Umu-küsü, giley-güzar batardı.

12. Görmüşəm həyatın hər cəfasını,
Ehtiyac, məhəbbət, yar cəfasını.
Mənə məhəbbətin əlifbasını
Öyrədib bir gözəl qız Cırdaxanda,
Hələ kəndimizdə mən oxuyanda.

www.kitabxana.net

13. Kəndim, sən Leylimsən,mən Məcnununam;
Qulluğunda qolu bağlı qulunam,
Sədaqətli övladınam, oğlunam.
Vətənimsən, keşikçinəm, əsgərəm,
Ölənəcən keşiyini çəkərəm.
14. Düz-Cırdaxan, duymaz yetən eşqimi,
Qəlbimdə kök atıb, bitən eşqimi.
Vətən böyüklükdə Vətən eşqimi
Min Məcnun eşqinə dəyişmərəm mən,
Dünyada hər şeydən əzizdir Vətən.
15. Görsəydim, deyərdim qəfil Fərhada:
– "Vermə bir qız üçün ömrünü bada,
Hər şeydən ülvidir qoca dünyada
Səni qucağında böyüdən Vətən,
Bisütunda kimə yol açırsan sən?
16. Sənə öz elindən başlanır Vətən,
Öz ana dilindən başlanır Vətən,
Şirini yox, əvvəl Vətəni sev sən.
Elini, dilini sevməyən bir kəs,
Elin gözəlinə layiq görülməz".
17. Elini sevərmiş Məhəmməd babam,
Bir hasarsız məhlə, bir yarımçıq dam
Tovuzda gözdağı qalmışdır ondan.
On altı il qızıl yeldən yatıbdır,
O məhlə də, ev də itib-batıbdır.
18. Hamı hasar çəkib, görmür tox-acı,
Çoxu çörək alır, tullayıb sacı.
Suya həsrət qalıb Xındıllı qaji,
Daha aşıb-daşmır yaz Cırdaxanda.
Daha yoxdur arxa, suya baxan da.
19. O vaxtlar ki, Əhməd babam cuvarmış,
Kəndimizin arxlarında su varmış,
Yerin bərəkəti, ruzisi varmış.
Indi torpaq qısır, ruzusuz qalıb,

www.kitabxana.net

Kənd cuvarsız qalıb, arx susuz qalıb.

20. Klub uçub, Şövkət düşüb səhnədən,
Dağıtdılar nə vardısa köhnədən,
Cəlli arxı qurudubdur dəhnədən,
Daha Axıncıdan kəndə su gəlmir,
Nə dəhnəmiz, nə arxımız düzəlmir.

21. Kanal kəndi bölüb, Araz Vətəni,
Elə bil ikiyə bölüblər məni.
Başçılar istəsə bir az Vətəni,
Nə Vətən bölünər, nə şəhər, nə kənd,
Nə həsrət çəkərik, nə həsrətdən dərd.

22. Qəbiristanlığımızı tən bölüb bir arx,
Vətən, kənd, məzarlıq bölünübdü, ax!
Ya Rəbb! Bu dərdlərə necə dözür xalq?
Daha bölünməmiş qalıb nəyimiz?
Bizi bölüb-çapır bölünməyimiz.

23. Düz Cırdaxan, cığırın-düz, yolun-düz,
Elə düzsən, çəmənin-düz, çölün-düz,
Bölünmüsən, sağ yanın-düz, solun-düz,
Sənin bölünməyin məni göynətdi,
Elin bölünməyi çəkilməz dərddi.

24. Bəsdir, bölünməkdən bezdik, usandıq,
"Quzey", "güney", "o tay", "bu tay" adlandıq,
Bəsdir, ayrılığın oduna yandıq,
"Baran","baran"dedi, "xər" də "xər" bizə
Gah "baran"lar güldü, gah "xər"lər bizə.

25. Bəsdir, parçalandıq, bəsdi bölündük,
Ruslara qatıldıq, rusla "öyündük",
Farslara qatıldıq farsla "öyündük"
Rusa "brat" dedik, farsa "bəradər",
Qoltuqlarda qaldıq ölənə qədər.

26. Bəsdir, öz evmizi yıxdıq-uçurduq,
Bəsdir, özgələrə saraylar qurduq,
Bəsdir, yad sözüylə oturduq-durduq,

www.kitabxana.net

Başa çəkilmədi başbilənimiz,
Bəsdir, eşitmədik başbiləni biz.

27. Nə zaman ki, başçı oldu naşımız;
Güllələndi, sürgün oldu yaxşımız,
Axdı-axdı Araz oldu yaşımız,
Artdı-artdı Murov oldu dərdimiz,
Çəkdik-çəkdik çəkilməyən dərdi biz.

28. Başçısı olmasa, el tamam batar,
Arabanı hərə bir yana dartar.
Islam əmi yoxdur, dayanmır qatar,
Bağlanıbdlr keçid-riz Cırdaxanda,
Kövrəlirəm dəmir yolna baxanda.

29. Tağı babam, Avıl, Mətioğlu İsə
Düzgün qiymət verib yaxşıya, pisə.
İmiroğlu Qara rusca nə desə,
Deyərmiş rusdan da düz Cırdaxanda,
Ana belə oğul doğa, doğanda.

30. Yetim Cəfər elə arxa durardı,
"Dərzi" Səməd kimi nışançı vardı,
Kişmiş asıldığı, sapı vurardı,
Dadlı-duzlu zarafatı varıydı,
Hazırcavab, şux arvadı varıydı

31. Ağalıqda Novruz, Vəlilərdə Manaf,
İmirlidə Qasım büllur kimi saf,
Pak kişilər idi.... Namərd, nainsaf,
Elinin, xalqının qeydinə qalmaz,
Elini sevməyən eldə ucalmaz.

32. Elçün üzüm haqda, əlim göydədir,
Elimin dərdləri məni göynədir.
Axunlu Cəbrayıl, Bağırlı Nədir
Kəndin tərəfkeşi, təsübkeşiydi,
Hər biri hörmətə layiq kişiydi.

33. Hümbətə, İsrayla sərim sadağa,
El yaxşı oğluyla gedər qabağa.

www.kitabxana.net

Kəndə qaz çəkirdi İsrəfil qağa,
Elimizə pənah, pasiban idi,
El onu hörmətlə yad edir indi.

34. Mətilər Söyünü çəkir el dərdi,
Yaşasın xalqımın qeyrətli mərdi!
Allah rəhmət etsin şair Haqverdi
Turşməzə qoşmalar qoşardı hərdən,
Təcnis də yazardı cinas sözlərdən.

35. Rza baba müdrik ağsaqqal idi,
İsə yeyib içən əhli-hal idi....
Xəmməd, Xıdır dava-qalmaqal idi.
Gorbagorlar kənddən çıxdaş oldular,
Cəhənnəmdə Şümrə gordaş oldular.

36. Qızdan həyalıydı İsməndər müəllim,
Səkinə, İbrahimtək ola hər müəllim...
Şeir sərrafıydı atam, Müsəllim,
Əzbər bilərdilər neçə dastanı -
"Xəstə Qasım","Abbas","Dilqəm", "Qurbani".

37. Atam- səxavətli, comərd, xeyirxah;
Yaxşı bir kişiydi, pislikdən uzaq,
Əlindən yaxşılıq gələrdi ancaq,
Qayğıkeş, gülərüz bir insan idi,
Qılıqlı, ülfətli, mehriban idi.

38. Yeddi il dərs alıb molla Musadan,
Quranı hafiz tək bilirdi atam,
(Quran oxumaqda atama çatam!)
Goranda İmanla müəllimlik edib,
Dava başlayanda cəbhəyə gedib.

39. Deyirlər ki, mənim altı əmim vardı,
Hamısını vaxtsız xəlyər apardı,
Rəhmətlik atamın "Əli"ymiş adı,
Onu yeddi kənddə diləndiriblər,
Sonra da adına "Dilən"deyiblər.

40. Şeirə müştaqdılar cəm əsgərlilər,

www.kitabxana.net

Alaxançallılar, vəzdəməlilər...
Aşırlı, Əsgərli, Göyçələr, Cüllər
Nəslim, köküm, yaxın qohumlarımdır,
Qohum, qonşu-tükənməyən varımdır

41. Şair Bayramalı babam da varmış,
Bəzən sübhə kimi oyaq qalarmış,
Mis sinini qaval kimi çalarmış,
Qızıb qıpqırmızı olarmış zərbdən,
Sinidən qığılcım çıxarmış hərdən

42. Bir qalayçı- şair ləzgiylə babam
Deyişməyə başlayıblar bir axşam,
Sübhə yaxın olub deyişmə tamam,
Haqq-aşiqi babam onu bağlayıb,
Ləzgi şair hönkür-hönkür ağlayıb.

43. Düz-Cırdaxan, gün üstünə nur salsın,
Üzün gülsün, dərdin, qəmin azalsın!
İstəyirdim atam mənə saz alsın,
İstəyirdim aşıq olam, saz çalam,
Bülbül kimi bağ-bağçana səs salam.

44. Məhəbətin ilk sevdası başımda
Çoban oldum mən 17 yaşımda,
Yay – Qoşqarda, qış Şirəyin qaşında
Çoban Ələsgərnən, "arıx" Məcidnən,
Quzuçuynan mal otardım çöldə mən.

45. Düz-Cırdaxan, sənin işin nağıldı,
Bir vaxt kolxozluğa at, mal yığılıdı,
Kolxoz qurdun, itdi-batdı, dağıldı,
Nə ilxı, nə sürü, nə naxır qaldı,
Nə tövlə, nə yataq, nə axur qaldı.

46. Daha sədrlərin əmri işləmir,
Hər səhər briqadir doqqaza gəlmir,
"A filankəs, tez ol işə çıx",- demir,
Nə iş var, nə də ki, "işə çıx" deyən,
Nə kolxoz var, nə də plan ödəyən.

www.kitabxana.net

47. Cəlilli “vərəjəm” Yolçu - Sədrimiz,
Muxtar baba idi briqadirimiz.
Onların atalıq qayğısını biz
Heç vaxt unutmarıq, keçsə də illər,
Yaxşı insanları unutmaz ellər.

48. Çox ucuz satıldı kəndin var-yoxu,
Bu alğı-satqğıda qazandı çoxu,
Mat qaldım, gözümdən çəkildi yuxu,
Kəndin malı, mülkü hərraclıq oldu,
Dəhnəsi dağıldı, suyu soğuldu.

49. Traktorçu Paşa, Həmid, Zirəddin
Əkin yerlərini əkərdi kəndin.
Indi əkib-biçmək olubdu çətin,
Söküb, sındırdılar traktorları,
Dağıldı, talandı kolxozun varı.

50. Ağdağın döşündə yataqlar vardı,
Görəsən kim sökdü, hara apardı?
Hələ sökhasökdü, apar-apardı,
Bilinmir kim sökür, kimdi aparan,
Talanır dağda dağ, aranda aran.

51. Neçə qışlaq vardı Ceyran çölündə-
Qanlı Qobu ilə Qazan gölündə,
Sonu gethagetdir, gəlhagəlin də.
Indi nə qışlayam, nə qışlaq qalıb,
Ençilərdə gəliş-gediş azalıb.

52. Hanı ağ sürülər,ala naxırlar,
Mədəni tövlələr, dolu axurlar?
Örüş üçün “Çaxmaqlı”ya çıxırlar.
Şorəkətə getmək olmur maşından,
Olmamışıq belə naəlac yaşından.

53. Yadımdadır yamaclara çıxdığım,
Göbələk, unnuca, şomu yığdığım,
Quzu otardığım, qoyun sağdığım
Isti cülyələrdən su götürdüyüm,

www.kitabxana.net
Kəndə sarı baxıb köks ötürdüyüm.
54. Sədət nənəm mənlə nehrə çalxardı,
Ayran süzüb, qurud qoyub, saxlardı,
Kənddən atam gec gələndə ağlardı,
Həlmə nənəm ona ümid verərdi:
Qorxma, bu gün-sabah gələr,- deyərdi
55. Qızdarxan, Salatın, Gülzadə, Nana
Anam Süleyvar tək əzizdir mana,
Nə Balağza çatmaz, nə Gülcahana
Yüz gəlin eləsə bəhs Cırdaxanda,
Ad alıb, salıblar səs Cırdaxanda.
56. Hər gəlin mahalda yaxşı ad almaz,
Yaxşı ad qazandı. getdi Səlminaz,
Yüz Sərvinaz olsa, Səlminaz olmaz,
Gəlin həyalıydı, qız ismətliydi.
Qohumla, qonşuyla xoş ülfətliydi
57. Qəlbində ev-eşik, uşaq, ər dərdi
Anam səhər tezdən işə gedərdi,
Toxa toxalayıb, alaq edərdi,
Pambıq becərərdi, biçin biçərdi,
Çox işlərdə kişiləri keçərdi.
58. Dava vaxtı anam tezdən durardı;
Bizi başna yığıb, xana qurardı,
Bəzən axşamacan həvə vurardı,
Cəhrə əyirərdi, ip boyayardı,
Kələf kələflərdi, yun darayardı.
59. Qış olanda pambıq çöpü qalardıq,
Az qala özümüzü "peçə" salardıq,
Canımız qızdıqca xumarlanardıq,
Gecə anamıza kömək edərdik-
Yumaq yumarlardıq, pambıq didərdik.
60. Qar yağanda hey qartopu oynardıq,
Həyətlərdə qardan heykəl qoyardıq,
Oynamaqdan nə bezər, nə doyardıq,

www.kitabxana.net

Arx donanda sürüşərdik buz üstdə,
Yıxılardıq arxaüstə, üzüstə.

61. Düz-Cırdaxan, yuyur üzümü yaşlar,
Yan-yana düzülüb qəbrüstü daşlar,
Məni yalqız qoyub dostlar, tanışar,
Əziz dayılarım, atam, qardaşım,
Bacım, müəllimim, məktəb yoldaşım.

62. İmran dayım aşıq kimi geyərdi,
Mənə "Dadaş Bünyadzadə" deyərdi.
Hamımıza onun xeyri dəyərdi,
Qohun-qonşu qayğısına qalardı.
Məclislərin ağsaqqalı olardı.

63. Nə Ağalıq qalıb, nə də ki, bağı,
Pozulub bostanı, quruyub tağı.
İtib "Suşilkanın" yolu-yolağı,
Qalmayıb məsciddən iz Cırdaxanda,
Məscid də qalmayıb, məscid yıxan da.

64. Məhəmməd ağaynan, Səməd ağaynan
Yarışa bilməzdi hər ağacyonan,
10-15 yaşımda həftəynən, aynan
Onlara şagirdlik edərdim əgər,
Bizim şagirdimiz ol, -deməydilər.

65. Düz-Cırdaxan, Ağca xala var idi,
Sərdəni şirəli, hamavar idi,
Səliqə-səhmanı eldə car idi...
Astanlı Sineyvar yuxa yayardı,
Mahir çörəkçini heyran qoyardı.

66. Camal dayı qaranlıqdan qorxardı;
Gecə çölə arvadıynan çıxardı,
Rəhmətliyin babat səsi də vardı,
"Ölürəm, a ceyran balam eyy"- deyərdi,
Bamәzə şerlər əzbərləyərdi.

67. Xanlar alverçiydi, Müslüm çayçıydı;
Balakişi baba arabaçıydı,

www.kitabxana.net

Əli baba məktəbdə qarovulçuydu,
Deyərdi ki, Stalınla öləjəm,
Stalin ölən gün öldü ömrükəm.

68. Töyzəroğlu Söyün mərd yavər olub;
Oruc hər elmdən xəbərdar olub,
Bir şil, bir kor xain, xərdəcər olub.
Onların adını yazmağa dəyməz.
Xar olsun xərdəcər, xain olan kəs!

69. Allahverdi yaxşı səpin səpirmiş;
Kor Qulu bağına çəpər çəkirmiş,
Gecə İskəndərlə, Həsən sökərmiş,
Sabah Qulu qonşu Söynə söyərmiş,
-Lal ha döysən, sən də söysən,- deyərmiş.

70. Həmid əmim sanki, pak mələk idi,
Dara düşənlərə kömək edərdi,
"Daqqa"Abbas əmim çox kövrək idi,
Nalbənd idi- öküz, at nallayardı,
Yaxşı adı - sanı, hörməti vardı.

71. Yaxşı adlı yaxşı bir bibim vardı;
Sınmış qolu, qılçı yernə salardı,
Ondan şəfa uman razı qalardı,
Imdada yetərdi, hoya çatardı,
Arı quşlarına güllə atardı.

72. Əsgər, Tapdıq, Polad halva çalardı,
Hər kim yesə barmağını yalardı.
Toyda Avdıl ,Yunus çayçı olardı,
Yasda Kübra bibim mollamız idi,
Yasin oxyur "molla" Suğramız indi

73. "Calaq" Səfər adlı bir əmim vardı,
Gah alverçi, gah çəkməçi olardı,
Yerli-yersiz çığır-bağır salardı,
Bir yol mətilərlə ortaq olmuşdu,
Qardalını yetişməmiş yolmuşdu.

74. Qəmbər dayı hər yay qarpız əkərdi,

www.kitabxana.net

Qoruqçular keşiyini çəkərdi...
Keçəl Vəli toyda quştək səkərdi,
Zurnaçını, dəf çalanı yorardı,
Rəhmətlik hamını heyran qoyardı.

75. Əhəd dayım yaxşı cələ qurardı,
Eynal cığallara qan uddurardı,
Usuf bir gülləyə 10 quş vurardı,
Kənddə ov ovlayan ilk ovçu var idi,
Qara dayı həm mərd, həm gopçu idi.

76. Ağanisə bibim şairtəhərdi,
Səlim hazırcavab, sinədəftərdi,
Məmmədalı dayı elə geyərdi
Mat qalardı gəlin, qız Cırdaxanda,
Bəzənib, duxlanıb kəndə çıxanda.

77. Yolçudu güvəncim, fəxrim həyanım,
Avzərdi sirdaşım, məni duyanım,
Əmqızlarım – Temiş, Mələksə, Xanım,
Lal olaram tez-tez sizi anmasam,
Şahiddir dəftərim, qələmim, masam.

78. Arxam, pənahımdır Məlik, Sehvalı,
Həmişə halımdan olurlar halı.
El yaxşı tanıyır şofer Mahalı,
Sadədir, mülayim xasiyyəti var,
Qohumla, qonşuyla xoş ülfəti var.

79. Yay olanda el yaylağa köçərdi,
Bulaqlar başında yeyib-içərdi,
Ermənilər kənddə biçin biçərdi,
Şana, kürək, cəhrə, nehrə satardı,
Kərpic kəsər, zığa,çamra batardı.

80. Itlərin dalında ayılar durur,
Arxalı köpəklər azır, qudurur.
Diləndiyi kəndə bu gün od vurur,
Dünən qapımızda muzdur olanlar-
Nankor tulayanlar, quduz ityanlar.

www.kitabxana.net

81. Uşaq idik, Ağdağda ot biçərdik;
Bəhsə girib bir-birmizi keçərdik,
Susayanda quyudan su içərdik,
Zarafatla Eyvaza da söyərdik-
Ananı kankanlar "öpsün",- deyərdik.
82. Söyün əmi bizə acıqlanardı;
Təpinər, yanıyar, söyər, danlardı,
Gah barmaq qıcayar, gah qıcanardı.
Hirslənəndə tez yanından qaçardıq,
O, vurmamış biz bələni aşardıq.
83. Yayda oynayardıq çöldə, çəməndə,
Tarzanlıq edərdik göldə çimənda,
Kino, ya pəhləvan gələndə kəndə
Ya qapıdan, pəncərədən baxardıq,
Ya özümüzü zorla zala soxardıq.
84. Canımızı dişimizə sıxardıq;
Biçindən son kövşənliyə çıxardıq,
Qorxa-qorxa, xəlvət sünbül yığardıq,
Qoruqçular yığdığımızı alardı,
Bizi qovub pərən-pərən salardı.
85. Isti təntidəndə, bürkü sıxanda
Çimərdik, üzərdik Cəlli arxında.
Evə tələsməzdik, sudan çıxanda
Günün altda qaralardıq, yanardıq,
Aşıq-aşıq, cövüz-cövüz oynardıq.
86. Su quşu tək tökülərdik arxlara,
Hərdən cumub bostanlara, bağlara,
Toy tutardıq ağaclara, tağlara.
Çəyirtkə tək hara cumsaq talardıq,
Qoruqçudan belə "qisas" alardıq.
87. Yadımdan çıxmayır heç Qıllı Məcid,
Beqom Əjdər, Bığlı Bəşir, tat Rəşid.
O vaxt bəd qanunlar vardı hər çeşid,
Onda qoruqçuydu bu rəhmətliklər,

www.kitabxana.net
Qorunurdu çöllər, həm kövşənliklər.
88. Xırman vaxtı vəl üstündə çıxardıq,
Itələyib bir-birimizi yıxardıq,
Yıxılanda məyus-məyus baxardıq,
Yıxılanı ata mindirərdilər,
"Atın yalmanından tut," - deyərdilər.
89. Xəniyzoğlu Şəmil nağıl deyərdi,
Arvadnı Budyonnu Mehman döyərdi.
Isaq qağa Mülayimni öyərdi-
Deyərdi- raykoma layiq arvaddı.
(Arvadı kişisi edər urvatdı)
90. Indi də çox nağıl danışanlar var,
Xalqı aldatmaqda yarışanlar var,
Başmızı yozmağa çalışanlar var,
Alma vəd edirlər, alma yetişmir,
Nə nağıl qurtarmır, nə alma düşmür.
91. Məmmədcəfər əmi çaydan doymazdı,
Bir çaydan çay içsə, deyərdi,-azdı,
Toyda Məsmə mamamsız oynamazdı,
Oynaya-oynaya onu öpərdi,
Dolanıb başına şabaş səpərdi.
92. Mama-əvəçiydi Züleyxa nənəm,
Yüz igid bəxş edib kəndə, yüz sənəm...
İtdi Ayaz, Niyaz, alışdı sinəm
Elə bil sinəmdə ocaq çatdılar,
Yandırıb, külümü külə qatdılar.
93. Düz-Cırdaxan, şəhid oldu mərdlərin,
Yas saxladın, ağır oldu dərdlərin,
Mənə gəlsin, ağrın, acın, kədərin,
Görməyəsən xata-bala, əndişə,
Suyun axsın, otun bitsin həmişə!
94. Igid Elman, Fərman, Rafael hanı?
Sadəddin, Aydın, İsmayıl hanı?
Mən də şəhid ollam, Düz-Cırdaxanı

www.kitabxana.net

Vermərəm, versələr yüz Cırdaxan da
Cırdaxan ruhumdur, canımdır canda

95. Zər heykəl layiqdir Mayor Rizvana,
Vətənin hər şeyi halaldır ona...
Şəhidlər şöhrətdir Azərbaycana.
Gəlin şəhidlərər heykəl yonduraq,
Onlara mərmərdən məqbərə quraq.

96. Vətən uğrunda can verənlərə,-
Dahi alimlərə, müəllimlərə,
Böyük sərkərdəyə, şanlı əsgərə
Tuncdan, qranitdən heykəl yonarlar,
Əbədi hörmətə layiqdir onlar.

97. Çox zərflər açıldı "məxfi", surğuçdu,
Zaman çox pərdəli sirrləri açdı,
Stalinin cin boyda heykəli uçdu,
Yerində Məhəmməd soğan, turp əkdi,
Postament daşından itə dam tikdi.

98. Ayaq altında qaldı büstü Leninin,
Hələ çox heykəllər uçacaq bilin,
Hər kim ki, qeydinə qalmayır elin,
Eldə bir nişanı qalmayacaqdır,
Xalq onu yadına salmayacaqdır.

99. Yox indi heykəlsiz meydan, idarə,
Kabinetinə bir büst qoymuşdu hərə.
Heykəl qoya-qoya müstəbidlərə,
Qorxuram axırda büstpərəst olaq,
Allahı, İslamı nüfuzdan salaq.

100. Çox aldandıq, uyduq hər yada, bəsdir,
"Baba", "ata" dedik, hər yada bəsdir,
Eldə heykəl qoyduq hər yada bəsdir.
Vətən torpağında hamıdan əvvəl
Qəhrəman əsgərə layiqdir heykəl.

101. Düz-Cırdaxan, dərdin artdı həddini,
Cahan davasında 50 mərdini

www.kitabxana.net

Itirdin, çəkirsən hərə dərdini,
Onlara layiqdir mərmər abidə,
El yolunda can qoyubdur cəbhədə.

102. Beş il toysuz, şansız oldu payızlar,
Nişanlı gözlədi, qarıdı qızlar.
Gəldi cəbhələrdən "qara" kağızlar,
Abbasəli dayı poçtayon idi,
O qara kağızlar heç gəlməyəydi.

103. Əli dayı, Nəbi əmı, Hasanxan,
Söyün əmi, Mirzə, Heşimli Cahan
Davadan gəldilər əlil, yarımcan-
Qoltuğu çəlikli, canı qəlpəli,
Beşinin qıçı yox, birinin əli.

104. Iyirmi beş gəlin yar həsrətiylə,
Ərini gözlədi sədaqət ilə.
Otuz- qırx atasız övlad da hələ
Ata niskiniylə yanır, qovrulur,
Yarpaqtək saralır, çiçəktək solur.

105. Ərlər gəlməsə də, ümid itmədi,
Bu ər gözləyənlər ərə getmədi-
Ərini, özünü rüsvay etmədi.
Baş əydim onların mətanətinə,
Əzminə, dözmünə, dəyanətinə.

106. Düz-Cırdaxan necə dözdün bu dərdə,
Həsrət qaldın 50 şanlı comərdə?
"Ellər xilaskarı"- "dahi sərkərdə"
Onlara layiqli bir ad vermədi,
Barı, bir medalla sevindirmədi...

107. Zeynaloğlu Musa qəbir qazardı;
Nə hörmət umardı, nə muzd alardı,
Rəhmətliyin sadə bir evi vardı.
Məhləyə palçıqdan barı çəkmişdi,
Bağında 10-15 ağac əkmişdi.

108. Fatma xala çox mehriban anadı;

www.kitabxana.net

Nəcəfdi, Əlişdi qolu-qanadı.
Bax ona yaraşır "Yaxşı ana" adı,
Ögeylərini anar böyük hörmətlə
Doğmalarna olan məhəbbət ilə.

109. Yaxşı qardaş idi Paşayla Qara,
Qardaşlıqda heç kim çatmaz onlara.
Alqış yaxşı qardaş, dost olanlara!
Bir mənzildə yaşadılar 30 il,
İki külfət bir ailəydi elə bil...

110. Bir dəfə Muradla ova getmişdik,
Ov gəzdiymiz yerdə şərtsiz mərcləşdik,
O şapkadan, mən bir güllədən keçdik,
Qoydu şapkasını 10 metr gendə,
Vurdum, başı açıq qayıtdı kəndə.

111. Tokavor "Qatarda" daş çıxarardı;
Gah kənddə, gah karxanada qalardı,
Bir beli, bir lingi, bir gürzü vardı,
Kənddə nə qohumu, nə yadı vardı,
Nə evi, nə də ki arvadı vardı.

112. Düz-Cırdaxan qəribəsən-qəribə,
Mehribansan kimsəsizə, qəribə...
Dərs aldığım müəllimlərə, məktəbə
Imkan ola gedəm, görəm baş əyəm,
Bu yaşda da müəllimləri dinləyəm.

113. Danışılır Nərgiz xalamın çayı,
Qohuma, qonşuya, hörməti payı...
Köçəskər örşündə Əlyullah dayı
Qoruqçuya elə vurub çomaqla,
Bəşir əmi kəndə aparıb ulaqla.

114. Çapaynan Firdovsi min mərdə dəyər,
Əfqanın gülləsi namərdə dəyər.
Amilə, Vüsalə al-əlvan geyər.
Yolçuları yoldan eləyərdilər.
Məni candan, haldan eləyərdilər.

www.kitabxana.net

115. Keçəl əmi yaxşı dirrik əkərdi,
Rəhim-xəttat, Vəkil şəkil çəkərdi.
Nura qərq eyləyir Avtandil kəndi,
Paşa çəkər olsa, qaz Cırdaxanda,
Xalqın kefi olar, saz Cırdaxanda.

116. Indi Qarabağda "hay"lar turp əkir,
Xankəndindən İravana yol çəkir,
Ivanın əmrinə Vartan qol çəkir,
"eş"yanlar, "volk"yanlar azır qudurur.
"Qrad"larla kəndimizə od vurur.

117. Qara Paşa, a var-yoxnu... deyəndi;
Şapan aşlanandı, söyüş söyəndi,
Cəmşid elə usta gop eləyəndi
Verər çoxlarına dərs Cırdaxanda
Etməyin onunla bəhs Cırdaxanda.

118. Kamil əmi, Qıvret yezə qıvraqdı;
Sabir sadiq dostdu, dosta dayaqdı,
Yunus çox sərvaxtdı, hazıryaraqdı,
Həmişə üzüağ çıxıb sınaqdan,
Sağlıq diləyirəm ona Allahdan.

119. Telman saz da, tar da, dəf də çalardı;
Qəribə süzəndə el mat qalardı,
Qulam artistləri yamsılayardı,
Uğunub gedərdik ona baxanda,
Artistlik, komiklik var idi onda.

120. Köhnə dəyirmanın çaxçaxı susub,
Yolunu, cığırını ot-alaf basıb...
On il Qara vəli, QasımovUsuf
Yeddiillik məktəbə gəlib-getdilər,
Məktəbin bağına qulluq etdilər.

121. Rəcəb də onlardan geri qalmazdı;
"2"-dən savayı qiymət almazdı,
Döyülməsə, dərsə meyl salmazdı,
Hansı müəllim "sığallasa"dərisini,

www.kitabxana.net
O müəllimin əzbərlərdi dərsini.
122. Astanın, Famlin ağ olsun üzü,
Arayıb-axtarıb tapırlar bizi...
Qaz olmadı, çoxu kəsdi cövüzü-
Qışın soyuq qarı kəndə yağanda.
Beş-on çinar qalıb yol qırağında.
123. Arxlar boyu söyüd, qovax varıydı,
İndi yoxdu, ancaq o vaxt varıydı.
Hər həyətdə 3-4 şahtut varıydı,
Yetişəndə çadır tutub çırpardıq,
Vedrə-vedrə stansida satardıq.
124. Payızda evdən əldə çatı çıxardıq;
Əyin-nimdaş, ayaq-yalın, baş-açıq,
Çöldən quru kətyan, biyan yığardıq,
Şələ altda görünməzdik özümüz,
Bükülərdi qamətimiz, dizimiz.
125. Yayda baramaya yarpaq qırmaqdan;
Çöllərdə ot yığıb, taya vurmaqdan,
Sümbül döşürməkdən, çırpı yığmaqdan
Hər gün sızlayardı əlim-ayağım,
Belə keçdi gənclik, uşaqlıq çağım.
126. Uşaqlığım dağda, aranda keçdi,
Bürküdə, yağışda, boranda keçdi.
Gəncliyim Bakıda olanda keçdi,
Səhər işə getdim, axşam məktəbə,
Gecə müəllim oldum, gündüz tələbə.
127. Toylar, şanlar qış girməmiş olardı,
Nə şadlıq evi, nə toyxana vardı.
Çalğıçılar həyətdəcə çalardı,
Aşıq evdə danışardı dastanı,
Indi toyda dastan dinləyən hanı?
128. Müəllimlər dinləyəndə aşığı,
Məclisə heç qoymazdılar uşağı.
Toy evinin yanmamışdan işığı

www.kitabxana.net

Xəlvətlənib müəllimdən, atamdan
Yük dalında gizlənərdim axşamdan.

129. Daha az çağrılır toylara aşıq,
Pozulub əvvəlki nizam, yaraşıq,
Işlərimiz olub dolam-dolaşıq,
Məddah tamadalar meydan sulayır,
Yad mahnılar qulaqları dalayır.

130. Bir qüsurum varsa, bağışla, nolar,
Böyüksən, böyükdə kəramət olar.
Düz-Cırdaxan, Haqdan bir diləyim var-
Kaş üzüm ağ olsun sənin yanında,
Kəsilməyim sənin imtahanında.

131. Cırdaxan, sönməsin odun, ocağın,
Günəştək əbədi yansın çırağın,
Yayılsın aləmə səsin, sorağın!
Mənim şöhrətimdir şöhrətin, adın
Mən nədən yazardım sən olmasaydın?!

1. Düz-Cırdaxan - əziz, mehriban guşə,
Adın nəğmə kimi dillərə düşə!
Harda oluramsa olum, həmişə
Sənin yanındadır səyyar xəyalım,
Hər səni ananda xoş olur halım.
2. Düz-Cırdaxan, sənə bəxtin yar olsun,
Aləmə şöhrətin-şanın car olsun,
Etibarlı oğlun, qızın var olsun,
Yaxşıların yaxşı dövran sürsünlər,
Gözəllərin gözəl günlər görsünlər!
3. Düz-Cırdaxan, nə çayın, nə bərən var,
Elə düzsən, nə dağın, nə dərən var,
Bir-birindən abad yeddi tirən var,
Hər tirən, hər evin abad, şən olsun,
Elimizdən xata-bala gen olsun.
4. Hanı papaqlılar, qəlyan çəkənlər-
Məclisdə seçilib başa keçənlər,
Ağsaqqallıq edib plan çəkənlər?
Rəhmətliklər elə plan çəkib ki,
Küçələr çox dardı, yoxdur bir səki.
5. Hörmətə layiqdi Söyün, Əbülfət,
Pisə lənət olsun, yaxşıya rəhmət.
Dünya cənnət olar, olsa ədalət,
Gündən-günə abadlaşar elimiz
Canımızdan əziz tutsaq eli biz.
6. İşıqlar sönəndə kənddə hər səfər
Nahaq qarğanardı montyor Cəfər...
Kababçı Fəxrəddin, çayçı Müzəffər
İşə yarayırlar xeyirdə, şərdə
İstər kənddə olsun, istər şəhərdə.
7. Düz-Cırdaxan elim, obam, ölkəmdir,
Yurda sədaqətim, andım möhkəmdir,

www.kitabxana.net

Şəhərdəki surətimdir, kölgəmdir,
Canım kənddə qalıb kənddən çıxanda,
Məni gəzən tapar Düz-Cırdaxanda.

8. Vətəndir-Varlığım gözümün sağı,
Bülbüləm, yuvamdı bağçası, bağı.
Günəşlə yanaşı dursun bayrağı
Odlar ölkəsinin, sönməsin odu.
Şən olsun Qorqudlar,Oğuzlar yurdu!
9. Mehriban qonşudu Mülkülü, Cəlli...
Qızlarımız – vəfalı, mərdlərimiz – bəlli.
Könlüm ilham alır, qəlbim təsəlli
Görəndə bir gülər üz Cırdaxanda,
Kənddə dostlarımla seyrə çıxanda.
10. Düz-Cırdaxan, iydə çiçək açanda;
Bağ-baxçana xoş ətrini saçanda,
Qaranquşlar qucağına köçəndə,
Pərvazlanıb, quştək qanadlanaydım,
Uçub, gəlib sənə qonaq olaydım!
11. Çoxdandı görmürəm, nəsibim bumu?
Həsrətin gözümdən qovub yuxumu...
Rəssam xəyalımı, şair ruhumu
Ay məni axtaran, gəz Cırdaxanda,
Mənim həsrətimlə hər darıxanda.
12. Tamara bacıya çox hörmətim var,
Dağına, düzünə vaxtsız yağdı qar.
Səfaləddin, Səyyaf qətl olundular,
Nahaq qətl, qada sarsıtdı eli,
Bütün bağırlının qırıldı beli...
13. Düz-Cırdaxan, dağlarımı qar alıb,
Xəzan xurub, çəmənzarım saralıb,
Gülşənimdə güllərimi xar alıb,
Xarı gülmü qoxuyanım yox mənim,
Yazdığımı oxuyanım yox mənim.
14. Üzüm bağlarının kökü kəsildi,

www.kitabxana.net

Tamarzı qalmışıq üzümə indi,
Keçid dövründəyik artıq dörd ildi,
Hələ bu keçidin görünmür sonu,
Keçid elə donub, açılmır donu.

15. Dəli qajnan Əyri dərə düzlənib,
Tapdıq verib buldozerə düzlənib,
Daşdı təpə, xırman itib, gizlənib
Yerin biz hissəsi Tovuza satılıb,
Bir hissəsi Cəlli yernə qatılıb.

16. Harda yatıb kəndin başbilənləri?
Satqın satıb, azğın zəbt edib yeri,
Zorla almalıyıq torpağı geri,
Danışıqla donuz çıxmaz darıdan,
Torpağı xoşluqla qaytarmaz Vartan.

17. Gəncəli qohumna xəbər göndərin,
Yurdu yada qaldı Mir Ələsgərin...
Yurdunun qədrini bilməyənlərin
Tıfağı yağıya-yada qalacaq,
Yurdunda gəlmələr məskən salacaq.

18. Rəzəddin sağ olsun, dəyirman qurub,
Zepi təmannasız kəndə su vurub.
Özünü güdənlər məclisdə durub:
"Xalqa çalışıram," – deməsin, barı,
Xalq yaxşı tanıyır riyakarları.

19. Vahid,Nazim Kamal, İsmayıl, Sədi
Yoldaş, sirdaş, qardaşdrılar əbədi;
Bir-birinin başına pərvanədi,
Elə pənahdılar, xeyirdə, şərdə,
Şərikdilər həm sevincə, həm dərdə.

20. Düz-Cırdaxan, yolum səndən gen düşüb;
Dağıma qar, yaylağıma çən düşüb,
Ayrılıqdan saçlarıma dən düşüb,
Sənsiz üzüm gülmür, könlüm açılmır,
Bülbülüm oxumur, gülüm açılmır.

www.kitabxana.net

21. Elmixan, Xanvəli, Sultan, Bəxtiyar,
Sizin kimi yaxşı qonşu harda var?
Əlinizdə imkan da var, var da var,
Heyif ki, yolunuz bir azca dardı,
Yol kəsən, daraldan lənət apardı.

22. Düz-Cırdaxan, uzaq düşdüm qoynundan,
Baş açmadım bic fələyin oynundan,
Yapışdı yaxamdan, basdı boynumdan
Doğma Dərbənd, Təbriz ağırlıqda dərd,
Gorus, Göycə boyda intizar, həsrət.

23. Ya Avaza, ya da Ağdağa çıxam,
Ordan kəndimizə doyunca baxam.
Nə uzaqda olam, nə də darıxam,
Kənddən bircə gün də uzaq olmayam,
Elimə-obama həsrət qalmayam.

24. Ağdağ-Hərram , Turum, Minamdır mənim,
Ərafatım, Heydər babamdır mənim
Vətən – anam, atam, canımdır mənim,
O tay-bir gözümdür, bu tay-bir gözüm
Təbrizdir, Tovuzdur ən şirin sözüm.

25. Təbriz dedim, Təbriz çıxmaz yadımdan,
Ora gedən salam desin adımdan,
Müjdə versin Marağadan, Zəncandan
Əsən yellər, uçan quşlar amandı,
Hicran dərdi hər bir dərddən yamandı.

26. Arzularım çin olmamış ölməyəm,
Səttar xanın məzarına baş əyəm.
Urmiyada aşıqları dinləyəm,
Çalıb oxuyalar sabaha qədər,
Silinə könlümdən qüssə, qəm, kədər!

27. Uçmaq üçün quşdan qanad alaydım;
Xoyu, Ərdəbili seyrə dalaydım,
Salmasda, Mərənddə qonaq olaydım,
Şəhriyarın türbəsini görəydim,

www.kitabxana.net

Sərhəndə baş əyib, salam verəydim!

28. Dörd ildir ki, "hay"a qalıb Qarabağ.
Nə vaxtacan Dərbənd, Gəncə, Qaradağ,
Borçalı bir-birinə həsrət qalacaq?
Hansı igid çırmalayıb qolunu,
Çəkəcəkdir Bakı – Təbriz yolunu?

29. A yolu kəndimə yaxın qatarlar,
Hər axşam Bakıdan çıxan qatarlar,
Sizə uğur olsun! Bir xahişim var:
Hər səhər kəndimə salam söyləyin,
Sənsiz qəribsəyir balan, söyləyin.

30. Düz-Cırdaxan, cümlə-cahan oyandı,
Alkaş İvan, sərxoş Vartan oyandı.
Bir görəydim Azərbaycan oyandı,
Hamı Babəkləşdi, Cavanşirləşdi,
O tay, bu tay bütöv oldu – birləşdi.

31. Abdı babam ilə cünnəkli Şəmil
Kimlə çomaqlaşsa, edərdilər şil.
Hanı qeyçəl Ənvər zorda, gücdə fil?
Dağ çapa, bürc qura, qala yarada,
Göz dağı çəkdirə yağıya- yada...

32. Bəsdi dalaşardı hər gün əriylə,
Sona yol getməzdi gəlinləriylə.
Şadsafa qonşunun gündə biriylə
Heç nəyin üstündə dava salardı,
Söyüş-qarğışdan son rahatlanardı.

33. Kənd şəhər görünür gendən baxana,
Yan-yana düzülüb dükan, çayxana,
Dağılıb sərtövlə, dəmirçixana...
Bir məktəb, bir məscid, bir kitabxana
Tikilsə, tay olmaz Düz-Cırdaxana.

34. Gəlin hamılıqla əl-ələ verək,
Kəndi abad edək, savab iş görək.
Yollar boyu ağac əkək, becərək,

www.kitabxana.net

Şəhidlərə layiq xiyaban salaq,
Elin qayğısına qalanlar olaq!

35. Mənim sözlərimdə yoxdur yalan, gop,
Şəkkak, ağlın varsa, bircə yalan tap,
Gündüz çilik-ağac, ənzəli, top-top,
Ay doğanda sülük-sülük oynardıq,
Səhər-axşam həyətlərdə qaynardıq.

36. Düz-Cırdaxan, əldən getdi uşaqlıq,
Dəli-dolu gənclik, subaylıq – "şahlıq"
Hanı o əvvəlki hünər, qoçaqlıq?
Gürzələri, şahmarları tutardım,
Atları yəhərsiz minib çapardım.

37. Bilmirəm, a dostlar, bu əsərimdə
Hər şeyi dedimmi yerli - yerində,
Hər il tay-tuşumla mayın birində
Yemşənli təpəyə seyrə çıxardıq,
Quzqulaq, qulançar, çiçək yığardıq.

38. Sınağa çəkmədi bu dövran kimi?
Zəlil etdi haqqı danan hakimi,
Günəş dan yerinə qayıdan kimi
Yerimə, yurduma dönəcəm mən də,
Dönük taleyimin üzü güləndə.

39. Daha ayrılığa dözməyir ürək,
Yaman omaxşıyıb. olmuşam kövrək.
Kürümlə Arazım qovuşduğutək
Qohuma, qardaşa qovuşacağam,
Hicran alovundan sovuşacağam.

40 .Vətənə bağlıyam Cavad xan kimi,
Şah İsmayıl kimi, Cavidan kimi.
Şəhriyar Təbrizə qayıdan kimi,
Mən də qayıdacam Düz-Cırdaxana,
Yanına gələcəm, ay əziz ana...

41. Böhtançı, qeybətçi, quloşa, qudda
Alışsın ocaqda, kül olsun odda...

www.kitabxana.net

Yaxşı qohum, qonşu, lap yaxşı yad da,
Şərdən uzaq olsun, xatadan xalı!
Şən olsun, şen olsun elin əhvalı!

42. Qohumdan qonşudan qeybət qıranlar;
Bədxahlar, bədhaqlar, aravuranlar,
Xainlər, xəbislər, yaxa cıranlar,
Görməzlər adlarnı misralarımda,
Onlara yer yoxdur söz qatarımda.

43. Şerimdə adını gəzməsin nahaq,
Mindilli, minüzlü, riyakar, yaltaq.
Nankor, qədirbilməz, bədrəftar, bədhaqq,
Kəmfürsət, vicdansız, alçaqdan alçaq,
Həcvimdə şəklini tanıyar ancaq.

44. Kasıb qohumunu bəyənməyənlər,
İmkanlı yadlara qohum deyənlər,
Xunxarlar, acgözlər, haram yeyənlər,
Fürsət tapan kimi xalqı soyarlar.
Millətin boynuna minnət qoyarlar.

45. Xar olsun elimə ağız büzənlər,
Düz sözdə-söhbətdə qüsur gəzənlər.
Kor olsun gölümə qələm düzənlər.
Tora düşsün xalqıma tor quranlar,
Bədzatlar, çuğullar, üzə duranlar!

46. Necə sevirəmsə, cümlə cahanı,
Necə sevirəmsə Azərbaycanı,
Mən elə sevirəm Düz-Cırdaxanı.
Yaşasın dünya da, Azərbaycan da,
Yaşasın dünyada Düz-Cırdaxan da.

47. Yoxdur Ənvər, Qurban kimi bağ salan,
Lətif, Cəmil kimi fışqırıq çalan.
Xeyirxah, sözümdə tapsan bir yalan,
İnsaf et, doğruya yoz Cırdaxanda,
Səhv edər alim də, nökər də, xan da.

48. Çoxdan çap olardı bu mənzum əsər,

www.kitabxana.net

Əla rəy yazardı mütəxəssislər.
Bir azca imkanım olsaydı əgər,
Bir azca olsaydım yaltaq, yaranan,
Belə xəlq eləyib məni yaradan.

49. Düz-Cırdaxan, sənin üzün ağ olsun,
Gedənlərin gedib, başın sağ olsun,
Qalanların səndə kefi çağ olsun,
Gələnlərin qucağında söyünsün,
Övladların adın ilə öyünsün!

50. Yurduma xor baxanlarla qanlıyam,
Yurdcanlı, elcanlı, vətəncanlıyam.
Binnətəm, demərəm Cırdaxanlıyam,
Vətənə layiqli övlad olmasam,
Cırdaxana layiq bir ad qoymasam.

Düz - Cırdaxan sənə qayıdacağam

Epiloq

1. Yordum daş-kəsəkli, yoxuş yolları,
Düz-Cırdaxan, ömrü elədim yarı.
Elə bilirəm ki, mən səndən ayrı
Atasız, anasız yetim uşağam,
Düz-Cırdaxan, sənə qayıdacağam.

2. Bu sənsiz günlərim mənə dərd olur;
Həsrətin boynuma bir kəmənd olur,
Hər səni ananda gözlərim dolur,
Bir himə bəndəm ki, leysan tək yağam,
Düz-Cırdaxan, sənə qayıdacağam.

3. Bir xoş gün görmədim çıxalı kənddən;
Əllərim uzalı qalıb həsrətdən,
Bu acı həsrətin verdiyi dərddən,
Ölüb qurtarmıram, hələ ki, sağam,
Düz-Cırdaxan, sənə qayıdacağam.

www.kitabxana.net

4. Qolumdan tutası əmim, dayım –yox;
Talehdən, qismətdən, bəxtdən payım- yox,
Könlümü oxşayan yazım, yayım- yox,
Sənsiz sanki odu sönmüş ocağam,
Düz-Cırdaxan, sənə qayıdacağam.

5. Sənsiz açılmayır qaşım, qabağım,
Pərişan üzümə gülmür sabahım.
Sənsiz elə bil ki, əlim, ayağım
Zəncirlə bağlanıb, sanki dustağam,
Düz-Cırdaxan, sənə qayıdacağam.

6. Bizi ayrı salıb dövranın əli,
Ayrı düşənlərin ömrü gödəli.
Eldən ayrılalı, kənddən gedəli,
Kəsilmiş ağacam, sınmış budağam,
Düz-Cırdaxan, sənə qayıdacağam.

7. Şəhərə bağlanıb, düşmüşəm bəndə,
Ya toya, ya da yasa gedirəm kəndə.
Elimdən-obamdan ayrı düşəndə,
Sanıram dünyadan tamam uzağam,
Düz-Cırdaxan, sənə qayıdacağam.

8. Ayrılıq əbədi sinə dağımdır,
Ayrılıq törədən yadım, yağımdır.
İndi elli-günlü olan çağımdır,
Elsiz bir sahilə düşmüş balığam,
Düz-Cırdaxan, sənə qayıdacağam.

9. Əlli ildir səndən aralanmışam;
Əlli yol həsrətdən yaralanmışam,
Əlli yol üst-üstə uralanmışam,
Pozulmuş bostanam, qurumuş tağam,
Düz-Cırdaxan, sənə qayıdacağam.

10. Bir sənsən cahanda arxalandığım,
Ümidim, gümanım, arxa sandığım.
Sənsən fikrim-zikrim, hər vaxt andığım,
Neçə ki, sən varsan, vüqarlı dağam,

www.kitabxana.net

Düz-Cırdaxan, sənə qayıdacağam.

11. *Ay ata, sevirsən ana Vətəni,
Öz doğma kəndini, öz məskənini.
Anamtək, qızıntək, ay ata səni
Kaş sevə istəyə Düz-Cırdaxan da,
Nənəm fərəhlənə sənə baxanda!

11ci bəndi qızım Vəfa yazıb.

III Hissə

«Həsrət» poemasına şərhlər və izahatlar

Düz-Cırdaxan- Tovuz şəhərinin bir kilometrliyində, Bakı-Qazax dəmir yolunun gün çıxan tərəfində düzəngahda, insanları mehriban, abad bir kənddir. Bakı-Qazax avtomobil yolu və Qazax-Şəmkir suvarma kanalı kəndimizin içindən, "Hasadar" adlı bir arx da qəbiristanlığımızın içindən keçir.

Mənə dünya, vətən, həyat,ana, övlad qədər əziz olan bu şenlikdə cahana gəlmişəm.

Sənədlərdə "Düz-Cırdaxan" yazılsa da, kəndimizə çox vaxt "Cırdaxan" deyirlər, adının mənası heç bir lüğətdə açıqlanmayıb.

Nəslim - Aşırlıdır, köküm - Əsgərlidir.

Arzum - Dünyanı şen, Azərbaycanı –bütöv, qüdrətli, abad və azad görməkdir.

Məqsədim - Vətənimə, xalqıma xidmət etmək, şagirdlərimə əla təlim-tərbiyə vermək, öz vətəndaşlıq və müəllimlik borcumu layiqincə yerinə yetirməkdir. Topaqqala- kəndimizdən 8-10 km aşağıda, kür çayının üstyanında Hunun düzündədir .

Ağdağ - kəndimizin üst tərəfində dağdır.

Murğuz - Ağdağdan yuxarıda, Tovuzun 20-30 km-də dağdır, Tovuz camaatının yaylağı idi, indi Ermənistan ərazisi sayılır.

www.kitabxana.net

1941-45-ci illər kəndimizdən 100 nəfərdən çox cəbhəyə gedib, 50 nəfəri qayıtmayıb.Davadan sonra kəndimizdə Novruz bayramı daha təntənəli olmağa başladı.

Məhəmməd babam - Anamın atasıdır. Yaxşı dülgər imiş, elsevər imiş.

Əhməd babam - Atamın atasıdır, çox səxavətli, qonaqpərvər idi. Qapıya gələn dilənçiyə pay verib deyərdi: - Yığdığını özünə yük etmə, burda qoy, gecə qonağım ol, sabah da yığdığını da götür get.Atam davada olanda yorğandan açdığı deşikdən əlini gibləyə tərəf uzadaraq deyərdi: - Allah, oğlum gələnədək mənə ömür ver, oğul həsrətinə dözməyib, axırda dedi:- Daha dözə bilmirəm, Allah, mənə ölüm ver. Bir neçə gündən sonra cənnətlik oldu. Uzun müddət kəndimizin cuvarı olub.

Şövkət - kəndimizin klub müdiri idi.

Islam əmi - kəndimizin abadlığı üçün yuxarı təşklatlara ərizə göndərərdi, çox vaxt ərizələri mənə yazdırardı. əksər halda ərizələrin xeyri olardı.

Qəssab Avil - hazırcavab və zirəng idi. Bozalğanlı aşıq Hüseyinlə məhkəm dostluğu və zarafatı varmış.

Mətioğlu İsə - kənddə icra başçısı olanda, çoxlarını sürgündən xilas edib.

İmiroğlu Qara - Qori seminariyasını bitirmişdi, çox savadlı idi.

Ağalıq Novruz, Mənaf Mərdan oğlu, İmirli Qasım kəndin mötəbər kişiləri idi.

Yetim Cəfər - El qeyrəti çəkən kişi imiş.

Dərzi Səməd - Əla tüfəng atarmış. Yaylada bəylər beş sapın hərəsinə bir kişmiş bağlayıb kişmi°ləri güllə ilə vurmağı qərara alırlar. Hərəsi bir neçə güllə atır, kişmişləri vura bilmir. Orada olan bəylərdən biri: A Səməd, bunlar güllələri hayıf edirlər, gəl o kişmişləri vur. Səməd kişi: kişmişlər də hayıfdır, mən sapları vurum, kişmişləri uşaqlar yesin, deyib kişmiş asılmış sapları güllə ilə vurub qırır, kişmişləri uşaqlar dənləyir

www.kitabxana.net

Hümbət – ticarət işini əla bilir. Rayonun və kəndin hörmətini qazanıb, əziz sirdaşım, qohumumdur.

İsrail - orta məktəbi qızıl medalla qurtarıb. Rayon baytarlıq idarəsinin müdiri idi. Çox istiqanlı, qohumcanlıdır, nüfuz və hörmət sahibidir, lirik şerlər yazır.

Isrəfil qağa – müəllim, kolxoz sədri, rayon başçısı Respublikanın mərkəzi idarələrində şöbə müdiri, ali sovetin deputatı olub, nürani, mehriban şəxsiyyət idi, böyük hörmət və nüfuz sahibi idi.

Mətilər Söyümü – rəvayət və nağılları nəsihətamiz hekayə və hədisləri çox məharətlə danışan, el qeyrəti çəkən, xətrini istədiyim qohumdur, ağsaqqaldır.

Şair Haqverdi - turşməzə qoşmalar yazardı.

Rza baba - Məclisdə başa dəvət olan ağsaqqal idi.

İsə - nə qədər içsə də, sərxoş olmayan əhli- hal idi.

Səkinə - yaxşı kimya müəllimidir, yaxşı qohumdur.

İbrahim - yaxşı riyaziyyat müəllimi idi yaxın dostum idi.

Isməndər - sevimli müəllimim idi, incə xətti, həlim xasiyyəti vardı.

Atam Dilən (Əli) – 7 il kəndimizdə molla Musanın şagirdi olub. Quranı əzbər bilirdi. Bir müddət Goranboyda Növrəs İmanla bir məktəbdə müəllimlik edib, bir evdə yaşayıblar. Imanla möhkəm dost olub, çox səxavətli, qonaqpərvər, nurani bir kişi idi. Əlindən gələni qohum – qonşuya, dost-tanışa əsirgəməzdi, aşıq ədəbiyyatını mükəmməl bilirdi, özü də hərdən şirin qoşmalar yazırdı. Qazax müəllimlər seminariyasını bitirmişdir.

Müsəllim – çox güclü hafizəsi var idi. Bir dəfə oxuduğu dastanı, şeri əzbər bilirdi. Aşıq ədəbiyyatını heç kim onun kimi bilməz.

Bayramalı babam- Əhməd babamın atası imiş; mis sinini qaval kimi çala-çala, axşamdan sabaha kimi şeir deyərmiş. Sədət nənəm deyərdi ki, sini qızıb qızarardı, hərdən sinidən qığılcım çıxardı. Bir qalayçı-şair ləzgi ilə axşamdan səhərə kimi

www.kitabxana.net
deyişib, sabaha yaxın ləzgi şairi bağlayıb. Təəsüf ki, əldə bir şeiri də qalmayıb.

Çoban Ələsgər, Quzuçu- çoban yoldaşlarımdır.

Arıx Məcid- atamın əmizadəsidir,çoban yoldaşım olub.

Cəlilli "Vərəjəm yolçu" uzun müddət kəndimizin sədri olub. Camaatın qeydinə qalan, kasıblara kömək edən comərd kişi idi.

Muxtar baba-Xeyirhax ağsaqqal idi.

Troktorçu Paşa – kəndimizin əksər traktorçularının ustası, ağsaqqalıdır, kəndin xeyir-şərinə yarıyandır, hörmətə layiq ağsaqqaldır.

Zirəddin – özündən başqa neçəsini traktorçu edən, əlindən ancaq yaxşılıq gələn kişidir.

Həmid – zəhmətkeş, şagirdlərinə qayğı göstərən ustadır, 5-6 ay şagirdi olmuşam, mehribandır, sadədir, yaxşı traktorçudur, motorçudur.

Sədət nənəm - atamın anası, 15-20 nəvənin nənəsi idi. Bizi elə çox istərdi ki, o, öləndən sonra nəvələri onun goruna and içərdi.

Həlmə nənəm - ananın anasıdır. Gülər üzlü, şirin sözlü, xanım-xatın nənə idi, atam onun, o da atamın xətrini istərdi. Atam onu yayda yaylağa, qışda qışlağa aparardı.

Qızdarxan- böyük hörmətə layiq kiçik bacımdır.

Salatın – xətrini istədiyim mamam qızıdır.

Gülzadə - bütün qohumlar xətrini istədiyi xalam qızıdır.

Nana - bir gün də yadımdan çıxmayan, şəfa dilədiyim dayım qızıdır.

Balaqız - Əlizadənin yoldaşıdır hörmətli gəlindir.

Gülcahan- Elbəyin yoldaşıdır, anama, Rizvan dayıma etdiyi xidmətə, göstərdiyi qayğıya görə ona minnətdaram,əsil qohumdur,üzü, günü ağ olsun!

Səlminaz – Hümbətin yoldaşı idi. Kənddə hamı onun xətrini istəyirdi. Əziz gəlinimiz, bacımız idi.

www.kitabxana.net

Imran dayım - anamın böyük və əziz qardaşıdır. Məclislərimizin ağsaqqalı, yaraşığı idi, qayğıkeşimiz, ümid və and yerimiz idi.

Səməd ağa, Məhəmməd ağa- iki qardaş, yoldaş, mahir sənətkar idilər.

Ağca xala – anamın bibisi qızı idi, çox təmizkar idi.

Astanlı Sineyvar – çox ləzzətli xörək bişirər,nazik yuxa yayardı.

Camal dayı – partkom, briqadir, cuvar olub. Təmiz geyərdi, arabir pəsdən oxuyardı. Sakit, rahat kişi idi.

Xanlar - qoltuqfuruş (qoltuğunda mal satan), əldən –ayaqdan zirək idi.

Balakişi baba - anamın yaxın qohumudur. Həmişə qayğımıza qalardı, çox mərhəmətli idi.

Əli baba məktəbdə qaravulçu idi.Zarafatla soruşardılar:-Əli baba nə vaxt öləcəksən? Deyərdi: -Oğul, o Stalin sağdırmı? O ölən günü öləjəm. Stalin ölən gün Əlibaba vəfat etdi.

Töyzəl oğlu- anamın bibisi oğludur, rus ordusunda yavər olub, uca boylu, gülər,hamının hörmət etdiyi bir ağsaqqal idi.

Oruc – Bütün fənnləri əla bilirdi, yaxın dostum idi.

Əsgər (Mustafa oğlu), Tapdıq, Polad – yas yerlərində əla halva bişirərdilər.

Avdıl, Yunus – məclislərdə çayçı olardılar.

Kübrə bibim- yaxın qohumların yas məclislərində yasin oxuyardı. Çox mehriban, istiqanlı qohum idi.

Suqra – yaxın qonşumuzdur. Hərdən o da cümə axşamlarda molla olmayanda öz bildiyi kimi fatihə verir.

Allahverdi – yaxşı səpin səpirdi, hamı istəyirdi ki, məhləsinə taxılı o səpsin.

Kor qulu – Söyün kişinin qonşusudur. Gündüz Qulu öz bağına çəpər çəkibmiş, gecə öz oğlu Həsən, Söyün kişinin oğlu İskəndərlə çəpəri söküblər ki, sabah ataları dalaşsın. Sabah Qulu elə bilir çəpəri Söyün söküb, onun qapısına gəlib,gül ağzını açır, nurlu gözünü yumur, Qulu söydükcə Söyün gülür,

www.kitabxana.net
daha da pərt olan Qulu: - A it oğlu,nəyə gülürsən, mən söyürəm, sən də söysən. Söyün gülə-gülə: - A başın batsın, ölülərimizə sən söydüyün bəs deyilmi?

Həmid əmim – atamın əmizadəsidir. Nurani mərhəmətli kişi idi.

Daqqa Abbas – atamın əmizadəsidir, nalbənd idi. Uşaq kimi kövrək, sadəlövh kişi idi.Atamı çox istərdi, atam da onu ağsaqqal sayar,məclisin başına çəkərdi.

Yaxşı bibi - zəhmətkeş, qohumsevər xanım idi. Həyətində arı pətəkləri olanda aruquşlarına güllə atardı, ara həkimliyi də vardı.

Calaq Səfər - atamın əmizadəsidir- Tiflisdə Stalinin babası ilə bir dükanda çəkməçilik edib. Stalinlə dostluğu da olub. Bir dəfə Məti oğlu Söyünlə (bizim məhləyə yaxın yerdə) ortaqlı qarğıdalı əkiblər, qarğıdalı bir az boy verəndə,Söyünün oğlu İsə Səfər əminin qızı Zinyəti qaçırdır.Bu xəbəri eşidən Səfər əmi qarğıdalını yolmağa başlayır. Bunu görən atam: - Ay əmi, qarğıdalını niyə yolursan? Səfər əmi:- daha onlarla ortaq olmuram, deyir.

Qəmbər dayı - anamın yaxın qohumudur, çox vaxt bostan briqadiri olardı, yaxşı qarpız əkərdi, biz də hərdən o bostana "yaxşı əl çəkərdik". Bizi tutanda deyərdi: -Qorxmayın, dayısından oğurluq edən döyülməz.

Yaxşı bir qarpız verib, yola salardı.

Keçəl Vəli - tərləyənədək oynardı, tərləyəndə üst paltarlarını çıxarıb atardı, oyunu davam edərdi, çox gözəl oynardı, qıvraq kişi idi.

Ağanisə bibi- qohumcanlı, zəhmətkeş, qoçaq, hazırcavab idi,hər sözə şerlə cavab verərdi.

Səlim Sinədəftər - aşıq şerinin əksər formalarında şerlər yazır, bəzən satirik şerlər də yazır.

Əhəd dayım- anamın dayısı oğludur. Mərddir bir az mübaliğəli danışmağı var.

www.kitabxana.net

Eynal (Eynullah)- anamın xalası oğludur. Qoçaq və mərd idi, özü boyda 4-5 adama dov gələrdi.

Usuf müəllim - bir dəfə bir gülləyə 40 sərçə vurmuşdu.

Qara dayı - çox mərd kişi idi, mübaliğəli danışmağı sevərdi. Ona görə tay-tuşları ona "Gop Qara" deyərdilər. o da deyərdi:-sizi kimilərinə ancaq gop yaraşır.

Yolçu- böyük və istəkli qardaşımdır, mərd, qorxmaz, zirəkdir. Şıx geyinməyi, şəhər-şəhər gəzməyi, qazandığından artıq xərcləməyi sevirdi. Çox səxavətli idi.

Abuzər - sinif, əsgər, yataqxana yoldaşım, sədaqətli dostum, sadiq sirdaşım idi. Mərd, qorxmaz və zirəng idi. Yaşıd idik, həmişə məni böyük sanırdı, çox halallığı sevən idi.

Mələksə, Temiş, Xanım – atamın əmisi qızlarıdır. Onları böyük bacı kimi istəyirəm.

Məlik, Sehvalı- mərd,qohumcanlı, arxalandığım əmizadələrimdir.

Mahal – qardaşım Yolçunun və mənim dostum, kəndin hörmətini qazanıb.

Eyvaz – yaxın qonşum uşaqlıq və məktəb yoldaşımdır.

Söyün əmi(Heşimoğlu) - yaxın və yaxşı qonşum, köhnə iş yoldaşımdır, həlim xasiyyətlidir,yaxşı yoldaşlığı, qonşuluğu var.

Qıllı Məcid, Beqon Əjdər, tat Rəşid- kəndin qoruqçuları idi.

Bığlı Bəşir - bir müddət qoruqçu oldu, sonra kəndin dəyirmançısı oldu, qoçaq, qıvraq, çal bığlı kişi idi, Koroğludan oxumağı sevərdi.

Xənizə oğlu Şəmil – nağıl və dastanları elə danışardı ki, dinləməkdən doymazdım. Atamla onun söhbəti çox maraqlı olurdu, onlar danışdıqca əzbərləməyə çalışardım.

Budyonnu Mehman - atanın yaxın qohumudur. Heç kim öz arvadını onun kimi "məharətlə" döyə bilməz. Hündürboylu, Budyonnunun (Marşal) bığı kimi bığlı kişi idi.

www.kitabxana.net

Isaq qağa- çoban idi, qıvraq idi. Rahat adam idi. 2-ci dəfə evlənəndə soruşublar: - Ay qağa, bu arvadın neecədir? Isaq qağa: - Raykoma layiq arvaddır, demişdi

Məmmədcəfər əmi- Məsmə mamanın əri, çox zəhmətkeş nurani bir ağsaqqal idi, çayxor idi. Bəzən bir oturuma 15-20 istəkan çay içərdi. Toyda mamamla oynayanda onu öpər, məclisdəkiləri güldürərdi.

Züleyxa nənəm – anamın xalasıdır, kəndimizdə əksər qadınların doğuşuna kömək edərdi.

Ayaz, Niyaz - Fərhad əminin oğlanları – Qarabağ döyüşlərində itkin düşüblər. Elman Əmirəhməd oğlu, Fərman Mikayıl oğlu,- Rəfail Qəşəm oğlu, Sadəddin Rəhim oğlu, Aydın Hüseyn oğlu İsmayıl Qəzənfər oğlu – Qarabağ döyüşlərində rəşadətlə, mərdliklə vuruşub, şəhid olublar. Allah şəhidlərimizə rəhmət eləsin!

Mayor Rizvan - Məşədi oğlu, Qarabağ döyüşlərində itkin düşüb çox vətənpərvər mərd və qorxmaz idi.

Məhəmməd (Kərəşdi)- Stalinin heykəli olan sahə Məhəmmədə məhlə yeri verilmişdi, heykəli uçurdular postamentin daşı Məhəmmədə qaldı.

Abbasəli dayı - müharibə (1941-1945) illərində kəndin məktub daşıyanı idi.

Əli dayı- Nəsrəddin Nəsirovun atası, Nəbi əmi (Balşevik), Hasanxan Həsənov, Söyün əmi - Hümbətin atası, Mirzə- çəkməçi (Vətənin atası), Heşimoğlu Cahan-1941-1945 illər müharibəsindən əlil qayıtmışdılar.

Zeynal oğlu Musa - kənddə kim vəfat ettsə, Musa kişi təklifsiz, minnətsiz belini götürüb təmənnasız qəbir qazmağa gedərdi. Savab qazanardı.

Fatma xala – Firudunun anası. Qohum, qonşu arasında yaxşı hörmət qazanmışdır

Nəcəf, (Əliş) Ələddin- Seyid İskəndərin oğullarıdır. Hər ikisi mərifətlidir.

www.kitabxana.net

Qara,Paşa – yaxşı qardaş idilər. Paşa çox mahir usta idi.Qara briqadir işləyirdi. Bəzən də qardaşı Paşaya ustalıqda yoldaş olurdu.

Murad - həzər peşədir (çox sənəddən başı çıxır). Yaxşı yoldaşlığı var. Bir dəfə onunla ova getmişdik.

Murad dedi:- sənin tüfəngiyin lüləsi gödəkdir. (mən tüfəngin lüləsini 20-30 sm gödəltmişdim), 10 metrlikdəki hədəfi vurmaz. Dedim: - papağım 10 metr aralıdakı tənək dirəyinin başına qoy, sınayaq. Murad sözümə əməl etdi, mən də onun papağından aşsüzən düzəltdim.

Tokovor- qərib idi. Ağdağda daş çıxarıb satırdı. Çox vaxt Bağırlı Nadirin evində qalırdı.

Nərgiz xala – anamın xalası qızı, məktəbdə çayçı işləyəndə Rayon maarif işçiləri məktəbi yoxlamağa gəlibmiş. (Müseyib müəllim) deyir: Nərgiz bacı, bizə bir yaxşı çay gətir. Dəm çayı yox imiş. Nərgiz xala istəkənlərə isti su töküb,üstünə mürəbbə şirəsi tökür, mürəbbə qabını və mürəbbəli çayları süfrəyə qoyanda deyir: - Nuş olsun, mürəbbəni təzə bişirmişəm, görün necə mürəbədir. Qonaqlar gedəndən sonra Nərgiz xala soruşur:A Müseyib müəllim, çay xoşunuza gəldimi? Müseyib: - Allah atana rəhmət eləsin, yaxşı çay idi. Ayə, dəm çayı yox idi, qaynanmış suya mürəbbə şirəsi əlavə əlavə edib sizə verdim,- deyir. Bələləri haqda çox gözəl deyilib:

“Arvad var- arpa unundan aş edər,
Arvad var- buğda unundan daş edər”, mən deyirəm:
“Arvad var kişinin ömrünü uzadar,
Arvad da var- kişinin ayağını uzadar”.

Əlyullah dayı- anamın xalası oğludur.Mərd, səxavətli qohumcanlı, ucaboylu adam idi. Köçəsgərli qoruqçusuna örüşdə çomaqla necə vurubsa, qoruqçu xosunbay olub. Qonşumuz Bəşir əmi yaxında imiş, xosunbayı eşşəyin belinə aşırıb qoruqçunun evinə aparıb. Əlyullah dayı kəndə gəlib, İsməndər əmiyə deyib ki, qoruqçuyla dalaşdıq. Bəşir kişi Xosunbayı eşşəyin belində kəndə apardı. Isməndər əmi soruşur:-Ayə, necə

www.kitabxana.net
vurdun? Dayım deyir:- başın üçün ona əlim də dəyməyib. (Əlyullah dayəmla- İsməndər əmi dost idilər)

İsməndər əmi mənə zarafatla deyirdi: - A bala,ona dayı demə, qoruqçuya bir çomaq vurub,bir inəyi satıb,pulunu çərimməyə verdi, uşağı qatıqsız – südsüz qoydu.

Bəşir əmi - yaxın və yaxşı qonşumuz idi. Çox rahat adam idi.

Çapay, Firdovsi - kənddə hörmət qazanmış, xətrini istədiyim qohumlardır.

Əfqan - İmran dayımın oğludur. Qarabağ döyüşlərində fəal iştirak edib,hörmət qazanıb.

Vüsalə - Amilə-(adları dəyişmişəm) gözəl qızlar idi.

Keçəl əmi (İsgəndər) – atamın yaxın qohumudur, yaxşı dirrik əkirdi, qaz saxlayırdı.

Rəhim - gözəl xətti, yaxşı xasiyyəti vardı,müəllim deyildi, hamı hörmətlə ona "Rəhim müəllim" deyərdi.

Vəkil (Güloğlan)- yaxşı şəkil çəkir, daşdan büst düzəldirdi. Ovçuluğa meyil etdi. Şəkil çəkməyi, büst yonmağı tərgitdi.

Avtandil - rayon işıq idaarəsini baş mühəndisidir. Rayonda, kənddə çox hörmət qazanıb, yaxın dostumdur.

Paşa (Qaz Paşa)- kənddə mavi qaz işinə baxır, yaxşı sənədkardır.

Qara Paşa - yaxşı şöferdir, hərdən, a var-yoxunu... deyir.

Kamil əmi - gürcü dilini yaxşı bilir, çox qıvrağ və zirəng və qohumcanlıdır.

Qıvret Məhəmməd- yaxşı qohumdur. Mamam qızının əridir, cavanlıqda bir azdan çox "rahat" olub.

Sabir İslam oğlu - çox etibarlı dostumdur, mərddir, səxavətlidir.

Yunus- zəhmətkeşdir, səxavətlidir, uşaqdan da kövrəkdir, etibarlı dostdur, yaxşı qonşudur, qohumdur.

Telman - dərzidir, özü yalan danışmadığı üçün yalana da inanır, yaxşı futbolçudur. Sadəlövhdir,balıq tutmağı sevir, saz, tar, kamança, dəf çalmağı bacarırdı.

www.kitabxana.net

Qəbilə - bircə dəfə Bakıda rəqs yarışında olub, 1-ci yerə layiq görülüb.

Qulam (Qələndər) - əksər aristləri yamsılayar, məclislərdəkiləri güldürərdi, 3 ay onunla Ağdağda daş çıxarmışam, yaxşı yoldaş idi.

Qara Vəli, Qasımov Usuf- məktəb yoldaşlarım və dostlarımdır. "Əla" oxuduqları, məktəbə və müəllimlərə həddsiz məhəbbətləri olduğu üçün, 7 illik məktəbi 10 ilə qurtardılar. Mən etibarsız yoldaş oldum, məktəbi tez qurtarıb, onlardan uzaqlaşdım.

Rəcəb – Nərgiz xalanın oğludur. 2-ci sinifdə qalmışdı. 5 il sinif yoldaşım olub. Ana dili müəllimi (Yaqut)deyəndə ki, Rəcəb, gəl, dərsi danış. Deyərdi:-bilmirəm "birini" yaz. Rus dili müəllimi (Osman) deyəndə ki, Rəcəb, gəl, dərsi danış. Deyərdi: -bilmirəm "ikini" yaz.Bir dəfə Osman müəllimlə Rəcəbin atası – Novruz əmi rastlaşarkən Novruz əmi:-Osman müəllim, Rəcəb necə oxuyur? Osman müəllim deyir: - Rəcəb deyir: -Bilmirəm "ikini" yaz. Novruz əmi deyir:- Müəllim, onun gönünü al, əti sənin, sümüyü mənim.Sabahı gün Osman müəllim Rəcəbə:- Gəl dərsi danış,-dedi: Rəcəb yenə- bilmirəm "ikini yaz", dedi: Müəllim Rəcəbi lövhənin qabağına çıxartdı, Rəcəbin ülgüclə dünən qırxılmış başına, üzünə şillə- şapalaq yağdırdı. Rəcəbin ağ turp kimi başını qırmızı turp kimi qızartdı. Rəcəb hıçqıra-hıçqıra:- Öldürmə, sabah dərsi məndən soruş,- dedi. O şapıltıdan sonra Rəcəb hər gün rus dilindən "5" alırdı.Pedoqoji şurada direktor- Qəfər müəllim:-Osman müəllim, sənin sinfində (Osman sinif rəhbərimiz idi) vəziyyət necədir?- deyir. Osman müəllim: - Mənim sinfimdə Rəcəb "2" alırdı, indi "5"alır, deyir. Yaqut müəllim Osman müəllimlə yanaşı oturubmuş, Yaqut müəllim deyir:- nə edibsən ki, Rəcəb "5" alır? -Rəcəbi döymüşəm. Növbəti ana dili dərsində Yaqut müəllim:-Rəcəb, gəl dərsi danış. - Bilmirəm, «birini» yaz»,-dedi.-Yaramaz, lövhənin qabağına çıx. Rəcəb şəstlə lövhənin qabağına gəlib, -nə var?- Bu var,- deyib, Yaqut müəllim Rəcəbin ağ başına məhəbbətlə

www.kitabxana.net
5-10 dəfə “sığal» çəkdi. Yenə Rəcəbin başı qırmızı turpa döndü (Nərgiz xala hər bazar günü Rəcəbin başını ülgüclə qırxıb, sillə üçün hazırlayırdı) bu « sığallamadan» sonra Rəcəb hər gün ana dilindən, ədəbiyyatdan “5” alırdı.

Astan, Famil- minə xalanın oğlanlarıdır, əsil qohumlarımdır, hər ikisi işguzardır.

Hərbi xidmətdən sonra Bakıda fəhlə yataqxanasında qalımışıam.Fəhlə - gənclər gecə məktəbində VIII-XI siniflərdə oxumuşam.Gündüzlər rəssam, dülgər işləmişəm.Rus dili və ədəbiyyatı pedoqoji institutunda gündüz oxuyanda gecə 6-cı türmədə dülgərlik dərsi keçirdim.O vaxt zurnaçılar toy evinin həyətində, ya da böyük bir tövlədə çalırdı. Aşıq böyük bir otaqda çalıb oxuyardı, ona ancaq yaşlı kişilər qulaq asırdı. Axşamdan aşıq oxuyacağı evin yükünün arxasında gizlənər, sabaha kimi aşığı dinləyər, yadımda saxlayar, əzbərləyərdim, sabah əzbərlədiklərimi dəftərlərə köçürərdim.

II Hissə

Söyün, Əbülfət- yaxşı qardaş, yaxşı qohum, yaxşı qonşu idilər, kəndin hər işinə yarayardılar.

Montyor Cəfər- işıqlar təsadüfən sönəndə hamı öz evində: -gözün işıq görməsin, a Cəfər,- deyərdi. Yazıq Cəfərin nə günahı var idi? Küləkdən,qəzadan və s.dən işıq sönər də.

Kababçı Fəxrəddin- çayçı Müzəffər yaxın yoldaşlarım, dostlarımdır.

Tamara bacı- atam onun, o da atamın xətrini çox istərdi. Hörmətə layiq bu xanıma mənim də böyük hörmətim var. Səfaləddin, Səyyaf- xoş xasiyyətli, mehriban, istiqanlı gənclər idi. Bu qardaşlar kənddə hamının hörmətini qazanmışdılar.Heç bir günahı olmayan bu məsumlar heç nəyin üstündə qətl olundular. Bütün kənd onlara yas saxladı. Elə bil, buludlar da yas tutdu, göylər ağladı. Kəndimiz heç vaxt belə müsibət, belə hüzünlü matəm görməyib.

www.kitabxana.net

Tapdıq- uşaq evində böyüyüb, kəndimizdə sovxoz direktoru idi, kəndimizin abadlığına heç kim onun kimi qayğı göstərməyib.

Mir Ələsgər- çəpər qonşumuz idi, ağır seyid idi, qocalanda içkiyə qurşandı, evdə tez-tez dava dalaş salırdı. Evi dağıldı, yurdu yadlara qaldı.

Rəzəddin- xətrini çox istədiyim hörmət etdiyim qohum-qonşu qədrini bilən,xeyirxah oğlandır.

Zepi-Zeynalavdi- yaxın və yaxşı qonşum, əla sənətkar, mehriban dost və yoldaş idi. Kanaldan matorla kəndə su vurub, savab iş görürdü.

Vahid- İmran dayımın böyük hörmətə layiq böyük oğludur. Təəsübkeş qohum, etibarlı dost, sədaqətli yoldaş, yaxşı övlad, yaxşı qardaş, yaxşı ailə başçısıdır. Az danışır, düz danışır.Vahid, Nazim, Kamal, İsmayıl, Sədi- bir-birinə sədaqətli-dost, yoldaş,sirdaşdırlar.

Elmixan, Xanvəli, Sultan, Bəxtiyar- yaxın və yaxşı qohumlarım, qonşularımdır.

Avaz təpə - Tovuzun Qərbində, kəndimizə yaxın bir təpədədir.

Abdı (Abdiləzim)- anamın dayısıdır, çox qoçaq və mərd kişi idi.

Cünnəkli Şəmil - çox qoçaq, qıvraq kişi imiş, toyda hamıdan çox və yaxşı oynayarmış.

Qeyçəl Ənvər - çox güclü, pəhləvan cüssəli idi. Traktorun bir yanını qaldırırdı.

Ənvər, Qürvan - çox yaxşı calaq (peyvənd) edirlər, bağ işini əla bilirlər.

Lətif, Cəmil - hər ikisi elə məlahətli fışqırıq çalırdılar ki, onları dinləməkdən ləzzət alırdım. Heç bir musiqi alətində onların çaldığı fışqırığın səsisni ifa etmək mümkün deyil.

Əziz həmkəndlilərim, oxucularım, bəzən atam, babam yaşda kişilərin adından sonra "əmi", "dayı" yazmamışam. Bunu- saymamazlıq, yekəxanalıq saymayın. Nəzmdə bu sözləri

www.kitabxana.net
bəzən yazmaq mümkün olmur, misranın ölçüsü pozulur.Bir də, bəzi yaşlı adamları ayaması ilə yazmışam, böyük kənddə eyni adlı bir neçə şəxs olur. Onları fərqləndirmək üçün ayamasından istifadə etmək məsləhətdir. Bütün iradlarınıza görə Sizdən üzr istəyirəm. Bütün məsləhət və təkliflərə görə sizə minnətdaram. Yazıb göndərə, zəng edə bilərsiniz.

Müəllifin əlaqə nömrəsi: ***(050) 570 66 65***

01.iyun -15 iyul - 1992

www.kitabxana.net

QARABAĞIN QANLI, QƏMLİ, ŞANLI GÜNLƏRİ

Qanlı günlər

On ildən çox Qarabağın torpağı qanla sulandı,
Yağıların tapdağında daş çatladı, torpaq yandı.
Neçə-neçə abad şəhər, yüzlərlə kənd viran oldu.
Bir milyondan artıq insan qaçqın, ağlar-giryan oldu.
Bomba yağdı, mərmi yağdı dolu kimi başımıza,
Elimizə, obamıza, dağımıza, daşımıza.
Öz elindən qaçqın düşdü başı açıq, ayaqyalın,
Qarlı qışda yüz minlərlə qarı, qoca, uşaq, qadın.
Neçə -neçə qız, gəlinlər özünü qayadan atdı.
Yüzlərlə qız, gəlin ömrü əsirlikdə sona çatdı.
Güllə yağdı beşikdəki körpələrin üstünə də,
Natəvanın, Üzeyirin, Bülbülün tunc büstünə də.
Toplar, tanklar alt-üst etdi məsçidləri, məktəbləri,
Mədəniyyət evlərini, muzeyləri, məbədləri.
Özü yandı, evi yandı Bağanesdə çox ailənin,
Şəhid, əlil, qazı oldu çox igidi Əvlibəylinin.
"Mərmi" yağdı gecə-gündüz Öysüzlüyə, Cırdaxana,
Çox mərdləri şəhid oldu, Tovuz qaldı yana-yana.
Harayına çatmadılar, dağıldı Ağdərə, Ağdam,
Ümidlərin odu söndü, itdi inam , getdi güman.
Meşə yandı, tarla yandı, şəhər yandı, kənd talandı.
Laçından laçınlar köçdü, yuvası oda qalandı.
Körpülərin beli sındı, yol dağıldı, çay tutuldu.
Mərmi, barıt tüstüsündən göydə günəş, ay tutuldu.
Barsız qaldı, məhbəs oldu orda məhsul anbarları,
Zəmiləri əkdi-biçdi rus, erməni bombaları.
366-cı rus batalyonunun qurdları
26 fevralda – qarlı qışda, gecə yarı

www.kitabxana.net
“Hayestan” itləri ilə Xocalıya hücum etdi,
Bu qatillər əlbir olub, qanlı faciə törətdi.
Hər tərəfdən həmlə etdi toplar, tanklar, təyyarələr,
İnsan qanına bələndi geniş çöllər, gen dərələr
Bəşəriyyəti sarsıtdı bu ağrılı mənzərələr.
Şəhidlərə yas saxladı yerlər, göylər, səyyarələr.
300-dən çox uşaq, qadın Tətik meşəsinə qaçdı.
BTrlər qaçanlara hər tərəfdən atəş açdı.
Çox az adam xilas oldu, qovhaqovda, qaçhaqaçda,
Çoxu ayazda, şaxtada həlak oldu dağda-daşda.
İşgəncəylə öldürdülər orda ələ keçənləri,
Belə işgəncə görməyib bəşər yaranandan bəri.
Soyundurub ayağını onda əsir olanları,
Döyə-döyə apardılar qarda, Xankəndinə sarı.
Çoxunu tanka bağlayıb sürüdülər üzü üstə,
Çoxlarını soyundurub uzatdılar buzun üstə.
Üstlərinə buz yığdılar qalaq-qalaq,
Təzə yağmış qar səpdilər tabaq-tabaq,
Qazan-qazan su tökdülər, dondurdular.
Xalqlar bilsin ermənilər nə insafsız,
Nə mürvətsiz qatildirlər, yam-yamdırlar, quldurdular!
Avtomatın qundağıyla ələ keçmiş əsgərləri
Qazıb yerə basdırdılar döyə-döyə, diri-diri.
İşgəncəylə öldürdülər ələ keçən hər əsiri
Benzin töküb yandırdılar çoxlarını diri-diri.
Çoxlarını təpikləyib, söyə-söyə öldürdülər,
Armaturla, sümbə ilə döyə-döyə öldürdülər.
Çoxlarını sinəsinə xaç çəkdilər süngü ilə,
Çoxlarına məzarını qazdırdılar öz əliylə,
Çoxlarını yarıuçuq tövlələrə doldurdular.
Hər yanına küləş yığıb, hər tərəfdən od vurdular.
Tikanlı məftil bağlayıb çoxlarının qollarına,
Zəhərli benzin vurdular şpris ilə damarına.
Çoxlarını gündə 5 yol döydülər, ac saxladılar,

www.kitabxana.net
Çoxlarının ayağını döşəməyə mıxladılar.
Çoxlarının ürəyini, öfkəsini,
Ciyərini, böyrəyini diri-diri çıxartdılar,
Fransada, Amerikada baha qiymətə satdılar.
Çoxunu üst-üstə yıxıb, üstündə ocaq çatdılar,
Çoxlarını diri-diri yanar ocağa atdılar.
Çoxunu sıraya düzüb, canlı nişangah etdilər,
Çoxunu yerə uzadıb, üstündən tankla getdilər.
Çox ananın sinəsinə xaç çəkdilər, dağ basdılar.
Çox uşağı, ağsaqqalı tank lüləsindən asdılar.
Körpələri süngü ilə öldürdülər bətnlərdə,
Körpəsiylə birgə öldü süngülənmiş gəlinlər də.
Ata-ana qabağında kəsdilər oğlun başını,
Qardaşın gözü önündə yandırdılar qardaşını,
Orda "Qarabağ" deyənin dibindən kəsildi dili,
Ordan qaçmaq istəyənin baltalandı qılçı, əli.
Müqavimət göstərənin kəsirdilər qulağını,
Üzüyünü verməyənin kəsirdilər barmağını.
Əlil, əsir zabitlərin gözlərini oyurdular,
Başlarının dərisini xəncər ilə soyurdular.
Qız-gəlinin dodağına,
Sinəsinə, buxağına,
Zabitlərin döyülməkdən
Qançır olmuş yanağına
Qızmış dəmir, yanar kömür,
Odlu siqar basırdılar.
Zabitləri yerə yıxıb, başlarını kəsirdilər,
Ermənilər belə kafir dinsizdilər, iblisdilər.
Kəsik başları göndərdi İravana Serj Ohanyan,
Mükafat, mülk, rütbə verdi bu cəllada Ermənistan.
Aman Allah, bu qədər də dərd olarmı, qəm olarmı?
Bir millətə bu qədər də işgəncə, sitəm olarmı?
Hanı böyük Soltan bəylə, Abbasqulu bəy Şadlinski,
Millətə yiyə duralar, dağılmaya elin mülkü.

www.kitabxana.net
Hanı Mirzə Adıgözəl bəy? Bir-bir yaza bu dərdləri,
Hanı Zakir həcv eləyə bu məsləksiz mürtədləri?
Çox əzablar lövhəsini bilirəm zəif çəkmişəm,
Görmədiyim olanları qəlbimlə duyub çəkmişəm.
O illərdə tariximizin hər sətri qanla yazıldı.
Neçə satqın əsgər,zabit-Vətənə xain olanlar
Vuruşmamış rütbə aldı, medal aldı
Göz yaşımla yuya-yuya hər misranı, hər kəlməni
Öz qəlbimin saf qanıyla yaratmışam bu lövhəni
Qarabağa qovuşmamış heç kim gülər görməz məni.

Qəmli günlər

Hələ tapdaq altındadır Qarabağın dağı, düzü,
Davam edir ityanların yurdumuza təcavüzü
Hələ orda qırmamışıq azğınların ayağını.
Atmamışıq Xankəndindən kafirlərin bayrağını,
Yad ayaqlar tapdağında tapdalanır torpağımız-
Çəmənimiz, çiçəyimiz, örüşümüz, otlağımız.
Hələ axır anaların, bacıların göz yaşları,
Kədər sarır sifətləri, intizarlı baxışları.
Dul gəlinlər yas saxlayır öz gəlinlik otağında,
Qan quruyur çiçəklərin ləçəyində, yarpağında.
Baxışlar-lal, gözlər-dolğun, dərd yurd salır çöhrələrdə,
Gözəllərin gül üzünü qəm bürüyür pərdə-pərdə.
Hələ qandan durulmayıb Tərtər, Xaçın, Qarqar çayı,
İtkin, əsir düşənlərin bilinməyir səhih sayı.
İtkin, əsir soraqlayır intizarla hələ çoxu,
Həsrət, ağlar qalanların gözlərindən qaçıb yuxu.
Hələ hicran niskili var yurd həsrətli ürəklərdə,
Barıt, tüstü qoxusu var çəmənlərdə, çiçəklərdə.
Hələ çatma körpülərin düzəlməyir sınmış beli,
Yolları bərbad eləyir qışın qarı, yazın seli.
Hələ mərmi yarası var ağacların gövdəsində,

www.kitabxana.net
Qəlpələr var, yaralar var əlillərin sinəsində.
Hələ göynəyir, sızlayır Kəlbəcərin bulaqları.
Köks ötürüb, həsrət ilə baxırıq Qırxqıza sarı,
Mühakimə olunmayıb işğalçılar, qarətçilər-
Qana həris azğın, quduz daşnaqpərəst millətçilər,
Qanlı soyqırımı etmiş Xocalının qatilləri.
Kəsməmişik yurdumuza uzanan murdar əlləri.
Hələ kəndlər, qəsəbələr,
Neçə-neçə abad şəhər
Viranədir, xarabadır, kol-kos basıb həyətləri,
Talanır sahibsiz qalan o yerlərin sərvətləri.
Məscidlərin, məktəblərin,
Klubların, məbədlərin,
Xaraba qalmış evlərin
Qapısını, bacasını küləklər açır bağlayır,
Viran olmuş o yerlərin obaları qan ağlayır.
Neçə ildir o yerlərə bir yol tapıb, gedən yoxdur,
O yerlərdən gələn yoxdur.
Ancaq Şuşa həsrətiylə,
Didərginlik möhnətiylə
Xiffət çəkib, ölən çoxdur.
Hələ xarabaxanadır abad qəsəbələr, kəndlər
Yaraşıqlı imarətlər, sarmaşıqlı aynəbəndlər.
Öz evinə qayıtmayıb, elindən uzaq düşənlər,
Rədd olmayıb torpağımdan, elimdən azğın düşmənlər.
Hələ təxribat törədir oğrun-oğrun sarsaqyanlar,
Xain, xəbis, nankor, namərd- zındıqyanlar, napakyanlar
Kəsib qızıl palıdları Fransaya göndərirlər.
Parisdən gələn pulları top-tüfəngə döndərirlər,
Qızılını, Turşsuyunu hələ satıb Kəlbəcərin,
Ciblərini doldururlar daşnaqpərəst Lobbilərin.
Hələ bütün ermənilər rusun yaltaq tulasıdır.
Hamısı, oğru, dələduz, aravuran çalasıdır.
Hələ də saxlayanlar var oğul, qardaş, ər yasını,

www.kitabxana.net
Yağılardan almamışıq şəhidlərin qisasını.
Çəmənlərə, zəmilərə hələ tez-tez od vurulur,
Atəşkəsdir, snayperlə əsgərlərimiz şəhid olur.
Hələ bədnam “eş”lər, “xoz”lar tez-tez pozur atəşkəsi,
Hürküdür azad quşları mərmi səsi, güllə səsi...
Daşnaqları lənətləyir göydə mələk, yerdə insan.
Utanmayır əməlindən namərd, nankor Ermənistan.
Hələ bizim torpaqlarda yad keçirir manevrlər
Ağır tanklar tapdağında inildəyir doğma yerlər.
Hələ Ramil əzab çəkir Macarıstan zindanında,
Xalqımızın qeyrəti var onun təmiz vicdanında
Çox Ramillər Xankəndində, İravanda məhbəsdədir
Deyən, soran, bilən yoxdur ,ölüb, qalıb, ya xəstədir.
Mətbəxsiz, hamamsız evdir çox qaçqına yataqxana
Hələ qalır 1 otaqda 4 uşaqla, ata, ana.
Qaçqınlarçün böyük-böyük qəsəbələr salır dövlət
Göz oxşayır hər qəsəbə, aynabəndli hər imarət
Qaçqınlar öz kəndlərində qayıtmaq istəyir, fəqət,
Onlara daha əzizdir öz qurduğu doğma həyət;
Öz içdiyi sərin bulaq,
Öz əliylə saldığı bağ,
Öz obası- öz oymağı
Öz yaylağı, öz oylağı...
Əlillərə rahat, geniş, işıqlı evlər tikilir,
Önündə fantan qurulur, həyətində gül əkilir...
Qarabağdan uzaqlarda yol çəkir, körpü salırıq
Üzdəniraq şoulara tamaşadan “zövq alırıq”...
Hərdən gülüb, sevinsək də hələ çoxdu dərdlərimiz,
Minalarla hasarlanıb cəbhəyanı kəndlərimiz...
Hələ yerinə yetirilmir BET nin qətnaməsi,
Çatmayır kar qulaqlara xalqımızın gur, haqq səsi.
Hələ gedir barışıqçün əhəmiyyətsiz danışıqlar,
Hamı bilir darılıqdan donuz çıxmaz danışıqla.
Hələ qahmar çıxanlar var bizdən torpaq umanlara

www.kitabxana.net
Göz yumurlar haqqı danan vasitəçi olanlara.
Neçə ildir sammitlərdə ATƏT-də boş söhbət gedir.
Vasitəçi riyakarlar bizdən güzəşt tələb edir.
Bu bədxahlar danışanda qəzəbimdən yanır sinəm.
Məlul, məhzun ürəyimdə ağı deyir, hıçqırır qəm.
Bədənim lərzəyə düşür hiddətimdən, qəzəbimdən
Elə bil ki, qulağıma tanış səslər gəlir bu dəm...
Qara geymiş gəlinlər də,
Güllə dəymiş əlillər də,
Qocalar da, cavanlar da haray çəkib, deyir ki, mən
Bu oymağın, bu oylağın, bu yaylağın sahibiyəm,
Xan qızının nəvəsiyəm, Qarabağın sahibiyəm.
Niyə bizə dəllal olur rus, fransız, amerikanlı?
Niyə bir yol soruşmurlar bu yurdun sahibi hanı?
Niyə bir yol qaçqınların halından olmurlar halı?
Danışırlar üzəvarı, ikibaşlı, müəmmalı.
Bu araçı ziyakarlar gəlir-gedir nə umurlar?
Niyə bu kor yapalaqlar həqiqətə göz yumurlar?
Guya onlar bilməyirlər bu torpaqlar kiminkidir?
Hamı bilir işğal olmuş ərazilər bizimkidir.
Bizimkidir bu diyarın sərvəti, dövləti, malı
Bu ölkəyə sahib bizik qazanmışıq istiqlalı.
Eşitsin kar ermənilər, rus, fransız, amerikalı
Azad,firavan olacaq xalqımızın istiqbalı.

Şanlı günlər

Hər gecənin bir gündüzü, hər qışın bir baharı var,
Hər ölkənin qəhrəmanı, sahibi, xilaskarı var.
Qisas yerdə, igid darda, şir qəfəsdə qala bilməz,
Laçınların yuvasını qarğa, quzğun ala bilməz,
Bu gün-sabah bu qisası yağılardan alacağıq,
Bizdən torpaq umanları pərən-pərən salacağıq.
Hər davanın sonu sülhdür, bu dava da bitəcəkdir.

www.kitabxana.net
Yurd həsrətli nisgillilər muradına yetəcəkdir.
Çəkiləcək qara bulud yurdumuzun səmasından,
Əl çəkəcək azğın, xain daşnaqlar xam xülyasından.
Axtarıb, məhv edəcəyik basdırılmış minaları.
Söküb, təzdən tikəcəyik dağıdılmış binaları.
Ayrı düşmüş həsrətlilər bir-birinə qovuşacaq.
Könüldən qəm, gözdən nisgil, üzdən kədər sovuşacaq.
Didərginlər qayıdacaq öz evinə- ocağına,
Tapıb itkin düşənini basacaqdır qucağına.
Möcüzələr, xarüqələr yaradacaq qadir əllər.
Çıl-çıraqban olacaqdır abad kəndlər, qəsəbələr.
Kənddən-kəndə enli, rahat asvald yollar çəkəcəyik,
Yollar boyu cərgə-cərgə cökə, çinar əkəcəyik,
Daha uca qurulacaq məscidlərin minarəsi,
Yayılacaq gündə beş yol obalara azan səsi.
Şırıl-şırıl axacaqdır buz dodaqlı bulaqlar da,
Yenə azad gəzəcəkdir ceyran, cüyür oylaqlarda.
Yayılacaq ağ sürülər, yenə yaşıl yamaclara,
Daha həsrət qalmayacaq bağban bara, çoban qara.
Çırmalayıb qollarını ot biçənlər yenə hər yaz,
Biçənəyə çıxacaqlar əllərində yaba, dəryaz.
Yenə aşıb-daşacaqdır elimizin xırmanları,
Ağzınacan dolacaqdır böyük taxıl anbarları.
Gədiklərin yaxasında binələr də şenləşəcək.
Öz yurduna qayıdanlar “Oxay”,- deyib, sevinəcək.
Kənddən-kəndə, evdən-evə gediş-gəliş çoxalacaq,
Ayrılıq, intizar, həsrət, kədər, möhnət yox olacaq.
Payız vaxtı həyətlərdə toy mağarı qurulacaq,
Dəbdəbəylə nişanlı qız-oğul toyu vurulacaq.
Mən əminəm xalqımızın son döyüşdə zəfərinə.
Güvənirəm ordumuzun hər qəhrəman əsgərinə.
Düşmən üstə sınayacaq mərdlərimiz yarağını
Ayaqaltı edəcəklər Ermənistan bayrağını.
Yağı üstə yağdıracaq qorumuzu, odumuzu,
Bağrımıza basacağıq zəfər çalmış ordumuzu.

www.kitabxana.net
Yerlər-göylər qurtaracaq barıt-tüstü qoxusundan,
Hürküb, uzaq düşməyəcək quşlar doğma yuvasından.
Soyunacaq oğlu ölmüş analar yas paltarını,
Tapacaqdır itkin düşmüş dost-dostunu, yar-yarını.
Ölkəmizdə bir dənə də qalmayacaq çadır düzü,
Yaylağımız olacaqdır yenə yayda Cıdır düzü.
Didərginlər qayıdacaq öz evinə, obasına,
Qovuşacaq itkin düşmüş uşaqlar da anasına.
Əzab çəkmiş əsirlər də qurtaracaq əsarətdən,
Bir nişanə qalmayacaq nə hicrandan, nə həsrətdən.
Yenə bulaqlar başında kef məclisi qurulacaq,
Durğun göllər, dəli çaylar ayna kimi durulacaq.
Hər eyvandan ucalacaq muğamat, tar, kaman səsi,
Qarabağa yayılaca Qarabağın şikəstəsi.
Mənzillərə boylanacaq sarmaşıqlar, yasəmənlər,
Yenə ətrini yayacaq bağ-bağçalar, göy çəmənlər.
Yenə abad qurulacaq Vaqifin də məqbərəsi,
Bizə fərəh gətirəcək qalibiyyət təntənəsi.
Bağçalarda xoş avazla ötəcək sarı bülbüllər,
Çəmənləri bəzəyəcək ecazkar xarı bülbüllər.
Döşdə kəklik, çöldə turac yenə dil-dil ötəcəkdir.
Ehtiyac, intizar, həsrət ilim-ilim itəcəkdir.
Yenə çalıb, oxuyacaq Kəlbəcərin aşıqları,
Mağaralarda məclislərin gurlaşacaq işıqları.
Yenə toy-bayram olacaq Zəngilanda, Qubadlıda,
Sevinəcək, şadlanacaq Xocavənd də, Cəbrayıl da.
Füzulidə xanəndələr bülbül kimi ötəcəklər,
Unudacaq niskilini dərdli, kədərli ürəklər.
Çəmənlərə çıxacaqdır Qarabağın gözəlləri,
Könülləri oxşayacaq Natavanın qəzəlləri.
Susuzlar su içəcəklər yenə İsa bulağından,
Qədirin səsi gələcək Qırxqız, Şuşa yaylağından.
Səmamızı bəzəyəcək zəfər atəşfəşanlığı,
Dillərdə dastan olacaq mərdlərin qəhrəmanlığı.
Xalqımızın çöhrəsində yenə sevinc güləcəkdir,

www.kitabxana.net
Son döyüşdə Azərbaycan mütləq qalib gələcəkdir.
Hamı əllərində güllər küçələrə çıxacaqdır,
Paraddan keçən mərdlərin əllərini sıxacaqdır.
Təntənəli, dəbdəbəli zəfər himni yazılacaq,
Marşlarımız, şüarlarımız yerə-göyə səs salacaq.
Qalibiyyət bayrağımız Xankəndində yüksələcək
Yurdumuza aylar-illər bir – birindən xoş gələcək.

18-24. Fevral.2009-il

www.kitabxana.net

Şəhidlərimiz-İgidlərimiz

Kəndimizin Qarabağ döyüşlərində qəhrəmancasına döyüşüb, şəhid olan igidlərinə ithaf.

Ən şərəfli qəhrəman azadlıq uğrunda
Vuruşan qəhrəmandır,
El yolunda ya şəhid,ya da qalib olandır.
Binnət

Proloq

Vətən qəhrəmanların adı ilə tanınır,
Qəhrəmanlar hər eldə hörmət ilə anılır.
Hər millət fəxr eləyir hər vaxt qəhrəmanıyla,
öyünür ad-sanıyla.
Qəhrəmanların adı tarixə yaraşıqdır,
Qəhrəmanlar Vətənə ən vəfalı aşiqdir.
Qəhrəmansız Vətən yox, Vətənsiz də qəhrəman,
Əsil qəhrəmanları az-az yetirir zaman.
Qəhrəmanlar Vətənə əsil vətəndaş olur.
Qəhrəmanlar Vətəndə heykəlləşir, daş olur.
O heykələ-o daşa baş əyirlər hörmətlə,
Qəhrəmanlara layiq sevgiylə, məhəbbətlə.
Onlar Vətən yolunda yandı səməndər kimi,
Yaşadı, sevdi, öldü qəhrəman əsgər kimi.
Şanlı qəhrəmanları çoxdur millətimizin.
Həmişə keşiyində
Durublar, duracaqlar onlar dövlətimizin
Elimizin qəhrəman mərdləri hər cəbhədə
Şücaət göstəriblər, danışılır hələ də.
Şan-şöhrətə layiqdir hər bir qəhrəmanımız,
Onlardan qəhrəmanlıq dərsi olaq hamımız!

www.kitabxana.net

Son zəng

Mayın iyirmi beşi. Doxsan ikinci ildi,
Məzunların məktəblə ayrılıq dəmi gəldi.
Məktəbin həyətində musiqili şənlik var,
Məzunlar yaxasında «Məzun» yazılmış lentlə,
əllərində buketlə,
Sinif rəhbərlərinin yanında dayanıblar.
Bu gün orta məktəbin «son zəng»i çalınacaq,
şadyanalıq olacaq.
Bu mərasimə ciddi hazırlaşıb məktəb də,
Valideynlər, müəllimlər əyləşib baş tərəfdə.
Əvvəl Vətənimizin dövlət himni çalınır.
Sonra da Şəhidlərin Xatirəsi anılır.
Bir dəqiqə sükutla, hörmətlə, ehtiramla.
Tədbir davam eləyir xüsusi proqramla,
Tarix müəllimi Bəkir,
Növbə ilə söz verir.
Kənd ağsaqqallarına, məktəbin müdirinə,
sinif rəhbərlərinə.
Əvvəl məktəb müdiri danışır çox aramla;
-Hörmətli valideynlər, əziz müəllimlərimiz,
Bizim gələcəyimiz-məsum şagirdlərimiz!
Həm xoş, həm də çox ağır vaxtda yığışmışıq biz,
Bir-birinə qarışıb dərdimiz, sevincimiz.
Xoşdur-məktəbimizi əla qurtaran çoxdur,
Xoşdur-məktəbimizdə sinifdə qalan yoxdur.
Ağırdır-gənclərimiz Şəhid olur hələ də,
Ağırdır-dözülməzdir vəziyyət cəbhələrdə.
Bu çətin imtahana hazır deyil yurdumuz,
Təzə-təzə yaranır hələ bizim ordumuz,
Yeni müstəqil olub Xalqımız, Vətənimiz,
Gərək gözümüz kimi qoruyaq Vətəni biz,
Ya Şəhid, ya da qalib olmalıyıq hamımız.

www.kitabxana.net
Qiyamətə qalmaya gərək intiqamımız!
Düşmənlər silahlanıb topla, tankla, «qrad»la,
Biz döyüşə getsək də, tüfənglə, avtomatla,
Əminəm, yağılardan biz qisas alacağıq.
Son döyüşdə sizinlə qələbə çalacağıq,
Valideynlər, müəllimlər, şagirdlər əl çaldılar,
onu alqışladılar.
Mübariz müəllimə gül, çiçək bağışladılar,
Sonra Osman, Qəməndər, Rauf müəllim danışdı.
Mərasim kəndimizin hörmətli, ağsaqqalı,
El dərdli, el qayğılı-
Mətilər Hüseyinin nitqiylə yekunlaşdı.
O müdrik təəssübkeşə aparıcı söz verdi.
O da gənc məzunlara üzünü tutub dedi:
-Uğur olsun mehriban, əziz balalarımız!
Sevinirik həmişə sizdə hünər olanda.
Sizsiniz ümidimiz, arxamız, pənahımız,
Torpağı yağı almaz, oğul çəpər olanda.
Bu şərəfli, şanlı yurd Xətayilər yurdudu,
Bu yurdun hər igidi basılmaz bir ordudu.
Babalar bu torpağı qeyrət ilə qorudu,
Ana əsir alınmaz övlad sipər olanda.
Gedin əli silahlı sayıq sərhədçi olun;
Bu müqəddəs Vətənə sadiq xidmətçi olun,
Yerdə, suda, havada ayıq keşikçi olun,
Hamıdan öndə olun el səfərbər olanda.
Vətənin Tomris qızı, Cavad xan oğlu olun;
Bu torpaqdan güc alın, bu yurda bağlı olun,
Qalibiyyət müjdəli, zəfər bayraqlı olun,
Şagird qəhrəman olar Vətənpərvər olanda.
Alınmaz qala olun, keçilməz səngər olun,
Bir əldə misri qılınc, birində sipər olun.
Gedin sərkərdə olun, lap adi əsgər olun,
Yüz sərkərdəyə dəyər əsgər, əsgər olanda.

www.kitabxana.net
Döyüşlərə girməsək, şanlı zəfər çalınmaz,
Yumruq kimi birləşsək, yurdumuz parçalanmaz.
Yurdun bir qarışı da, bir daşı da alınmaz,
Əl-əsgər, sinə-sipər, ürək səngər olanda.
Amandı! Yurdumuzu yadlar viran etməsin!
Yad tankları torpağı didim-didim didməsin.
Mərd analar, gəlinlər, qızlar əsir getməsin,
Kişi şərəfsiz olar qadın əsir olanda.
Şöhrət, mənsəb qulları aralığı qatdılar,
Satqınlar həm özünü, həm də eli satdılar.
"Millətim" deyə-deyə milləti aldatdılar,
Millət zəlil-xar olar, naşı rəhbər olanda.
Koroğlu nərənizlə dağa-daşa səs salın,
Şimşək kimi şığıyın, yağıdan qisas alın.
Təlimdə fəal olun, döyüşdə zəfər çalın,
Öpüm mərd əlinizi siz müzəffər olanda.
Siz hünər meydanında imtahan verin ancaq,
Bilin ki, hər cəbhədə cəsur zəfər çalacaq.
Satqınlar, fərarilər ağır cəza alacaq,
Ata-ana sevinməz övlad bifər olanda.
Gedin, həkim, müəllim, zabit, mühəndis olun,
Işini əla bilən bir mütəxəssis olun.
Hamınız qalib olun, kədərsiz, qəmsiz olun!
Al günəş salamlasın sizi səhər olanda!
Başınıza gül səpək siz qələbə çalanda!
Mərasimdə olanlar onu alqışladılar,
Ən ətirli buketi ona bağışladılar,
Sonra son zəng çalındı.

Şəhidlərin anım günü

Bu gün iyirmi yanvar. doxsan dördüncü ildi,
Məktəbin həyətində yenə də izdiham var.
Amma nə çal-çağır var, nə də sevinən indi,

www.kitabxana.net
Əllərdə qərənfillər,
Könüllərdə qəm, kədər
Şəhidləri anmaqçün bura gəlib adamlar.
Məktəbin qabağında indi qara mərmərdən,
Xatirə lövhəsi var.
Üstündə şəhidlərin hamısının əksi var,
Bu lövhəyə hörmətlə təzim edir insanlar.
Lövhənin qənşərinə qərənfillər düzülür,
Üzlərdən kədər yağır, gözlərdən yaş süzülür,
Yenə Vətənimizin dövlət himni çalınır,
Yenə də Şəhidlərin xatirəsi anılır.
Növbəylə müəllimlər, valideynlər danışır,
Qara geymiş analar, dul gəlinlər danışır.
Oğulu Şəhid olmuş,
Nəvəsi yetim qalmış oğulsuzlar danışır,
Qardaşı, nişanlısı itmiş qızlar danışır.
Duruşlardan iztirab,
Baxışlardan qəm yağır,
Burda danışmaq ağır,
Susmaq çətindən-çətin.
Sındırıblar millətin
Qürurunu, şəstini,
Qamətini, qəddini.
Danışan dərdliləri boğur qəhər, hıçqırıq,
Gözdə yaş, dildə nalə ara vermir bir qırıq.
Həm kövrək, həm mülayim,
Müdir-Mübarız müəllim.
Mikrofonu götürür,
Dərindən köks ötürür.
Onu boğur hıçqırıq
Danışır qırıq-qırıq:
-Hörmətli valideynlər, müəllim-lər, şagird-lər!
Xalqı, eli, yolun-da şəhid olur igid-lər.
Vətən yolund-a fəda oldu şəhidlərimiz,

www.kitabxana.net
On-ların xati-rinə yığıl-mışıq bura biz,
Əziz bala-larımız,
Bizim baba –ları- mız...
Tamamlaya bilmədi müdir son cümləsini,
Göz yaşları, hıçqırıq boğdu onun səsini.
Bilirəm deyiləsi çox sözü vardı onun,
Qəlbindən keçənləri, mən yazım,agah olun.
Yəqin belə deyərdi:
-Əziz balalarımız,
Bizə miras qoyubdur ulu babalarımız,
Səfalı, bərəkətli, bol nemətli bir ölkə,
Var-dövlətli bir ölkə, çox sərvətli bir ölkə.
şərafətli bir ölkə.
Igidlərə xas olan; namus, qeyrət, dəyanət,
yurda, yara məhəbbət,
yağıya, yada nifrət.
Bizim qoçaq, ağıllı, müdrik babalarımız
Qılıncla qarşılayıb azğın, quduz düşməni,
Baxışından tanıyıb ayaq altı eşəni,
bəd xəyala düşəni,
Sevməyiblər: Namərdi, kəmfürsəti, nankoru,
Riyakarı, yaltağı, bəhaxı, haramxoru,
Əyriliyi, bicliyi,
Xəyanəti, pisliyi...
Seviblər: ədaləti, insafı, mərhəməti,
Mərdlərdə səxavəti, dözümü, dəyanəti,
Qadınlarda isməti, ərinə sədaqəti.
Bizim bol səxavətli, mərhəmətli babalar
Qəribə, kimsəsizə mərhəmət göstəriblər.
Qonaq adıyla gələn, tanışa da, yada da
səxavət göstəriblər.
Ən yaxşı otağını,
Təmiz yatacağını,
Ən ləziz xörəyini qonağına veriblər.

www.kitabxana.net
Bizim cəsur, əyilməz, mərd, qəhrəman babalar
Arxa çevirməyiblər düşmənlərə heç zaman.
Mərd olublar, düşməni vurmayıblar arxadan,
Nə də düşməndən yara almayıblar arxadan.
Qaçmayıblar düşmənin qabağından davada,
Heç vaxt əyilməyiblər nə yağıya, nə yada.
Göz kimi qoruyublar yurdun hər qarışını,
Candan əziz tutublar torpağını, daşını.
Xəyanət etməyiblər dosta, yara, Vətənə,
Canı fəda ediblər dosta, yara, Vətənə.
Haqqı danmayıbdılar diri soyulsalar da,
Soyuq məzara diri-diri qoyulsalar da,
Ana Vətənimizə düşmən basqın edəndə,
düşmən üstə gedəndə
Canını səngər, sipər, əlini yaraq edib.
Bir şəhid köynəyini özlərnə bayraq edib,
Altında bir müzəffər ordutək birləşiblər,
Vətən dərdi çəkəndə,
Millət dərdi çəkəndə,
Bəd gündə birləşiblər, onlar Cəlilləşiblər...
Qəhrəman babalarla öyündük, bəsdir daha,
Kim çıxaracaq bizi, bu gecədən sabaha?
Bu günün öz Tomrisi, yoxsa öz Xətayisi
Yağılardan qorumaz
Qəhrəman Cavanşirin, Həzinin adı bizi...
Çox öyünüb deyirik:- İgidlər övladıyıq,
El yolunda ölərik, biz Vətənə bağıyıq.
(Çoxlarımız da Aslan, Tərlan, Şahin adlıyıq)
Demirik öyünməkdə, gop etməkdə ustayıq
Babəkin özü, oğlu öldü Vətən yolunda.
Bu gün papaqlılar var fil gücü var qolunda
Boynu tirdən yoğundur, didərgindir, qaçqındır,
fəraridir, satqındır.
Çoxlarının da adı Nəbidir, Cavadxandır

www.kitabxana.net
Mehdidir, Cavidandır.
Bərk ayaqda qaçıbdır düşmənin qabağından,
Behişt Kəlbəcərindən, cənnət Qarabağından
Biri-birindən gözəl Ağdamdan, Zəngilandan,
Şuşadan, Füzulidən, Laçından, Cəbrayıldan,
Dağılmış Xocalıdan,
Satılmış Qubadlıdan.
Bu "igid qaçqınların",
Satılmış satqınların
Nənə-babalarının,
Ata-analarının,
Bəzisinin yarının,
Körpə balalarının
Köhnə, təzə məzarı,
Evi, yurdu gülzarı
Yad tapdağı altdadır,
Özü yad qoltuqdadır.
Çoxu bilmir atası, anası harda qalıb,
balası harda qalıb.
Ancaq yaxşı bilirlər;
Şəhid qardaşlarının,
Şəhid bacılarının, şəkli divarda qalıb,
Boş papağı hərmədə, atı tövlədə qalıb,
tüfəngi yerdə qalıb.
Bu "qoçaqlar" qaçıblar cəbhədən uzaqlara,
uzaq yad diyarlara-
Saratova, Tulaya,
Piterə, Moskvaya.
Dığaların əlindən qaçıb can qurtarmağı,
qoltuğa sığınmağı
Koroğluluq sanıblar.
Cəbhədən qaçanları falaqqaya salasan,
ayağına döyəsən.
Iki əllə yapışıb yaxasından, deyəsən:

www.kitabxana.net
A papağı hərmədə, tüfəngi yerdə qalan,
Nə vaxtsa maraqlanıb,
Babasının qəbrini səndən soruşsa balan,
Hansı qəbristanlığa apararaq balanı-
səndən xəbər alanı
Göstərəcəksən ona hansı qəbir daşını?
Budur babanın qəbri:- deyərək övladına,
Hansı qəbrin üstünə tökəcəksən yaşını?
Tüfəngini, atını, boş qalmış papağını,
Evini, elatını, elini, torpağını
sənə kim qaytaracaq?
Igid öz torpağını,
Atını, papağını özü qaytarar ancaq.
Məndən inciməsinlər qoca, xəstə, əlil, şil-
Silah tuta bilməyən,
Tüfəng ata bilməyən məcburi didərginlər.
Gözümün düşmənidir fərari didərginlər;
Əldə silah qaçanlar,
Düşmənə yol açanlar,
Yurdu kənd-kənd satanlar,
Kəndi ev-ev satanlar,
Düşmənə yox, gülləni
Yoldaşına atanlar.
Hərəsi bir yol ilə,
Tanışlıqla, pul ilə cəbhədən yayınanlar,
Öz kəndinə top atıb,
Camaatı aldadıb,
"Erməni gəlir"-deyib yalan, şayiə yayanlar,
Xalqı kənddən, şəhərdən qorxudub, çıxaranlar,
Sahibsiz mənzilləri quldur kimi soyanlar,
Qənimət toplamağı qəhrəmanlıq sayanlar,
Boşaldıb dükanları,
Sexləri, anbarları evinə daşıyanlar,
Bakıda mersedes, mülk, Mərdəkanda bağ alıb,

www.kitabxana.net
şah kimi yaşayanlar...
Hərbi xidmətdən qaçıb qaçqın olmayanlar da,
Igidlikdən dəm vurur, öyünür orda-burda.
Kimisi “bron” alıb,
Ya da pul verib qalıb.
Kimisi kababxana,
Kimisi qəssabxana, kimisi dükan açıb.
Kimisi Saratovda,
Voloqdada, Xarkovda bazarda lövbər salıb,
Kimisi silahını səngərdə qoyub qaçıb,
Tombovda, Samarada,
Allah bilir harada
Ya donuz damı tikir, ya da donuz otarır,
Yer əkir, tövlə tikir, yada donuz otarır...

XXX

Döyüşdən yayınsa da fərarilər, qorxaqlar
Elə arxa olublar qəhrəmanlar, qoçaqlar.
Bu günün Babəkləri, Cavanşirləri də var,
Tülküləri meydandan qovan şirləri də var.
Bu günün qəhrəmanı Çingizdi, Salatındı
Elin ağır günündə qəhrəmanlar tanındı.
Bizim kəndimizin də neçə qəhrəmanı var:
Baş çavuş Rafaeli, mərd mayor Rizvanı var;
Mərd Arazı, Niyazı, Aydını, Elmanı var,
Fədakar Sadəddini, İsmaylı, Fərmanı var.
Hamı deyir ki onlar bir birinin bəhsinə,
Könüllü yollanıblar Qarabağ cəhbəsinə.
Bütün vuruşmalarda kəndimizin hər mərdi
böyük hünər göstərdi,
Qorxu nədir bilmədi, düşməndən çəkinmədi,
Göydən dolutək yağan-
Bombadan, qumbaradan, güllədən pəsinmədi.
Onlar sinələrini yurda sipər etdilər,
Tüfənglə, tapançayla, yalın əllə getdilər

www.kitabxana.net
Tankın, topun üstünə,
Pulemyotun üstünə.
Bölmə komandiriydi cəsur polis Rəfael,
Dostlara pənah idi, düşmənlərə əzrail.
Vətənin dar günündə o silahla sarıldı,
Hər döyüşə girəndə düşmən bağrı yarıldı.
Şirtək hücuma keçdi, qurdlardan qisas aldı,
Şuşa-Laçın yolunda mərdliklə şəhid oldu.

Sadəddin Əlibəylidə başından yaralandı,
Elman da, Füzulidə döşündən yara aldı.
Ikisi də neçə ay qospitalda yatdılar,
Sağalan kimi dərhal cəbhəyə qayıtdılar.
Hər ikisi bir neçə düşmən tankı vurdular,
Qanlı vuruşmalarda saysız dığa qırdılar
Igid qonşularından geri qalmadı Fərman,
Əmoğlu Araz, Niyaz, eloğlu mayor Rizvan.
Yağıların üstünə aslan kimi getdilər,
Yurdumuza göz tikən yadları məhv etdilər.
Hər döyüşdə düşməni pərən-pərən saldılar,
Hərəsi bir cəbhədə fəqət, şəhid oldular.
Onları mədh etməyə çatmaz mənim hünərim
Nə də onlara layiq olmaz mərsiyələrim.
Onlara layiq əla mədhi və mərsiyəni
Yaza bilərdi ancaq böyük şair Xaqani.
Şəhidlərə bir neçə mərsiyə yazsam da mən,
Nə edim, mədhiyyə,mədh yazmaq gəlmir əlimdən...
-Dərdinizə şərikəm iki itkin atası,
Araz, Niyaz anası-
Fərhad əmi, Tamara bibi dərdiniz çoxdur
Itənlər qayıdacaq, igidə zaval yoxdur.
Fərhad əmi kövrəldi,
Əlimdən tutub dedi:
- Çox təsəlli verirsən sağ ol, əmioğlu bizə

www.kitabxana.net
Bilirsən ki, təsəlli çarədir dərdimizə.
Gözləməkdən yorulduq, görünmür Araz, Niyaz
Halımı ərz eləyim sən onu şeirlə yaz:
O dedi, mən də yazdım .
-Baharım xəzana döndü,
Güllərim saraldı ,getdi.
Cəfadan bülbülüm öldü,
Qönçəmi xar aldı ,getdi.
Gözləyirəm sökülmür dan,
Günüm-ax-vay, gecəm-fəğan,
Əsdi boran, qopdu tufan,
Çırağım qaraldı, getdi.
Quzeyim qarsız quzeydi,
Günüyim günsüz güneydi,
Gülşənimi dolu döydü,
Bağımı qar aldı, getdi.
Bayramım matəmə döndü,
Yanvarım dərd-qəmə döndü.
Ocağımda odum söndü,
Dərd canımı aldı, getdi.
Dostdan- dostu, yardan yarı
Qan içənlər saldı ayrı.
Sarı iblisin tankları
Sinəmdən yol saldı, getdi.
Ala bilsəm qisasımı,
Soyunnam qəm libasımı,
Laçınların yuvasını
Yapalaq sar aldı, getdi.
A Binnət, bu necə işdi,
Oğullarım itkin düşdü?
Həyatım ah-vayla keçdi,
Göz yaşım car oldu ,getdi...
- A Mikayıl, Məhruzə,
Daş yanıb külə dönər,

www.kitabxana.net
Dağ dözməz dərdinizə,
Xoşbəxtlik diləyirəm sizin məsum ailəyə
Sizin nəvələrnizə- Röyala, Röyaləyə!
Hamımızın dərdidir sizin çəkdiyiniz dərd.
Bir oğul böyütdünüz vətənpərvər, cəsur, mərd,
Qəhrəmanlıq göstərdi oğlunuz hər cəbhədə
Onun şücaətindən danışılır hələ də.
Belə oğlan atası, anası çəkərmi dərd?
Oğlunuzla fəxr edir ölkə, bölgə, bizim kənd.
Məhruzə dedi:-Qardaş,
O qalib olaydı kaş!
Xalqım zəfər çalmasa, yaralarım sağalmaz,
Bu şəhid anasının əhvalını öyrən, yaz:
O dedi mən də yazdım:

Gülə-gülə yola saldım,
Yaş tökə-tökə gəzirəm.
Şəhid oldu, qəddimi qəm,
Dərd bükə-bükə gəzirəm.

Ömrüm keçir sükut ilə,
Min dərdim var gəlməz dilə.
Sinəm üstə qəm cütüylə
Yas əkə-əkə gəzirəm.

Gecəm-kədər, gündüzüm-qəm,
Dərdim-hədsiz, sevincim-kəm,
Dilimdə-ah, gözümdə-nəm,
Ah çəkə-çəkə gəzirəm.

Sızlayıram yana-yana,
Ağlayar oğulsuz ana.
Hər gün evdən qəbiristana
Yol çəkə-çəkə gəzirəm.

Binnət, çarə yox dərdimə,
Nə mənə nə həmdərdimə,
Mən hələ oğul dərdinə
Ev tikə-tikə gəzirəm...

www.kitabxana.net

– A şəhid anaları-
Göyçək, Tamam, Firəngiz, Dilbər, sizin hərəniz,
Bir igid böyütdünüz, cəbhəyə göndərdiniz.
Belə oldu onlara sizin son öyüdünüz:
“Vətən yolunda şəhid, ya da qalib olun siz,
Zəfər çalın, sizlərə halal olsun südümüz!
Sizinlə fəxr eləsin millətimiz, elimiz”
-Hamınızın önündə baş əyirəm, bacılar!
Sizintək anaların öyünməyə haqqı var...
Hüseyn qardaş, sənin də dərdin çəkilməz dərddi.
Bircə oğlun var idi, öldü, eli göynətdi.
O yeddi bacısının pənahı, ümidiydi.
Onu görənlər deyir:-Çox cəsur igidiydi.
Deyirlər:- Hər döyüşə hamıdan öndə gedib,
Ayaza, Niyaza da cəbhədə kömək edib,
Deyirlər:- Çox düşməni öz qanına bələyib.
Ona pusqu qurublar,
Ürəyindən vurublar.
Deyirlər son nəfəsdə;-Vətən yaşasın!-deyib.

Epiloq

Vətən yolunda şəhid-qurban vermişik min-min,
Düşmən məğlub olacaq, Xalqımız olsun əmin.
Sağalacaq qövr edən yaraları sinəmin,
Yağılar xar olacaq, qələbə yaxındadır,
Silkinb bu yasdan da çıxacaqdır şən vətən,
Olacaq daha abad, daha da gülşən vətən.
Yağıların, yadların bu qucağı gen vətən,
Başına dar olacaq, qələbə yaxındadır.
Xalqımız dərd çəkəndə canımdan can çəkilir,
Gözünüz aydın, ellər tüstü, duman çəkilir.
Tısbağa kimi qına İvan, Vartan çəkilir,
Haq bizə yar olacaq qələbə yaxındadır.

www.kitabxana.net

Qələbə yaxındadır cəsur qəhrəmanların
addımlarıyla gəlir.
Şəhid analarının arzularıyla gəlir...
Düşmənlər sevinməsin,
Dostlar kədərlənməsin!
Ölüm-əbədi ömür,
Ölməzlik, şərafətdir.
El yolunda canından keçən qəhrəmanlara,-
Monument ucaldacaq millətimiz onlara.
Babaların adıyla öyünməklə iş aşmaz
Qəhrəmanların adı qorxaqlara yaraşmaz.
Hücum əmri verəcək bir gün ali komandan
Hücum edib hər yandan
Şəhidlərin öcünü birə-yüz alacağıq,
Onlar kimi vuruşub, qələbə çalacağıq.
Kəndimizin davada şəhid olmuş mərdləri-
qeyrətli igidləri
Ömrü vermədi bada,
Onların şanlı adı
Qalacaqdır dünyada.
Nə qədər ki, cahan var,
Anam Azərbaycan var,
Tovuz var, Cırdaxan var.

19-29 may 1994

www.kitabxana.net

www.kitabxana.net

Qoymadılar bilək tariximizi

Azərbaycan Demokratik Respublikasının
80 illiyinə ithaf edirəm.

Proloq

Tarix, öz yaşını özün bilirsən,
Yazanlar da bilmir, yazdıranlar da.
Bu gün tarix yazan haradan bilsin
İlk insan xəlq olub, nə zaman, harda?
Bilirik min illər yazı olmayıb,
Xəritə çəkən də, yazı yazan da.
Nəyi yalan, nəyi həqiqət sayıb
Kim bilir tarixçi tarix yazanda.
Deyirlər Adəmlə Həvva olubdur,
Nə vaxtsa bəşərin ata-anası.
On dörd mindən artıq dava olubdur
Kim bilir nə zaman, harada, hansı?
Herodot, Strabon hardan bilərdi
Özündən əvvəlki minillikləri?
Çoxu ehtimallar, fərziyyələrdir,
Çox tarixçilərin, söylədikləri.
Qədim kurqanların, abidələrin
Talanıb, dağılıb-məhv olub çoxu,
Silinib yazısı kitabələrin,
Daşlardakı rəsmin pozulub çoxu...
Məcbur elədilər əzbərlətdilər,
Yadlar öz hərfini, öz tarixini.
Bizə öyrənməyə yasaq etdilər,
Mənim öz hərfimi, öz tariximi.
Qəsdən dəyişdilər əlifbamızı,
Oxuya bilmədik tariximizi.
Nə tarix dəyişə, nə də ki, yazı

www.kitabxana.net
Nə də həqiqətin silinə izi.
Dəyişdi lüğətdə sözlərimiz də,
Yad dilində yazdıq ərizəmizi.
Neçə yol dəyişdi xəritəmiz də,
Neçə yol böldülər ərazimizi.

I F ə s i l.

Latın millətitək yox olmadıq biz
Yaşatdıq dilimizi, tariximizi.
Azadlıq uğrunda mübarizəmiz,
Dilimiz, tariximiz yaşatdı bizi.
Bilirəm çox çəkib bizi sınağa
Cahanın çox quduz cahandarlrı.
Olmaq istəyiblər yurdumda ağa,
Ərəb-fars şahları, rusya çarları.
Göydən başımıza tökülüb odlar-
Quduzlar xalqıma cumub hər yandan,
Ancaq son döyüşdə xar olub yadlar,
Zəfərlə çıxmışıq hər imtahandan.
Yüz illər quzeydən bəd yellər əsdi,
Yanmağa qoymadı çırağımızı.
Araz sərhəd oldu, aranı kəsdi,
Yadlar yarı böldü torpağımızı
Yüz illər bitməyib yadlara qarşı,
Xalqımın azadlıq mübarizəsi.
Qanına qarışıb bəzən göz yaşı,
Olmaq istəməyib, yadın köləsi.
Şərəflə yaşayıb bizim nəslimiz,
Poladtək sınsaq da əyilməmişik.
Bir gün ayaq üstə can verməyi biz,
Yüz il qul olmaqdan üstün bilmişik.
Dəyişsə də hərfim, xəritəm bəzən,
Nə biz dəyişmişik, nə tariximiz.

www.kitabxana.net

Şərəf-şan bilmişik, anamız, Vətən,
Sənin uğurunda can verməyi biz.
Yad olub tariximi səhv yazdıran, səhv yazan,
bizə səhv öyrətdirən,
Kitabələrimdəki yazılarımı pozan,
elmə xələl gətirən,
Xəritəmi məhv edən, saxta xəritə cızan,
sərhəddimi itirən.
Əgər tariximizi olmasa dürüst yazan,
Xətailərin ruhu inləyər torpaq altda
Nə vaxt ki, vampirlərin əlinə fürsət düşüb,
Xalqımızın qanını sümürüb, sorub, içib,
Sərhəddimi, tariximi, əlifbamı dəyişib.
Babəklər, Koroğlular el üçün candan keçib,
Namərd keçəl Həmzələr gizlənib papaq altda.
Bildiklərmi deyirəm bu gün sizə tarixdən,
Bir az köhnə tarixdən, bir az təzə tarixdən.
Bədhax yad tarixçilər tarix yox, yalan-yanlış,
Uydurmalar deyiblər hər gün bizə tarixdən,
Tarixi faktlar qalıb
Sementi qumundan çox yeddi qat suvaq altda.
Bilirəm yurdumuza bəd niyyətlə gəliblər,
Yunanlar, italyanlar, gürcülər və ərəblər.
Atropatlar, Qazanlar, Cavanşirlər, Çələbilər
Yurdumuzun qədrini candan əziz biliblər,
Yurdun bir qarışını yağıya verməyiblər.
Güneydən səmum əsib yüz illər üstümüzə,
Ərbablar əldə qamçı durublar qəsdimizə.
Mövhumatçı fanatlar hədyan söyləyib bizə,
Gündə bir Şeyx Nəsrullah "ölü dirildib" bizə,
Maymaq Həsənlərimiz "ləbbeyk" deyib qulluqda.
Bizə tariximizi səhv öyrədiblər qəsdən,
Hər yad öz tarixini tədris etdirib dərsdə.
Bizim tariximizi düz yazdıqları üstə,

www.kitabxana.net
Tarixçilərimizi «Çekist»lər xəstə-xəstə
Çürüdüblər, qırıblar karserdə qazamatda.

www.kitabxana.net
Iki əsrdi ayılar dadanıb balımıza,
Tülkülər qurda dönüb, cumurlar malımıza,
Həm də sahib çıxırlar dağlıq mahalımıza.
Fətəlilər, Cəlillər ağlayıb halımıza,
Bizə qadağan olub halımızı yazmaq da.
Pyotr ermənilərə olub hami, havadar,
Çoxdan istəyirdi ki, Rusiyanın cənubunda
Rusya forpostu olsun,deyib: - harada erməni var,
Üsyankar malakan var,
Çara qarşı çıxan var
Hamısı köçürülsün qərbi Azərbaycana,
İrəvan Xanlığına,
Harada istəsələr, orda məskunlaşsınlar,
Yerlilər gəlmələrə dəyib-dolaşmasınlar.
Istəyirdi yurdumda Ermənistan yaratsın.
Satqın, bic ermənilər darda dadına çatsın-
Ona itaət edən sədaqətli qul olsun,
Atına arpa olsun, qatırına çul olsun,
Aralıq dənizinə Mərmərədən yol olsun,
Rusiyanın paytaxtı qədim İstanbul olsun.
Pyotr bu bəd xəyala düşdüyü gündən bəri,
Əsir odlar yurduna quzeyin bəd yelləri,
Başlayıb xalqımızın müsibətli günləri.
Yurdumuzun səfalı, bərəkətli yerləri
Yurdsuz napakyanların qalır tapdağı altda.
O vaxtdan ermənilər, üsyankar malakanlar,
Nə qədər ki, Rusyada çara qarşı çıxan var.
Hamısı köçürüldü qərbi Azərbaycana,
Irəvan xanlığına,
Güney Azərbaycana.
Minlərlə Azərini yurdundan köçürdülər,
O yurdlara erməni, malakan köçürdülər.
Adını dəyişdilər sonra da bu yurdların,
Şirin oylağı oldu çaqqalların, qurdların....

www.kitabxana.net

Sisyanovun ordusu Gəncəni viran etdi,
Bir həftə küçələrdə su yerinə qan getdi.
Cavad Xan öz canını yurduna qurban etdi.
Bu gün xalqım fəxr edir o şanlı qəhrəmanla.
Lisanoviç xaç aldı, mükafatlandı ordu.
Arvadının xətrinə Aleksandr fərmanla
Gəncəmizin adını «Yelizavetapol» qoydu.
Əllərində Aleksandrın verdiyi qanlı fərman,
Quldur qoşunlarıyla Paskeviçlə Lazaryan
İrəvan xanlığında nə bəy,nə xan qoydular,
İrəvanın adını tez Yeravan qoydular.
Xanların mal- mülkünü ityanjara verdilər.
Onlar da Paskeviçə "İravanski"-dedilər.
Sonra bu iki qəsbkar-
Qəlbidaş,vicdanı kor
Türkiyədən, İrandan,
Fələstindən, Livandan.
Irəvan xanlığına köçürüb ityanları,
Xanların yerinə sahib elədilər onları...
Bitən kimi Rusiya-İran müharibəsi,
Bağlandı Türkmənçayda barış müqaviləsi,
Iki yerə bölündü qədim Odlar Ölkəsi.
Çar ilə Şahənşahın oldu müstəmləkəsi.
Ərazimin, xalqımın çoxu İranda qaldı,
Azı da Rusiyanın ixtiyarında qaldı.
Sərhəddi Araz oldu Rusiya ilə İranın
Sinəsi parçalandı anam Azərbaycanın.
O vaxtdan azadlıqçun apardıq mübarizə
O vaxtdan gizli-aşkar əzab verdilər bizə.
Nikolayin fitnəsi, Andronikin feliylə,
Biri-birindən zındıq kafirlərin əliylə
Min doqquz yüz beşinci-yeddinci il Şuşada,
Bakıda, Cəbraildə, Zəngilanda, Culfada,
Naxçıvanda, İravanda.

www.kitabxana.net

Su yerinə axdı qan,
Qətl oldu çox müsəlman ...
Bir yarasız, ağrısız yeri yoxdur sinəmin,
Azadlıq uğrunda Şəhidlər verdik min-min
Dözmədi ağrısına, xalqa olan sitəmin.
Xalqın fədakar oğlu-Böyük Məhəmməd Əmin
Bizə hüriyyət verdi üç rəngli bayraq altda.
Iyirmi səkkiz mayda səksən il bundan qabaq
Bizim də üzümüzə güldü işıqlı sabah.
Ədalət zəfər çaldı, azad xoşbəxt oldu xalq.
Əsarət zəncirini dişi, əliylə qırdı,
Şərqdə ilk demokratik, müstəqil dövlət qurdu.
Ancaq iyirmi üç ay oldu azadlığımız,
Fəqət tez sona çatdı bizim bu şadlığımız
Alındı əlimizdən, can verib aldığımız.
Quzeydən üstümüzə yenə əsdi qara yel,
Biz yenə də çarpışdıq yağılarla yetmiş il...
Hələ beşikdəykən bizi yuxudan,
Toplar, pulemyotlar, tanklar oyatdı.
Keçdik, fırtınadan, alovdan, oddan,
Ayazda, şaxtada, qarda boy atdıq.
Sürgün, repressiya artdı günbəgün,
Yenə xalqımızın döndü taleyi
Sevdiyi yurdundan düşdü didərgin
Əmin -Vətənimin protemeyi.
Nə sürgün qorxutdu, nə Sibir bizi,
Nə dar ağacları, nə də zindanlar.
Sındıra bilmədi iradəmizi
Zorla qol, qabırğa, qıç sındıranlar.
Yerə qoymayıblar əldən qılıncı,
Silah babamızın yoldaşı olub.
Bizim babaların çox vaxt balıncı
Qu tükü olmayıb, çöl daşı olub.
Böyüdük günbəgün, dəstəbədəstə,

www.kitabxana.net
Keçilməz yolları zəfərlə keçdik.
Nakam şəhidlərin məzarı üstə,
Heykəl qoyduq, çiçək əkdik, and içdik.
Həmişə ən çətin cəbhədə durduq-
Kənddə cütçü olduq, şəhərdə fəhlə.
Bizə kəc baxanı gözündən vurduq,
Vətən üzümüzə baxdı fərəhlə ...
Bitən kimi Rusyada inqilab qalmaqalı
Qroznıdan qorxulu, bədniyyətli,xatalı,
Bir erməni xislətli-dazbaş, pəltək, xaltalı-
Lenin-bədlöyün,zındıq,
Bədəsil,zatıqırıq
Göndərdi üstümüzə Şaumyanı baltalı.
Ona əlli min tüfəng,əlli milyon kağız pul,
Yarım milyon qızıl pul,on səkkiz min də əsgər
Verdi.Əsgərin on üç mini erməni idi,
Onların əksəryəti baş kəsən cani idi.
Bu canillər guruhu Müsavatı məhv etdi,
Otuz – otuz bir martda soyqırımı törətdi,
Doqquz yüz qırx beş kəndi, şəhəri tələf etdi,
Çox çıraqlar söndürtdü, çox ocaqlar qaraltdı
İrəvan xanlığında Ermənistan yaratdı.
Yurdu olmayanların yurdu, dövləti oldu,
Öz paytaxtı, sərhəddi, öz məmləkəti oldu.
Ordakı məscidləri uçurub, dağıtdılar,
Yerində üstlü xaçlı kilsələr ucaltdılar.
Ruslar, daşnaqlar guya bizə qahmar çıxdılar,
Bəylərin mülklərini yağmalayıb, yaxdılar,
Bəyləri soymaq üçün küncdən-küncə sıxdılar
Bizə hürriyyət verən Müsavatı yıxdılar,
Biz yeni azad olub, ağ günə çathaçatda.
Pəltək, daz Ulayanov qənim kəsildi bizə,
Korqanovu qoşunla göndərdi üstümüzə.
Azərbaycanlıları sıxma boğmaya salıb-

www.kitabxana.net
yerini mülkünü alıb,
Elindən-obasından didərgin elətdirdi,
Onların torpağını-aranını, dağını
bağçasını bağını,
Başqa yerlərdən gəlmiş toşyanlara verdirtdi.
Yetmiş ildən çoxdur ki, o üsyankar dinsizin
Nə bəd ruhu göydədir, nə zay nəşi yerdədir.
Axirətə getməyə ona verilmir izin.
O neftini, qazını sordu millətimizin
On birinci orduyla qan rəngli bayraq altda.
Fitnə-fəsad olsa da onun işi-peşəsi
Çoxları deyirdilər ona «Şimal günəşi».
O qədər bəd olub ki, onun əməli, işi
Öləndən bu günədək arada qalıb nəşi.
Ruhuna inkir-minkir zülm edir sarkofaqda.
Torpaq qəbul eyləmir nəşini o kafirin,
Ona əzab verdirən Yaradana afərin!
O qədər çox olub ki, onun etdiyi günah
Hələ onun ruhunu dara çəkdirir, Allah.
O fasiqin feliylə,
Dinsiz bolşeviklərin, daşnaqların əliylə:
Şərqi Anadoluda, Rəştdə, Mazandaranda,
Marağada, Salmasda, Urmiyada, Zəncanda,
Bakıda, Şamaxıda, Qubada, Lənkaranda,
Kürdəmirdə, Göyçayda, Hacıqabulda, Ağsuda,
Keşlədə, Suraxanıda, Bülbülədə, Əmircanda
On minlərlə insanı boğdular öz qanında.
Xalqı məscidə yığıb oda qalayanların-
Azğın Şaumyanların, quduz Lalayanlıarın
Çaqqal Əmiryanların, tülkü Mikoyanların
Cəllad Amazokların, "Müsəlmanam",-deyənin
"Sizin kimi it deyil, mən insanam",- deyənin
Ağzına daş basdılar,
Ağaclardan asdılar,
başını partlatdılar,

www.kitabxana.net
gözünü çıxartdılar.
Xəncərlə, süngü ilə
Hamilə qadınların bətinlərinin yırtdılar,
Bətndəki körpələri dartdılar, çıxartdılar,
süngülərə taxdılar.
Gəlinlərin, qızların döşlərini kəsdilər,
Sinəsinə, üzünə, alnına dağ basdılar.
Çoxunun sinəsinə xəncərlə xaç çəkdilər,
Sonra da soyundurub saçlarından asdılar.
Ağbirçək qarıların, ağsaqqal qocaların
Gözlərinin önündə oğlunun, qızının,
Körpə nəvələrinin başlarını kəsdilər.
Çoxlarının belinə su qaynaya-qaynaya
samovar bağladılar.
Çoxlarını əlindən ağaca mıxladılar,
Çoxlarına divara, xaça çarmıxladılar.
Çoxunun ailəsini evinə doldurdular,
Qapısını bağlayıb, neft töküb, od vurdular.
Möhtəşəm sarayları yandırdılar-yaxdılar.
Məscidləri, pirləri uçurdular yıxdılar,
Ermənilər bax belə nadürist, nacinsdilər-
cindilər, iblisdilər.
divdən, itdən pisdilər...
Üstümüzə cumanda qudurmuş azğın qurdlar-
"volklar", daşnaqlar, lordlar
Çatdı harayımıza Sultan bəy, Ənvər paşa,
Dar gündə pənah oldu yenə qardaş qardaşa...
Səttar xanla Bağır xan-
Iki şanlı qəhrəman
Istədilər vətəndə azad yaşayaq biz də,
Milləti oyatdılar ,
Məşrutə yaratdılar.
Rusyanın soldatları,
Iranın "sərbaz"ları

www.kitabxana.net
Beşiyində boğdular məşrutəni Təbrizdə.
Saysız-hesabsız oldu ölüb-itənimiz də.
Azadlıq yasaq oldu bizə vətənimizdə...
"Dədəlik" eləyəndə bizə "Ellər atası"-
Sovetlər ölkəsinin baş cəlladı, kəttası
Yada- yağıya çatdı yenə bizə çatası,
Yenə də artıq oldu "yoldaşların" arpası.
Yenə də başımızı kəsdi özgə cəlladlar,
Yenə də elimizdə ağalıq etdi yadlar,
Yenə də özgələri evimizdə bəslədik.
"Vıpolnıyay",- dedilər. Biz:- "Xaroşo", "yest" -dedik...
Bakıda on beş min şəhid məzarından qalmadı
nə başdaşı, nə nişan.
Xalq düşməni sayıldı bu barədə danışan.
Burdakı səkkiz künçlü Pirvənzəli pirini
Uçurub, dağıtdılar- etdilər yerləyeksan.
Onun təməli üstdə bir qan içən cəlladın-
bizə yağının, yadın
Göz dağıtək ucaldı cin boyda tunç heykəli.
Bakıya kölgə saldı onun qan tökən əli.
Məzarlığı dağıdıb, dinclik parkı etdilər,
Bu parkda gecə-gündüz
Yüzlərlə erməni, rus-
"Hinger"lər," tovariş"lər-
Ruhsuzlar, qəlbi daşlar
(guya bizə yoldaşlar)
Kef çəkib, "tans" etdilər
Və "dasnı-çors" getdilər.
Məzarsız şəhidlərin-
Günahsız şəhidlərin
ruhunu incitdilər...
Mircəfər olmasaydı,
Yaqin Bakının adı
Dəyişib Kirovokan,

www.kitabxana.net

Kirovkerd, Kirovqrad,
Ya da ki, Kirovabad
adlanar, yazılardı.
O vaxt xaçpərəstlərin belə niyyəti vardı.
Bundan sonra çox şəhər, kənd yer adı dəyişdi.
Bizim xəritəmizə çox bəd, yad adlar düşdü:
Leninkənd, Kaleninkənd, Zubovka, İvanovka,
Artyom, Razin, Puşkin, Kirovka, Slavyanka...
Səfalı Xankəndimiz oldu Stepanakert,
Gülüstanımız- Şaumyan,
Gəncəmiz- Kirovabad, Ağdərəmiz- Mardakert.
Ermənilərə qalan doqquz yüzdən çox şəhər,
kənd yer adı dəyişdi:
Hamısının adları ruslaşdı, ermənləşdi:
Leninakan, Tumanyan, Voroşilov, Abovyan,
Qribayedov, Nalbandyan, Kalenino, Mikoyan,
Verdanes, Artik, Sevan...
Bir ad saxlamadılar
O yerlərin, kəndlərin, şəhərlərin adından,
Çalışdılar o yerlər çıxsın xalqın yadından...

II Fəsil

Varlıların əlindən atı-malı alındı,
Arabası, öküzü, cütü, kalı alndı.
Hamısı kolxozlara verildi damğalandı.
Bəylərin bəziləri qazamata salındı
Bəzilərini Sibirə sürdülər yaraq altda.
Taxıl zəmilərində, pambıq tarlalarında;
Çay plantasiyasında, çöldə, bağda, bostanda,
Qış şaxtada, sazaqda,
Yay qızmar günəş altda
İşlədik gecə-gündüz,
Olmadı dincliyimiz.

www.kitabxana.net
Çərlədik mədənlərdə, biz fabrikdə, zavodda,
yandıq alovda, odda.
Kişi kimi işlədi yetmiş yaşlı arvad da...
Stalinin hökmüylə
Nə vaxt ki, marionetka oldu bizim başçımız,
Onda yüz-yüz yaxşımız-
Xalqını vətənini sevən vətəndaşımız
Döyüldü, şil-küt oldu, qan qusdu laxta-laxta.
Dinimiz ayinimiz, bayramımız yasaq oldu,
Məscidlərmiz anbar, klub, dindarımız dustaq oldu,
Bizə böyüklük etdi qəlbidaş, başı taxta.
Yüzlərlə ərizəmiz oxunub, dinlənməmiş
Arxivlərə qoyuldu min saxta varaq altda.
Başçımız kim oldusa taleyə, qismətə bax,
Bizə köləlik verdi, xaçpərəstlərə şallaq.
Bizi məhv etmək üçün ac-susuz saxladılar,
Boynumuza qoyuldu hər təxribat, hər günah,
Izahat yazdırdılar, təpik, şapalaq altda.
Havadarlı yersizlər yerliləri qovdular,
Varlıların varını taladılar, soydular.
Yerlilərin mülkünə yersizləri qoydular,
El üçün ağlayanın gözlərini oydular,
Gəlmələr əzizləndi gül-çiçək, yarpaq altda
Xalqını sevənləri, qanına bələdilər,
Elini sevənləri dərbədər elədilər.
Alimi, yazıçını seçib güllələdilər,
Yüzlərlə ziyalıya "sən casussan",- dedilər,
Döydülər, öldürdülər "padvalda" "zamok" altda.
Yağılar cəhd edirdi casustək güllələnsin
ya da sürgün edilsin,
Əliağa Şıxlınski, Səməd bəy Mehmandarov,
Cavan Cəfər Cabbarlı, Üzeyir Hacıbəyov.
Onları xilas etdi Nəriman Nərimanov.
Bilirik üstümüzə bu bəla hardan endi,

www.kitabxana.net
Bilirik gözümüzə kül quzeydən ələndi.
Yüzlərlə Hadi kimi ziyalımız diləndi,
Cəfərlər vərəmlədi,
Müşfiqlər güllələndi.
Sibirdə həlak oldu böyük Cavid əfəndi,
Şükür, qoymadıq qala onu yad torpağı altda.
Zorla həsrət qoydular ananı balasına;
Bacını qardaşına, nəvəni babasına.
Qəribi vətəninə, qaçqını obasına.
Qohumun nə toyuna çatdıq, nə də yasına,
Hər sərhəddə çatanda salındıq «sapoq» altda.
Nə qatığımız oldu, nə də ki ayranımız,
Məcbur etdilər dedik:- Xoş keçir dövranımız
Zor ilə üstümüzdən alındı yorğanımız,
Soyuq, nəmli daxmada qızınmadı canımız,
Vergini gec verəndə can verdik çomaq altda.
Döşəyinin içini vergiyə ver, - dedilər;
Qoyununu, keçini vergiyə ver, - dedilər,
Toyuğunu, cücəni vergiyə ver, - dedilər,
Evdə ələ keçəni vergiyə ver, - dedilər.
Verdik nəyimiz vardı,
Soyğunçular apardı.
Onlar geydi, bəzəndi, biz qaldıq yamaq altda.
Yerimizi aldılar yersizlər, ünvansızlar;
Dinimizi dandılar dinsizlər,imansızlar,
Qanımızı sordular zəli kimi qansızlar,
Qara günlər gətirdi qırmızı vicdansızlar,
Qara gündə yaşadıq qırmızı bayraq altda.
Dedilər:-Qardaş deyin bicə, gicə, paxıla,
Neft tapın, pambıq əkin, yer qalmasın taxıla.
Nə şilə rəhm etdilər, nə də qoca ahıla,
Əkdik, səpdik, becərdik biz yıxıla-yıxıla,
Döyüldük, tapdalandıq “Çəkiclə oraq” altda.
Neçə yol yurdumuzdan dərbədər elədilər,

www.kitabxana.net
"Qolçomaq", "Xalq düşməni", "türk", "islamist"-dedilər.
Bədhaqlar, haramxorlar haqqımızı yedilər,
Gəlmələrə mükafat, bizə töhmət verdilər,
Bir yaxşı gün görmədik bu işıqlı həyatda.
Yaxşımız güllələndi, naşımız rəhbər oldu;
Yurdumuzda ağalıq edən özgələr oldu,
Eldə yaxşı yaşayan yadlar, gəlmələr oldu,
Bəylərin mülklərində gəlmə gədələr oldu,
Biz gəlmə daxmasında yaşadıq qoltuq altda.

www.kitabxana.net

Mazut mədənlərində sümüyümüz çürüdü,
Hər gün bizə gah sarı, gah qara it hürüdü.
Yad bizi yaşatmadı, süründürdü- sürüdü.
Ahımız yerdə yeri, göydə göyü bürüdü,
Bir kölgəlik tapmadıq, dinc nəfəs alaq altda
Matəm günlərimizi
bizə bayram etdilər,
parada çıxartdılar.
Bayram günlərimizi
bizə haram etdilər,
sızladıb ağlatdılar.
Istismar edib bizi,
zülm-sitəm etdilər,
alçaqlar alçaltdılar.
Yüzlərlə şirimizi
tülkülər ram etdilər,
manejdə oynatdılar.
İllərlə sirk şiritək yaşadıq şallaq altda.
Neçə yerə böldülər milləti, məmləkəti,
Neçə dəfə qovdular eldən elə milləti!?
Bizə gözdağı oldu Dərbənd, Təbriz həsrəti.
Eldə qəribtək olduq, çəkdik hər əziyyəti,
Nəydi yazıq millətin günahı Allah altda?!
Sazımız «daloy» oldu;
Tarımız «daloy» oldu,
Muğamımız «daloy » oldu.
Sığorta «Naloq» adlı hər cür soyhasoy oldu.
Işimiz "yoldaşlara"-götür, gətir, qoy oldu.
Dinəndə göz ağardıb, dedilər:-Farağatda!
Yüzlərlə ziyalımız-alilərdən alimiz;
Şairimiz, alimimiz, mollamız, müəllimimiz
Şahidsiz, məhkəməsiz,
Günahsız, cinayətsiz
Vətən xaini kimi,

www.kitabxana.net

Ən qəddar cani kimi
Kommist vəsiqəli qansız bolşeviklərin,
Azğın daşnaqçıların, NKVD-çilərin-
tələf edicilərin
Qanlı əlləri ilə güllələndi Nargində.
Saratovda, Daşkənddə, Uralda, Maqadanda
həlak oldu sürgündə.
Elə oldu bir gündə
Onlarla günahsızı Yapon cəsusu kimi,
xəzinə oğrusu kimi
Bayıl bastilyasına buxovlayıb, basdılar.
Satqınların əliylə boğazından asdılar...
Beş il atam cəbhədə oldu necə bilmədik.
Yazıq anam işlədi gündüz-gecə bilmədi.
Bayramda da doyunca yeyib-içə bilmədik,
Yetmiş ildə düşməni, dostu seçə bilmədik,
Qapandı gözlərimiz yüz yerdən barmaq altda...
Altı yüz mindən artıq oğulumuz, qızımız-
Mərdanımız, Leylamız, Mixaylomuz, Həzimiz
Qırx birdən-qırx beşədək vuruşdular cəbhədə,
seçildilər hər yerdə.
Onlar azad etdilər faşistlərdən Mazdoku,
işğaldan Taqanroqu.
Işləsə də Bakının neftiylə Sovet tankı,
Qəhrəman şəhər adına layiq olmadı Bakı.
"Şun" lar hər quduranda bizi qapdı çeynədi,
"Xoz" lər bizə "xoz"-dedi, "Baran"lar "Baran"-dedi:
Əkdik, səpdik, becərdik "xoz" lar, "baran"lar yedi...
Şəhriyarlar millətə "ya yaşa, ya yan" –dedi,
Sinəmiz sipər oldu top, tüfəng-daraq altda...
Səksən səkkizdən bəri yenə dönüb dəfimiz,
Xallı cinin əliylə dolaşıb kələfimiz,
Özümüzün də olub günahımız, səhvimiz
Bəzən inandığımız boş vəd verdi, baş qatdı,

www.kitabxana.net
Ördək, balıq, xərçəngtək hərə bir yana dartdı.

www.kitabxana.net
Doxsanıncı il yanvar ayının iyirmisi
Dinc nümayişə çıxdı əliyalın insanlar.
Onları qırdı, biçdi.
Qanlar tökdü qan içdi.
Quzeyin müstəmləkə, müharibə iblisi-
keçəl, xallı dənisi.
Şəhid, şikəst, şil oldu yüzlərlə gənclərimiz.
Müstəqillik, müsavat, azadlıq, arzulayan
vətənpərvərlərimiz,
Yenə də yurdumuzda töküldü nahaq qanlar-
şəhid oldu insanlar.
Bir-birindən səfalı Tovuzda, Gədəbəydə,
Qazaxda, Goranboyda, Qarabağ mahalında-
Ecazkar Zəngilanda,
Füsünkar Qubadlıda,
Ağdərədə, Ağdamda, Kəlbəcərdə, Laçında,
Şuşada, Əskəranda, Füzulidə, Xaçında.
Minlərlə abad mülklər, məktəblər, idarələr,
Evlər, muzeylər, pirlər, məscidlər, minarələr,
Topla, tankla, qradla tar-mar oldu, dağıldı.
Xocalıda insanlar qan içində boğuldu.
Qaçan-qaçdı, tutulan girov, əsir alındı
Xankənddə, Yerevanda məhbəslərə salındı.
Xunxarlar qanımızı içməkdən doymadılar
Vandallar dağılmamış kənd, şəhər qoymadılar-
Abadlıqdan şənlikdən bir əsər qoymadılar.
Uçmamış ev tapmadıq, qaçaq sığınaq altda
Bizə keçilən deyil, bax budu tariximiz
Qoy təzədən yazısın,qoy təzədən öyrənək
Vətən tarixini biz...
Dostlar, gəlin birləşək, yüklü arabamızı
Bataqlıqdan çıxardaq, qalmasın bataqlıqda.
Əlbir olaq, heç birimiz dayanmasın qıraqda.
Ya arabanı çıxardaq, ya da məhv olaq altda.

www.kitabxana.net
Bu qisas qiyamətə qalsa ar olsun bizə
Ölək, itək, məhv olaq, dünya dar olsun bizə...
Böyük yaradan özü havadar olsun bizə-
Bir el qeyrəti çəkən bayraqdar olsun bizə
Qarabağ azad olsun, qalmasın tapdaq altda!...
Xalqımın qeyrətli mübarizləri,
Vətən uğrunda ayağa qalxaq!
Zəlil olsun işğal, qan hərisləri,
Bizdən-Türkdən torpaq ummasın nahaq.
Azğın işğalçıdan intiqam alaq,
Aləmə yayılsın zəfər sədamız.
Biz ya şəhid olaq, ya qalib olaq,
Təslim olmamışıq heç vaxt yada biz.
Qarabağda nə «şun» qalsın, nə «pyos»
Qarşımızda ağ bayraqla diz çöksün.
Ivan- «duraçok"la Tevan "-şurtuvas"
Yurdumuzdan dizin-dizin sürüksün.
Əsirlər saxlanan daş zindanları,
Uçurub, yerində gül-çiçək əkək.
Qovaq Qarabağdan qudurğanları,
Bakıdan Şuşaya rahat yol çəkək.
Sökək baza adlı cəhənnəmləri
Gümrüdə, Xankəndə yıxaq, uçuraq
Torpaq iddialı ağlı kəmləri,
Yığaq, BMT-yə, məhkəmə quraq.

Epiloq

Yüz illər yaşadıq mücahidlərtək,
Şükür, zəfər çaldı mübarizəmiz.
Tanklara, toplara sinə gələrək,
Şəhid verdik, aldıq azadlığı biz.
Şəhidlərin qanı bahasına biz,
Ağ günə çıxartdıq Vətənimizi.

www.kitabxana.net

Fədai nəslidir bizim nəslimiz,
Anamız fədakar böyüdüb bizi.
Meydanlara çıxdıq, şimşəktək çaxdıq,
Hamımız:-"Azadlıq", "Qarabağ",- dedik.
Əl-ələ verərək sel kimi axdıq,
Azadlıq yolunda qorxu bilmədik.
Azad yaşamaqdır ömrün mənası,
Əsarət, kölәlik qəlbə nizədir.
Hürriyyət sevənin əsas qayəsi,
Azadlıq uğrunda mübarizədir.
Görmüşəm əsarət əziyyətini,
Dadmışam dadını azadlığın da.
Mən azadlığımı, səadətimi,
Tapmışam xalqımın azadlığında.
Doxsanıncı ildə düşmənimizlə,
Silahsız, sipərsiz üz-üzə durduq.
Sərhəd məftilini dişlərimizlə,
Dırnaqlarımızla qırdıq, qopardıq.
Yalın əlimizlə buxovu qırdıq,
Zülmün komasını elədik bərbad.
Qanuni müqəddəs bir dövlət qurduq,
Bayraqlı, gerbli, himnli, azad.
Bir də azadlığı vermərik əldən,
Yolunda Şəhidlər vermişik min-min.
Qoydun təməlini hürriyətın sən,
Gorun nurla dolsun Məhəmməd Əmin!
Ölmərik tanklara gərsək də sinə,
Yanmarıq alovdan keçsək də min yol.
Tarix kitabının hər səhifəsinə
Qızıl hərflərlə,
Hünərimizlə
ZƏFƏR yazacağıq, Vətən, Əmin ol!

16-27 may 1998-il

www.kitabxana.net

Azərbaycanın

Cəlalı, camalı cahanı bəzər,
Adı nəğmə kimi dillərdə gəzər,
Kədəri Arazdır, sevinci Xəzər
Şah dağ əzəmətli Azərbaycanın.
Çörəyi müqəddəs, duzu müqəddəs,
Şəfalı ocağı, közü müqəddəs.
Qanunu alidir,sözü müqəddəs,
Müqəddəs niyyətli Azərbaycanın.
Əbədi yurd salıb qoynunda bahar,
Yamacı gülşəndir, çölü laləzar.
Hələ acılmamış min xəznəsi var
Dövlətli, sərvətli Azərbaycanın.
İlin hər fəslində bar verir bağı,
Barlı bəhrəlidir aranı, dağı.
Yayılıb aləmə sözü-sorağı
Al günəş söhrətli Azərbaycanın.
Sarsılmaz monolit gücü, qüvvəti,
Nəsimi dözümü, Babək qüdrəti.
Xətayi, Cavad xan, Mehdi cürətli
Nəriman siyasətli Azərbaycanın.
Göydür Göy-Gölü də, Maral gölü də,
Ceyran, cüyür, maral gəzər çölündə.
Min gülzar ətri var hər bir gülündə
Çiçək təravətli Azərbaycanın.
Nəslimiz Səttarxan, Bağırxan nəsli,
Qurtuluş, azadlıq, üsyan həvəsli.
Loğman havası var həyat nəfəsli,
İnqilab qüdrətli Azərbaycanın.
Yayda da tükənməz dağlardan qarı,
Qışda da tükənməz bağlardan barı.
Geniş qucağına sığmayır varı

www.kitabxana.net
Barlı- bərəkətli Azərbaycanın.

www.kitabxana.net
Qəlbinə dağ çəkib yadların əli,
Ağlayıb halına Cəlil, Fətəli.
Vurğun şeiriyyətli, Bülbül cəhcəhli,
İldırım həsrətli Azərbaycanın.

Dərbəndi,Gorusu-ucalan ahı,
Göyçəsiz açılmır qaşı-qabağı.
Üzeyirin himniylə gülür sabahı,
Qaralı, Fikrətli Azərbaycanın.

Qəmi savalandı, göz yaşı-Araz,
Bakı-Təbriz yolu gözündə- muraz.
Xəzansız bahardır qoynu bahar-yaz,
Cənnət təbiətli Azərbaycanın.

Vəsfini yazmağa acizdir qələm,
Füsünkar hüsnünə heyrandır aləm.
Suyu abu-həyatdır, havası məlhəm,
Behişt vəcahətli Azərbaycanın.

Açsın sinəsini qoy Qobustanı,
Yayılsın dünyaya hünər dastanı!
Tarixə şöhrətdir şərəfi-şanı
Tomris rəşadətli Azərbaycanın.

Şeyda bülbülləri mat edir dili,
Həm bəmi gözəldir, həmi də zili.
Gülzardır Şirvanı, Muğanı, Mili
Bəzəkli, zinətli Azərbaycanın.

Oğuzu,Qorqudu deyib sözünü,
Heç vaxt tərifləməz özü-özünü.
Məğrurdur, tükənməz səbri, dözümü
Mətin-mətanətli Azərbaycanın.

Axır hər tərəfə neftiylə qazı,
Aləmə ruh verir muğamı,sazı.
Aslan cürətlidir oğulu,qızı
Heydər cəsarətli Azərbaycanın.

Didib-parçalayıb şahlar, xaqanlar,
Üstündə göl olub tökülən qanlar.

www.kitabxana.net
Yolunda can verib çox qəhrəmanlar
Yanvar müsibətli Azərbaycanın.
Parça-parça olub, paralanıbdır,
Yadlar çox yerini zorla alıbdır.
Quzeyi güneyə həsrət qalıbdır
Min-min qərib dərdli Azərbaycanın.
On ildir gülməyir pərişan üzü,
Aği deyir dilim,ağlayır gözüm.
Yüz çadır düzü var,yox-Cıdır düzü
Qarabağ möhnətli Azərbaycanın.
Qəlbitək təmizdir pak arzuları,
Göllərində sərbəst uzə Quları!.
Cansıza can verir mədən sulari,
Şəfalı, şəfqətli Azərbaycanın.
Nizami,Füzuli,Vaqif,Xəqani,
Şəhriyardır şeirin şahı, sultanı.
Möcüzünə,Sabirinə tay hanı
Cəfərli,Cavadlı Azərbaycanın.
Saysız Nigarları, Həcərləri var,
Yüz- yüz Məhsətisi,Pəriləri var.
Mirzəsi,Hüseyni,Ələsgəri var
Aşıq Ədalətli Azərbaycanın.
Dünyaya bəzəkdir cahı-cəlalı...
Məmmədəmin,Çöhrəqani amallı.
Xızır kəramətli,Zərdüst kamallı,
Avesta hikmətli,Azərbaycanın.
Müşfiqi, Cavidi məhv etdi xunxar,
Məddahlar cəlladı saydı xilaskar.
Minlərlə Çingizi, Salatını var,
Koroğlu qeyrətli Azərbaycanın.
Yaradan zövq ilə verib yaraşıq,
Ilahi hüsnünə olmuşam aşiq.
Qonağa qapısı,süfrəsi açıq
Hatəm səxavətli Azərbaycanın.

www.kitabxana.net
Binnət el yolunda alışar, yanar,
Odlar ölkəsini müqəddsanar.
Yadlar da adını hörmətlə anar
Şanlı, şərafətli Azərbaycanın.

25-28 may 1999

Səyyah, gör nələr var Azərbaycanda

Ay səyyah, tələsmə, gəz qarış– qarış,
Odlar ölkəsini seyr elə yaz, qış.
Bu ülvi, müqəddəs diyara alqış.
Əbədi cənnət var Azərbaycanda.
Yolun hansı elə düşsə bir kərə,
Sənə "qonağım ol", – söyləyər hərə.
Qonaq ol, "qonağım ol", – deyənlərə
Qonağa hörmət var Azərbaycanda
Qalsan - öz evindir, getsən – yaxşı yol,
Biz qonaqpərvərik, qonağımız ol!
Süfrəmiz açıqdır, çörəyimiz bol,
Bol ruzu, nemət var Azərbaycanda.
Qonağa açıqdır hər qapı burda,
Ötür könüllərin rübabı burda.
Şeirdir hər qəlbin kitabı burda.
Şeirə rəğbət var Azərbaycanda.
Müdrik qocaların dinlə sözünü
Odlu baxışlardan gözlə özünü,
Çaşma gözəllərin görüb üzünü,
Ay üzlü afət var Azərbaycanda.
İlahi hüsnünə şahlar baş əyən-
Məcnun,Fərhad,Kərəm , Vurğun eləyən
Hər eldə yolçunu yoldan eyləyən
Yüz zülfü kəmənd var Azərbaycanda.
Göylərə zinətdir durnalar burda;

www.kitabxana.net
Göllərə zinətdir sonalar burda,
Tomris qeyrətlidir analar burda,
Düşmənə nifrət var, Azərbaycanda.
Qorqud kamallıdır burda hər qoca,
Dolan kür boyunca, Araz boyunca,
Zərdüşt torpağını seyr et doyunca
Gözəl təbiət var Azərbaycanda
Yurdumun cəlalı sığmaz dastana
Xəyala dalmağa gəl Qobustana.
Payız Nabrana gəl, yaz Talıstana.
Ətir, təravət var Azərbaycanda.
Astaraya limon yetişəndə gəl,
Könlünə portağal, çay düşəndə gəl.
Yevlağa, Salyana yay düşəndə gəl,
Gör nə hərarət var Azərbaycanda.
Şairlər yurdudur Qazax, Şamaxı,
Yad et Xaqanini, Molla Pənahı.
Gəncədə uyuyur şairlər şahı
Ruhuna rəhmət var Azərbaycanda.
Ənəlhəqq yolunda getdi Nəsimi
Möhnət Vidadinin boğdu səsini.
Cəlildən, Sabirdən, aldım dərsimi
Şairdə cürət var Azərbaycanda
Səttar xan, Koroğlu, Babək, Cavanşir,
Xətai- meydandan namərd qovan şir –
Döyüşdə hər oğlu, qızı cavan şir,
Yenilməz qüdrət var Azərbaycanda.
Fətəli, Cabbarlı yazdı dramı.
Üzeyirə, Fikrətə mat qaldı hamı.
Dinlə müğamatı gəzsən Agdamı,
Gör nə məlahət var Azərbaycanda.
Dinlə Qarabağın şikəstəsini,
Bülbülün, Qədirin, Xanın səsini,
Habilin ecazkar kamançasını.

www.kitabxana.net

Iyulda seyrə çıx bizim dağlara.
Xoşbulaq şöhrətdir göy yaylaqlara.
Turşsuda səcdə qıl buz bulaqlara,
Suda lətafət var Azərbaycanda.

Gör Cəlilabadı, Qızılağacı,
Imişlini,Altıağacı, Lahıcı.
Qalaaltıdır neçə dərdin əlacı
Şəfalı şərbət var Azərbaycanda.

İstisu səfalı, Hacıkənd gözəl.
Qəçrəşdə, Göy göldə, Bilgəhdə dincəl.
Bir yerin ağrısa Naftalana gəl,
Hər dərdə şəfqət var Azərbaycanda.

Açsan qapımızı dost kimi, ərklə,
Qonağımız olsan təmiz ürəklə,
Qarşılarıq sazla, duzla, çörəklə
Belə xoş adət var Azərbaycanda.

Gədəbəy, Kəlbəcər, Əskəran, Şuşa,
Lənkəran, Yardımlı, Lerik-tamaşa.
Dostsevər elimi gəz başdan-başa.
Dostluq var, ülfət var Azərbaycanda.

Mavi sularında gəmilər üzər,
Mavi göylərində qartallar süzər,
Şad gündə şadlanar, bəd gündə dözər.
Dözüm, dəyanət var Azərbaycanda.

Beyləqan, Füzuli, Puşkin, Saatlı,
Cəbrayıl, Zəngilan, Laçın, Qubadlı-
Nəbili, Həcərli -tüfəngli, atlı
Mərdlik, mətanət var Azərbaycanda.

Məşəl kimi el yolunda yanarlar.
Şəhriyarlar, Bəxtiyarlar, Anarlar.
Ana yurdu yana-yana anarlar
Yanar bir həsrət var Azərbaycanda.

Müqəddəs eşqilə nəfəs aldığım.
Məftunu olduğum, meyl saldığım.
Üzünü görməyib,həsrət qaldığım.

www.kitabxana.net

Neçə şəhər, kənd var Azərbaycanda.
Təbriz boyda həsrət bükür belimi.
Araz edir gözdən axan selimi.
Yad çalışır yenə bölə elimi
Bölünməz vəhdət var Azərbaycanda.
Gözəldir Balakən, Zaqatala, Qax,
Qəbələ, Güllükənd, Şəki-kefi cağ.
Novruz bayramında gəl, süfrə açaq.
Gör nə ziyafət var Azərbaycanda.
Zirə, Sabirabad, Kürdəmir, Ləki
Qarpız, yemiş verər sənə bal təki.
Şamxorda, Tovuzda qonaq qal təki,
Gör nə səxavət var Azərbaycanda.
Soruş Dəlidağdan dədə Şəmşiri,
Şirvan ellərindən aşıq Şakiri.
Saz çalıb, oxusa ram edər şiri
Əkbər, Ədalət var Azərbaycanda.
Xunamda, Şirvanda, Muğanda, Mildə
Aşıqlara heyran qalar bülbül də,
Dinlə Azaflını gəl bizim eldə
Gör nə hekayət var Azərbaycanda.
Quba, Qusar, Xaçmaz meyvə bağıdır.
Novbahar Bərdənin gözəl çağıdır.
Abşeron yanar qaz, neft yatağıdır.
Tükənməz sərvət var Azərbaycanda.
Sumqayıt gəribdir Xəzərə sinə,
Heyranam Bakının mənzərəsinə.
Böyük Cavad Xanın pak türbəsinə
Hər gün ziyarət var Azərbaycanda.
Ağladı halına nənəm Natəvan,
Günəştək nur saçdı şərqə Nəriman.
İtirdi Müşfiqi, İmanı cavan
Gör nə müsibət var Azərbaycanda.
Ağdaşın, Ağsuyun, Göyçayın narı.

www.kitabxana.net
Xanların, Dəllərin üzüm bağları
Sığmır qucağına dövləti, varı,
Bolluq - bərəkət var Azərbaycanda.
Neft daşları Xəzərdə möcüzədir.
Əlibayramlı, Mingəçevir təzədir.
Daşkəsən, Şamxor, HES eli bəzədi.
Torpağa zinət var Azərbaycanda.
Tərtərin, Ucarın pambığı dümağ
Zərdab, Ağcəbədi, Kür üstündə bağ.
Abad Goranboyda cah-cəlala bax
Yüksəliş, vüsət var Azərbaycanda.
Culfa, Şərur, şəndi-Naxçıvan abad,
Səni məftun edər Şahbuz, Ordubad.
Şöhrəti Badamlı, Sirab, Batabat
Abad səltənət var Azərbaycanda.
Bağ yoxdur yurdumda olan bağ kimi,
Dağ yoxdur yurdumda olan dağ kimi.
Qoynu Topxanalı Qarabağ kimi.
Gülzar vilayət var Azərbaycanda.
Vurul bu diyara, əsirgəmə can,
Vurğun kimi vurul, Kərəm kimi yan,
Dastana, şeirə, sözə sığmayan,
Böyük məhəbbət var Azərbaycanda.
Vətəndir şeirimə bəzək, yaraşıq,
Ömrümə səadət, gözümə işıq.
Təkcə mən deyiləm hüsnünə aşiq,
Yüzlərlə Binnət var Azərbaycanda.

22.26 may 1989

www.kitabxana.net

Zalım şahın aqibəti

(Nağıl-Məsnəvi: Çauşevskiyə həsr olunub)

Deyirlər bir böyük məmləkət varmış,
Məmləkətdə saysız şəhər, kənd varmış.
Bir qəddar edərmiş ölkədə şahlıq,
Allahlıq edərmiş bu şah-allahlıq.
Vəziri, vəkili, hakimi varmış,
Hər hökmü şah verib imzalayarmış.
Qanun verən özü, pozan özüymüş,
Qanun da, qayda da şahın sözüymüş.
Hələ sərkərdə də orduya şahmış,
Bu şah düzə qənim, bicə pənahmış.
Qoyduğu qanuna qoymazmış məhəl,
Ölkədə törərmiş gündə yüz əngəl.
Toqquşarmış gəmilər, qatarlar, təyyarələr,
Uran yüklü vaqonlar, neft daşıyan bərələr.
Ölkə dərəbəylikmiş, nələr olurmuş nələr?
onu bir Allah bilər!
Başdan-başa ölkəni bürüyübmüş fəlakət,
dağılırmış məmləkət.
Qətlə yetirilənin qanı batırmış,
Məmurlar ölkəni soyub, satırmış.
Vəzirlər qorxaqmış, vəkillər yaltaq,
Hakimlər oğruyla, quldurla-ortaq.
Şah yalan desə də, yoxmuş edən şəkk,
Şah dinəndə hamı susarmış laltək.
Tez-tez yad ellərə gedərmiş bu şah,
Yadların halından olarmış agah.
Qayda yaradarmış yad ölkələrdə,
Şahın öz ölkəsi düçarmış dərdə.
Qəbul eləyərmiş gündə bir şahı,
Şaha çatmayırmış xalqının ahı.

www.kitabxana.net
Dükanlar boş imiş, bazarlar kasad,
Yollar, kəndlər viran, şəhərlər bərbad.
Günbəgün artırmış qıtlıq, bahalıq
Nə ət tapılırmış, nə yağ, nə balıq.
Nə sabun, nə ülgüc, nə corab, nə sap,
Nə də satanlarda mərhəmət, insaf.
Rüşvətə uyubmuş ali hakimlər,
Polislər, məmurlar, hətta həkimlər.
Ərşə ucalarmış hər gün aman, ah,
Xalqa zülm etməkdən zövq alırmış şah.
Haqq tələb edəni bu şah asırmış,
Haqqa meyl edəni daşa basırmış.
El dərdi çəkəni eldən sürərmiş,
El dağıldığını eldən görərmiş.
Işləyən ac imiş, işləməyən tox,
Vəzifə başında rüşvət alan çox.
Hamı işsiz-gücsüz, hamı dilənçi,
Ayaqyalınlardan çoxmuş pinəçi.
Topla susdurmuş xalqın səsini,
Xalq da qurmuş şahın məhkəməsini.
Qəti olmuş xalqın verdiyi qərar:
Qətlə yetirilsin zalım zülmkar!
Həddindən çox idi şahın günahı,
Məzlumlar birləşib asmışlar şahı
Yerinə bir adil insan qoymuşlar
Ölkə abad olmuş, aclar doymuşlar.
Hansı eldə adil, rəhmlidir şah,
O elə xoşbəxtlik bəxş edib Allah.

22.02.1990

Cırdaxandanam

Yurdumdur, Yerimdir, asimanımdır.
Cırdaxanadı atam, Cırdaxandı anam.
Kəndim gözüm, qəlbim, ruhum, canımdır,
Mənə həyat verən Cırdaxandı anam.
Gördük əsrin qanlı, bəd, nəs ilini,
Sarı kafirlərin bəd nəslini.
Öymə, a Sabakov Bəd, nəsilini
Mən Qorqudlar yurdu Cırdaxandanam.
Həsrətindən qəlbim nanətək əsər,
Ona layiq ola yazdığım əsər.
Məndən qalmasın bir əlamət-əsər
Qoymasam layiqli Cırdaxanda nam.
Binnətin mahalda pak qala adı
Sinəmə üst-üstə çərx dərd qaladı
Əhvalım bacımı oda qaladı
Halıma ağladı Cırdaxanda anam.

01.06.1990

Yarandı

Mən bu tayda-«Təbriz», – dedim. Ağladım.
O tayda da Tovuzumu yar andı.
«Təbriz», – dedim. – «Tovuz»-dedi, ağladıq,
Göz yaşımız axdı, Araz yarandı.
Düşmən çəksin bu ləzzəti, bu dadı,
Xəzan əsdi, bağçamızı budadı.
Eşidən yox bu harayı, bu dadı,
Yar, şəfasız mənim, sənin yarandı.

www.kitabxana.net
Kimin dərdi, azarı var, ağlayar,
Həsrətinlə, az sızla, az ağla, yar.
Qovuşarıq, sil gözünü ağla, yar,
Nalə çəkmə, nalən ürək yarandı.
Binnət sənsiz ola bilməz bəxtiyar,
Yol axtaraq, qınamayaq bəxti, yar.
Hər aşiqə olmayıbdır bəxti yar,
Çox pozulub yar ilqarı, yar andı.

08.12.1988

A dağlar

Yağılara qalır yurdum, yaylağım
Haray, a dərələr, haray, a dağlar!
Hanı güvəndiyim, arxalandığım,
Varsa, niyə gəlmir haraya, dağlar?
Nə Ələsgər deyiləm, nə də mən Alı,
Nə xoş ömür sürdüm, nə də mənalı.
Fələk nə yaşadır, nə də məni alır,
Baş götürüb gedim haraya, dağlar?
Arxalanar el mərdinə, dağ dağa,
Binnət dözür, dözə bilməz dağ dağa.
Sinəm üstə söykənibdir dağ dağa,
Mənə dağ çəkirlər hər ay, a dağlar.

13.09.1984

Tərsinə

Pis pisə rast ola, yaman-yamana,
Tərs də urcah ola tərsin tərsinə.
Tərsin tikdiyi də tərsə yamana,

www.kitabxana.net
Bilinməyə avandı nə, tərsi nə!
Sözə baxsa, uzatmasa yar sözü,
İncimərəm, məni yarım yarsa, özü.
Dərmanımdır yar ülfəti, yar sözü,
Açıq yaxa, isti qucaq, tər sinə.
Nankorlara nə cücə kəs, nə dana,
Mərdlərə kəs, nə unuda, nə dana.
Ay Binnət, paxıla, bicə, nadana
Qadir Allah nəzər sala tərsinə!

17.11.1985

Yarıma sən də

Fələk, mən bu tayda, yarım o tayda,
Yad da zülm eləyir yarıma, sən də.
Yarım bu taydadır, yarım o tayda,
Kəsib əzab vermə yarıma sən də.
Qoymadın bir cığır, bircə yol, barı,
Qan ağla, saçını bircə yol, barı.
Səndən yarımadım bircə yol, barı.
Taxtın tarac olsun, yarıma sən də!
Qarabağ əsirsə, əsirəm mən də,
Binnətəm, nicat yox əsirə məndə.
Üryanam, nə verim, əsirəm mən də,
Soyuqda, sazaqda yarım əsəndə,

14.11.1985

Yar alar məni

Kədərin, möhnətin, qəmin əlindən,
Əhdə vəfalıdır yar, alar məni.
Düşmənin gülləsi kar etməz mənə,
Nankor dost tənəsi yaralar məni.
Düşmən odda yana başdan, ay ağa!
Qanan çəksə məni başdan ayağa,
Təpədən - dırnağa, başdan - ayağa

www.kitabxana.net
Bürüyər sağalmaz yaralar məni.

www.kitabxana.net
Sevirsə Binnəti yada yar salar,
Sevmirsə, meylini yada yar salar.
Ya yaram sağala, ya da yarsalar,
Dərd bilən loğmanlar yaralar məni.

11.12.1996

Nə də ana məni

Ya Rəb! Xain, xəbis-qeybət edən kəs,
Nə yadına sala, nə də ana məni!
Ya yoldaşsız elə, ya yolumu kəs,
Yoldaş eləyincə nadana məni.
Hər gün düşür üz başıma təzə dən,
Köhnə dərdim seçilməyir təzədən.
Bu günədək unutmayıb, təzədən
Nə bacı unudar, nə də ana məni.
Binnətə qardaşı, qardaş, dost ola,
Məclisində bacı, qardaş, dost ola.
Yad düşmən olsa da, qardaş dost ola,
Bir an nə unuda, nə dana məni.

11.09.1985

Yarada məni

Çox möcüzə olub, biri də ola,
Yaradan təzədən yarada məni!
Ya yarsız eləyə, ya yar eləyə,
Yar əhli, hal əhli yara da məni.
Gül əkmişdim, bilmədim yad dərdimi,
Nə dost bilə, nə də bir yad dərdimi.
Artırıbdır naşı bir yad dərdimi,
İstəyir həkimtək yara da məni.

www.kitabxana.net
Hədsiz ola məndə səbir, yarda naz!
Bəsdir, Binnət, giley elə yardan az!
Fələk mənə zülm eləyir, yar da naz,
Incidir, sağalmaz yara da məni.

26.08.1985

Qalmaya

(Aşıq Alıya Nəzirə)
(Qovlayarlı Kələoğlan həkimə)

Mərdi mərdə möhtac qala qalanda,
Namərdə, nakəsə, nəsə qalmaya.
Mərd arta, çoxala, tuta dünyanı,
Namərdin yurdunda nəsə qalmaya.
Pis qocanın varı qarıya qala,
Pis dostun dövləti qarıya qala.
Bədxah qız kor ola, qarıya qala,
Nə şikəst almaya, nə sağ almaya.
Binnət, pisdir hörmət etsə pisə kim,
Pis həkimə cəza verə pis hakim,
Pis hakimi yara-tökə pis həkim,
Nə dərdi bilinə, nə sağalmaya.

28.08.1985

Yaxana

Tək mən vurulmadım, çoxu vuruldu,
Məni eşqə salıb, oda yaxana.
Deyirdilər:-Uyub şana- söhrətə
O, ya şaha gedəcəkdir, ya xana.
Dedim:-Gözəl olmaz sənintək Çində,
Hüsnünə baş əyər şöhrət də, çin də.
Sən gəzəndə bağ – bağçanın içində,

www.kitabxana.net
Gülüm,bülbül olam, qonam yaxana.
Vaxt keçir, ömürün yarıdı, Binnət,
Xoşbəxtdir, yarından yarıdı Binnət.
Sevdiyi dilbərin yarıdı Binnət,
Sevin, əllərinə xına yax, ana!

13.06.1986

Sözünə

Şah zülmkar olsa, el dərəbəylik,
Şirin gülüş aha dönər, söz-ünə.
Bir obaya bəylik edən gədənin,
Fərmanı nə, əməli nə, sözü nə?
Təcnisə-təcnislə cavab yaz asan,
Ləngidib cavabı qoyma yaza, sən.
Haqqını danalar, kimə yazasan,
Hara getsən, baxmayalar sözünə!
Qana dönər haqqı yeyib- ötürsən,
Binnəti görəndə nöş yan ötürsən?
Mızıldanıb dodaqaltı ötürsən,
Açıq desən, nədir dərdin, sözün, ə?

13.06.1986

Bu dərdə məni

Hicran xəstəsiyəm, rəhm elə, afət!
Salıb ayrılığın bu dərdə məni.
İçib qəm camını, olmuşam sərməst,
Sərxoşam, eyləyib bu dərd dəm məni.
Bağ saldım, gül əkdim, özgələr dərdi,
Özgəyə özgədir özgələr dərdi.
Görəndə unutdu özgələr dərdi,

www.kitabxana.net
Dərdin qucağımda bu dərd əməni.

www.kitabxana.net
Gəl, camalı günəş, hüsnü ay yarım,
Sənsiz hər saniyəm oldu ay yarım.
Binnət həsrətinə dözməz, ay yarım!
Rəhm elə, tez qurtar bu dərddən məni.

27.03.2001

Qardaş dağı

Allah! Heç kimə göstərmə
Övlad, bacı, qardaş dağı!
Insanı yandırar yaxar
Övlad, bacı, qardaş dağı.
Abad bir məkanım ola,
Gövhər dolu kanım ola.
«Yar»-desən, imkanım ola,
Çapam, yaram, qardaş, dağı.
Kim istəyər ata sına?
Soruş, öyrən, ata, sına!
Anasına, atasına
Çəkməz bacı, qardaş dağı.
Var Qaradağ, Qarabələn,
Yar yolunda qara bələn!
Bürünsə də qara bələn,
Kərəm kimi qarda aş dağı.
Dost dad çəksə, dada gəlləm,
Köməyə, imdada gəlləm.
Binnətəm, qarda da gəlləm.
Bürüsə də qar daş, dağı.

26.09.2011

www.kitabxana.net

Oxuyan keçər

Bağçada, məktəbdə yaxşı dərsləri,
Beş il institutda oxuyan keçər.
Qorxmaz imtahandan, sinifdən-sinfə,
Dərslərini yaxşı oxuyan keçər.
Maşın var ki, bərabərdir min ata,
Bir ananı əvəz etməz min ata...
Naşı səyyad ova oxu min ata,
Düz nişan almasa, oxu yan keçər.
Qulluq elə üstə-başa bəzən də,
Binnət salır keyi başa, bəzən də.
Nadan məclisində başa bəzən də,
Məktəbdə iki il oxuyan keçər.

14.12.1986

Bir də anam

Həmişə hörmətlə eli anmışam,
Imkan ola son nəfəsdə bir də anam.
Elə fəda olum, qurban kəsməyə,
Nə bir qoçum yoxdur, nə də bir danam.
Şəhid oldu tayım-tuşum, həmdəmim,
Yas saxladı qırx gün dayım, həm də əmim.
Öldü atam, İmran dayım, Həmid əmim,
Ağlar bir axşamam, yaslı bir danam.
Yaralıyam, qanım kəsməz ha sarı,
Uçubdur ömrümün tağı, hasarı.
Sızıldayar bacım kimi hası arı,
Ağı deyər qızım, yarım, bir də anam?
Murğu ruhum möhtac oldu bir dənə,
Mələk mənə bəxt gətirə bir dənə.
Soruşsa ki, istəyirsən birdə nə?
Binnət, istə bir abad, el, bir də nam .

www.kitabxana.net

09.10.1978

T Ə M S İ L L Ə R

Ayı Tülkü və Şir
(*Təmsil nağıl)*

Ayıya babasından qalmışdı taxt, tac, şahlıq.
Ayıya bac verirdi göydə quş, suda balıq.
Ayı öz meşəsində həm şah idi, həm vəzir,
Qulluğunda durmuşdu Çaqqal, Tülkü müntəzir...
Aləm bilir Tülkünün çoxdur fəndi – kələyi,
Istəsə tora salar Tülkü göydə fələyi.
Tülkünün balasını itlər boğmuşdu gecə.
Tülkü dedi: "Balamı Şir boğubdur gizlicə".
Ağladı, sızıldadı, hamı halına yandı,
Tülkünün yalanına key Ayı da inandı.
Meşədə olmasa da o gecə zavallı Şir,
Şərə, böhtana düşdü başı qeyli – qallı Şir.
Ayı fərman verdi ki, Şir qəfəsə salınsın,
Hamıya ibrət olsun, Şirdən qisas alınsın.
Şirin payından kəsib, Tülküyə yedirilsin!
Şirin mülkündən kəsib Tülküyə pay verilsin!
Çaqqala tapşırılsın Şirin yurdu – yuvası!
Şir əliylə ölməsin bir də Tülkü balası!
Çaqqal qayda yaratsın Şirin oymaqlarında,
Tülkülər ov ovlasın şirin ovlaqlarında.
"Bədbəxt", "yazıq" Tülkülər olsun Çaqqalla əlbir,
Şirin balalarını güdaza versin bir – bir.
Şir dinləyib Ayını, parçaladı qəfəsi,
Çölləri, meşələri lərzəyə saldı səsi.
Ayının yaxasından yapışaraq bağırdı:
"Bəsdir əl çək yaxamdan, zülmün dağdan ağırdı.
Lənət o babaya ki, məni sənə məcburi
qardaş etdi dünyada!

www.kitabxana.net

Lənət o nəhs günə ki, bir Tülkünü də bizə
yoldaş etdi dünyada!
Bizi sənə tapşırıb, baban getdi dünyadan.
Özünü böyük saydın, biz sənə böyük dedik.
Nə tapsaq sənə verdik, nə verdin onu yedik
Bizi yarıac qoydun özünə çox götürdün,
verdik, dinə bilmədik.
Verdikcə aldın, yedin, dostlarına da ötürdün,
gördük, dinə bilmədik
Indi payımdan kəsib Tülküyə yedirirsən
Əllərimi bağlayıb Tülküyə "vur",- deyirsən.
Günahsız balalarmı öldürdürsən quduza
Qardaşlığı unudub, məni vermə güdaza.
Ya bizə böyüklük et, biz səni böyük sanaq
Ya əl çək yaxamızdan biz də rahat dolanaq".

Ayı - Qarbaçov , Çaqqal – Volski, Tülkü – Erməni

12. 02.1990.

Tülkü

Tülkünü toyuq hinnə,
Müdir göndərib ayı.
Çoxalmayır, azalır
Toyuq-cücənin sayı.
Tülkü çox tədbirlidir,
Fəsadlı,məkirlidir.
Müfəttişi,müxbiri,
Sovqatla yola salır.
Onun hörməti artır,
Toyuq-cücə azalır.
Çaqqalla əlbir olub,
Həm yedirir,həm yeyir.
Yediyni, verdiyini,
Porsuq daşıyıb,-deyir.
Yazıq porsuğun adı,
Yazılır saxta akta.
Ayı bir tədbir görmür
Tamahkar tülkü haqda.
Binnət, belə demishlər:
-Qaydaya düşməz işlər
Neçə ki, tülküləri
Müdir qoyan Ayı var,
Neçə ki, ayıların
Tülkü kimi tayı var,

www.kitabxana.net
Neçə ki, tülkülərin Ayılara payı var.

07.08.1964

www.kitabxana.net

Haram yeməyən tülkü

Toyuq-cücə yemərəm,
Dedi:-Tülkü sərsəri.
Toyuq-cücə sevindi,
Eşidib bu xəbəri.

Toyuqlar bic tülkünün,
Sözünə inandılar,
Bu sevinc çox sürmədi,
Yana-yana qaldılar.

Çünki, əl çəkməmişdi
Tülkü tülkülüyündən,
Cücə oğurlayırdı,
Yenə toyuq hinindən.

Tülkülüyə uyubdu

Öz oğlunun adını
Tülkü pələng qoyubdur,
Oğlu da atasının
Görüb əməllərini,
Tülkülüyə uyubdur.

Sən ey oğlunu pələng,
Görmək istəyən,bil ki,
Pələngdən pələng törər,
Bic tülküdənsə tülkü.

Hər kəs adına görə
Olsa, daha nə vardı?
Pələng adlı tülkülər
Hamısı pələng olardı.

24.07.1964

Məclisdə iki sərxoş

Qartalın ad günündə
Quşlar məclis qurmuşdu.
Yaltaq zağar, qarğalar
Lap yaxın oturmuşdu.
Oğru qarğa bir az gec,
Bir az sərxoş gəlmişdi.

Qartalın sağlığına
Burda da xeyli içdi,
Sonra özütək sərxoş
Bir bayquşla dalaşdı.
Bayquş elə vurdu ki,
Qarğa mayallaq aşdı,

Dava salıb hamının,
Qanını qaraltdılar,
Sürüyüb sərxoşları,
Evdən çölə atdılar.

www.kitabxana.net

15.03.1967

Paxıllıq

Hamıya xoş gəlsə də
Bülbülün nəğmələri,
Qarğanın kefi kökdür,
Bülbül susandan bəri.

12.11.1965

Rüşvət

Pişik rüşvət daşıdı,
Şahənşah şirə hər gün.
Fərsiz oğlunu şirə
Vəzir düzəltmək üçün.

03.05.1964

Boşla dolu

Yanaşı qoydular boşla dolunu,
Boş özündən çıxdı, azdı yolunu.
Dolunu sevmədi, acığı tutdu,
Boş-boş olduğunu tamam unutdu.

21.04.1964

Baltanın sapı

Meşəni qırır balta,
Unudubdur insafı.
Günahkar sayılır bəs,
Niyə baltanın sapı?

11.12.1965

Çıraq

Çırağa dedilər ki
Işıq salsan dibinə,
Çıraq dedi: “Qoy dibim
Bir şey qoysun cibimə”.

18.07.1964

www.kitabxana.net

www.kitabxana.net

Bülbül və qarğalar

Quşların məclisində
Bülbül nəğmə deyirdi,
Beş-altı qara qarğa
Ağız-ağıza verdi.

Elə qarıldadılar
Bu xəbislər, dargözlər,
Qulaqlara çatmadı
Bülbül oxuyan sözlər.

Bu qar-qurdan usanıb,
Qonaqlar dağıldılar.
Məclisdə acgödənlər
Və qarğalar qaldılar.

Binnət, nə məclisinə
Çağırma qarğaları.
Nə də getmə qarğalar
Olan məclisə sarı.

28.05.1965

Bülbüldən şikayət

Bir dəfə qoşulub Qarğa Bayquşa,
Qartalın yanına getdilər qoşa.
Bülbüldən şikayət, qeybət etdilər.
Qartala bədxahlar belə dedilər:
-O, nə bizim kimi ət yeyə bilir;
Nə ulamaq bilir, nə qarıldamaq,
Nə də bircə saat yatıb dincəlir,
Elə gecə-gündüz oxuyur ancaq.
Hamı onu sevir, sevmirlər bizi,
Nə bizi sevirlər, nə nəğməmizi.
Şikayətçiləri Qartal dinlədi,
Sonra bədxahlara qəzəblə dedi:
-Ulartı, qarıltı deyil oxumaq,
Nəğmə oxuyammaz Qarğa, Yapalaq.
Nahaqdır Bülbülə sizin bəhsiniz,
Bəddir nəfəsiniz, pisdir səsiniz.
Nəğməni Bülbüllər oxuya bilər.
Yaxşı olar sussa sizin kimilər.

www.kitabxana.net

21.09.1965

Ayı ilə Tülkünün dostluğu

Çoxdan dostluq edirlər
Bic Tülkü, qəddar Ayı.
Birgə ov eləyirlər,
Ovu birgə yeyirlər,
Həmişə də Tülkünün
Sür-sümük olur payı.
Birgə tədbir tökürlər,
Birlikdə tor qururlar.
Istəmədiklərini
Onlar ya tora salır,
Ya da vurub-yıxırlar,
Sinəsinə çökürlər,
Cəmdəyini sökürlər...

Ayıya yaltaqlanıb,
Arxalanıb, qudurub,
Tülkü dönüb şir olub.
Görmüşəm, əlbir olub,
Onlar cumdu Aslana,
Boyadılar al qana...

-xxx-

Ayının pəncəsindən,
Tülkünün hiyləsindən,
Binnət, özünü gözlə,
Uzaq ol namərdlərin
Torundan, tələsindən,
Yaxanı vermə ələ.

30.01.1990

Eşşək

Bir ulaq on beş il kitab daşıdı,
Bir şey öyrənmədi keydi, naşıdı.
O məktəbə gəldi-getdi havayı,
Hamı elm öyrəndi ondan savayı.
Hələ attestat da aldı o nadan,
Seçə bilməsə də ağı qaradan.
Sonra pulla girdi ali məktəbə.
Pulla, tanışlıqla oldu tələbə,
Pulla qiymət aldı müəllimlərdən.
(Heyf pulla qiymət yazırlar hərdən)
Bir sözlə, on beş il məktəbə getdi.
Nə bir şey anladı, nə də dərk etdi.
Hardasa eşidib bunu qulağım:
«Dərs oxumaq deyil işi ulağın,

www.kitabxana.net

Məktəbə odun, su daşıyan eşşək
Nə yazı, nə oxu öyrənər bişək,
O bilər hardadır örüş, samanlıq
Nə yaxşılıq bilər, nə də yamanlıq».

08.09.1968

Sarmaşıq

Bağda nar ağacına
Sarmaşaraq sarmaşıq,
Dedi: «Sənin hüsnünə
mənəm bəzək, yaraşıq.
Ətirli çiçəklərim
qamətini bəzəyir.
Sənə bağa,bağbana
mənim çox xeyrim dəyir»
Nar ağacı söylədi:
-Rədd ol, açıl başımdan!
Səndən zərrəcə xeyir
görməmişəm yaşımdan.
Bağda bütün ağaclar
gileylidir əlindən,
A müftəxor, bağ, bağban
nə xeyir görüb səndən?
Hələ öyün, lovğalan,
görəcəyəm o günü.
Bir gün xeyirxah bağban
kəsəcəkdir kökünü».
Bu vaxt əlində qayçı
Bağban gəzirdi bağı,
Sığallayıb ağacı,
Məhv etdi sarmaşığı.

04.06.1966

Qarğanın sovqatı, dili

Düşdü arana, dağa
Nə düşdüsə əlinə,
Quzğunun mənzilinə
Daşıdı oğru qarğa.
Hər gələndə oğlunu
Quzğuna tərifədi,
Dedi: «Mənim oğlumun
Yanında bülbül nədi»?.
Qarğanın sovqatları,
Böhtan söyləyən dili,
Quzğunun nəzərindən

www.kitabxana.net
Saldı yazıq bülbülü.

12.10.1967

www.kitabxana.net

Bağımız barsız qaldı

Divlər hər gecə yarı
Yetişmiş almaları,
heyvaları, narları
dərib, Bastilyalarda
bandam edib, asdılar.
Doğrayıb xiyarları,
yetkin pomidorları,
cavan badımcanları
daşlardan düzəldilmiş
çəlləklərə basdılar.
Dirriyimiz talandı,
şaxımız barsız qaldı.
Taladılar bağları,
Tapdadılar şaxları,
Yoxladılar tağları,
yetişmiş yemişləri,
qarpızları kəsdilər.
Bostanımız uralandı-
Tağımız barsız qaldı.
Günahsız asılanlar,
çəlləyə basılanlar,
Doğranıb kəsilənlər,
Iblisdən kömək umub,
Haqq-ədalət gəzdilər.
Göydən od-alov yağdı,
Dağımız qarsız qaldı.
Zavallılar dinəntək,
Divlər zopa-dəyənək,
Daşdan yonulmuş çəllək,
Sabunlu kəndir kötük,
çapacaq göstərdilər
Görmək istəməyəni
tapdalayıb əzdilər.
Öləni əcəl aldı,
Sağımız baxarsız qaldı

30.01.1990.

Qudaların yarışı

Aslan toy edirdi böyük oğluna,
Pələngin qızını alırdı ona.
Beş min dəvətnamə sifariş etdi,
Beş min tanışa da teleqram getdi.
Pələng öz qızına toy eləyərdi,
Istəyirdi toya çox adam gələ.
Bütün qohum, qonşu dinclik bilmədi,
Bir ay dəvətnamə paylandı elə.

13.07.1996

www.kitabxana.net

Ayı, Tülkü və qurd

Ayı vəzir götürdü
Özünə bir tülkünü.
Tülkü hini taladı
Bəzədi öz mülkünü.
Tülkü tez-tez ayıya
Gah hinduşqa,gah toyuq,
Gah da qaz göndərirdi.
Özünə çox, saxlayır
Ayıya az göndərirdi.
Ayı bunu duymadı
Ya da məhəl qoymadı.
Tülkü yedi, qudurdu
Bir gün kabinetinə
Çağırdı tülkü qurdu.
Dedi:-gəl əlbir olaq,
Ayını taxtdan salaq.
Hədlərini aşdılar
Gizli razılaşdılar,
Axmaq ayını o an
Onlar saldılar taxtdan.
Sonra bu iki ac göz
Hində nə var yedilər,
Hini alt-üst etdilər
Çıxıb çölə getdilər.
Binnət,az yan,az oddan
Heç vaxt çıxartma yaddan:
Bic tülküdən, ac qurddan,
Bir də axmaq ayıdan
Vəzir olmaz, şah olmaz.
Axmağa, acgödənə,
Öz xeyrini güdənə
El dərdi agah olmaz.

29.03.1982

Bayquş, quzğun və qarğa

Göy talada bir dəfə,
Quşlar məclis qurmuşdu,
Başda Hacıleyləklər,
Qartallar oturmuşdu.
Bülbüllər oxuyurdu
Könül açan avazla
Kəkliklər, göyərçinlər
Səkirdilər min nazla.
Məddah bir tutuquşu,
Şeirlə tost deyirdi.
Acgödən Alabaxta
Gələndən asta-asta
Yüz-yüz içib, yeyirdi.
Növbəylə kim istəsə
Oynayır, danışırdı.
Könüllər-şad, keflər çağ
Məclis aşıb daşırdı.
Məclis şən keçdi Bayquş
Sərxoş olana kimi.
Quzğunla oğru qarğa
Dava salana kimi.
Binnətəm, çal-çağırla,
Üç gün davam edərdi.
Bu məclis-bu tamaşa
Bayquş sərxoş olmasa,
Qarğa qarıldamasa,

www.kitabxana.net
Quzğun dava salmasa.

12.03.1992

Bülbül Qarğa və Quzğun

Bir xorda oxuyurdu
Bülbüllə qara Qarğa,
Qarğanı dinləyənlər
Onu qoyurdu lağa.
Quzğun xorun-rəhbəri
Bülbül solisti idi.
Qarğa xor rəhbərinin
Ən yaxın dostu idi.
Qarğa bir gün Quzğuna
Bülbüldən gileyləndi;
Doyunca qeybət etdi.
Yerli yersiz söyləndi:
-Nə qarıldamaq gəlir
Əlindən, nə oğurluq,
Mahnıyla qarın doymaz,
Rədd et xordan biryolluq.
Yerinə sağsağanı,
Ya da bir çalağanı
Qoy, biri solist olsun,
O, birisə dirijor
Öz zövqümüzə uyğun
Yaradaq əla bir xor...
Quzğun-bülbülü qovdu,
Qarğa əhdinə çatdı.
Qarğayla axmaq quzğun
Qarr-qurr edən quşlardan
Qarr-qurr xoru yaratdı.
Binnət, bülbülü sevməz
Istedadsız qarğalar,
O xordan da xor olmaz
Hansında kı, qarğa var.

12.06.1991

Bülbül unudulmuşdu

Toya kefli gəlmişdi
Beş-altı yumurtanı
Içərək oğru qarğa,
Bugünkü qazancından
Hədiyyə gətirmişdi.
Gəlinə qızıl sırğa.
Yaltaq quşlar qarğanı
Nəzakətlə, izzətlə,
Şaha layiq hörmətlə
Düz başa keçirtdillər.
Yeyib-içəndir deyib,
Bir az da içirtdilər.
Qarğa sağlıq da dedi.
Özünü darta-darta,
Ağzını əyə-əyə.
Ona əl də çaldılar,
Qarğa şad olsun deyə.
Bir dəstə gül gətirən
Bülbül unudulmuşdu,
Məclisin ayağından

www.kitabxana.net

Öz yuvasına uçdu.

20.12.1974

Tülkü və Qaz

Köpək gözətçi idi
Neçə ildi bir hinə.
Tülkülər əlbir olub,
Qoymadılar heç dinə,
Köpəyi tez boğdular,
Dərisini soydular,
Dərini bir hiyləgər
Tülküyə geydirdilər
Hinə bəkçi qoydular...
Yavaş-yavaş hindəki
Toyuq, cücə azaldı.
Hində üç-dörd hinduşka,
Üç-dörd dənə qaz qaldı,
Bir kərə ağız açıb,
Dedi hinduşkaya qaz:
-Tülkü hinə dadansa
Toyuq-cücə çoxalmaz
Eşidib bu sözləri.
Tülkü ox kimi sözdü
Hinduşkayla danışan
Qazın başını üzdü.

29.06.1996

Tülkü və Qurd

Müdirsiz qalmışdı toyuq ferması,
Yenə də artırdı toyuğu, qazı.
Fərənin, beçənin sayı yox idi,
Toyuqdan hinduşka, ördək çox idi.
Tülkünü fermaya qurd müdir qoydu.
(Bu nə haqsızlıqdır? Ay Allah, hoydu)
Günbəgün azaldı toyuq, ördək, qaz
Tülkü müdir olsa, toyuq çoxalmaz
Belə haqsızlığı çox görüb gözüm,
Atalar sözüdür mənim bu sözüm
- Qurddan çoban olmaz, tülküdən köpək,
Onlara inansan varından əl çək.

04.08.1976

www.kitabxana.net

Kitabın içindəkilər

Binnət Eloğlunun şeir dünyası 3
Müəllifdən 8

Bu elin bu millətin dərdini kim çəkəcək

Qurban olum 9
Xalqıma dağ çəkilibdir. 10
Bir də (Ağdamın) 10
Xocalıdadır 12
Beş ildi 14
Vətən deyə-deyə yandım 15
Ürəyim Arazın qırağındadır 16
Görməyin korlar 17
Ay vətən (eşitmirlər daşı yarır) 17
Bax (90-cı il yanvar) 18
Kim çəkəcək? 19
Şəhidlər 20
Azərbaycan (Krasnovodskda) 21
Qarabağdadır 24
Yazıram elin dərdini 25
Dərdimiz bir deyil ki 26
Bu xalqın 27
Nicat ver, Allahımız 29
Çadır şəhərində 29
Qarabağ getdi bada 30
Duraq elin keşiyində 31
On iki ildir 32
Tovuza gəl 33
Şəhidlər xiyabanında 35
Bakı 36

www.kitabxana.net
Şəhidlərə mərsiyə 36
Şəhid anasıyam 38
Əlim də getdi 39
Azərbaycan ordusu 39
Kosmonavt 41
Budur 42
Yoxdur (köçkünün dilindən) 44
Yeddi gündür 45
Gedir (Şəhidlər xiyabanı) 45
Lazımdır Azərbaycana 46
Yaraşmaz bizə 48
El dərdi 49
Ana dili 49
Balakən – Bakı yolunda 50
Yazaq zəfər marşını 51

Nəzirələr, şeirləşmələr, parodiyalar

Gülüm, sənin xatirinə 54
Lələ 55
Göydən zülm yağır hələ 56
Dolanırıq 56
Nə deyəsən? 57
Yoxdur (M.P.Vaqifə) 57
Gəldi 58
Yatıbdır 59
Dağlar (A.Ələsgərə nəzirə) 61
Küsməyə dəyməz (M.Araza) 62
Bu xalq yaşamağı bacarır hələ 63
Azərbaycana gəlsin 64
Yazımmı? 66
Məmləkətim, millətim 67
Içində (H.Arifə) 68
Sənsiz, gülüm 70

www.kitabxana.net
Bu qan yerdə qalır hələ 70
Deyəmmərəm (Səlimə cavab) 71
Şübhələnmişəm (Səlimə cavab) 72
Beş (Səlim) 73
Beş (Binnət) 73
Var (Səlim) 74
Var – Voleybol meydanı (Binnət) 74
Hər yaşıl ağacın altı sizindir 75
Məmləkətim, millətim. II cavab 76
Başına dolandığım (Binnət) 78
Başına dolandığım (Şabaz) 78

İthaflar

Millət vəkillərinə 79
A Türk dünyasına töhfəsi elin 80
Canın sağ ola 81
Məni gəzmə yoxam 81
Gətir (Arifin toyunda) 82
Bir də (bacım Şöhrətə) 83
Qızım (Vəfaya) 83
Osman müəllim 84
Qışımız çox sərt gəldi 86
A qardaş 87
Nizami Gəncəvi 87
Bəkir müəllim 88
Əlli il də yaşa sən 90
Aşıq Xanlara 91
Xala 92
A qızım (Nuranəyə) 92
Ay ana, bağışla məni 93
Gətir, bacı (Səadətə) 94
Atlılar qoydun piyada 94
Şair (H.Arifə) 95

www.kitabxana.net
Qadası (qaynım Firdovsiyə) 96
Qalmaya (Yolçuya) 97
Eloğlu (İlyas İsmayılova) 98
Payımsan bacı (Qızdarxana) 99
Ana (Şama pərvanətək) 99
Amin (nəvəm Aminə) 100
Hüquqşunas qardaş 101
Güvəncimiz, fəxrimiz 102
Müəllimlərə 103
Qızlarım 104
Biləsən? 105

Müxtəlif mövzu və janrlarda yazılmış şeirlər

Bunlara (müxəmməs) 106
Gözlə, gözlə sən 108
Olsun 108
Olmaya 109
Oğul 110
Qalmayıb 110
Ölümmü, qalımmı? 112
Öldürün məni! 113
Öləsən səni 114
Xoş gəlibsiniz 116
Qıfılbənd 116
Söyüd 117
Bazara həvəsləndirmə 118
Zəfər çalsın ədalət 119

Satiralar və həcvlər

Hələ (iblisi bəh – bəhlə) 121
Kişilənir 121
Xeyri yoxdur 122

www.kitabxana.net
Sənə nə? 123
Dözürük hələ 124
Qeybətkeşə 125
Nankor 126
M.S.Qorbaçova 126
Ay haram olsun sənə 127
Çadır düzündə 128
Qoymayın 129
Bizə nə? 130
Qardaş (xallı dazbaş) 131
Yazmayaq 133
Yoxdur 134
Oxumuram, əl çəkin 135
Millət, hələ yat 136
Gülə-gülə 138
Dönmüşük koşəyə, qardaş 138
Nə oyan, nə cəngə bax 139
Gədəsən 140
Vəzifədə olanda... çıxanda 140
Olmur olmasın 141
Yaltaqlığa hazırıq 142
Köpək oğlusan 143
Bu bərabərlidirimi? 144
Yaşayırıq 145
Canavar çobanlıq edir 145
Var 146
Köpək oğlu (qudubsan yolunu) 147
Düz danışanı söyürük 147

Gəraylılar

Məni (hər əzaba dözümlüyəm...) 149
Araz göz yaşımdır 149
Qarışdı 150

www.kitabxana.net
Vətən (Əli qoynunda qalmısan...) 150
Arazda batasıyam 151
Buyur ağa kimi 152
Sən o tayda, mən bu tayda 152
Öldürrəm deyir 153
Biləsən 154
Düşə (Şəfa verən, şəfa tapa) 154
Ölə bilmirəm 155
El dərdi çəkək 156
Bülbül 156
Qocalmazmı? 157
Yoxdur (ayaq üstə can...) 158
Çərx mənimlə məzələnir 158
Olur mənim (Şuşa işğal...) 159
Haqq-ədalət gəzə-gəzə 159
Bilmirəm (aranda gün döyür) 160
Ölmüşəmmi? 160
Suyun axmır, otun bitmir 161
Qaya idim 162
Gün küsüb gündüzümdən 162
Bəs deyilmi? 163
Dövran çoxunu üyüdüb 163
Yanağımda sel oynadı 164
Dünyada (nə bir adil hakim...) 164
Hakimlər haqq danmaya 165
Mənim ürəyimdə 166
Olub, olur, olacaqdır 167

Qoşmalar

Nəsibim 168
Ay pəri, Sənsiz 168
Bəsdir, bir az da 169
Yalvarır 170

www.kitabxana.net
Dünyanın 171
Bu qəmxanada 171
De (çatdır harayımı) 172
Eşitmədi səsimi 173
Unudulmuşam 174
Olsun (sevinc tərk etməsin) 175
Çoxdan (loğmanlar tapmadı...) 176
Az qalıb havalanam mən 177
Mənim 178
Olsa 178
Məhəbbət 179
Küçəyə çıxıbsan 180
Qınadı camaat məni 181
Düşübdür (açıb, deyəmmədim) 182
Mən (nə qəlbi qarayam...) 182
Düşər (ey gül, möcüzədir) 183
Vətən yasdan çıxsın 184
Sevəcəyəm mən 185
Sevirəm, sevəcəm səni 185
Analar 186
Ağ atlı oğlan 186
Necə əl çəkim? 187
Dillərə düşə 188
Görünmür (elin dərdləri çox...) 188
Nə mən, nə sən 189
Fələk (arvad hesabına...) 189
Ahımdır mənim 190
Dönəm mən 191
Şuşayam 192
Bizimdir (şəhidlər üstündə..) 193
Tovuz (zəvvaram, kəbəmsən..) 195
Sənin xətrinə (inan hara getsən...) 196
Xilaskar olsa 197
Xoş gəlibsiniz 197

www.kitabxana.net
Üşüyürəm gəl 198
Eləyibdir (fələk bəzən qulu...) 199
Ceyran çölü 199
Eşqimin (yarın dərgahına...) 200
Düşsün (izin ver vəsf edim) 201
Köləyəm evimdə 201
Sənsiz könlümün 202
Hələ (öyün, o bəxtəvər...) 203
Pişvazına çıxım gəl 204
Qəçrəşdə 204
Gəzirəm (Təşnəyəm, buz kimi...) 205
Eləyir (füsünkar camalın....) 206
Gülüm (elə etmə səndən küsüm) 207
Inanımmı, inanmayımmı? 208
Yoxdur (günbəgün çoxalan...) 208
Getdi (hatəmlər əl tutdu...) 209
Vaxtıdır (yaz gəlir) 210
Hardasan? 210
Sözüm dustaq olub sözümün altda... 211
Çöllər, başınıza dolanım sizin. 212
Vətən (sən mənim anamsan) 213
Sənin ayrılığın 213
Sadağa versən 214
Dağların (Təpələr çəkəmməz..) 214
Bicə, gicə inandım 215
Ay baba (yaz gəlir...) 216
Bu axşam 217
Yaranıbdır (gül, sənə heyrandır) 218
Nə yaxşı çəkib 218
De daha (saça qar düşübdür) 219
El dərdi, həsrəti 220
Sən varsan, ölməyəcəyəm 221
Üstə (güləndam, xaliqin zövqünə...) 221
Səndən ayrı (gecem aya dönür) 222

www.kitabxana.net
Sonra ayrıl 223
Gəncə 223
Tovuzda (yurdumdur, yerimdir...) 224
Tovuzda (gözümün nurudur..) 225
Fikrim, xəyalım 225
Üstə (sənə bircə kəlmə...) 226
...Bir gözəllə 227
Tovuz (yaradan nə gözəl) 227
Hələ var (qocalıqdan gileylənmə...) 228
Vətəndaş olaq 229
Dərdə bax, dərdə 229
Dünya (zülmünü səpməyə...) 231
Dünyanın (yaxşı günü şadlıq...) 231
Rübailər 232
Vətən bayatıları 251

Poemalar

Belədir halımız, ay baba, indi 257
Müqəddəsim 266
Həsrət 272
“Həsrət” poemasına şərhlər və izahatlar 301
Qarabağın qanlı, qəmli, şanlı günləri 314
Şəhidlərimiz, igidlərimiz 323
Qoymadılar bilək tariximizi 338
Azərbaycanın 356
Səyyah, gör nələr var Azərbaycanda 359
Zalım şahın aqibəti 364

Təcnislər

Cırdaxandanam 366
Yarandı 366
A dağlar 367

www.kitabxana.net
Tərsinə.....367
Yarıma sən de.....368
Yar alar məni.....368
Nə də ana məni.....369
Yarada məni.....369
Qalmaya.....370
Yaxana.....370
Sözünə.....371
Bu dərdə məni.....371
Qardaş dağı.....372
Oxuyan keçər.....373
Bir də anam.....373

Təmsillər

Ayı Tülkü və Şir.....374
Tülkü.....375
Haram yeməyən Tülkü.....376
Tülkülüyə uyubdu.....376
Məclisdə iki sərxoş.....376
Paxıllıq.....377
Rüşvət.....377
Boşla dolu.....377
Baltanın sapı.....377
Çıraq.....377
Bülbül və Qarğalar.....378
Bülbüldən şikayət.....378
Ayı ilə Tülkünün dostluğu.....379
Eşşək.....379
Sarmaşıq.....380
Qarğanın sovqatı,dili.....380
Bağımız barsız qaldı.....381
Qudaların yarışı.....381
Ayı, Tülkü və Qurd.....382

www.kitabxana.net
Bayquş Quzğun və Qarğa 382
Bülbül, Qarğa və Quzğun..... 383
Bülbül unudulmuşdu. 383
Tülkü və Qaz 384
Tülkü və Qurd 384

www.kitabxana.net

BİNNƏT ELOĞLU

ELİN DƏRDİ, HƏSRƏTİ

(şeirlər və poemalar)

www.kitabxana.net

Korrektor:

Vəfa Binnət qızı Hüseynova

«Elm və təhsil nəşriyyatının direktoru:
Professor Nadir MƏMMƏDLİ

Dizayn: ***Zahid Məmmədov***
Texniki redaktor: ***Günay Məmmədova***

Çapa imzalanmış **20.08.2014**
Şərti çap vərəqi **24,7.** Sifariş **№ 108**
Kağız formatı **60x84 1/16.** Tiraj **200**

Kitab **«Elm və təhsil»** nəşriyyat-poliqrafiya
Müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.
E-mail: ***nurlan1959@gmail.com***

Тел: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.